# AZƏRBAYCAN UŞAQ FOLKLORU

**Bakı – 2011**
**“Ağrıdağ” nəşriyyatı**

**Toplayanı, tərtib edəni və ön sözün müəllifi**
***Ramazan Qafarlı***
*Filologiya üzrə elmlər doktoru, professor*

**Azərbaycan-uşaq folklore (mətn). Toplayanı, tərtib edəni və ön sözün müəllifi Ramazan Qafarlı. Bakı, "Ağrıdağ", 2011, 469 səh.** Şifahi xalq ədəbiyyatının mühüm qollarından birini təşkil edən uşaq folkloru minlərlə dinləyicisini, oxucusunu uşaq aləminə səyahətə aparır, mahir bələdçi kimi onlara körpələrin istəklərini, arzularını, oyunlarını, əyləncələrini, məşğuliyyətlərini, psixologiyasını göstərir. Ən ümdəsi isə Azərbaycan türklərinin milli xüsusiyyətlərini, mənəvi dünyasını, adət-ənənələrini canlandıra bilir və keçmişinin qaranlıq səhifələrinə aydınlıq gətirir. Kitabda Azərbaycan türklərinin uşaq folkloru ilk dəfə sistemli şəkildə toplanaraq oxuculara təqdim olunur.

**12000000600**
**Q ——————— Qrifli nəşr**
**Ağrıdağ-356-2017**

**© Ağrıdağ, 2011**

# AZƏRBAYCAN UŞAQ FOLKLORU

**Uşaq folkloru** dedikdə, hər şeydən əvvəl, şifahi xalq ədəbiyyatının böyüklər və uşaqlar tərəfindən yaradılan elə nümunələri nəzərdə tutulur ki, onlar uşaqlara həsr olunsun, başqa sözlə, uşaqların məişətini, oyunlarını, əyləncələrini, istirahətlərini, məşğuliyyətlərini, istəklərini, arzularını ifadə etsin və əhatə etdiyi mövzuları, ideyaları, forması, məzmunu, üslubu, hətta sözlərin seçilib-düzəlməsi, ifadə tərzi balacaların zövqünə, biliyinə, yaş səviyyəsinə, psixikasına uyğunlaşdırılsın. Uşaq folkloru iki istiqamətdə – həm böyüklərin (nağıllar, tapmacalar, laylalar, oxşamalar və s.), həm də uşaqların yaradıcılığı (dolamalar, acıtmalar, öcəşmələr, oyun nəğmələri və s.) hesabına zənginləşir.

Ulu əcdadlarımızın məişətinə daxil olan ayin və mərasimlər, inam və əqidəsinə hopmuş inanclar bədii yaradıcılığın inkişafına güclü təkan vermişdir. Dünyaya övlad gətirilməsi, körpənin qırxının tökülməsi, dilinin açılması, dişinin çıxması, yeriməsi, adının qoyulması ilə bağlı keçirilən mərasimlərdə, heç şübhəsiz ki, tilsimdən, əfsundan, duadan gen-bol istifadə edilmişdir. Deməli, uşaq folklorunun meydana gəlməsi bir tərəfdən ilkin etiqadlarla, təsəvvürlərlə bağlıdırsa, digər tərəfdən lap qədimlərdə, sinifli cəmiyyət formalaşmamışdan qabaq uşaqları dövrün tələbinə uyğun şəkildə böyüdüb tərbiyələndirmək, körpəlikdən əməyə, işə alışdırmaq, mübarizəyə hazırlamaq və ovçuluq, əkinçilik, maldarlıq, toxuculuq peşələrinin sirlərini öyrətmək tələbatı ilə əlaqədardır. Uşaqlara təbiət qüvvələrindən, fəlakətlərdən (soyuqdan, istidən, tufandan, yanğından), xəstəliklərdən

qorunmağın, maddi nemətlər əldə etməyin yollarını göstərmək, yırtıcı heyvanların və yağıların qəfil hücumları zamanı ov alətlərindən, silahlardan istifadə etmək bacarığı aşılamaq folklor vasitəsilə həyata keçirilmişdir.

Uşaq folklorunun yaranma yollarını müəyyənləşdirərkən üç istiqamət əsas götürülməlidir: 1. Xalq pedaqogikasının ehtiyaclarını ödəmək məqsədilə böyüklərin uşaqlar üçün xüsusi folklor nümunələri düzüb-qoşmaları. 2. Folklorun «cəmiyyətin uşaqlıq dövrü»ndə əski inam və etiqadlarla bağlı yaranan nümunələrinin (bir sıra əmək nəğmələrinin, mərasimlərdə oxunan şeir parçalarının) tədricən böyüklərin yaddaşından silinib uşaqların repertuarına keçməsi. Bu hadisə, ulu əcdadlarımız təbiət hadisələrinin sirlərinə az-çox bələd olmağa başlayandan sonra baş vermişdir. Uşaqlar yaşlılardan aldıqları hazır şeir şəkillərini yaş səviyyələrinə, zövqlərinə uyğun formaya salmışlar. 3.Yamsılamaqla, təqlidetmə ilə uşaqların özlərinin yaradıcılıq qabiliyyətinin formalaşması, özünəməxsus şəkildə inkişaf etməsi.

Uşaq folkloru uşaqların yaş səviyyəsinə, zövqünə, biliyinə uyğun özünəməxsus janrlarla zəngindir. Bu janrlar sadəliyi, yığcamlığı, konkretliyi, oyunlarla bağlılığı, melodikliyi ilə bir-birinə yaxın olsa da, poetik sisteminə, uşaq məişətində oynadığı roluna, mövzu rəngarəngliyinə görə fərqlidir.

Azərbaycan uşaq folklorunun janrlarını aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

**Lirik növ:** layla, oxşama, dilaçma, öyrətmə və uşaq nəğmələri (düzgü, sanama, öcəşmə, acıtma, dolama, çağırış və müraciətlər).

**Epik növ:** tapmaca, yanıltmac və uşaq nağılları.

**Dramatik növ:** uşaq oyun və tamaşaları.

Uşaq folklorumuzun lirik növdəki janrlarını ifaya görə iki yerə ayırmaq olar:

a) analar tərəfindən yaradılıb ifa olunan «ana nəğmələri»;

b) bir qismini böyüklərin, digər qismini isə uşaqların qoşduqları «uşaq nəğmələri».

**Laylalar** anaların körpələrini yuxuya vermək, bəsləmək, əzizləmək, gəzdirmək, dilini açmaq və s. ilə əlaqədar oxuduqları nəğmələrdir. Ananın övladına sonsuz məhəbbəti bütün laylaların canına hopmuşdur:

*...Bala gəzən yerlərə*
*Analar qurban olsun.*

Ana öz balasını müqəddəsləşdirir, onu dünyada hər şeydən, hətta şirin canından, elindən, obasından üstün tutur. Pirlərə, imamlara üç, yaxud yeddi qurban deyilirsə, ana övladının bircə xoş əməli, hərəkəti üçün on iki qurban vəd edir:

*Mən gördüm haçan günü,*
*Dağlardan qaçan günü?*
*On iki qurban kəsərəm*
*Balam dil açan günü.*

Laylaları məzmununa görə aşağıdakı kimi qruplaşdırmaq olar: 1) yuxu-latmalar, 2) oyatmalar, 3) əyləndirmələr, 4) bəsləmələr, 5) arzulamalar, 6) bənzətmələr, 7) inam və etiqadlarla bağlı olanlar (qarğış-laylalar, alqış-laylalar, qurbanlıqlar), 8) şikayətlər (anaların öz güzəranından narazılığı və xəstə uşağının sağalması üçün yalvarışları).

Uşaqları yuxulatmaq üçün düzülüb-qoşulan laylalar xüsusi formaya malikdir: nəqarətlidir, əksər misraların əvvəlində,

yaxud sonunda «laylay», «balam» ifadələri, eləcə də müxtəlif səs birləşmələri təkrarlanır:

*Laylay beşiyim, Laylay,*
*Evim, eşiyim, Laylay*
*Sən get şirin yuxuya,*
*Çəkim keşiyin Laylay.*
*Balam, Laylay, a Laylay,*
*Gülüm, Laylay, a Laylay.*

Laylaların içərisində elələri var ki, uşaqları yatırmağa deyil, oyatmağa həsr olunur:

*Laylay dedim, can dedim,*
*Yuxudan oyan dedim,*
*Sən yuxudan durunca*
*Canımı qurban dedim.*

*Məni oyaq qoyan sən,*
*Qızılgülə boyan sən.*
*Öpüm qara gözündən,*
*Bəsdir yatdın, oyan sən.*

Bu günədək toplanan laylalar içərisində ən çox arzulamalara təsadüf edilir. Ana övladının dil açmasını, ayaq tutub yeriməsini, gəzməsini, oynayıb-gülməsini, sevinməsini, nəhayət, ərsəyə çatmasını, özünə qız seçib-bəyənməsini istəyir. Ana qocalıb əldən düşsə də, küçələrdə carçı olmağa razıdır, təki balasının toy gününədək nəfəsi kəsilməsin. Evində, eşiyində şənlik qurulandan, qapısından gəlin girəndən sonra dünyadan

rahat köçə bilər. Ana övladını müxtəlif bitki və heyvanlarla müqayisə edir, bəzən uşağın yerişini, gülüşünü, yatışını, gözlərini ən adi əşyalara bənzədir. Ümumiyyətlə, qadınların dilində işlənən epitetləri, təşbehləri sistemləşdirərkən müəyyənləşdirmək olur ki, laylalarda uşaq bitkilərdən gülə, sünbülə, laləyə, bənövşəyə, heyvan və quşlardan şirə, quzuya, bülbülə, göy cisimlərindən aya, ay parçasına, ulduza, günə, insana gündəlik lazım olan maddi nemətlərdən duza, çörəyə, bala, məişət əşyalarından güzgüyə, bəzək şeylərindən sədəfə, dürdanəyə, eləcə də yarağa, alınmaz qalaya, gözünün qarasına, ürəyinin başına, qardaşına, atasına oxşadılır. Nəhayət, ananın arzusuna, gərəyinə, əməyinə, ümidinə çevrilir. Gülə, bənövşəyə təkcə körpə özü deyil, həm də onun beşiyi, yuxusu, yastığı, döşəyi bənzədilir. Bu müqayisə və bənzətmələrdən ən çox işlənəni güldür. Ana körpəsinə «gül beşikdə» «qızılgül yuxusu» arzulayır. Onun «yastığında gül», «döşəyində bənövşə» bitirir. Əski türk mifologiyasında «qızılgül» və «bənövşə» bitki ilahəsidir, bütün canlıların havadarıdır.

**Oxşamalarla** laylalar arasında az-çox mövzu-məzmun eyniliyi olsa da, formaca bu janrlar bir–birindən fərqlənir. Laylalar heca vəzninin yalnız yeddilik, oxşamalar isə həm yeddilik (ikimisralı oxşamada birinci misra yeddi, ikinci misra səkkiz hecadan ibarətdir), həm də beşlik ölçüsündə olur. Qafiyə sisteminə görə bir qismi (beşlik ölçüdə olanlar) laylalarla eynidir: a, a, b, a; bir qismi isə başqa cürdür: a, a, a, b.

*Çaydır, dənizdir,*
*Quldur, kənizdir.*
*Balam hər nədir,*
*Mənə əzizdir.*

*Tüstüsüz damlar,*
*Sarı badamlar,*
*Tənbəl adamlar*
*Bu balama qurban.*

Oxşamaların bir qismi ikimisralıdır. Ana səkkizhecalı birinci misrada heyvanları, quşları, əşyaları balasına qurban deyir. Yeddihecalı ikinci misra isə onun sorğusundan ibarət olur. Burada körpənin iməkləməsi, əl çalması, dil açması, oynaması, quş ovlaması, evlənməsi, bəy olması və s. arzulanır:

*Balama qurban inəklər,*
*Balam haçan iməklər?*

*Balama qurban xalçalar,*
*Balam nə vaxt əl çalar?*

Azərbaycan uşaq folklorunda yenicə dil açmağa başlayan körpə ilə ananın bir növ dialoqundan ibarət olan maraqlı şeir örnəklərinə rast gəlinir ki, onları **dilaçmalar**, yaxud **öyrətmələr** adlandırmaq olar.

Məsələn:
*Ana soruşur:*
*– Bu nədir?*
*Körpə cavab verir:*
*– Qulaq.*
*Ana:*
*– Sənin dilinə*
*Biz qurban olaq.*

«Bu nədir?», «O kimdir?» sualları ilə bədən üzvlərinin, ətrafda görünən əşyaların, qohum-əqrəbanın adını xəbər alırlar, körpə dili dolaşa-dolaşa cavab verir, ana düz cavab alarsa fərəhini gizlədə bilmir, uşağın dediyi sözlə həmahəng olan misra ilə balasını alqışlayır, yaxud onunla «zarafatlaşır»: ehmallıca qulağını dartır, burnundan tutub «burur». Bu zaman uşağın dilinin açılması, sözləri öyrəşməsi ilə bərabər, ananın da yaradıcılıq qabiliyyəti inkişaf edir.

*– Bu nədir?*
*– Burun.*
*– Bir elə burum,*
*Bir elə burum.*

Böyüklər körpələrə müxtəlif suallar verməklə də dilaçma düzəldə bilirlər. Söz ehtiyatları çoxaldıqca uşaqlar sorğuya düzgün cavab verirlər və buna görə də alqışlanırlar:

*– Nə görürsən?*
*– Dağ.*
*– Qızım düz tapdı,*
*Üzü oldu ağ.*

*– Göydə nə var?*
*– Ay.*
*– Balam düz dedi,*
*Balama bir pay.*

Dilaçmalar körpələrə söz öyrətməklə yanaşı, həm də onları əyləndirməyə xidmət edir.

Analar uşaqların barmaqları ilə bağlı maraqlı oyunlar göstərirlər. Bunlara barmaq oyunları demək olar. Əvvəl körpənin barmaqlarının hərəsinə bir ad qoyurlar:

*Baş barmaq –*

*Başala barmaq,*
*Uzun hacı,*
*Göy turacı,*
*Xırdaca bacı.*

Sonra onun ovuclarına işarə edib deyirlər: «Burdan bir dovşan çıxdı». Uşağın barmaqlarını bir-bir qatlayaraq, davam edirlər: *Bu vurdu, bu tutdu, bu bişirdi, bu yedi, vay, bəbəyə qalmadı.*

Uşaqlar bu cür oyunun məzmunundan çox, analarının jestlərinə, mimikalarına, səslərindəki dəyişikliyə (böyüklər sözləri ifadə edərkən çalışırlar ki, səslərini körpələr kimi çıxarsınlar) maraq göstərir, gülür və dəfələrlə təkrarlanmasını istəyirlər.

Tədqiqatçılar «Uşaq nəğmələri» başlığı altında düzgüləri, sanamaları, acıtmaları, heyvanlar, quşlar haqqında şeirləri təqdim edirlər. Uşaq nəğmələri geniş anlayışdır. Buraya uşaqların gündəlik həyatında və məişətində, əyləncə və oyunlarında, əmək fəaliyyətlərində istifadə etdikləri mənzum parçalar daxildir. Uşaq nəğmələrinin xeyli hissəsi böyüklərin yaradıcılığından götürülmüş, bir qismini isə uşaqlar özləri yaratmışlar.

Uşaq nəğmələrinin mövzuları rəngarəngdir. Doğrudur, bəzilərində məzmun rol oynamır, saylar sadalanır, ritmik sözlər bir-birinin ardınca düzülür, səslərlə, səs birləşmələri ilə ahəng yaradılır, yalanlardan, əyləncəli təsvirlərdən qurulur. Uşaq nəğmələrinin xeyli hissəsi heyvanların, quşların, bitkilərin bəhsindən ibarət olur.

**Düzgülər,** əsasən, formasına görə müəyyənləşən və özünəməxsus poetik sistemə malik olan uşaq folkloru janrıdır. Məzmunu ilə nağıl–yalanlara (qaravəllilərə) yaxınlaşır;

əyləncəli, məzəli əhvalatlardan müəyyən epizodlar danışılır, hadisələr, təsvirlər tez-tez dəyişir və çox vaxt onların arasındakı əlaqə qırılır. Düzgü adı altında toplanan şeirlər mənşəcə çox qədimlərlə səsləşir, hər birinin ayrılıqda müəyyən məqsədlə yarandığı az–çox nəzərə çarpır. Başqa sözlə, ovçuluq, maldarlıq, toxuculuq nəğmələrinin izləri bəzi düzgülərdə bugünədək qalmaqdadır.

Xalq yaradıcılığının bu nümunələrinə «düzgü» adı verilməsinə təsadüfi hal kimi baxmaq olmaz. Bu, hər şeydən əvvəl, şeirlərin quruluşundan götürülmüşdür. Belə ki, misralar zəncirvari şəkildə bağlana-bağlana bir-birinin ardınca düzülür. Daha dəqiq desək, bəzi misraların sonuncu sözü sonra gələn misraların əvvəlinci sözünü təşkil edir:

– *...Cahan gedib hamama,*
*Hamamın suyu isti,*
*İsti su da nəpisdi...*

Yaxud misra özündən əvvəlki misrada iştirak edən sözlərdən biri əsasında qurulur və bu şəkildə növbələşmə axıradək davam edir:

*Üşüdüm ha, üşüdüm.*
*Dağdan alma daşıdım.*
*Almacığımı aldılar,*
*Mənə cürüm verdilər,*
*Mən cürümdən bezaram.*
*Dərin quyu qazaram.*
*Dərin quyu beş keçi,*
*Ham bunun erkəci?*

*Erkəc qaya başında...*

Doğrudur, bu sistemin tələblərinə həmişə əməl olunmur; arada pozulur və təzədən bərpa olunur. Bu da düzgülərin tam mətnlərinin unudulmasından, müxtəlif mövzulu bir neçə nəğmənin bir-birinə qarışmasından irəli gəlir. Düzgülər heca vəzninin yeddilik ölçüsündə olur, əksər hallarda misralar cüt-cüt qafıyələnir: a, a. Bəzən üç misra bir-birinə uyğun gəlir: b, b, b. Sərbəst misralara da təsadüf edilir: a, a, c. b, b, b, ç.

Ulu əcdadlar əkilən torpaq sahələrini ölçəndə, naxırdan qayıdan mal-qaranı sayanda işi asanlaşdırmaq və alınan rəqəmləri uzun müddət yadda saxlamaq məqsədilə xüsusi nəzm nümunələri yaratmışlar. Çobanların «Yoxlama və cütləmə» mahnıları bu cür formalaşmışdır. Sonralar böyüklərdən uşaqlara keçən sanamalarda cütləmə bu gün də özünü göstərir:

*Bir, iki – Bildirki.*
*Üç, dörd – Qapını ört.*
*Beş, altı – Daş altı.*
*Yeddi, səkkiz – Qırx səkkiz.*
*Doqquz, on – Qırmızı don.*

Sanamada cüt rəqəmlərə münasibət bildirilir: ilk cüt bildirkidir, yəni ötən ildən qalmadır, ikinci cüt xəstədir, çölə çıxarılmalıdır, üçüncü cüt gələcək gün üçündür, qorunmalıdır və dördüncü, beşinci cütlər şişlik üçündür, mağara aparılmalıdır, qırmızı donlu gəlinin ayaqları altında kəsilməlidir.

Oyunlarla bağlı yaranan başqa sanamalarda uşaqlar həm tək, həm də cüt saylara söz calayırlar:

*Biri birə,*
*İkisi yerə,*
*Üçü üskük,*

*Dördü döşək,*
*Beşi bişək,*
*Altısı alma,*
*Yeddisi yemiş...*

Bu cür sanamalarda say bildirən sözlərin əvvəlinci bir və iki səsi ahəng yaratmaqda əsas götürülür, əlaqəyə girdiyi sözün həmin səs və səs birləşməsi ilə başlanması tələb olunur, eləcə də təkrəqəmli misralarla cüt rəqəmlilər bir-biri ilə qafiyələnir.

İkinci qisim sanamalarda saylar iştirak etmir, sözlərin, səslərin, səs birləşmələrinin müxtəlif formalarda təkrarlanması ilə sanama yaradılır. Bu cür sanamalara təkərləmə də deyilir:

*Motal–motal,*
*Tərsə motal.*
*Qıl atar,*
*Qaymaq qatar.*
*Ağ quşum,*
*Ağarçınım.*
*Göy quşum,*
*Göyərçinim...*

Təkərləmələr uşaq oyunları zamanı fiziki hərəkətlərin ritmi üzərində qurulduğundan saylarla əlaqədar yaranan sanamalara nisbətən daha oynaq və axıcıdır.

Uşaqların şəxs adları üzərində qurub yaratdıqları, bir–birinin paxırını açan, xasiyyətlərindəki, davranışlarındakı, hərəkətlərindəki və geyimlərindəki nöqsanları, çatışmamazlıqları «tənqid edən» nümunələrə acıtmalar deyilir. Acıtmada uşaq təfəkkürünə uyğun məzəli təsvir və təşbehlərə təsadüf olunur: əli süpürgəli, köhnə tumanlı, saçı sirkəli, yaxası bitdi. Acıtmaların əksəriyyəti «Neynirəm onu?!» misrası ilə

tamamlanır və pis keyfiyyətlərə malik qızlar, oğlanlar inkar edilir:

*Zibeydə çöldə,*
*Ayağı göldə.*
*Başı dumanlı,*
*Köhnə tumanlı,*
*Əli süpürgəli,*
*Saçı sirkəli,*
*Yanı itdi,*
*Yaxası bitdi.*
*Fənadı sonu,*
*Neynirəm onu?!.*

Acıtmalarda Fatma dalaşqanlığı, Tükəzban acgözlüyü, deyingənliyi ilə tay-tuşlarının qarşısında gülünc vəziyyətə düşür.

Acıtmaların bir qismi keçələ həsr olunur:

*Keçəl, keçəl mərəndi,*
*Qolları düymələndi,*
*Eşitdi saçlı gəlir*
*Başına kül ələndi.*

Xalq nağıllarında olduğu kimi, acıtmalarda da keçəl ilk öncə tənbəl, sonra hiyləgər və «bir arpanı beş eyləyən« kimi təsvir olunur.

Dolamalarda, acıtmalardan fərqli olaraq, şəxs adları atılır, şeir birbaşa heç kəsin ünvanına yönəldilmir, bir növ söz oyunu xarakteri daşıyır, iki nəfərin deyişməsindən ibarət olur. Kim ifa zamanı diqqətsizliyə yol verib axıradək «söz güləşdirməkdə»

davam etsə, gülünc hala düşür, ya it kimi hürdüyünü, at kimi kişnədiyini, xoruz kimi banladığını, ya da pişik kimi miyoldadığını «boynuna alır»:

*– Gəl gedək bağa.*
*– Mən də, mən də.*
*– Çıxaq budağa.*
*– Mən də, mən də.*
*– Şaftalı yığaq.*
*– Mən də, mən də.*
*– Bağban gəlsin.*
*– Mən də, mən də.*
*– İti qısqırtsın.*
*– Mən də, mən də.*
*– İt mənə hürsün.*
*– Mən də, mən də.*

Böyüklər uşaqlara heyvanlar haqqında bir sıra nəğmələr düzüb-qoşmuşlar. Bu nəğmələrdə inək, öküz, keçi, eşşək, pişik və s. dil açıb xasiyyətlərindəki, hərəkətlərindəki qəribəliklər barədə məlumatlar verir, eləcə də zahiri görünüşlərini təsvir edirlər. Bir qismi deyişmə şəklindədir, digər qismi monoloqlardan ibarətdir. Uşaq bu nəğmələrdən öyrənir ki, öküz qışın üç ayını tövlədə yeyib yatır, yazda isə ona xış qoşurlar, gün doğandan batanadək yer şumlayır, «ağlı-qırmızılı buğda» əkir. «Heyvanların bəhsi» adlanan nəğmədə öküzlə yanaşı qoyun, dəvə, at, camış və inək mübahisə edirlər. «Pişik» adlı nəğmədə isə zahirən pələngə oxşadığına görə pişik özünü öyür.

Uşaq folklorunun epik janrlarında həyat hadisələri təhkiyə, nağıletmə yolu ilə əks etdirilir. Xalqın istək və arzuları öz

ifadəsini rəngarəng obrazlar vasitəsilə tapır. Doğrudur, uşaq folklorunun tapmaca və yanıltmac kimi janrlarında əhvalat, hadisə arxa plana keçir, daha çox əşyaların zahiri görünüşü, mahiyyəti haqqında maraqlı məlumatlar sadalanır. Lakin lirik nümunələrdən fərqli olaraq onlarda hiss və həyəcanlar, emosiyalar özünü göstərmir, hər hansı bir obrazın daxili aləmi deyil, əşyaların, hadisələrin məzmunu, mənası (tapmacalarda dolayısı yolla) təsvir edilir. Epik növün nəzmlə yaranan nümunələri məhz bu xüsusiyyətinə görə lirik əsərlərdən seçilir.

***Azərbaycan uşaq folklorunun üç janrı epikdir:*** **a) tapmaca, b) yanıltmac, c) nağıl.**

Bir sıra keyfıyyətlərinə – yığcamlığına, mövzu genişliyinə, konkretliyinə və əyləncəli xarakterinə görə **tapmacalar** uşaqların ən çox sevdiyi folklor nümunələrindəndir.

Tapmacalara bəzən bilməcə də deyilir. Birincisi «tapmaq», ikincisi «bilmək» felindən əmələ gəlmişdir. Əlbəttə, biliyi, məlumatı az olan tapmacanın cavabını tapmaqda çətinlik çəkir. Tapmacalarda əşyanın, yaxud hadisənin adı çəkilmir, yalnız məcazi təsviri verilir, ya da hər hansı bir əşyanın, hadisənin bir sıra xarakterik əlaməti sadalanır. Tapmacalarda müqayisə, bənzətmə, təzad, təşbeh, epitet, bədii sual və s. təsvir vasitələrindən geniş istifadə olunur. Məsələn:

*Qırmızı nar,*
*Hər evdə var.* ***(Od)***

Bu tapmaca metaforadan ibarətdir. Od qırmızılığına görə nara bənzədilir. Bəzi tapmacalarda əşya və hadisənin əlaməti, keyfıyyəti, xassəsi müqayisəsiz verilir:

*Gecələr boşalar,*
*Gündüzlər dolar.* ***(Yük yeri)***
*Gecə yumular,*

*Səhər açılar.* ***(Sarmaşıq)***

Tapmacalar uşaqların zehni inkişafına kömək edir. Əlamətləri müqayisədə göstərilən əşyanın, hadisənin özünü tapmaq üçün uşaqlardan güclü fantaziya və bilik tələb edilir:

*Gözləri var, başı var,*
*Nə tükü, nə qaşı var.*
*Ayağı yox, dili yox,*
*Dərisində pulu çox.* ***(Balıq)***

Tapmacada balığın ən adi əlamətləri sadalanır. Məlumdur ki, balığın tükü, qaşı, ayağı, dili olmur. Balıq «dərisində pulunun çoxluğu» ilə başqa canlılardan seçilir. Bununla belə, balığı görməyən, onun haqqında təsəvvürü olmayan tapmacaların cavabını tapa bilməz. Deməli, fantaziya ilə yanaşı, uşaqların biliyi və tapmacanın cavabının tapılmasında böyük əhəmiyyət kəsb edir.

Xalq həyatının elə bir sahəsi yoxdur ki, ona tapmaca qoşulmasın. Lakin tapmacaların içərisində elələri var ki, yığcamlığına, sadəliyinə, ifadə tərzinə, məzmununa görə uşaqlara daha yaxındır. Bu cür tapmacalarda heyvanlar, quşlar yamsılanır; tapmacaların bir qismi söz oyunu üzərində qurulur.

Yamsılama uşaqlarda dil açmağa başlayandan özünü göstərir və yamsılaya-yamsılaya onlar quşların, heyvanların «dilini» öyrənirlər. Bu mənada təqlidi sözlərin bir sıra tapmacalarda heyvanların, quşların, təbiət hadisələrinin əlaməti kimi verilməsi maraq doğurur. Uşaqlar pişiyi «xoruldamasından», «mırıldamasından», keçini «bəyirməsindən», yarasanı «ziyildəməsindən« tanıyırlar:

*Ovun alsan miyoldar,*
*Sığallasan xoruldar.* ***(Pişik)***

Heyvanın öz səsindən deyil, tərpənişindən, hərəkətindən doğan səslərin yamsılanması ilə düzələn tapmacalarda da rast gəlirik:

*Taxçadan düşdü tap elədi.* ***(Siçan)***

*Gülsənəm onu hap elədi.* ***(Pişik)***

Tapmacaları uşaqlara bağlayan başqa bir cəhət özünü səs oyunları ilə əlaqəsində göstərir. «Biz bizə biz deyirik, siz bizə nə deyirsiniz?» – tapmacası «biz» sözü üzərində qurulmuşdur. Bir cümlədə «biz« dörd dəfə işlənir: birinci şəxs əvəzliyi, ikinci, üçüncü və dördüncü isə bir şeyi deşmək üçün metaldan hazırlanan ucu şiş alət mənasındadır. Maraqlıdır ki, cavab tapmacanın özündə üç dəfə qeyd olunur. Uşaq bir qədər fıkirləşsə başa düşər ki, qoyulan sual onu çaşdırmaq üçündür. Söz oyunlarında istifadə olunan tapmacaların bir qismi riyazi məsələ şəklində yaradılır:

*Beş, beş, beş – on beş,*
*üç – on səkkiz,*
*iki – iyirmi,*
*neçə eylər hamısı?*

***(5+5+5=15+3=18+2=20)***

Rəqəmlər ardıcıllıqla toplanır və tapmacanın cavabı alınır, sual isə dinləyəni çaşdırmaq məqsədilə verilir:

*İki tülkü balası,*
*üç – anası* (yəni üçüncü anası),
*dörd – atası* (yəni dördüncü atası),
*neçə eylər hamısı?*

***(Dörd: iki bala, ata, ana).***

Söz oyunlarında ən çox işlənən uşaq folkloru janrı **yanıltmacdır.** Sözlərin, səslərin, səs və söz birləşmələrinin bir cümlə daxilində müxtəlif formalarda təkrarlanmasından (bəzən,

belə cümlələrin özünün təkrarından daha mürəkkəb quruluşlu yanıltmaclar düzəldilir) ibarət olan yanıltmaclar uşaqların düzgün tələffüz vərdişinə yiyələnməsində, söz ehtiyatlarının artırılmasında böyük əhəmiyyətə malikdir.

Yanıltmaclar sabit formaya malik olmasa da, hamısı üçün ümumi olan keyfiyyətlər mövcuddur:

a) oxşar səs və söz birləşmələrinin cümlə boyu bir-birini izləməsi: *«Ey qəfəsdəki çil bildirçin qardaş, gəl səninlə çil bildirçinləşək, çil bildirçinləşsən də, çil bildirçinləşməyəcəyəm* ». Burada «çil bildirçin» söz birləşməsi və «çil», «çin», «il», «ir», «ləş» səs birləşmələri təkrarlanır.

b) sözlərin, yaxud bütöv cümlənin müəyyən dəyişikliklərlə düzülməsi, məsələn: *Getdim, gördüm, bir taxçada bal, bir taxçada qıl, bir taxçada zil. Balı uddum, qılı diddim, zili atdım*

Yanıltmaclar həm nəsrlə, həm də nəzmlə yaradılır, canlı xalq dilinin bütün incəliklərini əks etdirir və uşaqların səlis nitqini, diqqətini formalaşdırmaqla yanaşı, onları əyləndirir, söz oyunu kimi isə tərbiyə vasitəsinə çevrilir.

**Uşaq nağıllarını** da böyüklər düzüb-qoşurlar və söyləyirlər. Lakin onlar formasına, məzmununa, eləcə də başqa xüsusiyyətlərinə görə tarixi, sehrli və ailə-məişət nağıllarından fərqlənir. ***Birinci,*** uşaq nağıllarında süjet xətti çoxşaxəli olmur, əksər vaxt epizodik xarakter daşıyır, hər hansı bir obrazın (uşağın, heyvanın, quşun, bitkinin) həyatının bir anı, yaxud bir günü göstərilir. Sual-cavab və dialoq şəklində qurulur. ***İkinci,*** köklü fərqlər dilində nəzərə çarpır. Uşaq nağıllarında cümlələr azsözlü, sadə olur, bədii təsvir və ifadə vasitələri ilə yüklənmir. Çox halda heyvan, quş səsləri yamsılanır, ifadələr, cümlələr cüzi dəyişikliklə təkrarlanır. Məsələn, «Xoruz və padşah« nağılında

xoruz «quq-quluqu», «padşah», «mən», «nə», «imiş» sözlərini tez-tez işlədir. ***Üçüncü,*** obrazların və mövzuların seçilməsində özünü göstərir. Uşaq nağıllarının qəhrəmanları, əsasən, uşaqlar, heyvanlar, quşlar, bitkilər olur. Uşaqların acgöz tacirlərlə, zalım xanlarla, uşaq əti yeyən divlərlə, xortdanla mübarizəsi, güzəranı, əyləncəsi, istək və arzuları, heyvanların, quşların, bitkilərin həyat tərzi, xüsusiyyəti, gündəlik qayğıları, balalarına azuqə toplamaları, onları yırtıcılardan qorumaları və s. uşaq nağıllarının mövzusunu təşkil edir. Burada təbiətdə gözə görünən nə varsa, hamısına canlı insan kimi baxılır, adicə qarğı çubuğu da, dəyənək də yeri düşəndə uşaqların dostuna, köməkçisinə çevrilir. Heyvanlar, quşlar, bitkilər adamlar kimi danışa, düşünə, mühakimə yürüdə, yaxşını pisdən, dostu düşməndən ayıra bilirlər. Haqsızlıqla rastlaşanda döyüş meydanına atılıb qələbə çalmağı bacarırlar. Çoxlarının isə məqsədi dinc, yanaşı yaşamaqdır. «Şəngülüm, Şüngülüm, Məngülüm» nağılında keçi özündən qat-qat üstün olan qurdu məhv edir. Ona görə ki, o, haqq iş üçün vuruşur, doğma balalarının qisasını alır. ***Dördüncü,*** nağılların yaranmasında özünü göstərir: əhvalatlar, surətlər mifik səciyyə daşımır, heyvan, quş obrazlarının arxasında heç bir totem gizlənmir. Uşaq nağılları xalqın pedaqoji tələbatı nəticəsində körpələrin tərbiyəsinə düzgün istiqamət vermək məqsədilə düzülüb-qoşulur. Bu səbəbdən qurd, ilan, dovşan, tülkü və s. obrazlara müqəddəs varlıq kimi baxılmır. ***Beşinci,*** uşaq nağıllarının əyləncəli xarakterdə olmasında nəzərə çarpır: «Tülkü, tülkü, tünbəki»də tamah üzündən tülkü, ayı, donuz, qurd, çaqqal, ilan və tısbağa quyuya düşürlər. Tülkü görür ki, bir tədbir fikirləşməsə hamısı burada qalıb öləcək, ya da aclıq güc gələcək, bir-birinin ətini yeyəcəklər, onda ayı, qurd və donuzla

bacarmayacaq. Ona görə də hiyləyə əl atır: heyvanlara bir «oyuna» başlamağı təklif edir. Deyir ki, «mən nəğmə oxuyum, hər kəsin adı axıra düşsə, onu yeyək». Tülkünün nəğməsi xalq uşaq oyunlarının başlanğıcında işlənən sanamanı xatırladır. Uşaq oyunlarında kim axıra qalsa, oyunu davam etdirmək hüququ qazanır. Tülkünün «oyununda» isə adı sonda çəkilən heyvanı ölüm gözləyir:

*Tülkü, tülkü, tünbəki,*
*Quyruq üstə lümbəki.*
*Ayı axmaq,*
*Donuz toxmaq...*

Tülkü oyunda hamını udur. Çünki nəğməni öz adı ilə başlayır. Əvvəldən razılaşdıqları şərtə görə, adları sonda gələn heyvanlar ayının köməyi ilə parçalanırlar. Axırda ikisi qalır: tülkü və ayı. Artıq nəğmə kara gəlmir. Başqa kələk işlətmək lazımdır. Maraqlıdır ki, tülkü nəğməsində ayını axmaq kimi xarakterizə edir. Ayı axmaqlığı üzündən də tülkünün hiyləsinə uyur, qoltuğunun ətini söküb yeyir və ölür. Beləliklə, heyvanların oyunu uşaqları əyləndirir. ***Altıncı,*** real həyatla bağlılığında özünü göstərir. Uşaq nağıllarında zəhmətkeş xalqın güzəranı, əmək fəaliyyəti, məişəti, adət-ənənəsi, istək və arzuları gerçək hadisələrin fonunda verilir. Zümrüd quşları reallığın qabağına pərdə tutduğu halda, uşaq nağıllarında hər şey öz rəngində, öz halında görünür.

Poetik strukturuna görə rəngarəng, mövzu dairəsi geniş olan Azərbaycan uşaq nağıllarını aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Uşaqlara həsr olunan nağıllar;

b) Heyvanlar, quşlar, bitkilər və s. haqqında nağıllar;
c) Nağıl–təmsillər;
d) Nağıl-yalanlar (Qaravəllilər);
e) Mənzum nağıllar.

Xalq həmişə uşaqları qoçaq, qorxmaz, haqsızlığa qarşı barışmaz, zəhmətsevər, özgə malına göz dikməyən, xeyirxah görmək istəmiş, bu arzusunu uşaqların həyatına, davranışına, mübarizəsinə aid nağıllarda ifadə etmişdir. E1 arasında əsas qəhrəmanı böyüklər qədər ağıllı, fərasətli, dözümlü, tədbirli uşaqlar olan nağıl çoxdur: «Cırtdan və Xortdan», «Göyçək Fatma», «Tələt», «Əlyar və dovşan», «Kamal və Reyhan», «Murtuz» və b. Bu uşaqlar böyük çətinliklərlə qarşılaşırlar, lakin balacalıqlarına baxmayaraq qorxmurlar, bəzisi xeyirxahlığı ilə, bəzisi kələk işlətməklə, bəzisi də heyvanların dostluğuna arxalanmaqla qəddar düşmənə qalib gəlir. M.H.Təhmasib yazırdı: «Qəhrəmanların öz düşmənləri ilə apardıqları mübarizədə onlara yardım edən qüvvələrin ən başlıcası heyvanlardır. Bu heyvanlar bəzən həqiqi, bəzən də fantastik olur. Ümumiyyətlə, bu vasitələri, bu iştirak edən qüvvələri qəhrəmanlara bəslədikləri münasibət etibarilə başlıca olaraq iki yerə bölmək olar. Bunlardan birincisi dost, ikincisi isə düşmən və maneçilik törədən qüvvələrdir». Alim Simurq quşunu, atı, göyərçini, sədaqətli itləri, ağ ilanı, ayını və hətta tülkünü dost, divi, əjdahanı, ceyranı düşmən qüvvə kimi verir.

Uşaq nağılları içərisində heyvanlara, quşlara, bitkilərə həsr olunanlar daha çoxdur. «Ayı və milçək», «Tülkü, tülkü, tünbəki», «Şəngülüm, Şüngülüm, Məngülüm», «Tülkü və ilan», «Dovşan», «Ac qurd», «Qurd», «Hiyləgər keçi», «Aslan və dovşan», «Cik-cik xanım», «Qarı və pişik», «Nazikbənazik-Tazikbətazik», «Tülkünün hekayəsi», «Pıspısa xanım və Siçan

Solub bəy», «Xoruz və padşah», «Şah və Xoruz» və s. nağıllarda uşaqları maraqlandıran hadisələr nəql olunur. Belə ki, tənbəl milçək arının balına şərik çıxmaq istəyir; qurd gah ana keçinin yemək dalınca yollanmasından istifadə edib onun balalarına hücum çəkir, gah da özünü xəstəliyə vurub şirin, ayının yeməyinə qonaq olur; sərçə saz çalıb oxuyur; tülkü hərdən səbət toxuyur, hərdən də gön tapıb çarıq tikir, heç vaxt kələyindən qalmır; xoruz bir qaraca pul tapıb, padşahı ələ alır.

Heyvanlara, quşlara aid nağılların bir qrupu haqsızlığa qarşı mübarizəyə həsr olunur. Meşədəki heyvanlar iki cəbhəyə bölünürlər. Qurd, ilan, aslan azğın, qəddar, amansız, yırtıcı təsvir edilir. Məsələn, «Aslan və dovşan» nağılında şir rastına düşən heyvanı parçalayır. «İlan və tülkü»də ilan öz qonşusu tülküyə xəyanət edir, onu tutub yemək istəyir. Maraqlıdır ki, əks cəbhədə duran heyvanlar: keçi, dovşan qüvvəcə birincilərdən qat-qat zəif olsalar da ağılın köməyi ilə qalib gəlirlər.

Oyun uşaqların əsl yaradıcılıq fəaliyyətidir. Onlar ilk növbədə hərəkətə və düzüb-qoşmağa olan ehtiyaclarını ödəyir, istək və arzularını həyata keçirirlər. Həkimi yamsılayırlarsa, bütün varlıqları ilə xəstə rolunda təsəvvür edilən gəlinciyə bağlanırlar, qayğısına qalıb onu «sağaldırlar». Uşaqlar sürücüdürlərsə, diqqətlərini maşının düzgün və təhlükəsiz idarə edilməsinə yönəldirlər.

Uşaqlar oyunlarda təqlidçilikdən improvizasiyaya keçirlər. Onların oyunlarla bağlı yaradıcılıq fəaliyyəti sinkretikliyi ilə də nəzəri cəlb edir: rəqs, dram, musiqi ünsürlərini özündə birləşdirir. Uşaq nəğmələr düzüb-qoşanda şair, oxuyanda xanəndə, əkinçini, ovçunu, çobanı, heyvanı, quşu yamsılayanda aktyor, əl-qol açıb oynayanda isə rəqqasdır.

**Oyun və tamaşa** anlayışlarına folklorun uşaqlar tərəfindən yaradılan müxtəlif formaları – uşaqların fiziki, zehni, psixi və mənəvi inkişafına təsir göstərən nümunələri daxildir. Oyunları ifasına, uşaqların məişətində tutduğu yerinə və roluna görə iki hissəyə ayırmaq olar: **1. Mütəhərrik (hərəkətli) oyunlar. 2. Söz oyunları.**

Hərəkətli xalq oyunları uşaqların fəaliyyətinin fıziki hərəkətlərə yönəldilmiş formasıdır. Bu oyunlar söz oyunlarına nisbətən daha qədimdir, insanların ilk əmək fəaliyyəti ilə bağlı meydana gəlmişdir. Belə ki, ilk-əvvəl oyunlar təqlidçilik yolu ilə yaranmış və əcdadlarımızın əmək və məişət səhnələrini əks etdirmişdir. Hərəkətli oyunların bir qismində uşaqlar müxtəlif əşyalardan: ağacdan, dəsmaldan, tumadan (kəmərdən), topdan, daşdan, üzükdən, çöpdən, aşıqdan, papaqdan, kamandan–oxdan (ağacdan qayrılmış) və s. istifadə edirlər. «Cıdır oyunu»nda atlar da uşaqların köməyinə çatır. Bəzi oyun zamanı onlar çuxurlar qazır, daş-çınqılı bir yerə toplayıb təpə düzəldir, tonqallar qalayırlar. Oyunlar əksər hallarda açıq havada, yaşıl meydanlarda keçirilir. Ümumiyyətlə, mütəhərrik oyunları əşyalarsız aparmaq mümkün deyil. Məhz buna görə də, bir sıra tədqiqatçılar apararkən meyar olaraq oyunlarda əşyalardan istifadə olunub-olunmamasını götürür və hərəkətli oyunları iki yerə ayırırlar: **1.Əşyalarla oyunlar:** «Kirmə», «Dəsmalı ver», «Sultan», «Xəndəyə düşmə», «Pula-pula», «Qələndər, ay qələndər», «Aşıq-qoz» və s. **2.Əşyalarsız oyunlar:** «Bənövşə», «Şənlik», «Ənzəli», «Əl üstə kimin əli» və s.

Söz oyunları sonrakı dövrlərin məhsuludur. İncəsənətin əcdadlarımızın əmək prosesindən ayrılıb sərbəst şəkildə formalaşdığı dövrlərdə uşaqların oyunları, yaradıcılığı öz xarakterini, keyfiyyətini dəyişmişdir. Uşaqlar böyüklərin

fəaliyyətini təqlid etməklə kifayətlənməmiş, özləri oyunlar yaratmağa başlamışlar. Əlbəttə, ilk yaranma dövründə bu oyunlar böyüklərin yaradıcılığından asılı olmuşdur. Daha doğrusu, yaşlıların düzüb-qoşduqları sanama və yanıltmaclara əsaslanmışdır. Sonralar uşaqların öz poetik yaradıcılığı hesabına formaca müxtəlifləşmiş, mövzu dairəsi genişlənmişdir.

Söz oyunlarının əsasını tapmacalar və yanıltmaclar təşkil edir. Aşağıdakı oyun-tapmacaya diqqət yetirək:

«*Dəstə başçısı ürəyində bir quş tutur, əl hərəkəti ilə onu nişan verir və uşaqlara deyir:*

*– Bir quşum var bir belə.*

*Uşaqlar bir ağızdan söyləyirlər:*

*– Lov gələ ha, lov gələ.*

*Başçı:*

*– Dimdiyi var bir belə.*

*Uşaqlar:*

*– Lov gələ ha, lov gələ...*»

Beləcə quşun bədən üzvlərinin ölçüləri göstərilir. Axırda başçı soruşur:

– «*Tapsa kim bu heyvanı,*

*Alacaq bu meydanı*».

Quşun adını düz tapan oyun-tapmacanın qalibi hesab edilir.

Söz oyunlarında uşaqların istifadə etdikləri folklor janrlarından biri də öcəşmələrdir. Deyişmə şəklində olması ilə dilaçmalara oxşayır. Dilaçmalarda ana uşağına hər hansı bir hadisəni, əşyanı nişan verib, «bu nədir?» deyə soruşur, uşaq fikirləşib hadisənin, yaxud əşyanın adını tapır. Öcəşmələrdə isə, əksinə, uşaq qafıyələndirə biləcəyi hər hansı bir sözü tələffüz etməyi qarşı tərəfdən tələb edir: «Deynən tülkü». Qarşı tərəf

istənilən sözü olduğu kimi ona qaytarır: «Tülkü». Oyunu başlayan uşaq o dəqiqə qafıyəli misra ilə qarşı tərəfi bağlayır: «Geyginən kürkü». Bu qayda ilə uşaqlar bir-birinə növbə ilə hər hansı bir sözü tələffüz etdirir və uyğun gələn misralarla cavabını verirlər. Gülüş doğuran misralar yaratmaq üçün oyunçulardan böyük məharət tələb olunur. Uşaqlar bir növ qafiyələnmiş cümlələrlə söz güləşdirirlər:

– *Deynən «xala».*
– *Xala.*
– *Qazan dibi yala.*

– *Deynən «dəmir».*
– *Dəmir.*
– *Al, sümüyü gəmir.*

– *Deynən «beş».*
– *Beş.*
– *Burnunla yeri eş.*

Öcəşmələrin başqa forması yeddihecalı iki misradan ibarət olur. Uşaqlardan biri bir misra deməlidir, başqası isə ona uyğun gələn digər misra ilə cavab verməlidir:

**I uşaq:** – *Qoca-qoca qarılar.*
**II uşaq:** – *Nənəm yesin darılar.*
**I uşaq:** – *Barlı-barlı bağatlar.*
**II uşaq**: – *Gedib bağda kim otlar?!*

Uşaqların oyun fəaliyyətində iki mühüm məsələ diqqəti cəlb edir: bir tərəfdən onlar oyunlarla əməli işə başlayırlar, sərbəstliyə öyrəşirlər, digər tərəfdən mənəvi və estetik zövq alırlar, əhatə olunduqlan ətraf mühiti dərk etməyə çalışırlar.

Nəticə etibarilə həm fiziki, həm də mənəvi cəhətdən sağlamlaşır, dünyagörüşləri artır və şəxsiyyətləri formalaşır.

Şifahi xalq ədəbiyyatının mühüm qollarından birini təşkil edən uşaq folkloru minlərlə dinləyicisini, oxucusunu uşaq aləminə səyahətə aparır, mahir bələdçi kimi onlara körpələrin istəklərini, arzularını, oyunlarını, əyləncələrini, məşğuliyyətlərini, psixologiyasını göstərir. Ən ümdəsi isə Azərbaycan türklərinin milli xüsusiyyətlərini, mənəvi dünyasını, adət-ənənələrini canlandıra bilir və keçmişinin qaranlıq səhifələrinə aydınlıq gətirir.

**Ramazan Qafarlı,**
***Filogiya üzrə elmlər doktoru, professor***

# LİRİK UŞAQ FOLKLORU

## ANA NƏĞMƏLƏRİ

## LAYLALAR

## YUXLATMALAR

Uyu, balam, yat, balam,
Qızıl gülə bat, balam.
Şütük bağın bağlayım,
Şirin-şirin yat, balam.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Laylay balam, gül balam,
Sən mənim sünbül balam.
Laylayımla yatasan,
Oyatsın bülbül, balam.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Laylay dedim, yat dedim,
Yastığa baş at dedim.
Bala, çəkim nazını,
Boya-başa çat dedim.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Mən sənə qalam deyim,
Gül deyim, lalam deyim.
Yat, incitmə ananı,
Sağ olsun balam, deyim.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Laylay mənim bəbəyim,
Bir arzum, bir diləyim.
Bəd gündə, bəd ayaqda
Sənsən mənim köməyim.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Laylay dedim yatasan,
Dərdi-qəmi atasan.
Qızılgül bağın olsun,
Gül-çiçəyə batasan.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Layla deyin balama,
Qoy yatsın, oyatmayın.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir.
Balamın gül beşikdə
Yuxusu birdən gəlir.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Balam gəlir yatmağa,
Böyüyüb boy atmağa.
Sabah yuxusu şirin,
Qoymaram oyatmağa.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Evimdə, eşiyimdə,
Yat quzum, beşiyində
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat, yuxun alginən,
Mən durmuşam keşikdə.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Laylay beşiyim, laylay,
Evim, eşiyim laylay.
Sən get şirin yuxuya,
Çəkim keşiyin laylay.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Laylay hər kəsim, laylay,
Sənə nər kəsim laylay,
Yat yuxun olsun şirin,
Ucalsın səsim laylay.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Qızıl üzük arası,
Laylay gözüm qarası.
Yuxuya get, yoruldum,
Ay canımın parası.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Laylası var hərdən-birdən,
Beşiyidir inci, dürdən.
Layla deyim balam yatsın,
Qoxusu var qızılgüldən.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***
Aran dolu milçək oldu,
Dağlar tamam çiçək oldu.
Laylay, balam, ay laylay,
Yatıb duran göyçək oldu.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

***

Qərənfiləm, qalxaram,
Açılmağa qorxaram.
Gecə cıqqırın çıxsa,
Yerimdən dik qalxaram.
Balam laylay, a lalylay,
Gülüm laylay, a laylay.

***

Layla dedim, yat dedim,
Yastığa baş at dedim.
Bala, çəkim nazını,
Boya-başa çat, dedim.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Laylay dedim, yat, bala,
Yuxuna şəkər qat, bala.
Ümidim bircə sənsən,
Boya-başa çat, bala.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

A laylay, yenə laylay,
Can deyim sənə, laylay.
Sənə gələn dərd, bəla
Qoy gəlsin mənə, laylay.

***

Qızılgül butam, laylay,
Ətrinə batam, laylay.
Balam ərsiyə gələ
Toyunu tutam, laylay.

***

A laylay, quzum laylay,
Ayım, ulduzum, laylay.
Sən hasilə çatınca,
Hər dərdə dözüm, laylay.

***

A laylay, bəyim, laylay,
Gözəl-göyçəyim laylay,
Qürbət ölkə, yad eldə,
Arxam, köməyim laylay.

***

Laylay, maralım, laylay,
Səbrim qəralım, laylay.
Böyü, bir qoç igid ol,
Sənə yar alım, laylay.

***

Laylay, a balam, laylay,

Alınmaz qalam, laylay.
Sənə kəc baxanları,
Yandırsın nalam, Laylay.

***

Nərgizi üzüm laylay,
Yaxana düzüm laylay.
Sən böyü, mən qocalım,
Toyunda süzüm, laylay.

***

A laylay, butam, laylay,
Qardaşım, atam, laylay.
İntizaram, yatasan,
Mən də bir yatam, laylay.

***

A laylay, gülüm, laylay,
Gülüm, bülbülüm, laylay.
Böyü, sənin sayəndə
Mən də bir gülüm, laylay.

***

Laylayım şirin gəlsin,
Yat, yuxun dərin gəlsin.
Qapını açıq qoyun,
Balama sərin gəlsin.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Laylamla yatsın quzum,
Qoy tez boy atsın, quzum.
Şirin yuxu içində
Sabaha çatsın, quzum.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Laylayın səsi gəlir,
Yatır, yuxusu gəlir.
Durum yollara baxım,
Böyük dayısı gəlir.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Dağlara sərin düşər,
Kölgəsi dərin düşər.
Hər an laylay çalanda
Yadıma Pərim düşər/
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Laylay çallam, su gəlsin,
Balamın yuxusu gəlsin.
Güllərdən, çiçəklərdən.
Körpəmin qoxusu gəlsin.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Layla çallam həmişə,

Araba gedər yemişə.
Yastığında gül bitsin,
Yorğanında bənövşə.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Laylası var – aşı, daşı,
Məməsi var – mərmər daşı.
Anası qaravaş,
Atası çöllər quşu,
Layla, balam, layla,
Əziz balam, layla!

***

Sən yatasan beşikdə,
Mən oturum keşikdə.
Qul-qaravaş eşikdə,
Gözüm qalıb beşikdə.
Layla, balam, layla,
Əziz balam, layla!

***

Sənə qurban ellərdən,
Küləklərdən, yellərdən.
Allah balamı saxlasın
Ağır aylar, illərdən.
Layla, balam, layla,
Əziz balam, layla.

***

Yatsın laylamla balam,
Mən də yuxumu alam.
Qoy çaylar layla desin,
Balamla rahat qalam.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

***

Laylayım bir quş idi,
Hasara qonmuş idi.
Əl uzatdım tutmağa,
Mələklər tutmuş idi.
Layla, balam, layla,
Əziz balam, layla.

***

Gül qoxur balam, layla,
Oynar ulduzla, Ayla.
Yatar həzin laylayla,
Durar səslə, harayla.
Balam laylay, a laylay,
Gülüm laylay, a laylay.

## OYATMALAR

Oxunur əzan bala,
Dur geyin, bəzən, bala.
Boyuna anan qurban,
Tappatap gəzən bala.

***

Sənə nolubdu, bala,
Rəngin solubdu, bala?
Oyan bir gül yuxundan,
Məməm dolubdu, bala.

***

Bağçamızda miyana,
Gül sünbülə dayana,
Oxu, bülbülüm, oxu,
Bəlkə balam oyana.

***

Laylay dedim, can balam,
Mən sənə qurban, balam.
Bir belə yatmaq olmaz,
Dur, açılır dan balam.

***

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim.
Sən yuxudan durunca
Canımı qurban dedim.

***

Məni oyaq qoyan sən,
Qızılgülə boyan sən.
Öpüm qara gözündən,
Bəsdir yatdın, oyan sən.

***

Bayram bayramın olsun,
Ellər heyranın olsun.
Niyə belə çox yatdın?
Anan qurbanın olsun.

***

Laylay dedim, ay mələr,
Bulud altdan ay mələr.
Gözlərin açan kimi
Məmə deyə, ay mələr.

**ARZULAMALAR**

Bürünüb dona bülbül,
Köç edər sona bülbül.
Balam dil açan günü
Mat qalar ana bülbül.

***

Mənim gül butam oğul,
Ətrinə batam, oğul.
Bir arzum var ürəkdə
Toyunu tutam, oğul.

***

Qızılgül bağın olsun,
Bağlar oylağın oolsun.
Tanrıdan arzum budur,
At minən çağın olsun.

***

Bağçamızda bar olsun,
Heyva olsun, nar olsun,
Sən ayaq aç, gəz, dolan,
Düşmən görsün, xar olsun.

***

Bala, ömrün çox olsun,
Könlün, gözün tox olsun.
Sənə layla çağırım,
Düşmənlərin yox olsun.

***

Sözü sözdən alan var,
Zülfün üzə salan var.
Əziz oğlum, tez böyü,
Gözü yolda qalan var.

***

Laylay çalım adına,
Allah çatsın dadıma.
Yekə oğlan olanda
Ananı sal yadına.

***

Arzuma çatdım, laylay,
Balalı yatdım, laylay.
Kaş at çapan görəydim,
Yoxsa mən batdım, laylay.

***

Laylay dedim səninçün,
Sən qalasan mənimçün.
Arxamı söykəyəndə
Dağ olasan mənimçün.

***

Bir gül əkdim boyunca,
İyləmədim doyunca.
Ömrüm–günüm uzansın
Bu balamın toyunca.

***

Layla çallam adına,
Allah yetsin dadına.
Öpüm al yanağınnan,

Tamarzıyam dadına.

***
Əlində var hanası,
Qulağında tanası,
Bir toyunu görəydim,
Olaydım bəy anası.

***
Boya-buxuna dol, gəz,
Boynuna dola qol, gəz.
Cavanları sirəmində
Sən də bir igid ol, gəz.

***
Oxşasın dilim səni,
Böyutsün elim səni,
Meydanda at oynadan
Bir igid bilim səni.

***
Qızılgül butam, laylay
Ətrinə batam, laylay.
Balam ərsəyə gələ,
Toyunu tutam, laylay.

***
Laylay maralım, laylay,
Səbrim, qəralım, laylay.
Böyük, qoç bir igid ol,
Sənə yar alım laylay,

***
Nərgizi üzüm laylay,
Yaxana düzüm laylay,
Sən böyü, mən qocalım,
Toyunda süzüm, laylay.

***
Laylay dedim, gül balam,
Ay mənim bülbül, balam.
Mən sevindim səninlə,
Sən də sevin, gül balam.

***
Laylay dedim ürəkdən,
Qolum düşdü biləkdən,
Boy, at, igid, cavan ol,
Məni salma diləkdən.

***
Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən.
Qurban olum o günə,
Ayaq tutub gəzəsən.

***
Əziziyəm, zirəsən,
Zəfəranəsən, zirəsən.
Qurban olum o günə,
Bir qapıdan girəsən.

***
Laylası dərin bala,

Yuxusu sərin bala.
Tanrıdan əhdim budur,
Toyunu görüm bala.

***

Laylay, quzum, ağlama,
Ürəyimi dağlama.
Böyü, bir qoç igid ol,
Mənə ümid bağlama.

***

Laylay dedim boyunca,
Baş yastığa qoyunca.
Pradaxlan, qızılgülüm,
Bir iyləyim doyunca.

***

Balama can demişəm,
Ağlama, can demişəm.
Balam dil açan günə
Quzu qurban demişəm.

***

Bağçalar bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə danış, din,
Ürəyim dağa dönsün.

***

Balam kiçikdi,
– qoy böyük olsun!
Dörd yanını güllər bürüsün.
Layla deyim, sən yatasan,
Qızılgüllərə batasan.
Layla, balam, layla!

**BƏNZƏTMƏLƏR**

Laylay, bülbülüm, laylay,
Sarı sünbülüm laylay.
Bağçalarda gül çoxdur,
Bir qızılgülüm laylay.

***

Dağlarda lalam sənsən,
Alınmaz qalam sənsən.
Kimim yox, kimsənəm yox,
Bir şirin balam sənsən.

***

Laylay mənim bəbəyim,
Bir arzum, bir diləyim.
Bəd gündə, bəd ayaqda
Sənsən mənim köməyim.

***

Ay şirin dilli balam,
Saçı kəkilli balam.
Cahıl–cuhul içində
Mənim şəkilli balam.

***

Balam, gəl soyun görüm,
Sərvi tək boyun görüm.
Tanrıdan arzum budur,
Balamın toyun görüm.

***

Oğul, gəl, yarağımsan,
Güzgümsən, darağımsan.
Hər gün lazım olmasan,
Dar gündə gərəyimsən.

***

Eni gül–çiçək olsun,
Yarpağı ləçək olsun.
Bir bala göstərin ki,
Balamdan göyçək olsun.

***

Dağ başında qar yağar,
Bulud keçər, ay doğar.
Sənin tək ay parçasın
Analar tək-tək doğar.

***

Elin dərdi azardır,
Dərddən, qəmdən bezardır.
Bala baldan şirindir,
Balasız ev məzardır.

***

Bala dadı bal dadır,
Bala adamı aldadır.
Yaxşısına mən qurban,
Pisi yenə bal dadır.

***

Göydə ulduz naşıdı,
Balamın on yaşıdı?

Qız gözümün qarası,
Oğlan ürək başıdı.

***
Bağda bülbül oxuyur,
Saça sünbül toxuyur.
Balamı iyləyərəm,
Elə bil gül qoxuyur.

***
Sənə gül deməræm, bala,
Gülün ömrü az olar.
Sənə quzu deməræm, bala,
Quzu qurbanlıq olur.

***
Oğlum dağ biləklidi,
Arzulu, diləklidi.
Harda igid, mərd görsəz,
Bu balamın şəklidi.

***
Yükü şələlø deyim,
Sənə gül, lalə deyim.
Şəlalə gur səslidir,
Balama şəlalə deyim.

***
Fırfırasan, dur, bala,
Ananla otur, bala.
Ceyran olub qaçarsan,
Mənlə məclis qur, bala.

***
İşim, gücüm bucağa, balam,
Şəkərim gəlsin qucağa, balam.
Gəbə toxusam, palaz olar, balam,
Böyüsən, dərdim çox az olar, balam.

***
Sazaq bitər, yaz olar,
Bala, könlün saz olar.
Sənə gül deməræm mən,
Gülün ömrü az olar.

***
Gül olma, çox tez solur,
Ömrü bir anlıq olur.
Bala, quzu da olma,
Quzu qurbanlıq olur.

## ƏYLƏNDİRMƏLƏR (BƏSLƏMƏLƏR)

Yol üstə bulaq ollam,
Axaram bulaq ollam.
Sən mənim bir dənəmsən,
Özüm göz-qulaq ollam.

***

Qaya mənəm, daş mənəm,
Daş üstə bulaq mənəm.
Arxam yox, köməyim yox.
Sənə göz-qulaq mənəm.

***

Bəslərəm ay parçasın,
Almışam toy parçasın.
Allahım yetirəcək
Üzüyüylə xonçasın.

***

Sınıq qol ha, sınıq qol,
Aş bişirər sınıq qol.
Atım-tutum mən səni,
Şəkərə qatım mən səni.

***

Obalar, obanız olsun,
Bir belə balanız olsun,
Hamıda beş-beş olsun,
Qoy bizdə on beş olsun.

***

Obalar, köçün yurdumuzdan,
Balam da düşsün ardınızdan.
Öküzünüzə «hoş» desin,
Toyuğunuza kiş desin.

***

Bağçalar bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə danış, din,
Ürəyim dağa dönsün.

## ALQIŞ LAYLALAR

Laylay dedim, biləsən,
Düşməyəsən dilə sən.
Boya-buxuna çatıb
Oynayasan, güləsən,

***

Bu yerlər qalın meşə,
Yanımda ol həmişə.
Aranında gül bitsin,
Yaylağında bənövşə.

***

Oğul, min budağ ol sən,
Gözümdə bu dağ ol sən.
Südümü halal etdin,
Hər an üzüağ ol sən.

***

Laylay çaldım həmişə,
Karvan enər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

***

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budu,
Dəyməsin nəzər sənə.

***

Dolansın el başına,
Sancılsın gül başına.
Səni istəməyənlər,
Qalmasın il başına.

***

Laylay dedim ucadan,
Çıxsın səsim bacadan.
Tanrı səni saxlasın,
Boğmadan, qızılcadan.

***

Qalalar qalan olsun,
Qadanı alan olsun.
Balam at belindədi,
Dost-duşman yalan olsun.

***

Sən murada yetəsən,
Sana, ada yetəsən.
Duşmanın qabağından
Mərd-mərdanə ötəsən.

## QARĞIŞ LAYLALAR

Laylay, a balam, laylay,
Alınmaz qalam, laylay.
Sənə gəc baxanları
Yandırsın nalam, laylay.

***

Ürəzliksən, havasan,
Hər bir dərdə davasan.
Balama gəc baxanın
Gözlərini ovasan.

***

Qızılgülün çanağı,
Astanalar torpağı,
Kim balamı istəməz
Gözünə bibər yarpağı.

***

Qızdı, qızılgül yarpağı,
Astanalar torpağı,
Hər kəs bunu istəsə,
Gözünə bibər yarpağı.

***

Balamın boyun görüm,
Büsatın, toyun görüm,
Qarasınca danışan,
Qazılsın quyun, görüm.

***

Balam dağlarda qaldı,
Bilmirəm harda qaldı?
Onun canına qıyma,
Al bu canı, halaldı.

***

Dolansın el başına,
Sancılsın gül başına.
Səni istəməyənlər
Qalmasın, il başına.

## İNAM VƏ ETİQADLARLA BAĞLI OLAN LAYLALAR

Quşlar uçdu havada,
Balası var yuvada.
Gözüm bəndivandadır,
Dilim sənə duvada.

***

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.

***

Mən aşiq, quzu qurban,
Qoç qurban, quzu qurban,
Hər sabah boyun görsəm,
Kəsərəm quzu qurban.

***

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim balam körpədir,
Saxlasın pərvərdigar.

***

Sən tanrı amanatı,
Sürürsən yaman atı.
Balamı Xızır göndərib,
Ona borclu həyatı.

***

Qaynatamdı bu dağlar,
Balama bir gün ağlar.
Qoruyar hər xətərdən,
Düşmənin yolun bağlar.

***

Balam qurbanla gəldi,
Xoruzlar banla gəldi.
Oğluma bəd baxanın
Köynəyi qanla gəldi.

## ŞİKAYƏT LAYLALAR

Laylay dedim yatınca,
Gözlərəm ay batınca.
Canım zinhara gəldi,
Sən hasilə çatınca.

***

Yaralıyam, yazığam,
Dərddən qəlbi qazığam.
Mən ölsəm sənə qurban,
Sən ölmə, mən yazığam.

***

Qoçaqdı, şirdi balam,
Qiblədi, pirdi balam.
Gəl fələk, qıyma mənə,
Yazığam, birdi balam.

***

Laylay dedim, ağlama,
Ürəyimi dağlama.
Böyü bir qoç igid ol,
Mənə ümid bağlama.

***

Laylay quzum, ağlama,
Ürəyimi dağlama.
Yat, yuxun şirin olsun,
Yuxuma daş bağlama.

***

Laylay dedim adına,
Haqq yetişsin dadıma.
Hər vaxt layla deyəndə
Balam düşür yadıma.

***

Balam var, uca başım,
Kiməsə ağır daşım.
Allah səni veribdi
Olubsan yar-yoldaşım.

***

Laylay dedim mən sənə,
Sən ol gəl qardaş mənə.
Qərib, qürbət yerlərdə
Tapmıram bir kimsənə.

***

Laylay dedim yatasan,
Böyüyüb naz satasan.
Mən yarıma çatmadım,
Sən yarına çatasan.

***

Gül idim dərilməzdim,
Yad evə sərilməzdim,
Balam əlimdən çıxsa,
Ölərdim, dirilməzdim.

***

Dağlar başı qar oldu,
Yad ev mənə dar oldu.
Ərim kaftar olsa da,

Balam mənə yar oldu.

***

Gəlib məni gör indi,
Yediyim qan, irindi.
O yarı unutmazdım,
Balam yaman şirindi.

**QURBANLIQLAR**

Yolun gedir dolama,
Gəlir bizə salama.
Obalar qurban olsun,
Mənim bircə balama.

***

Laylay toyun qurbanı,
Kəsim qoyun qurbanı.
Sən yeri bir, mən baxım,
Olum boyun qurbanı.

***

Qurban aran, dağ sənə,
Güllü bağça, bağ sənə.
A layla, oğlum, layla,
Tutmuşam qaymaq sənə.

***

Şan bağlayan arılar,
Qonar gülə, sarılar.
Balama qurban olsun,
Yaşı ötmüş qarılar.

***

Bala demə, qan olar,
Yel əsər, tufan olar,
Bala gəzən yerlərə
Analar qurban olar.

***

Şan bağlayır arılar,

Qonar gülə, sarılar.
Balama qurban olsun,
Yaşı ötmüş qarılar.

***
Laylay dedim düz, barı,
Gəl dərdimi üz, barı.
Balama qurban olsun
Yüz dul arvad, yüz qarı.

***
Əziziyəm şonqarı,
Dülgər yonar yonqarı.
Balama qurban olsun,
Doqquz qoca, on qarı.

***
Mən gördüm haçan günü,
Dağlardan qaçan günü,
On iki qurban kəsim
Balam dil açan günü.

***
Yolun gedir dolama,
Gəlir bizə salam.
Obalar qurban olsun
Mənim bircə balama.

***
Dağların lalasına,
Qaşların lalasına,
Analar qurban olsun
Öz körpə balasına.

***
Qurban aran, dağ sənə,
Güllü baxça bağ sənə.
A laylay, oğlum, laylay,
Tutmuşam qaymaq sənə.

***
Laylay balam can balam,
Mən sənə qurban balam.
Ağlayıban könlümü
Gəl eyləmə qan balam.

***
Dərya ollam, bulannam,
Sucaq ollam, sulannam.
Sağ gözüm sənə qurban,
Sol gözümnən dolannam.

***
Mən bu dərddən ölmərəm,
Dərdi dərdə bölmərəm.
Əziz canımdan dönsəm,
Bir balamdan dönərəm.

***
Laylayım, sözüm qurban,
Ağlasan gözüm qurban.
Böyü, boya-başa çat,
Boyuna özüm qurban.

***
Balasan, birdənəsən,
Sədəfsən, dürdanəsən.
Mən ölsəm sənə qurban,
Sən ölmə birdənəsn.

***
Qurbanın quzu olsun,
Quzunun yüzü olsun.
Quzudan qurban olmaz,
Ananın özü olsun.

***
Balama quzu qurban,
Qoç qurban, quzu qurban.
Hər gün boyun görməsəm,
Kəsərəm quzu qurban.

***
Balam qurbanla gəldi,
Xoruzlar banla gəldi.
Oğluma kəm baxanlar,
Köynəyi qanla gəldi.

## QARIŞIQ MƏZMUNLU LAYLALAR

Laylay dedim adına,
Haqq yetişsin dadına.
Hər vaxt layla deyəndə,
Balam düşər yadıma.

***
Laylay dedim adına,
Haqq yetişsin dadına,
Boya başa çatanda,
Məni də sal yadına.

***
Bir gül əkdim boyunca,
İyləmədim doyunca.
Ömrüm günüm uzansın,
Bu balamın toyunca.

***
Laylay, balam, can balam,
Mən sənə qurban balam.
Ağlayıban könlümü
Gəl eyləmə qan, balam.

***
Yol üstə bulaq ollam,
Axaram, bulaq ollam.
Sən mənim bir dənəmsən,
Özüm göz-qulaq ollam.

***
Qərənfiləm, qalxaram,
Açılmağa qorxaram.
Gecə cıqqırın çıxsa,
Yerimnən dik qalxaram.

***
Mən bu dərddən ölmərəm,
Dərdi dərdə bölmərəm.
Əziz canımdan dönsəm,
Bir balamdan dönmərəm.

***
Qaya mənəm, dağ mənəm,
Dağ üstə bulaq mənəm.
Arxan yox, köməyin yox,
Sənə göz-qulaq mənəm.

***
Mən aşiq, quzu qurban,
Qoç qurban, quzu qurban.
Hər sabah boyun görsəm,
Kəsərəm quzu qurban.

***
Gözümün qarasınnan,
Yaş axar arasınnan.
Adam da əl çəkərmi,
Öz ciyərparasından?

***
Laylay dedim ürəkdən.
Qolum düşdü biləkdən.
Boy at, igid, cavan ol,
Məni salma diləkdən.

***
Balamı tanıram mən,
Hər sözün qanıram mən.
Yuxuda ah çəkəndə,
Od tutub yanıram mən.

***
Laylay deyim carçı mən,
Harayçı mən, carçı mən.
Toy günündə olaydım
Küçələrdə carçı mən.

***
Dərya dolu lilinən,
Balam oynar gülinən,
Aləmə can bağışlar,
Məni saxlar dilinən.

***
Balamsan sən, nəyimsən?
Arxamsan, köməyimsən.
Mən sənin əziz anan,
Sən mənim diləyimsən.

***
Əzizim, hay mənimçün,
Verəydin pay mənimçün.
Mən ölsəm, sənə qurban,

Sən ölsən, vay mənimçün.

***

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Layla deyin balama,
Qoy yatsın, oyatmayın.

***

Maral gəzər talasın,
Üzər gülün, lalasın.
Mən balamı istərəm,
Balam istər balasın.

***

Dağ başında qalam var,
Ürəyimdə nalam var.
Xalxın dövləti, varı,
Mənim də bir balam var.

***

Dağ başına qar yağar,
Bulud keçər, Ay doğar.
Sənin tək ay parçasın
Analar tək–tək doğar.

***

Dağlara sərin düşər,
Kölgəsi dərin düşər.
Hər vaxt layla deyəndə,
Yadıma Pərim düşər.

***

Bala dadı, bal dadır,
Bala adamı aldadır.
Şirin sözün, söhbətin,
Hələ sənin daldadır.

***

Elin dərdi azardır,
Dərddən, qəmdən bezardır.
Bala baldan şirindir,
Balasız ev məzardır.

***

Ay doğdu yana döndü,
Ulduzlar sana döndü.
Bala dərdin çəkməkdən,
Ürəyim qana döndü.

***

Balamın əl yaylığı,
Ortası zər yaylığı.
Hərə bir kərə desin
Balama can sağlığı.

***

Göydən bir ulduz axdı,
Axdı getdi, qonaxdı.
Ana bala ucundan
Canını oda yaxdı.

***

Göydə ulduz naşıdı,

Kim balamın yaşıdı.
Qız gözümün qarası,
Oğlan ürək başıdı.

***

Atım, tutum bu balanı,
Şəkərə qatım bu balanı.
Atası evə gələndə
Qabağa tutum bu balanı.

***

Laylay deyim düz, barı,
Gəl dərdimi üz barı.
Balama qurban olsun
Yüz dul arvad, yüz qarı.

***

Canım bala, gül bala,
Ana qədrin bil, bala.
Yaman günün gərəyi,
Çağıranda gəl, bala.

***

Bağçamızda miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə balam oyana.

***

Oxşasın dilim səni,
Böyütsün elim səni.
Meydanda at oynadan
Bir igid bilim səni.

***

Mən sənə qalam deyim,
Gül deyim, lalam deyim.
Yat, incitmə ananı,
Sağ olsun balam deyim.

***

Laylayım, sözüm qurban,
Qoç qurban, quzu qurban.
Hər səhər üzün görsəm,
Kəsərəm quzu qurban.

***

Məni oyaq qoyan sən,
Qızılgülə boyan sən,
Öpüm qara gözündən,
Bəsdir yatdın, oyan sən.

***

Ağlama, cırtdan bala,
Ağır yoğurtdan bala.
Gedim unu ələyim,
Gəlim səni bələyim,
Laylay, bala, a laylay.

***

Oyaq qallam yatınca,
Gözlərəm Ay batınca.
Qolumu yastıq edərəm.
Sən hasilə çatınca.

Layla balam, a layla,
Layla gülüm, a layla.

***

Ömrə yaraşıq balam,
Laylama aşıq balam,
Gözümə işıq balam,
Laylay, balam, a laylay,
Şirin dillim, a laylay.

***

Qızılgülə batmısan,
Hər gün bir boy atmısan.
Bir yaşına çatmısan,
Laylay, balam, a laylay,
Şirin dillim, a laylay.

***

Laylay, hər kəsim, laylay,
Sənə nər kəsim, laylay.
Yat yuxun şirin olsun,
Ucalsın səsin, laylay.

***

Layla, layla edərəm,
Laylanı haxtan dilərəm.
Səni verən xudadan
Can sağlığı dilərəm.
Laylay, balam, a laylay,
Şirin dillim, a laylay.

***

Sən ömrümün gülüsən,
Baxçamın sünbülüsən.
Gül dodağın güləndə
Neyləyirsən gülü sən?
Laylay, balam a laylay.

***

Layla dadı, bal dadı,
Layla məni aldadır.
Nə balda, nə şəkərdə
Tapılmaz layla dadı.

***

Laylay, laylay deyərəm,
Laylayı haqdan dilərəm.
Səni verən Allahdan
Can sağlığı dilərəm.

***

Laylay deyim adına,
Əli yetsin dadına.
Əli dadına yetəndə
Nənəni sal yadına.

***

Laylay, bülbülüm, laylay,
Sarı sünbülüm, laylay.
Bağçalarda gül çoxdur,
Bir qızılgülüm, laylay.

***

Laylayım quşlar olsun,
Dağda dərvişlər olsun.

Zərgərin çoxlu gəlsin,
Otağın gümüşdən olsun.

***
Layalay dərdin alım, yat,
Ürəyimə salım, yat.
Sən bat şirin yuxuya,
Mənsə oyaq qalım, yat.

***
Laylay dedim ürəkdən,
Əlin çıxır bələkdən.
Sinəm ilə saxlaram
Səni qardan, küləkdən.

***
Laylay mənim bal balam,
Tütək götür çal, balam.
Sən hamıdan gözəlsən,
Yanağında xal balam.

***
Laylay atam balası,
Ayın - günün parası.
Mən sənə qurban olum.
Gözüm ağı - qarası.

***
Göyçək balam, a laylay,
Çiçək balam, a laylay.
Qönçə dolu butasan,
Hər kamına çatasan.

***
Qızılı şah budağın
Kölgəsində yatasan.
Ay bala, bəndim, laylay,
Şəkərim, qəndim, laylay.

***
Gül dolu taxtın olsun,
Qızıldan baxtın olsun,
Qardaşının toyunda,
Oynayan vaxtın olsun.
Laylay, göyçəyim laylay,
Gülüm, çiçəyim laylay.

***
Bala, ömrün çox olsun,
Könlün, gözün tox olsun,
Sənə layla çalırım,
Düşmənlərin yox olsun.

***
Laylanın adı nədir?
Şəkərdən dadı nədir?
Çağırıram, səs verməz,
Bilmirəm, dərdi nədir?

## OXŞAMALAR

Balama qurban kildaçar,
Balam nə vaxt dil açar?

***
Balama qurban ilməklər,
Balam nə vaxt iməklər?

***
Balama qurban meyvələr.
Balam haçan evlənər?

***
Balama qurban gül, bağlar,
Balam nə vaxt oynaqlar?

***
Balama qurban buzovlar?
Balam nə vaxt quş ovlar?

***
Balama qurban buzolar,
Balam nə vaxt bəy olar?

***
Balama qurban xalçalar,
Balam nə vaxt əl çalar?

***
Balama qurban ilanlar,
Balam nə vaxt dil anlar?

***
Balama qurban yağılar,
Balamı tutun, yıxılar.

***
Balama qurban oymaqlar,
Balam haçan oynaqlar?

***
Balama qurban noğullar,
Balam haçan yuxular?

***
Balama qurban cüyürlər,
Balam nə vaxt yüyürər?

***
Balama qurban inəklər,
Balam haçan iməklər?

***
Balama qurban atası,
Alsın gəlin fatası.

***
Balama qurban qocalar,
Balam nə vaxt ucalar?

***
Balama qurban nənəsi,

Balam inci dənəsi.

***

Ay qara milçək,
Balamdan əl çək.

***

Oğlan ürəkdi,
Qız dirəkdi.

***

Balam, balam, bal kimi,
Balam şəkər, bal kimi.

***

Göydəki quşlar bu balama
qurban,
Yağan yağışlar bu balama
qurban.

***

Kişnəyən atlar bu balama
qurban,
Sonsuz arvadlar bu balama
qurbanş

***

Həyətdə itlər bu balama
qurban.
Meşədə quşlar bu balama
qurban.

***

Səni verənə qurban,
Məmə görənə qurban.
Demişdim bir xoruz ver,
Fərə verənə qurban.

***

A tostana, tostana,
Gedib girmə bostana.
Bostana yağış yağır,
Qorxuram, balam istana.

***

Bala dadı bal dadır,
Bala adamı aldadır.
Şirin sözün-söhbətin
Hələ sənin daldadır.

***

Balacasan, məzəsən,
Sən hər şeydən təzəsən.
O günə qurban olum,
Yeriyəsən, gəzəsən.

***

Dağda meşəlik,
Gül, bənövşəlik.
Mən həmişəlik
Bu balama qurban.

***

Çaydır, dənizdir,

Quldur, kənizdir.
Balam hər nədir,
Mənə əzizdir.

***
Gördüm nalasın,
Çəkdim bəlasın.
Balam da istər
Körpə balasın.

***
Çalxan-çalxan yağ olsun,
Balam yeyib sağ olsun.
Qızılgül bağın olsun,
Bağlar oylağın olsun.
Tanrıdan arzum budur,
At minən çağın olsun.

***
Tükəndi ahım,
Yoxdur günahım.
Balam böyüsə,
Odur pənahım.
***
Qız bir maraldır.
Gözlər qaraldır.
Həsrət çəkənin
Rəngin saraldır.
***
Göydə ulduzlar,
Şaxtalı buzlar.
Cehizsiz qızlar,
Bu balama qurban.

***
Tüstüsüz damlar,
Sarı badamlar.
Tənbəl adamlar,
Bu balama qurban.

***
Oğlan ürəkdir,
Qızıl dirəkdir.
Alın, saxlayın,
Bizə gərəkdir.

***
Dağda darılar,
Sünbül sarılar.
Qoca qarılar
Bu balama qurban!

***
Odun yığanlar,
Bir-birin boğanlar,
Oğlan doğanlar
Bu balama qurban!

***
Bir bölük atlar,
Atlar göy otlar.
Ərsiz arvadlar
Bu balama qurban!

***
Tüstüsüz damlar,
Sarı badamlar,
Tənbəl adamlar
Bu balama qurban.

***
Çaydakı qazlar
Tükün tarazlar.
Nişanlı qızlar
Bu balama qurban.

***
Göydə ulduzlar,
Şaxtalı buzlar,
Cehizsiz qızlar
Bu balama qurban.

***
Dağda meşəlik,
Gül, bənövşəlik,
Mən həmişəlik
Bu balama qurban.

***
Çaydır, dənizdir,
Quldur, kənizdir,
Balam hər nədir,
Mənə əzizdir.

***
Gördüm nalasın,
Çəkdim bəlasın.
Balam da istər
Körpə balasın.

***
Dağdakı atlar,
Quyruğun qatlar.
Göyçək arvadlar
Bu balama qurban.

***
Bir bölük atlar,
Çəməndə otlar,
Ərsiz arvadlar
Bu balama qurban.

***
Ağardı başım,
Yoxdu sirdaşım.
Qohum-qardaşım
Bu balama qurban.

***
Dağda inəklər,
Otlar, iməklər.
Xonçalı bəylər
Bu balama qurban.

***
Çəkdim cəfasın,
Gördüm vəfasın.
Böyüdüm onu,

Sürüm səfasın.

***
Tükəndi ahım,
Yoxdur günahım.
Balam böyüsün,
Odur pənahım.

***
Oğul ürəkdir,
Qızıl dirəkdir.
Götürün saxlayın,
Qıza gərəkdir.

***
Qız bir maraldır,
Gözdə qaraldır.
Həsrət çəkənin
Rəngin saraldır.

***
Yolun gedir dolama,
Gəlir bizə salama.
Obalar qurban olsun
Mənim bircə balama.

***
Balamın əl yaylığı,
Ortası zər yaylığı.
Hərə bir dəfə desin
Balama can sağlığı.

***
Əlində var hanası,
Qulağında tanası.
Bir toyunu görəydim,
Olaydım bəy anası.

***
Tuluq səni asaydım,
Yağın tasa basaydım.
Oğlum böyük olanda
Qulplu qazan asaydım.

***
Şan bağlayan arılar,
Qonar gülə, sarılar.
Balama qurban olsun
Yaşı ötmüş qarılar.

***
Öldüm ahunun dərdindən,
Əncir qaxının dərdindən.
Arvadlar oğlan doğur
Mənim qızımın dərdindən.

***
Ay Allah, bundan üç dənə
ver,
Üç dənə vermə, beş dənə
ver.
Həsrətin çəkmişlərə ver,
Alı-gülü solmuşlara ver.

***

Çapan çalan əlləri,
Ağrımasın qolları.
Ağrısa da, ağrısın,
Özgələrin əlləri.

***

A Tanrı, bundan beş dənə ver,
Göydən uçan quşlara ver.
Qarımış, qocalmışlara ver,
Evində qalmışlara ver.

***

Dağda darılar,
Sünbülü sarılar.
Qoca qarılar
Bu balama qurban.

***

Dağın maralı,
Gözü qaralı.
Dünyanın malı
Bu balama qurban.

***

Dağda arılar,
Şanın yarılar.
Qoca qarılar,
Bu balama qurban.

***

Tüstüsüz damlar,
Sarı badamlar.
Tənbəl adamlar
Bu balama qurban.

***

Çəkdim cəfasın,
Gördüm vəfasın.
Böyütdüm onu
Sürüm səfasın.

***

Min tümən azdır,
Qızdır, o nazdır.
Verin balamı,
Halı nasazdır.

***

Dərya, dibin dərindir,
Suyun necə sərindir.
Ata-ana əzizdir,
Bala candan şirindir.

***

Hacılar hacısı,
Şəhərin qazısı,
Balaca bacısı
Bu balama qurban.

***

Xalalar xalası,

Göllərin sonası,
Gəlinimin anası
Bu balama qurban.

***
Bazarda qazlar,
Ördəklər, qazlar,
Nişanlı qızlar
Bu balama qurban.

***
Hanalar hanası,
Əllərin xınası,
Balamın xalası
Bu balama qurban.

***
Yumurtanın sarısı,
Meşələrin ayısı,
Balaca dayısı
Bu balama qurban.

***
Buğda zəmisi,
Ellərin dəlisi,
Balaca əmisi
Bu balama qurban.

***
Sözümün əzəli,
Dilimin qəzəli,
Qızların gözəli
Bu balama qurban.
***
A dağdağannar,
Bülbül boğannar,
Oğlan doğannar,
Bu balama qurban.

***
Sudan sel iyi gəlir,
Daşdan gil iyi gəlir.
Ay mənim bircə balam,
Səndən gül iyi gəlir.

***
Nar budağın əyəndə,
Ucu yerə dəyəndə.
Bir qoç qurban kəsəcəm,
Balam, ana, deyəndə.

***
Balamın balasına,
Odun yığar şələsinə.
Gətirər verər nənəsinə.
Nənəsi qoyar ocağına,
Balasın alar qucağına.

***
Evlərdə beş-beş olsun,
Bizim əvdə on beş olsun.
Biz də xalxa paylıyax,
Xalxın xətri xoş olsun.

***
Ay nazdara, nazdara,
Dən səpirəm qazdara.
Qazdar dənin yeyincə
Sataşıram qızdara.

***
Ay mənim çiçək balam,
Çiçəyində ləçək balam.
Hamıdan göyçək balam,
Naz çiçəyim, yaz çiçəyim.
***
Bostanda sarmaşıx,
Bostana yaraşıx.
Məclisdəki aşıx
Bu balama qurban.

***
Dınqılı-dınqılı darıdı,
Dınqılı gözü sarıdı.
Gəzər əvdə, həyətdə
Dokquz ayın barıdı.

***
Dərdin alım,
Dördün alım.
Qızdarınsa
Dördün alım.

***
Dodağı gül qaymağı,
Yığıb yeməyim gəlir.
Burnu Xorasan fındığı,
Sındırıb yeməyim gəlir.

***
Gözləri qəynər bulax,
Əyilib içməyim gəlir.
Qaşları qara qələm,
Götürüb yazmağım gəlir.
***
Nəvəmə kim qurban?
Hüseynalı xan qurban.
Arvadı Zalxa qurban,
Qızı Züleyxa qurban,
Bacısı Teyfə qurban,
Gəlini Zübeydə qurban,

***
Bülbül balam, gül balam,
Qənd balam, şəkər balam.
Gəl kənarda durum,
Gəl üzümdən öp, balam.

***
Buralardı qəmxana,
Həyətimiz seyranxana.
Tökülə gilas yarpağı,
Balam gələ yayxana.

***
Bir çay vardır Həkəri,
Bir el vardır köçəri.
Ya rəbb, balam böyüsün,

Olsun düşmən çəpəri.

***

Gözümün qarasısan,
Qəlbimin parasısan.
Boy at, boyuna qurban,
Balamın balasısan.

***

Yurd yox, taladan savay,
Gül yox, laladan savay.
Anaya nə əzizdir
Körpə baladan savay?

***

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.

***

Bu kimdi gələn,
Turp ilə kələm.
Anandı gələn?
Bacındı gələn?

***

Balam yatar axşamdan,
Yuxudan durar o başdan.
Balam oturar qucaqda,
İşimiz qalar bucaqda.

***

Balama dil demişəm,
Ağlama, gül demişəm.
Balam dil açan günə
Quzu qurban demişəm.

***

Tarı, bundan beşini ver,
Beşini ver, on beşini ver.
Hamıya on beşin verəndə
Bizə iyirmi beşini ver.

***

Şəki şamaması,
Xorasan alması,
Süd doğraması,
Camış xaması
Bu balama qurban.

***

Ay Tanrı,
Gəl bacadan bax barı.
Hər kəs balamı istəməsə,
Evini tez yıx barı.

***

Yatmışdım, oyanmışam,
Yastığa dayanmışam.
O qədər layla deyib
Yorulub dayanmışam.

***

Əlində qayçı
Kürəkdə saçı.
İtdən qaraçı
Mənim balamdı.
***
Əlində sülü,
Sülü, bülbülü.
Qızların gülü,
Mənim balamdı.

***
Əlində tikə,
Dayandı yükə.
Bir burnu yekə
Mənim balamdı.

***
Tanrı, bunun tayını ver,
Oxunu gizlət, yayını ver.
Olanlarınkın saxla,
Olmayanların payını ver.

***
Başımın al yaylığı,
Ortası zər yaylığı.
Hərə bir kərə desin
Balama can sağlığı.

***
Ay Tanrı, ayanda saxla,
Yerini qayanda saxla.
Havıya bulud gələndə
Al qanadın altda saxla.

***
Oğlandı, oxdu,
Faydası çoxdu.
Götürün saxlayın,
Gərəyi çoxdu.

***
İşim iş olsun,
Göydə uçan quş olsun.
Məleykələr yoldaşım,
Hurilər bacım olsun.

***
Atıban tutdum səni,
Əcəb ovutdum səni.
Ömür üzdüm, cəfa çəkdim,
Şükür, böyütdüm səni.

***
Qızıma qurban olum mən,
Qızım nə vaxt yekələcək,
Nənəsinə su gətirəcək?

***
Nənəm layla eləsin,
Layla bilməz neyləsin?
Əgər layla bilməsə,
Beşik desin, bələsin.
***
Balam bulaqdan gəlir,

Əl-üzün yumaqdan gəlir.
Balama söz deməyin,
Telin daramaqdan gəlir.

***

Balam gəlir ellərdən,
Ətəyi dolu güllərdən.
Allah, balamı saxla
Yaman gözdən, dillərdən.

***

Dağların qarı mənəm,
Gün vursa, ərimənəm.
Balama layla deməkdən
Ölüncə yorulmanam.

***

Bala şirin,
Kim qatıb bala şirin.
Can hər şeydən şirindi,
Candan da bala şirin.

***

Qonağımsan, qonağım,
Çıraxta yanar yağım.
Ona xeyir gün deyəllər,
Sən olasan qonağım.

***

Əziziyəm yonqarı,
Dülgər yonar yonqarı.
Balama qurban olsun
Doqquz qoca, on qarı.

***

Laylay de, dolan ölməz,
Hər rəngi solan ölməz.
Sonsuzluq yaman şeydir,
Balası olan, ölməz.

***

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Qız gözümün qarası,
Oğlan ürək başıdı.

***

Obalar obamız olsun,
Nəticə, nəvəmiz olsun.
Sizin də mənim kimi
Bir belə balanız olsun.

***

Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Balam yuxusun alsın,
Anası durub keşikdə.

***

Dağda dağannar,
Sümbülü sağannar.
Oğlan doğannar
Bı balama qurban.

**TOY**

## OXŞAMALARI

***
Verdik bir dana,
Aldıq bir sona.
Ey əmim oğlu,
Qal yana-yana.

***
Verdik bir dana,
Aldıq bir sona.
Ay qız anası,
Qal yana-yana.

***
Qız gözə oxdur,
Dərd-səri çoxdur.
Götürün tullayın,
Bir xeyri yoxdur.

***
Adam adamı,
Oğlan adamı.
Qoy elçi gəlsin,
Alsın qadamı.

***
Heyvası, narı,
Bağların barı.
Bir düz ilqarlı
Gələr qızımçün.

***
Qızım, qızım,
Muncuğun düzüm.
O gün olsun, gəlin olasan,
Toyunda süzüm.

***
Güzgüdə düymə,
Tozunu silmə.
Xonçada tirmə,
Kəmər qızımçün.

***
Altında xalça,
Çalır kamança.
On dənə xonça
Gələr qızımçün.

***
Qızım qızlar içində,
Əyrisi var qıçında.
Qızıma elçi gələcək.
Açılan ay içində.

***
Mən çalım oyna,
Qurban boyuna.
El-oba gəlsin
Sənin toyuna.

***

Güzgüdə düymə,
Tozunu silmə.
Xonçada tirmə
Gələr qızımçün.

***
Nübar yanağı,
Gəzər oynağı.
Bir cüt qolbağı
Gələr qızımçün.

***
Altında xalça,
Çalır kamança.
On dənə xonça
Gələr qızımçün.

***
Ağmaya əllər,
Belində kəmər.
Qızıl düymələr
Gələr qızımçün.

***
Əlində var dəf,
Üstündə sədəf.
Bir zərli örpək
Gələr qızımçün.

***
Göydə gedən qaz,
Dimdiyi almaz.
Bir dənə naz-naz
Gələr qızımçün.

***
Badam badamı,
Oğlan adamı.
Qoy elçi gəlsin,
Alsın qadamı.

***
Ay qız adamı,
Sındır badamı.
Elçiyə çay ver,
Alım qadanı.

***
Yük üstə boxça,
Altında xalça.
Yüz dənə xonça,
Gələr qızımçün.

## DİLAÇMALAR

Ana soruşur:
– Bu nədir?
Körpə cavab verir:
– Qulaq.
Ana:
– Sənin dilinə
Biz qurban olaq.

***

– Bu nədi?
– Burun.
(uşağın burnundan tuturlar)
– Bir elə burun,
Bir belə burun.

***

– Bu nədi?
– Gözdür.
– Balam dediyi
Nə şirin sözdür.

***

– Bu nədi?
– Saçdır.
– Allah, balama
Sən tez dil açdır.

***

– Bunlar nə?
– Dişlər.
– Getsən həyətə,
Səni it dişlər.

***

– Bu nədi?
– Boyun.
– Əl çalaq, balam
Çıxarsın oyun.
(– Dur oyna, balam,
uzansın boyun.)

***

– Bu nədi?
– Ayaq.
– Oğlum yerisin,
Addımın sayaq.

***

– Bunlar nə?
– Gözlər.
– Dil açmağını
Anan çox gözlər.

## DİNDİRMƏLƏR

–Kirlənmisən, çimdirim,
Can, nənə qurban sənə,
–Ağlamısan, güldürüm,
Can, nənə qurban sənə.
–Səni vuranı öldürüm,
Can, nənə qurban sənə.

***

Bı kimdi, kimdi,
Telləri büküm-bükümdü,
Oo...oy telləri büküm-bükümdü.

***

Başaa dönüm baş-başı.
Lalaların yoldaşı.
O qızlar əvcih quracax haa,
Onda sən get onnara daş daşı.

***

Bunu dedim, biləsən,
Düşməyəsən dilə sən,
Boya-buxuna çatıb
Oynayasan, güləsən.

***

Balamsan sən, nəyimsən?
Arxamsan, köməyimsən.
Sən babanın, nənənin
Ürəyisən, könlüsən.

***

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrıdan əhdim budur,
Dəyməsin nəzər sənə.

***

Nazlasın dilim səni,
Böyütsün elim səni.
Meydanda at oynadan
Bir igid bilim səni.

***

Atın, tutun bu balanı,
Şəkərə qatın bu balanı.
Şəkərdən acı olsa,
Götürün atın bu balanı.

***

Canım bala, gül bala
Ana qədrin bil, bala.
Yaman günün gərəyi,
Çağıranda gəl, bala.

***

Şələsi şəkər, ay oğlan,
Nənəsinə nökər, ay oğlan.
Nənən boyuna qurban,
Tez böyü, yekəl, ay oğlan.

***

Cınqılı qızım, cınqılı qızım,
Bulaqların yarpızı qızım.
Bu gün-sabah nişan gələr.
Hər dərədən bir xan gələr,
Ənnihnən kirşan gələr,
Aparmağa soltan gələr.

***

Qızım, qızım,
Muncuğun düzüm.
O gün olsun,
Toyunda süzüm.

***

Evim-eşiyimsən,
Son beşiyimsən.
Dinim, imanımsan,
Ümid yerimsən,
Qafil qonağımsan.

***

Balamı dindirməy olmaz,
Dindirip güldürməy olmaz.
Balamın bu nənələri,
Şirin-şirin dilləri,
Bir cüt çəmən gülləri.
Qurban kəsdi əmiləri,
Yaşıllaşdı zəmiləri.
Balamı dindirməy olmaz,
Dindirip güldürməy olmaz.

***

Balam girib bucağa,
Örgənibdi qucağa.
Babası maşın göndərsin,
Balam gedir ocağa.
Balam quzu otarır,
Gedənnəri qaytarır.
Babası maşın yollasın,
Balam nəzir aparır.

## ÖYRƏTMƏLƏR

– Göydə nə var?
– Ay.
– Balam düz dedi,
Balama bir pay.

***

– Nə görürsən ?
– Dağ.
– Qızım düz dedi,
Qızıma bir pay.

***

– Bu nədi?
– Qoyun.
– Oğlum böyüsün,
El görsün toyun.

***

– Nə ağarır?
– Qar.
– Balam geyinsə,
Qar üstə oynar.

***

– Qarlı fəsil hansı?
– Qış..
– Balam düz tapdı.
Balama alqış.

***

– O kimdi?
– Nənə.
– Alma pay verin
Düz söz deyənə.

***

– O kimdi?
– Baba.
– Noğul gətirsin,
Töksün boşqaba.

***

– Hansı rəngdi?
– Sarı.
– Qızım yesin
Heyvaları.

***

Əvvəl körpənin barmaqlarının hərə-sinə bir ad qoyurlar:
Baş barmaq,
Başala barmaq.
Uzun Hacı,
Qıl turacı,
Xırdaca bacı.
Sonra onun ovuclarına işarə edib de-yirlər:
Burdan bir dovşan çıxdı.
(Barmaqlarını bir-bir qatladıqca da-vam edirlər).
Bu vurdu,
Bu tutdu,

Bu bişirdi,
Bu yedi,
Vay, bəbəyə qalmadı.

***

Təzə ayaq açan körpənin hər addımı bir misra ilə müşayiət olunur, ona yeriməyi də nəğmə ilə öyrədirlər:

Sol ayağı somba götür,
Sağ ayağı somba götür.

***

Papıllı fərik,
Çıxma divara.
Çalağan vurar,
Qallam avara.

**ÖCƏŞMƏLƏR**

– Sarı-sarı sarmağım.
– Bal bərnidə barmağım.

***

– Sarı-sarı sarıqlar.
– Tatar gələr, arıqlar.

***

– Xumar-xumar xumarlar.
– At başını tumarlar.

***

– Yaşıl-yaşıl yaşmağım.
– Bağı bağlı başmağım.

***

– Yaşıl-yaşıl yaşmaqlar.
– Burnu cırıq başmaqlar.

***

– Aşıq, aşıq, aşığım.
Mənim yar-yaraşığım.

***

– Aşıq, aşıq, aşıqlar.
– Aş qabında qaşıqlar.

***

– Şatıq-şatıq şatıqlar.

– Dolma üstə qatıqlar.
***
– Parça-parça parçalar.
– Pələng səni parçalar.
***
– Salxım-salxım söyüdlər.
– Kim söyləyər öyüdlər?

***
– Qara-qara qarğalar.
– Torpaq üstə qar qalar.

***
– Qoca-qoca qarılar.
– Səni çalsın arılar.

***
– Qoca-qoca qarılar.
– Yesin, doysun darılar.

***
– Yanıq-yanaq, yanağam,
– Mən Fatmaya qonağam.

***
– Böyür-böyür böyürdüm.
– Mən əmimi öyürdüm.
***
– Axın-axın axmağım.
– Sərçələrə baxmağım.

***
– Yastı-yastı yastığım.
– Qulağından asdığım.

***
– Qoçu-qoçu, qoçaqlar.
– Odsuz qalan ocaqlar.

***
– Barlı-barlı bağatlar.
– Bağda gedər kim otlar?

***
– Ağaca çıxmışdın?
– Hə.
– Alma dərmişdin?
– Hə.
– Ayıdan qorxursan?
– Yox.
(Əllərini uşağın üzünə tutub bir-birinə vurur, gözlərini qırpır, gülür.)
– Hə qorxursan?

***
– Koroğlunun atının adı nə?
– Qırat.
– Deyirsən qır at,
mən də qırım atım.
(Uşağın qulağından, yaxud burnundan yapışıb ehmallıca dartır.)

***

Uşaqlardan biri qəflətən başqasının gözlərini əlləri ilə arxadan tutub soruşur:
– Silim, süpürüm?
Gözləri bağlanan uşaq əgər "süpür" desə, onun gözlərini ehmallıca sığallayırlar – "süpürürlər", "sil" desə, bərk-bərk sıxırlar – "silirlər".

***

Maşın gedir,
Siqnal verir:
Bibbb...

# UŞAQ NƏĞMƏLƏRİ

## ÇAĞIRIŞLAR – MÜRACİƏTLƏR

Gün çıx, çıx, çıx,
Kəhər atı min çıx.
Oğlun qayadan uşdu,
Qızın təndirə düşdü.
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür çıx.
Gün çıxdı su içməyə,
Qırmızı don biçməyə.
Gün özünü yetirəcək,
Qarı tez ötürəcək.
Keçəl qızı aparacaq,
Saçlı qızı gətirəcək.
Gün getdi dağ başına,
Örtüb duvağ başına.
Könlü şamama istəyən
Dolansın tağ başına.

***

Birən birən,
İkən ikən,
Qəmzə başı,
Qara tikən.
Əvvəl altı,
Saymadığım.
Doğrucuğum,
Baharcığım,
Gün çıx!

***

Yel baba, amana gəl,
Dolanıb xırmana gəl.
Bir bəhanən yoxdursa,
Xəlbirə, samana gəl.
A Yel baba, Yel baba,
Saman sənin, dən mənim.

Ləçəyi mindər-mindər,
Yönünü bizə döndər.
Yönünü döndərmisən,
Mehini bizə göndər.
A Yel baba, Yel baba,
Saman sənin, dən mənim.

A Yel baba, Yel baba,
Qurban sana, gəl, baba!
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A Yel baba, Yel baba,
Qurban sana, gəl, baba!
Yel baba əsdi, neynim,
Dolunu kəsdi, neynim?
Çəkirəm yar həsrətin,
Falım da nəsdi, neynim?
Mən aşiq, qolu güclü,
Kəsibdi yolu güclü.

Yel əssin, bulud getsin,
Yağmasın dolu güclü.

***

A Yel baba, Yel baba,
Tək qalmışam, gəl baba.
Yanaral atdı gəldi,
Çoxun qanatdı, gəldi.
Ova gedən Muradım
Al qana batdı, gəldi.
A Yel baba, Yel baba,
Tək qalmışam, gəl, baba.

İpim ipdən üzüldü,
Köksüm dibdən üzüldü.
Bircə gündə min cavan
Qara qəbrə düzüldü.
A Yel baba, Yel baba,
Tək qalmışam, gəl, baba.

Ölsün dili yellilər,
Gəlsin əli bellilər.
Kor olsun bəd dillilər.
Sözüm, ahım yel oldu,
Gözümdə yaş sel oldu.
A Yel baba, Yel baba,
Tək qalmışam, gəl, baba.

Bu günü bəklədilər,
Yerləri ləklədilər.
Elsizəm, təklədilər.
Halım yaman gündədi,
Gümanım tək səndədi.
A Yel baba, Yel baba,
Tək qalmışam, gəl, baba

***

Duman, qaç, qaç, qaç,
Pərdəni aç, aç, aç.
Səni qayadan asallar,
Buduna damğa basallar.

***

Ağırlığım-uğurluğum odlara,
Yazda məndə
hoppanmayan yadlara.
Ağırlığım od olsun,
Odda yanan yad olsun.
Yaddan yad olar,
Qohumdan dad olar.
Qohum-qohumdur,
Yamanı da canımdır.
Aydan arı camalam,
Sudan duru camalam.
Alovdan atlanmaq gərək,
Cəfaya qatlanmaq gərək.
Oddan aman olmaz,
Yaddan qanan olmaz.
Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə
hoppanmayan yadlara.

***

Dədəm gəlsin, saz gəlsin,

Oymağımıza yaz gəlsin.
Qoşqu deyib heyləsin,
Bahar söyü söyləsin.
Bahara avaz gərək,
Avaza yaz gərək.
Taxılsın saza novruzgülü,
Kəsilsin yamanın dili.
Anlamazı dədəm andırsın,
Doğru yolu qandırsın.
Ağ saqqalım işıqdır,
Bahara yaraşıqdır.
Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə
hoppanmayan yadlara.

***

Güdü-güdü ha, güdü-güdü!
Güdü-güdünü gördünüzmü?
Güdüyə salam verdinizmi?
Güdü burdan ötəndə
Qırmızı günü gördünüzmü?

***

Güdü palçığa batmışdı,
Qarmaladım götürdüm.
Qızıl qaya dibindən
Qırmızı gün götürdüm.

***

Qara toyuq qanadı,
Kim vurdu, kim sanadı?
Göycəliyə getmişdim,
İt baldırım daladı.

***

Yağ verin yağlamağa,
İp verin bağlamağa.
Verənin oğlu olsun,
Verməyənin qızı olsun.
Bir gözü də kor olsun.
Təndirə düşsün,
Qırmızı bişsin.

***

Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu.
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram xonçasın,
Hər yerdə düyün eylər.

***

Ay kosa-kosa, gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana,
Kosanı yola salsana.

***

Novruz, Novruz bahara,
Güllər, güllər nubara.
Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun.
Bal olmasın, yağ olsun,
Evdəkilər sağ olsun.
Xanım dursun ayağa,

Kosaya pay versin ağa.

***

Mərmər hovuzun dörd qırağında,
Bülbüllər oxur şax budağında.
Hər nə istəsəm Xudadan allam,
Dəllək dükanın yadıma sallam.
Dəllək dükanı tamam çıraqban,
Nağara çalıb kəsirik qurban.
– Kosa, hardan gəlirsən?
– Dərbənddən.
– Nə gətirmisən?
– Alma.
– Almanı neylədin?
– Satdım.
– Pulunu neylədin?
– Öküz aldım.
– Öküzü neylədin?
– Vurdum, öldü.
Başın sağ olsun, kosa.
Ərşin uzun, bez qısa,
Kəfənsiz ölməz kosa.

***

Ay kosa-kosa, gəlsənə,
Gəlmisən meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.
Beş yumurta payındı,
Olmaya almayasan.
Mənim kosam oynayır,
Gör necə dingildəyir.
Ona qulaq asanın
Qulağı cingildəyir.
Mənim kosam canlıdı,
Qolları mərcanlıdı.
Kosama əl vurmayın,
Kosam ikicanlıdı.
Əmiri börk başında,
Qələm oynar qaşında.
Yüz əlli beş yaşında,
Lap, lap cavandı kosam.

***

Kosa-kosa handan gələr,
Yolu qoyar damdan gələr.
Biçarə qaldı kosa,
Kəfənsiz öldü kosa.
Aftafa dəlik, su durmaz,
Qazan dəlik, yağ durmaz.
Biçarə qaldı kosa,
Kəfənsiz öldü kosa.
Kosam ölməkdədi,
Gözləri çölməkdədi.
Bir qarıynan, bir qoca
Malını bölməkdədi.

***

İşıqları alışdırın,
Küsülüləri barışdırın.
Küsülülərim nə düz gəlir,
Şənlik gəlir, şuxluq gəlir.
Bahar gəlir, nəfəs gəlir,

Oxumağa həvəs gəlir.

***

Dövrə vuraq hal eyləyək,
Küsülülərə yol eyləyək,
Öyüdləri bol eyləyək.
Küsülülərim nə düz gəlir,
Şənlik gəlir, şuxluq gəlir,
Bahar gəlir, nəfəs gəlir,
Oxumağa həvəs gəlir.
Küsülülər gəldi peymana,
Dədə də gəlsin meydana.
Meydanda tavar saz olsun,
Avazlarımızı bir görək.
Küsülülər öpüşsün gərək.
Küsülülərim nə düz gəlir,
Şənlik gəlir, şuxluq gəlir.
Bahar gəlir, nəfəs gəlir,
Oxumağa həvəs gəlir.

***

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı gün gördünmü?
Yağ verin yağlamağa,
Bal verin ballamağa.
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

***

Qoduya qaymaq gərək,
Qablara yaymaq gərək.
Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.
Yağ verin yağlamağa,
Bal verin ballamağa.
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.
Getmişdim Göyçəliyə,
Yoldaşım endi çəliyə.
Baldırın it daladı,
Hönkür-hönkür ağladı.
Yağ verin yağlamağa,
Bal verin ballamağa.
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

***

Xonçaya qoydum balığı,
Al boyadım ortalığı.
Gərdişə sal çalmalığı,
Çünki gəlibdi Firuz.
Xoş keçəcəkdi Novruz.

***

Taxçaya qoydum çırağı,
Rövşən eyləsin bucağı,
İşıqlandırsın otağı.
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

***

Üsküdü bu, çərşənbədi,

Atəş yanır şövnəmdədi,
Zərdüşt deyir kölgəmdədi,
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

***

Taxçaya qoydum noxudu,
Sanadım biri yox idi.
“Zondanı”, “Həfti” oxudu,
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

***

Süfrəyə qoy simuzəri,
Atəşə səp üzərliyi,
Qarnıyarıq bəzərliyi,
Süxt eləsin əyərliyi.
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

***

Novruz, novruz bahara,
Açır Novruz bahara.
Novruz gəlir, yaz gəlir,
Nəğmə gəlir, saz gəlir.

***

Gün çıxır saçlı qızla,
Uzun saçaqlı qızla.
Bağçamızda gün olsun,
Gün gəlsin, hər gün olsun.
Bağçamızda gül olsun,
Gül üstə bülbül olsun.

***

Növruz günü yaz olar,
Qırx kötük də az olar.
Novruz, Novruz bahara,
Güllər, güllər bahara.
Novruz gəlir, yaz gəlir,
Nəğmə gəlir, saz gəlir.

***

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Sən gələndə yaz olur,
Yaz olur, avaz olur.
Xoşdur dədənin sazı,
Yazda ötkəm avazı.
Səməni, can səməni,
Göyərdərəm mən səni.

***

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Səndən mən can istərəm,
Damara qan istərəm.
Qanım təmiz gərək,
Dosta sanım gərək.
Sənsiz qanım olmaz,
Cansız sanım olmaz.
İllətimin loğmanı,
Yamanlığın amanı,
Səməni, ay səməni,

Göyərdərəm mən səni.

***
Yazda könül şad olur,
Damağımda dad olur,
Qada, illət yad olur.
Səməni, ay səməni,
Göyərdərəm mən səni.

***
Başım, dişim ağrımasın,
Ağrılarım yarımasın.
Düşmənlərim qarımasın.
Cancığazım üzülməsin,
Gözlərimə süzülməsin.
Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Səməni, can səməni,
Gözlərimə işıq ver,
İşıq ver, yaraşıq ver.
Dizimə taqət gəlsin,
Qoluma qüvvət gəlsin.

***
Səməni, ay səməni,
Sən gələndə yaz olur,
Saz olur, avaz olur.
Səməni, saxla məni.
Səməni, can səməni,
Göyərdərəm mən səni.

***
Səməni,
Al məni.
Hər yazda,
Sən yada
Sal məni.

***
Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməniyə saldım badam,
Qoymurlar bir barmaq dadam.
Səməni, bezara gəlmişəm,
Uzana-uzana gəlmişəm.

***
Göydən, göydən nə gələr?
Damla-damla
yağmur gələr.
Anbarlar dolu-dolu,
Sənəklər sulu-sulu.
Bizdən hərəkət,
Yerdən bərəkət,
Göydən yağmur
Ver, Tanrım, ver.
Yağmur, yağmur nə istər?
Yağmur bollu yağ istər,
Qaşıq-qaşıq bal istər,
Qonur göz qurban istər,
Köbəkli xırman istər.
Bizdən hərəkət,
Yerdən bərəkət,
Göydən yağmur

Ver, Tanrım, ver.
Göy, göy, göy olsun,
Arpa, buğda bol olsun,
Alagöz qurban olsun.
Boynumuzda boyunduruq
Dura-dura yorulduq,
Acımızdan qırıldıq.
Bizdən hərəkət,
Yerdən bərəkət,
Göydən yağmur
Ver, Tanrım, ver.

***

Çömçə xatun nə istər?
Şırhaşır yağış istər.
Əli-qolu xamırda,
Bircə qaşıq su istər.
Çax daşı, çaxmaq daşı,
Yandı ürəyimin başı.
Allah, bir yağış göndər,
Göyərtsin dağı, daşı.
Ala dağın buludu,
Yetimlərin umudu.
Allah, bir yağış göndər,
Arpa, buğda qurudu.
Göydən görən nə gəlir?
Bir sürü yağmur gəlir,
Ambar da dolu-dolu,
Sənəklər sulu-sulu,
Göydən hərəkət,
Yerdən bərəkət.
Tanrım, Tanrım,
selləcə yağmur.

***

Göy, göy, göy olsun,
Arpa, buğda bol olsun,
Ala öküz qurban olsun.
Boynumuzda boyunduruq
Dura-dura yorulduq,
Acımızdan qırıldıq.
Yerdən bərəkət,
Göydən hərəkət.
Tanrım, Tanrım, selləcə yağmur.

***

Çömçə gəlin nə istər?
Çömçə gəlin su istər.
Ver, Allahım, ver
Yağmur ilə sel!
Qoç qoyun qurban,
Göbəkli xırman.
Yaz yağmuru yalançı,
Gavur qızı dilənçi,
Ver, Allahım, ver
Yağmur ilə sel!
Qoç qoyun qurban,
Göbəkli xırman.

**DÜZGÜLƏR**

Keçəl, keçəl bamiyə,
Keçəl mindi gəmiyə.
Gəmi getdi İrana,
İran qaldı viranə.
Gözü donba, daz keçəl,
Tutdu qarğa, qaz keçəl.
Qarğa qaçdı hamama,
Ömrü bitdi tamama.
Hamamda qapı bağlı,
Keçəlin başı yağlı.
Keçəl dedi vay, başım,
Qazanda qaynar aşım.
Aşımı yeyən yoxdur,
Başıma vuran çoxdur.
Başımda əkdim alma,
Böyüdü, oldu dolma.

***

Oturmuşdum divanda,
Gözlərim də tavanda.
Öz öyümüz döyüldü,
Birdən qapı döyüldü,
Elə bildim atamdı,
Dadımıza çatandı,
Aşdım gördüm canavar,
Canavardan qorxum var.
Yamanca düşdüm dara,
Başım dəydi divara.
Divardan bir qaz çıxdı,
Balacaydı, arıxdı.
Üzü-gözü qapqara,
Adın qoydum Tamara,
Bağa buraxdım qazı
Yedi, şişdi qarpızı.
Qazımı aldatdılar,
Hində yumurtdatdılar.

***

Gəlinə bax, gəlinə,
Əlin qoyub belinə.
Gəlinə söz deməyin,
Gedər, deyər ərinə.
Ərinin adı Əlidi,
Qəzəblidi, dəlidi.
Dəli kənddə mirzədi,
Zəhərlidi, gürzədi.

***

Tısbağayla qurbağa
Getdilər oynamağa.
Tısbağa yolda durdu,
Qurbağa topu vurdu.
Yumarlandı tısbağa,
Xumarlandı qurbağa.
Tısbağa küstü, getdi,
Qurbağa qur-qur etdi.

***

Babam, atam davada,
Gözüm qaldı havada.
Havada ulduz gəzdi,

Hitlerin başın əzdi.
İt, it, it, it Hitler,
İtin başını bitlər.
Bitin sanın itirdi,
Öz işini bitirdi.
İşi dana otarmaq,
Danaları çox axmaq.
Ham, ham, ham, ham Hitler,
Canına qadam Hitler.
Hitlerin başı boşdu,
Dlindəki ham, hoşdu.
Dilinə biz sox, duzda,
Atamız tankımızda.
Tankımız «xoda» düşdü,
Hitler «zaxoda» düşdü.
«Zaxod» yolu dərindi,
Hitler üçün sərindi,
Sərin yerlər iylidi,
Hitler canı piylidi.
Piyin əridər, satar,
Başını atar, yatar,
Ham, ham, hamıldar,
Qam, qam, qamıldar.

***

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım.
Almalarımı aldılar,
Məni zulmə saldılar,
Mən zulumdan bezaram,
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı bunun erkəgi?
Erkəğ qaya başında,
Qayanın ağ daşında,
Hay elədim gəlmədi,
Çiriş verdim yemədi,
Çiriş qazanda qaynar,
Qənbər baxçada oynar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna,
Qarğı demə, qamışdı,
Baş barmağı gümüşdü.
Gümüşü verdim tata,
İstədi ucuz sata,
Tat mənə darı verdi,
Rəngini sarı verdi,
Darını səpdim daşa,
Qurutdum, atdım quşa,
Quş mənə qanad verdi.
Elə bildim at verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa,
Haqq qapısı kilidli,
Üstü birəli, bitli.
Kilid baba elində,
Baba İran yolunda,
İran yolu dərbədər,
Üstündə meymun gəzər.
Meymunun balaları
Tutubdu qalaları.
Qalada hey ağladı,
Ürəyimi dağladı.
Ürəyim oldu bumbuz,

Banladı iki xoruz,
İki xoruz savaşdı,
Biri qana bulaşdı,
Qan getdi, çaya düşdü,
Çaydan göyərçin uşdu.
Göyərçin Alapaça,
İstədi qanad aça,
Onu vurdu bəy oğlu,
Zalım oğlu, zay oğlu.
Ürəyi, qəlbi taxta,
Qan qussun laxta-laxta.

***

Çörəyimiz təndirdə,
Dirəyimiz kəndirdə.
Kəndirimiz boxçata,
Təndirimiz bağçada.
Baxçalarımız axçada,
Boxçalarımız taxçada,
Axçalarımız cibdədi,
Taxçalarımız dibdədi.
Cibdə yekə bir deşik,
Dibdə iki şir, pişik.
Deşiyi bağladılar,
Pişiyi dağladılar.
Bağlanan şey ilandı,
Dağlanan şey yalandı.
İlanlar ipə döndü,
Yalanlar sapa döndü.
İpi belə bağladım,
Sapım itdi, ağladım.
Beldə kəmər qızıldı,
Adım aya yazıldı.
Qızıl-mızıl deməkdən,
Yalan palan yeməkdən,
Ağzıma qıfıl vurdum,
Deyin kimləri yordum?

***

Həsənbəyin kor atı,
Getdi, dərədə yatdı.
Dərədən durğuzdular,
Quzğuna yetirdilər.
Quzğunun balaları
Cinkir-minkir eylədi.
Nə üstə? Arpa üstə.
Arpa hardan taparam,
Bəy qızınnan qaçırram.
Bəydən bəyə nə düşər,
Arpa üstə quş düşər,
Quşu vurub uçurdum,
Yeddi dövrə keçirdim,
Yeddi dövr baqqalı,
Süpürgədən saqqalı.
Saqqal getdi oduna,
Qarğı batdı buduna,
Qarğı deyil, qəmişdi,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi,
Darını verdim quşa,
Quş mənə qanad verdi.
Mən başladım uçmağa,
Haqq qapısın açmağa.

Qapıçı səbət toxur,
İçində bülbül oxur.
Məndən kiçik qardaşım
Əlində bir gül qoxur.

***

Çayın suyun içərlər,
Yaşıl otu biçərlər.
Otlardan nəyim olsun,
Kətan köynəyim olsun.
Kətan gedib gəlmədi,
Baş yaylıq göndərmədi.
Yaylığın ucu qara,
Göndərdim çobanlara.
Çobandır allı qardaş,
Allı–marallı qardaş.
Qardaş düşdü kəməndə,
Suyu buraxdım bəndə,
Su, haraya gedirsən?
Qələndərin kəndinə,
Qələndərin qızdarı,
Çatma-çatma qaşları.
Qaşı, gözü üzüldü,
Yaylaqlara düzüldü.
Yaylaqlardan gəlincə,
Yarı canım üzüldü.

***

Almanı atdım çaynikə,
O çaynikdən, bu çaynikə.
Daz dönüb naçalnikə.
Bəxtin mübarək gəlin,
Taxtın mübarək gəlin.
Ağ əllərə əlvan xına
Yaxdın, mübarək gəlin.
Almanı atdım xarala,
Qaldı sarala–sarala,
Gəlin döndü marala.
Bəxtin mübarək gəlin,
Taxtın mübarək gəlin.
Ağ əllərə əlvan xına
Yaxdın, mübarək gəlin.

***

Dağdan alma daşıdım,
Almacığımı aldılar.
Mənə arpa verdilər,
Mən arpadan bezaram,
Dərin quyu qazaram,
Dərin quyu beş keçi,
Beşi də ərkək keçi.
Ərkək qazanda qaynar,
Mahmud yanında oynar.
Mahmud getdi oduna,
Qarğı batdı buduna,
Qarğı uzun qamışdı,
Baş barmağı gümüşdü.
Gümüşü verdim kora,
Kor mənə qanad verdi,
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa,
Haqq qapısı kiliddi,
Kilid babam Validdə,
Babam da gör yolunda.

Görun yolu sərbəsər,
Üstündə ayı gəzər.
Ayının balaları
Orda havayı gəzər.
Yarım gül-çiçək qoxur,
Bacım var corab toxur.
Məndən kiçik qardaşım
Tanrı kəlamın oxur.

***

Əlim, əlim, kəpənək,
Güldən çıxan kəpənək.
Kəpənəyin içinə,
Süleymanın saçına.
Getdim Hələb yoluna,
Saldım, soldum soluna.
Hələb yolu cəm bazar,
İçində meymun gəzər.
Meymun məni qorxutdu,
Qulaqların sağırtdı.
Sağım, solum sarımsaq,
Salla bunu, çək şunu.

***

A teşti, teşti, teşti,
Vurdum gilanı keşdi.
İki xoruz dalaşdı,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan bir sərçə uşdu.
Sərçə budağa qondu,
Budaq bir deyil, ondu.
Mindim bozun boynuna,
Sürdüm Xaldan yoluna.
Xaldan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzərdim,
Saçlarıma düzərdim.
Qardaşımın toyunda,
Sağa, sola süzəydim.

***

Çöldə kimlər dincəlir?
İki araba gəlir
Təkərləri qırmızı.
Birində əmin qızı,
Birində də öz yarım,
Düşüb girsin qoluma,
Xəlvət yerə aparım.
Salam verdim almadı,
Mısmırığın salladı.
Getdim qızı görməyə,
İt başladı hürməyə.
Dədəsi zalım oğlu
Durdu ağac qapmağa.
Anası yaxşı adam,
Başladı yumşaltmağa.
Məni suya yolladı,
Qıza baxmağa qoymadı.
Canım cəzana gəldi,
Toy oldu, iş düzəldi.

***

Gəlirdi qoyun başı,
Başa atdım bir daşı.
Daş getdi yardı başı,
Baş da qaytardı daşı.
Daş toxundu burnuma,
Burnumnan da qan cuma.
Qanı torpaq itirdi,
Torpaq bir ot bitirdi.
Otu verdim qoyuna,
Qoyunda bax oyuna.
Qoyun: «məni sağ», dedi,
«Südümdə var yağ», dedi.
Yağı nənəm apardı,
Nənəmdə qoğal vardı.
Qoğalı verdi mənə.
Mən verməm ondan sənə?

***

Gün gəldi yana-yana,
Üzük düşdü bir yana.
Üzüm suyun içərlər,
Məxmərdən don biçərlər.
Məxməri donum olsun,
Gəlməsəm sonum olsun.
Son gedənnən gəlməsin,
Ağ yaylıq göndərməsin.
Yaylığın ucu qara,
Kim örtsə, düşər dara.
Qaralı, ağlı qardaş,
Şaxlı-budaqlı qardaş.

***

Səlli tutdu sağsağan,
Yağlı fətir, göy soğan.
Axsaq dovşan, qurd qovdu,
Bu necə gözəl ovdu?
Buzovu yeyib qarğa,
Gedirdi yorğa–yoğa.
Kərtənkələ mal satdı,
Sərçə tərəzi tutdu.
Camış başın qıxdırdı,
Dəlləyi çarıxdırdı.
Gəlin bacı,
Dili acı,
Hürməyi itin,
Saçları bitin.

***

Oturmuşdum üz-üzə,
Qarışmışdı düz düzə.
Tüttəyimi çalırdım,
Gördüm gəlir canavar,
Yumruq vurub öldürdüm.
Başı dəydi divara,
Özü qaldı avara.
Divardan bir qız çıxdı,
Adını qoydum Tamara.
Tamar, Tamar, tat qızı,
Erməni «saldat» qızı.
Qızın burnun dişlədim,
Düşüb türməyə, işlədim.
Çıxdım ordan on ilə,
Qız görüb gəldi dilə.
–Gəl dişlə hər yerimi.

Dedim: soyarlar dərimi.
Gəldim səhər öyümüzə,
Baxdım sarı göyümüzə.
–Nənə, nənə, ay nənə,
Lom, lapatka ver mənə.
–Bala, nəyinə gərək?
–Yer qazım, sən ağac ək.
–Kiminçün?
–Özümçün.
Ev tikim, sən arvad al,
Yoxsa getdim, salamat qal.

***

Əlimi bıçaq kəsitdi,
Dəstə bıçaq kəsitdi.
Yağ gətirin yağlayax,
Bal gətirin – ballayax.
Dəsmal gətir – bağlayax.
Dəsmal dəvə boynunda,
Dəvə Şəki yolunda.
Şəki yolu buz bağlar.
Gül üstə bülbül ağlar,
Dəstə-təstə gül bağlar.
Gülün birin üzeydim,
Tellərimə düzeydim.
Qardaşımın toyunda,
Oturub, durub süzeydim.

***

Ay qıza, qıza,
Nərgizə!
Cehizi götü,
Gə bizə.
Bizdən gedən Təbrizə,
Təbriz xarab olub, gəl,
Dəmir daraq olub, gəl.
Dəmirçinin qızları,
Yolda qaldı gözləri,
Günəş gözün açanda,
Sübh şəfəqin saçanda,
İgidlər yel atında,
Sevdanın qanadında.
Dəmirçinin bağında,
Qızların otağında.
Ay qıza, qıza,
Nərgizə!
Cehizi götü,
Gə bizə.
Apardılar Təbrizə.

***

Şir əl çəkib belimə,
Kim yapışar əlimə?
Arxam yerə qoyulmaz,
Dərim bərkdir, soyulmaz.
Yük üstü yaylağımdır,
Təndir üstü qıhlağımdır.
Gəlin verər qaymağı,
Vurram ətə caynağı.
Düzdə gəzmək bilirəm,
Suda üzmək bilirəm.
Mən muncuğu götürrəm,
Fatma qıza yetirrəm.

## ƏKİN NƏĞMƏLƏRİ

Qara kəlim aranda,
Çıxır gün qızaranda.
Xodək murada çatır,
Gəlindən bar alanda.

Qaşqa kəlim, boz, ala,
Tarlaya saldım yola.
Tay öküzlə iş aşmaz,
Öküz gərək cüt ola.

Dağ döşündə yatana,
Gün gedər ay batana.
Qara kəlim qarğıyar,
Kotan macı tutana.

Gün düşdü qar üstünə,
Bağçada bar üstünə.
Tənbəl yatan öküzün,
Quşlar qonar üstünə.

Axşamlar, ay axşamlar,
Şamlar yanar axşamlar.
El-ulus evdə yatar,
Xodək harda axşamlar.

Qara kəl gedər işə,
Qorxum var bağrı bişə.
Nola bir bulud gələ,
Yağış yağa, nəm düşə.

***

Öküzlər qoşa getdi,
İşlədi, coşa getdi.
Kotan macı qırıldı,
Zəhmətim boşa getdi.
Kotanın xodəkləri,
Partlayıb dodaqları.
Qarğayın, kotan sınsın,
Dincəlsin xodəkləri.
Qara kəlim, gündə mən,
Kölgədə sən, gündə mən.
Sən yat qaya dibində,
Qoy qaralım gündə mən.
Dağların enişi var.
Diki var, enişi var.
Cütə gedən öküzün,
Özünün yerişi var.
Qara kəl asta gedər,
Dolanar, dosta gedər.
Ay qaranlıq gecədə,
Hastabahasta gedər.
Bicə-bicə əkizlər,
Xodək yerdə nə gizlər?
Qara kəl yorulanda,
Dartar, çəkər öküzlər.
Qara kəlim naz eylər,
Quyruq bular, toz eylər.
Ay qaranlıq gecədə,
Kotanı pərvaz eylər.
İşlək malı əyəllər,
Tənbəlini söyəllər.
Öküz cütə getməsə,

Qaşqasına döyəllər.

***
Qara kəlim, san gedir,
Öküzlərdən yan gedir.
Gecə–gündüz işləyir,
Dırnağından qan gedir.
Dost dostdan üzdən incir,
Bir acı sözdən incir.
Yükü ağır olanda,
Öküz öküzdən incir.
Qurd sürüdən pay salır,
Çoban dağa hay salır.
Öküz ax-vay deməkdən,
Boyunduruq vay salır.
Hola dedim düşdü qac,
Göydə oynadı qırmanc.
Öküzlər ota getdi,
Qara kəlim qaldı ac.
Gözlə xoruz banını,
Kəllər işdə sanını.
Cütə getməyən öküz,
Yerişindən tanını.
Öküz qıyar canını,
Bilməz qamçı sanını.
Qayış çəkən qaşqa kəl,
İş üstündə tanını.
Qara kəl, ilim barı,
De dərdin bilim barı.
Məni mağmın eyləmə,
Açılsın dilim barı.

## DEYİŞMƏLƏR

### ƏKİNÇİ İLƏ ÖKÜZÜN DEYİŞMƏSİ

**Əkinçi**

Sarı öküz, səndən budu diləyim,
Bir günlüyü tamam gərək əkəsən,
İstəmirəm axşamadək çəkəsən,
El töhmətin üstümüzə tökəsən.

**Öküz**

Sən havaxtda mənim gördüm işimi,
Qoymayırsan dinc saxlayım başımı.
Qoyundan, keçidən ver yoldaşımı,
Gör mən onlar ilə necə çəkərəm.

**Əkinçi**

Yaxşı olsan yiyən səni satmazdı,
Yarımçıq zəmidə işi yatmazdı.
Həftədə üç günü mala qatmazdı,

Hər il yarım gəviz toxum
əkəsən.

**Öküz**

Öküzün yiyəsi olmasın naşı,
Payızda işlədib saxlasın qışı,
Belimə minməsə arvadla kişi,
Boyunduruq altda quş tək
səkərəm.

**Əkinçi**

Gücə düşüb axır durarsan üzə,
Ay balalı, hardan tuş oldun
bizə?
Nə deyim biqeyrət, tənbəl
öküzə
Ölüb qurtarasan bizdən bəlkə
sən.

**Öküz**

Tənbələm, hər nəyəm,
günahımdan keç,
Yenə də yaxşını yamanından
seç,
Payız əkdiyimi gedib yayda biç,
İndən belə şuma qan-tər
tökərəm.

**EV HEYVANLARININ DEYİŞMƏSİ**

**Qoyun deyir**

Mən heç otdan doymaram,
Payız oldu çörün–çöpün
qoymaram.
Hər evi mən yunum ilə
bəzərəm,
Allı-güllü xalçalarım var
mənim!

**Keçi deyir**

Adım Əbdülkərimdi,
Qavala çəkilən mənim dərimdi.
Üç ay qışı ölməm allahkərimdi,
Şeytan-şeytan balalarım var
mənim,
Qəlbi-qəlbi qayalarım var
mənim!

**Camış deyir**

Payız olcaq samanlığı doldurun,
Yaz olanda boyunduruğu
yondurun,
Cütə getməsəm, vurun məni
öldurün.
Dolu-dolu mərəklərim- var
mənim,

Buz qatığım, ağ-ağ kərəm var mənim!

**Öküz deyir**

Mən yiyəmə nökərəm,
Üç ay qışı tövləsində bekaram,
Yaz olanda çayır-çəmən sökərəm,
Ağlı-qırmızılı buğda əkərəm.
Dolu-dolu xırmanlarım var mənim,
Uca-uca tayalarım var mənim!

**İnək deyir**

Mən doğanda mələrəm,
Ahım ilə dağı-daşı dələrəm,
Qurudumu gündən-günə sərərəm.
Dadlı-dadlı kərələrim var mənim,
Gözəl-gözəl balalarım var mənim!

**At deyir**

Yel kimi göydə uçaram,
Yollar keçib dağdan-dağa aşaram.
İgidlərlə bir məqamda yaşaram.
Pəhləvanlar kimi yiyəm var mənim,
Saraylara oxşar dəyəm var mənim!

**Eşşək deyir**

Mən hamıdan fağıram,
Palçığa düşəndə dağdan ağıram,
Çöldə qalsam mən yiyəmi çağırram.
Kərənaydan yoğun səsim var mənim,
Atlarınan böyük bəhsim var mənim!

**Dəvə deyir**

Heç heyvan götürməz mənim yükümü,
İgid oğlan gərək çəkə ipimi.
Ərəbistan içər mənim südümü,
Uzaq-uzaq mənzillərim var mənim,
Dizləri bərk nəsillərim var mənim!

**Qoyun deyir**

Qarnımı doydur, qara quyla məni,
Keçi deyər: Qarnımı doydur, qora quyla məni.

## BİTKİLƏRİN BƏHSİ

**Çəltik**

Taxılların başıyam,
Dögülməmiş naşıyam,
Pullunun plovuyam,
Kasıbların aşıyam.

**Buğda**

Mənə buğda deyərlər,
Çörək yapıb yeyərlər.
Hər gün məni uşaqlar
Halva tək istəyərlər.

**Darı**

Darıyam xaş–xaş kimi,
Buğdaya qardaş kimi,
Buğdasız, təkcə mənnən
Çörək bişər daş kimi...

**Buğda**

Yastı-yastı yatarsan,
Gül dibində bitərsən.
Məndən sənə qarışmasa,
Palıddan bərk bitərsən.

**Darı**

Mənə darıcan deyirlər,
Yağ-bal ilə yeyirlər.
Allah-allahnan götürüb,
Gücnən saca yetirirlər.

## ÇOBAN NƏĞMƏLƏRİ

Göydəki göy buludlar,
Yorğanıdı çobanın.
Yastı-yastı təpələr
Yastığıdı çobanın.
Yumru-yumru qayalar
Yumruğudu çobanın.
Əlindəki dəyənək
Qalxanıdı çobanın.
Yaxındakı boz köpək
Yoldaşıdı çobanın.
Ağzı qara canavar
Düşmənidi çobanın.

***

Qoyun qalxar dağlara,
Sel tək axar dağlara.
Arandan dönən sürü,
Yayda çıxar dağlara.
Saya gəldi gördünüz,
Salam verdi aldınız.
Alnı təpəl quzunu,
Sayaçıya verdiniz.
Gözəl keçsin halınız,
Artsın qara malınız.
Avanınız yox olsun,
Tox gəlsin çobanınız.
Qoyunun üçü gəldi,
Dolandı köçü gəldi.
Sürünün qabağında,
Bir ala keçi gəldi.
Qoyunun üzü gəldi,
Dolandı düzü, gəldi.
Çobanın qucağında,
Bir əkiz quzu gəldi.
Tut qoyunun belini,
Ələ gəlmir yelini.
Bir doyunca görəydim
Onu sağan gəlini.

***

Dağları, dərələri,
Daşları, bərələri.
Oturub qoyun sağın,
Bol olsun kərələri.
Nənəm, a qatar keçi,
Qayada yatar keçi.
Qışı soyuq gələndə,
Balanı atar keçi.
Nənəm, a xallı keçi,
Məməsi ballı keçi.
Uca qaya başında,
Tutubdu yallı keçi.
Altı bulaq içərəm,
Üstü zəmi biçərəm.
Bir şişəyin yolunda
Candan–başdan keçərəm.
Açdım yazılar gördüm,
Nə tamarzılar gördüm.
Çoban dağdan enəndə,
Çoxlu quzular gördüm.
Yerin dağ olsun, çoban,
Kefin çağ olsun, çoban.

Sürünü yaxşı qoru,
Üzün ağ olsun çoban.
Saya–saya sayadan,
Qoyun gəlir qayadan.
Sayaçıya pay verin,
Damazlığı mayadan.
Örüşdən qoyun gəlsin,
Dərisin soyun, gəlsin.
Əmliyi sizin olsun,
Anasın qoyun gəlsin.

***

Haramı gəldi,
Qoyunu basdı.
Bənək ha, a bənək ha,
Bənək ha, a bənək ha.

Səhər ertə yel əsdi,
O yel səbrimi kəsdi.
Bənək ha, a bənək ha,
Bənək ha, a bənək ha.

Suyun bulaqda qaldı,
Yalın yaylaqda qaldı.
Bənək ha, a bənək ha,
Bənək ha, a bənək ha.
Ellər arana köçdü,
Harayladı gəlmədin.
Çoban yaylaqda qaldı,
Bənək ha, a bənək ha,
Bənək ha, a bənək ha.
Bəhək ha, a bənək ha,
Bənək yoldan azıbdı,
Bənək qurdu basıbdı.

***

İrandakı boz öküz
Qoparıbdı toz öküz.
Alıb yerin canını
Çıxsın yalan göz, öküz.

***

Öküz, öküz, xan öküz.
Boynu qızıl qan öküz.
Çək çayırı çəməndən
Sənə can qurban öküz.

***

Qızıl öküzüm yeri,
Qoyma şum qala geri.
İti tərpən, maralım,
Düşmənlər baxır bəri.

***

Gözlə xoruz banını,
Kəllər işdə sanını.
Cütə getməyən öküz
Yerişindən tanını.

***

Boynunu mən yağlaram,
Yaman gözü dağlaram,
Tez çək, maral öküzüm,

Geri qalsan ağlaram.

***

Öküzüm birdi mənim,
Taleyim kürdü mənim.
İki oldu öküzüm
Qaraçuxam durdu mənim.

***

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Ölmə, olmə yazığam
Kölgəndə mən dolanım.

***

Öküz qayıtdı qaşdan,
Ay allah, saxla daşdan,
Bədnəzər qabaqdadı
Yolunu sal bu başdan.

***

Dağların enişi var,
Diki var, enişi var.
Cütə gedən öküzün
Özünün yerişi var.

***

Öküzlərim naz eylər,
Quyruq bular, toz eylər.
Hər axşam gün batanda
Kövşəndə pərvaz eylər.

***

Qara kotan ağırdır,
Öküzlərim yağırdır.
Qarmax tellim çəkməyir
Xınalım da sağırdır.

***

Çəkən öküz mərd olur,
Çəkməyənə dərd olur.
Tənbəl öküz yiyəsi
Xəcil olur pərt olur.

***

Gözəl keçsin halınız,
Artsın qara malınız.
Avanınız yox olsun
Tox gəlsin çobanınız.

***

Nənəm qoyunun gəlini,
Avşara gəlməz yelini.
Onu sağan gəlinin
Xınalayım əlini.

***

Tut qoyunun belini,
Ələ gəlmir yelini.
Bir doyunca görəydim
Onu sağan gəlini.

***

Nənəm o xallı keçi,

Məməsi ballı keçi.
Uca qaya başında
Tutubdu yallı keçi.

***

Nənəm qoyunun ağı,
Dolandı gəldi dağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı.

***

Canım qoyunun ağı,
Gedib dolanar dağı,
Otlar qara qiyağı,
İçər sərin bulağı.
Acı olar dırnağı,
Şirin olar qaymağı.
Qarılar tutar yağı
Gəlin yeyər qaymağı.
Qızlara cehiz olar
Çobana çarıq bağı,
Uşağa bələk bağı.

***

Saya yaxşı sayadı,
Yeri–yurdu qayadı.
Onun gözəl sözləri
Yatanları oyadı.

***

Bayrama day nə qaldı,
Nə qaldı, nə qalmadı?
Bir əllicə gün qaldı.
Əlli günü say ötür,
Qarmala quzu götür.
Əlli günü, gecəsi,
Sağmal subay seçəsi.
Sayan yağış yağası
Sarmaşıq ot bitəsi.
Quzu təlkə tutası
Çəpiş irtmək atası.

***

Ellərin xan çobanı,
Sürünün yan çobanı,
Qoyun arxacda qalsa
Oyadar ban çobanı.
Gəlinin dodağı bal,
Durub qabağında lal.
Gəlin tez ol, pay gətir,
Sayaçını yola sal!

***

Altı bulaq içərəm,
Üstü zəmi biçərəm.
Bir şişəyin yolunda
Candan-başdan keçərəm.

***

Açdım yazılar gördüm
Nə tamarzılar gördüm.
Çoban dağdan enəndə
Çoxlu quzular gördüm.

***

Qoyunlu evlər gördüm,
Qurulu yaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.

***
Yerin dağ olsun, çoban,
Kefin çağ olsun, çoban,
Sürünü yaxşı saxla
Üzün ağ olsun, çoban.

***
Saya–saya sayadan,
Qoyun gəlir qayadan,
Sayaçıya pay verin
Damazlığı mayadan.

***
Saya, saya sayadan,
Damazlığı mayadan.
Sürülər dağdan gəlir,
Keçi gəlir qayadan.

***
Kərəsindən, ağından,
Öldürmüsüz sağından.
Qoyun nədən hasildi?
Kimya yarpağından.
Bir bizə də gətirin
Şişliyindən, yağından
Bir bala qab sağından.

***
Qoyunu qoyun getsin,
Dərisin soyun getsin,
Balası çox mələyir,
Anasın qoyun getsin.

***
Sürüdə var az qoyun,
Kef-damağı saz qoyun.
Çoban qurddan çəkinsə
Çölə çıxammaz qoyun.

***
Nənəm boz-ala qoyun,
Yolda ovzala qoyun
Yiyən sənin sayanda
Gedib qız ala qoyun.
Çoban ağna düzlərə,
Qoyma az ola qoyun.

***
Nənəm o qaşqa qoyun,
Minibsən eşqə qoyun.
Yiyən sənin sayana,
Çıxıbdı köşkə qoyun.

***
Canım o saçaq qoyun,
Bərədən qaçaq qoyun.
Sənə əyri baxanın
Gözünə bıçaq qoyun.

***
Nənəm qarala qoyun,
Bənzər marala qoyun.
Çoban yununu qırxıb,
Basar xarala, qoyun.

***
Nənəm o Göyçə qoyun,
Gedirsən öycə qoyun.
Yiyən sənin sayava
Dolanır bəycə, qoyun.

***
Nənəm o nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun.

***
Nənəm o xallı qoyun,
Məməsi ballı qoyun.
Sürü dağdan enəndə,
Tutarıq yallı, qoyun.

***
Nənəm o şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez yetir,
Ağlaşır uşaq qoyun.

***
Canım o şəkil qoyun,
Belində kəkil qoyun.
Qaranlıq gecələrdə,
Arxaca çəkil, qoyun.

***
Nənəm o qızıl qoyun,
Yollara düzül qoyun.
Kəsilməsin damazlıq
Yollara düzül, qoyun.

***
Nənəm o dəli qoyun,
Dolanıb gəli qoyun.
Gəlinlər güzəmindən
Toxuyar xəli, qoyun.

***
Nənəm o gəlin qoyun,
Gətirər yelin qoyun.
Arxacda səni sağar,
Bir gözəl gəlin, qoyun.

***
Nənəm qaraqaş qoyun,
Qarlı dağlar aş qoyun.
Ay qaranlıq gecədə,
Çobana qardaş qoyun.

***
Nənəm a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdü,

Südü ver barış qoyun.

***
Nənəm yad alı qoyun,
Qanlı-qadalı qoyun,
Yiyən sənin ucundan,
Böyük ad alı qoyun.

***
Nənəm a sarı qoyun,
Ayaqla qarı qoyun.
Qapımda bol eləsin,
Nəslini tarı, qoyun.

***
Nənəm o qəmər qoyun,
Quzunu əmər qoyun.
Yiyən sənin ucundan
Bağlayıb kəmər, qoyun.

***
Nənəm a təkcə qoyun,
Yunu var göycə qoyun.
Yiyən sənin ucundan,
Dolanar bəycə qoyun.

***
Canım o gəlin qoyun,
Qovzana telin qoyun.
Yiyən sənin ucundan,
Gətirib gəlin, qoyun.

***
Sürünün gözü qoyun,
Dolan gəl düzü qoyun.
İldə bir əkiz gətir
Sevindir bizi qoyun.

***
Təkəm, təkəm üç qoyun,
Bizim bağı keç qoyun,
Sürünü sal otlağa
Birin elə beş qoyun.

***
Kərəsini qoyunun,
Kürəsini qoyunun,
Aclıqdan biz gəzərik
Dövrəsini qoyunun.

***
Sizin canız sağ olsun,
Payız buğda, yağ olsun.
Hamınız ellikincə,
Damağınız çağ olsun.

***
Qoyun həyətə dolsun,
Altına qab qoyulsun.
Yağından pay verənin,
İkinci oğlu olsun.

***
Qoyun gəlir yol olsun,

Yolun sağı sol olsun.
Yaxşı otar sürünü
Südü, yağı bol olsun.

***
Toğlu kəssən ət olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən
Boz qurda qismət olar.

***
Qoyun var kərə gəzər,
Qoyun var kürə gəzər,
Gedər dağları otlar,
Gələr evləri bəzər.

***
Ağ qoyun aya bənzər,
Dağ aşar çaya bənzər.
Qoyunlu evlər gördüm,
Qurulmuş yaya bənzər.

***
Qoyun gələr, naz gələr,
Sürü nədən az gələr?
Ağartısı bol olsa,
Elin günü saz gələr.

***
Yeyər-yeyər gərnəşər,
Ayağıyla yer eşər.
Gəzər dağlar döşünü,
Buynuz vurar döyüşər.

***
Nənəm qoyunun uzunu,
Döşündə bəslər quzunu.
Soluna yatar bozdar,
Sağına baxıb gözlər.
Əli çanaqlı qızlar
Qoynunun yolun gözlər.
Çoban qoyun götürəsi,
Onu bərəyə yetirəsi.
Ağ biləkli gəlinlər,
Sağım-sağım deyəsi.
Ağ birçəkli qarılar,
Balığım-balığım deyəsi,
Bu oğlumun deyəsi,
Bu qızımın deyəsi.
Sarı suyu çalanda
Boz köpəyə tökəsi.
Ucu yanıq kösöv ilə
Boz köpəyi döyəsi,
Yeri qoyuna deyəsi.
Can quzu, canım quzu,
Tükü qalır qırmızı.
Əbrişim telli quzu,
Qonurdu onun gözü.
Artıb çoxalsın sayı
Biri kəlinin olsun,
Biri çobanın payı.
Eşit sayaçı sözünü:
Ərsəyə çatdır quzunu
Qoyunu yaxşı saxla

Ağ elə öz üzünü.

***

Təkəm, təkəm, axta təkəm,
Boynunda var noxta təkəm.
Tükləri biz-biz olub
Qışda yeyib şaxta təkəm.
Təkəm bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar Kilanın düyüsün,
Çəpiş bəyin toyun eylər.
Təkəm getdi xanlığa,
Üz qoydu yamanlığa.
Təkəmi öldürdülər
Atdılar samanlığa.
Təkəm getdi Məryəndə
Tamaşadı gələndə,
Yaxşı insan çox yaşar,
Vay pisədi öləndə.
Bu təkə axta təkə,
Boynunda var noxta təkə.
Yayda qul olar satılar.
Qışda çıxar taxta təkə.
Bu təkə yarış təkə,
Kərdini bir qarış təkə.
Keçi ilə küsüşmüş,
Çəpiş ilə barış təkə.
Saya, saya sayadan,
Təkəm gəlir qayadan.
Təkəmə arxalıq ver,
Xanım evin abadan.
Təkəmə bir pay gətir,
Tüklərini say gətir.
Təkəmi tez yola sal,
Özünə bir tay gətir.
Bu təkə arıq təkə,
Ay dabanı yarıq təkə.
Yığar qoyun-quzunu
Bayramı pişvaz eylər.

***

Ala kərə, tayın gördüm,
Sarı kürə, tayın görmək gərək!
Qara kərə, tayın gördüm,
Qumral şişək, tayın görmək
gərək!
Qara kürə, tayın gördüm,
Özünü görmək gərək!
Sarı kərə, tayın gördüm,
Qumral kərə, tayın görmək
kərək!

***

Ala kərə, tayın gördüm,
Özünü görmək gərək.
Qumral qoç, özünü gördüm,
Tayını görmək gərək.
Qara gəlin tayın gördüm,
Özünü görmək gərək.
Qaraxallı tayın gördüm,
Səni görmək gərək.
Ağ heriyin tayı gəldi,
Balvazın tayı gəlmədi.
Tayın gəlsin, qumral kürə,

Sarı kərə tayın tapaq gərək.
Cüt əkə,
Cütmək əkə,
Qumral qoça
Saqqar təkə.

***
Südü, yağı bol olsun.
Nənəm, qarala qoyun,
Bənzər marala qoyun.
Çoban yununu qırxıb,
Basar xarala, qoyun.

Yunu bir döşək qoyun.
Bulamanı tez yetir,
Qırıldı uşaq, qoyun.
Nənəm, a təkcə qoyun,
Yunu var göyçə, qoyun.
Yeyən sənin ucundan,
Sallanar bəycə, qoyun.
Sürüdə var az qoyun,
Kef-damağı saz qoyun.
Çoban qurtdan çəkinsə,
Çölə çıxammaz qoyun.
Nənəm, a qızıl qoyun,
Yollara düzül, qoyun.
Kəsilməsin damazlıq,
Ömr elə yüz il, qoyun.

***
Toğlu kəssən, ət olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən,
Boz qurda qismət olar.
Xırda–xırda çəpişlər,
Otların başın dişlər.
Gedər yaylağı gəzər,
Gələr aranda qışlar.
Ağ qoyun aya bənzər,
Dağ aşar, yaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.
Ağ qoyun aya bənzər,
Dağ aşar çaya bənzər.
Qoyunlu evlər gördüm,
Qurulmuş yaya bənzər.
Qoyun var, kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər dağlarda otlar,
Gələr evləri bəzər.
Qoyun gələr, naz gələr,
Südü nədən az gələr?
Ağartısı bol olsa,
Elin günü saz gələr.
***
Ağ qoyun gələr düşər,
Dağlardan enər düşər.
Qabağında qoç təkə,
Dalınnan mələr düşər.
Saya yaxşı sayadır,
Yeri-yurdu qayadır.
Onun gözəl sözləri,
Yatanları oyadır.
Əbrəş sürünün gözü,

Dolandı dağı, düzü.
Bər–bəzəkli xurcunda
Gəldi bir əmlik quzu.
Nənəm, qoyunun ağı,
Dolandı gəldi dağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı.
Nənəm, qoyunun ağı,
Dolanıb gəldi dağı.
Qırpar qaraqiyağı,
İçər sərin bulağı.
Qızlara cehiz ağı,
Çobana çarıq bağı.
Qarılar tutar yağı,
Gəlin yeyər qaymağı.
Əzizim bahar barı,
Şirindir bahar barı.
Kəsmə əmlik quzunu,
Qoy gəlsin bahar, barı.
Nənəm, əlində tası,
Nəhrədə çalxar ması,
Südün yağlı olmasa,
Xan çoban olar ası.

***

Nənəm, qoyun qarası,
Qırxar, olar narazı.
Yaz günü dələməsi,
Qış günü qovurması.
Dağları endi qoyun,
Dolandı bəndi qoyun.
Ağartını bol eylə,
Sevindir kəndi qoyun.
Dağdan enən suz qoyun,
Ey qoşa buynuz qoyun.
Əldə badya gözləyir
Səni gəlin-qız qoyun.
Ellərin xan çobanı,
Sürünün yan çobanı,
Qoyun yuxuya qalsa,
Oyadar ban çobanı.
Qoyun gəzir aranı,
Görür qışı, boranı.
Yanında bir çoban var,
Döşündə var nişanı.

## QARANQUŞ

Qaranquşam, qaranquş,
Mənəm gözəl, zərif quş.
Belimdə ağ kəmərim,
Hər evdə yuvam, yerim.
Yazın müjdəsiməndə,
Ot cücərib çəməndə.

Qaranquşam, qaranquş,
Mənəm gözəl, zərif quş.
Qanadım ayrınc-ayrınc,
Məni vuran xan oğlu
Qan qussun ovuc-ovuc…

Uçmağa taqətim var,
Sizə sədaqətim var.
Noğulu uşaq yesin,
Şirin bir nəğmə desin:
Qaranquşam, qaranquş,
Mənəm gözəl, zərif quş.

## BƏNÖVŞƏ

*(Birinci nəğmə)*

Bənövşəyəm, bənövşə,
Yaza qonaq həmişə.
Dağda, çöldə itmişəm,
Novruzda yetişmişəm.
Qızılgüldən utanıb
Boynu əyri bitmişəm.

Çıxdım qarlı dağlardan,
Axtardılar bağlardan.
Qızıl güllə calağam
Qorxmuram soyuq, qardan.
Novruzda yetişmişəm.
Kol dibində bitmişəm.
Bənövşəyəm, bənövşə,
Yaza qonaq həmişə.

## BƏNÖVŞƏ
*(İkinci nəğmə)*

Dağlara gün düşübdür,
Açıl, bənövşəm, açıl.
Bağlara gün düşübdür,
Açıl, bənövşəm, açıl.

Dağlara çökdü duman,
Gizlən, bənövşəm, gizlən.
Bağlara çökdü duman,
Gizlən, bənövşəm, gizlən.

Dağlara əsdi külək,
Dikəl, bənövşəm, dikəl.
Dikəl bənövşəm, dikəl,
Bağlara, əsdi külək.
Dağlara qar yağıbdır,
Yığıl, bənövşəm, yığıl.
Bağlara qar yağıbdır,
Yığıl, bənövşəm, yığıl.

Açıl, bənövşəm, açıl,
Dağlara gün düşübdür,
Bağlara gün düşübdür,
Açıl, bənövşəm, açıl.

## ACITMALAR (DOLAMALAR)

Ay Pəri, Pəri,–
Bir sümük, dəri,
Gəlirdi bəri,
Yoxdu xəbəri,
İtə daş atdı,
Palçığa batdı,
Bizə naz satdı,
Yıxıldı, yatdı.

***

Dursun dursun,
Boynun bursun,
Dalda dursun,
Tələ qursun,
Bir göz vursun.

***

Ay Dursun, Dursun,
İtin qudursun.

***

Zakir oğlan,
Bazarda tullan,
Qoy qızlar görsün,
Dərdindən ölsün.

***

Fatma, Fatma,

Təpik atma,
Yolda yatma,
Suya batma,
Şirni satma.
***
Həsən, Həsən,
Quyruq kəsən,
Qorxan, əsən,
De görüm nəsən?

***
Səlim, Səlim,
Yuyum əlim,
Mən sizə gəlim.

***
Qəmər, Qəmər,
Beldə kəmər,
Məmə əmər.

***
A Nazlı, Nazlı,
Başı qapazlı.

***
Ay pota Məsmə, Məsmə,
Yolumu kəsmə, kəsmə,
Yarpaq tək əsmə, əsmə,
Gəl məndən küsmə, küsmə.

***
Ay Sona, Sona,
Qal yana, yana,
Biz aldıq dana,
Tez saldıq dama.

***
Məkkə, Mədinə,
Çıxdılar tinə,
Məkkə sataşdı,
Küsdü, dalaşdı,
Yaman dil aşdı,
Mədinə qaşdı,
Gəzdi, dolaşdı,
Möhrədən aşdı,
Təndirə düşdü,
Qıçları bişdi,
Görən, nə işdi?
Hamı gülüşdü
Məkkə sürüşdü,
Hovuza düşdü,
İtlər hürüşdü,
Görən, nə işdi?

***
Əhmədağa,
Girdi bağa,
Bir quş vurdu,
O da qurbağa.

***
Ay Rza, Rza,
Gəl yaza-yaza,
Çıx bizi qoza,

Bax ördək, qaza.

***

Lal Adilə,
İldən-ilə,
Gəldi dilə,
Düşdü gölə,
Az qaldı ölə.

***

Ay Qasım, Qasım,
Qulağın asım,
Ayağın basım.

***

Ay Roza, Roza,
Mindi xoruza,
Getdi bazara,
Aldı gitara,
Musiqi çaldı,
Nənə oynadı,
Baba qoymadı,
Nənə toxudu,
Baba oxudu,
Roza naz satdı,
Yıxıldı, yatdı.

***

Gedirdi Məlik,
Əlində ərik.
Yıxıldı Məlik.
Dağıldı ərik.
Ağlama Məlik,
Alaram ərik.
Ağladı Məlik,
Almadım ərik.

***

Anam getdi pambığa,
Bizi qoydu sandığa.
Sandıq üstə sarımsaq,
Kəs səsini, qurumsaq.

***

– Gəl gedək bizə,
Çay verim sizə.
– Qəndiniz yoxsa,
Getdim evimizə.

***

Ay arığ oğlan,
Çəpərdən boylan.
Qoy qızlar görsün,
Dərdinnən ölsün.

***

Balıq, balıq olaydım,
Bankalara dolaydım,
Müəllimim gələndə,
Mən yanında qalaydım.

***

Dadaş mənim dayımdı,
Ağaca çıxan ayımdı,
Getdim gördüm yatıbdı,
Burnu bala batıbdı.

***
Rus dili müəllimi Rozıçka
Sözü deyər «toçka–toçka»
Sinfə qurbağa gətirdik,
Qışqırdı:
–Oy, «mamıçka»!

***
Mahirlə Tahir qardaşdılar,
Zahirlə yoldaşdılar.
İtlər Zahiri qapanda
Onu qoyub qaçdılar.

***
Baxçamızda yatırdım,
Taxtabiti tapırdım.
Xalaların ağzına
Bircə-bircə atırdım.

***
Əli, Vəli, Lütvəli
Qoltuğunda dəftəri.

***
Ay Hüsniyyə, Hüsniyyə,
Ağzın aça əsniyə,
At tək niyə
Kişniyə?

***
Gözü göy,
Saqqalı sarı.
Özü səy,
Eşşəyin dal ayağı -
Fərzəli bəy.

***
Meşədən ayı gəlir,
Mollanın tayı gəlir.

***
Dadaş dayı qudurdu,
Eşşəyə təpik vurdu.
Eşşək yolda yatırdı,
Bir yerin batırdı.

***
Meşədən ayı gəlir,
Bizə bir dayı gəlir,
Mollanın tayı gəlir.

***
Əli gəlir yol ilə,
Cibi dolu pul ilə.
Əli pulu neynədi,
Saqqıza verib çeynədi.

***
Zibeydə çöldə,
Ayağı göldə.
Başı dumanlı,
Köhnə tumanlı,
Əli süpürgəli,

Saçı sirkəli,
Yanı itdi,
Yaxası bitdi.
Fənadı sonu,
Neynirəm onu?!..

***
Fatma, Tükəzban,
Zibeydə bir can.
Tükəzban dəyər,
Fatma hey yeyər.
Fatma, Tukəzban,
Qarışdı hər yan,
Kişnədi göylər,
Dağıldı evlər.

***
Tükəzban yatır,
Qız demə, qatır.
Xor-xor xoruldar,
Gur-gur guruldar.
Gözləri miş-miş,
Yanağı bişmişi.

***
Əlləri fətir,
İstəyir xətir.
Ayağı kəndir,
Nəfəsi təndir.
Dili bir ərşin,
Burnu bir sajin.
Ömrü axırdı,
Axırı naxırdı.
Belə söylərəm,
Onu neylərəm.

***
Fatma təndirdə,
Əl-ayağı kəndirdə.
Fatma biçində,
Qan-tər içində.
Cırıqdır donu,
Neynirəm onu?!.

***
Mustafa, ay Mustafa,
Yolda duran aftafa.

***
Keçəl, keçəl, daz keçəl,
Hər yanda pərvaz keçəl.
Qış gəlib qurtarmasın,
Budu gəlir yaz, keçəl.

***
Keçəl, keçəl, mərəndi,
Qolları düymələndi.
Eşitdi saçlı gəlir,
Başına kül ələndi.

***
Həsənağa,
Doldu yarağa,
Mindi ulağa,

Sürdü bağa,
Bir quş vurdu,
O da qurbağa.
Verdi qonağa,
Qonaq yemədi,
Saldı yağa,
Bizə vermədi.
Yedi qurbağa,
Düşdü yatağa.

***

Gəlirdi Səfi,
Əlində dəfi.
Səfi yıxıldı,
Dəfi qırıldı.
Ağlama Səfi,
Alaram dəfi.

***

Gəlirdi Səftər,
Əlində dəftər.

***

Əmi, əmi, əmişka,
Cibi dolu semişka.
Semişkadan vermədi,
Adın qoydum “İnduşka”.

**SANAMALAR**

Biri bit,
İkisi it,
Üçü üzük,
Dördü döşək,
Beşi beşik,
Altısı alma,
Yeddisi yeşik,
Səkkizi sərçə,
Doqquzu donquz,
Onu oraq,
Gəlin, gedək,
Həsən kişinin,
Evini yaraq.

***

Əmim oğlu,
Burnu poxlu,
Pulu çoxlu,
Çal nağara,
Çıx qırağa,
Şabalıdı
Qabıqlıdı.
Atı yorğa,
Burnu qarğa,
Gözü dolma,
Dala qalma.

***

Bir, iki –

Bizimki.
Dəymə deyil sizinki.
Üç, dörd –
Qapını ört.
Qardaşın olmasın pərt.
Beş, altı –
Daş altı.
Sular axır yeraltı.
Yeddi, səkkiz –
Firəngiz.
Arxda açıbdı nərgiz.
Doqquz, on –
Qırmızı don.
Xoruzun quyruğun yon.

***

İynə, iynə,
Ucu düymə.
Bal ballıca,
Ballı keçi.
Şam ağacı,
Şatır keçi.
Qoz ağacı,
Qotur keçi.
Happan,
hoppan,
Yarıl,
yırtıl,
Su iç,
Qurtul.

***

Əmim oğlu,
Üzü buğlu,
Haldurum dedi,
Huldurum dedim.
Huldurum dedi,
Haldırım dedim.
Göyə bir ağac atdı –
Qarğı sapı,
Gül budağı.

***

Ya ondadı,
Ya bunda.
Qara qızın
Qolunda.

***

Motal-motal,
Tərs motal.
Ay keçər,
Qaymaq atar.
Ağ quşum,
Ağarçınım.
Göy quşum,
Göyərçinim.
Qara, qara,
Durna qara,
Kənbər çıraq.
Çıx qırağa,
Vur nağara.

***

Bir, iki -
(Bildirki)
Bizimki.
Üç, dörd -
Qapını ört.
Beş, altı -
Daş altı.
Yeddi, səkkiz -
(Qırx səkkiz)
Firəngiz.
Doqquz, on -
Qırmızı don.

Üçü üskük,
Dördü döşək.
Beşi bişək,
Altısı alma.
Yeddisi yemiş,
Səkkizi sərçə.
Doqquzu dolma,
Onu oraq,–
Gəlin gedək
Düşmənlərin
Bağrın yaraq.

***
Biri birə,
İkisi yerə.

## EPİK UŞAQ FOLKLORU

## TAPMACALAR

### TAP TAPMACA...

Tap tapmaca,
Gül yapmaca.
Məməli xatın,
Dişləri yox.
(Toyuq)

Tap tapmaca,
Qab altdaca.
(Xörək)

Tap tapmaca,
Gül yapmaca.
Deşiklədim
Atdım saca.
(Fəsəli)

Tap-tap tapmaca,
Qulaqları yapmaca.
Yatanları oyadır,
Süleyman papaqlıca.

(Xoruz)
Tap-tapı,
Dəmir qapı,
On iki budaq,
İki yarpaq.
(Saat)

«Tap» – dedim,
«tapış» – dedim,
«Gül buxaqdan yapış» – dedim.
Adam feili,
keçi qılı,
«Qatarlanıb gedir» – dedim.
(Qarışqa, dəvə)

**O NƏDİ (HANSI, HANI, KİMDİR, NƏDƏNDİ...) Kİ**

O hansı ağacdı ki,
Kökü havada durar,
Budaqları yerdədi?
(Günəş)

O hansı bağdı ki,
Torpağın əkmək olmaz,
Çınqılın çəkmək olmaz.
(Ulduz, səma)

O hansı quşdu ki,
Bir qanadı ağdı,
Bir qanadı qara?
(Gecə-gündüz)

O hansı anadı ki,
Udar balalarını?
(Dəniz, çayları udur)

O necə quşdu ki,
İnsan kimi süd əmər?
(Yarasa balası)

O hansı quşdu – yazı, yayı işləyər,
İnsan kimi özünə azuqə yığar?
(Qarışqa)

O hansı heyvandı
yuvasını çiynində gəzdirər?
(İlbiz)

O necə göldür,
suyunu içmək olmaz.
O necə dağdır,
otun biçməklə
qurtarmaq olmaz.
(Göz yaşı və saç)

O hanı, ha, o hanı,
Çaxmaq hanı, qo hanı?
Səksən səkkiz dəyirman,
Doxsan doqquz no hanı?
(Boğazın damarları və yolu)

O kimdir ki,
dərdü məndi ifadə,
Dünya qəmindən azadə?
(Kölgə)

Nədəndi, ay nədəndi?
Dərmə, nazik bədəndi.
Plov üstə məskəni,
Görən rəngi nədəndi?
(Zəfəran)

O nədi ki,
qulağından kəsilər.
(Küçük).

O nədi ki,
dizlərindən asılar.
(Qoyun)

O nədi ki,
daşdan köynək geyinər?
(Tısbağa)

O nədi ki,
Əyri ayaq,
Çəpbəl qulaq,
Dişi mırıq,
Ağzı cırıq.
(Dovşan)

O nədi ki,
zirzəmidə qışlağı,
Dərisi var, tükü yox.
(İlan)

## YUXARI – AŞAĞI (GÖY – YER)

Allahdan aşağı,
peyğəmbərdən yuxarı.
(Əmmamə)

Aşağı gəlir – işi var,
yuxarı gedir – yükü var.
(Qaşıq)

Yuxarı çıxsa,
aşağı enməz.
(Yaş)

Yerdən göyə sallanır,
uşağa ver, allanır.
(Alma)

## GÖYDƏN GƏLİR, YAXUD DÜŞÜR...

Göydən bir ağac düşdü,
Barsız, budaqsız.
Onu bir quş yaladı,
Dilsiz, dodaqsız.
(Qar, Günəş)

Göydə gördüm bir maya,
Atıldı, düşdü çaya.
(Günün batması)

Göydən gələr, millənər,
Yerə düşər, dillənər.
(Qoz)

Göydən bir dəri düşdü,
Toyuqlar ona yüyrüşdü.
(Tut)

Göydən düşdü,
yerə yapışdı.
(Qar, yağış, ad)

Göydə doğulur,
Yerdə boğulur.
(Yağış)

## DAĞDAN GƏLİR...

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi.
Əyilir su içməyə,
Böyürür oğlağ kimi.
(Yel, sel)

Dağdan–daşdan qan gəlir,
Qıvrılmış ilan gəlir.
Qabağında durmayın,
Qudurmuş aslan gəlir.
(Sel)

Dağdan gəlir,
daşdan gəlir,
Qudurmuş aslan gəlir.
(Çay)

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi.
Oturur həsir kimi,
Duranda yesir kimi.
(Qar)

Dağdan gəlir hozı kimi,
Dəyirmanın tozu kimi.
(Külək, sel)

## ALT – ÜST...

Altı taxta, üstü taxta,
Ortasında dəmir balta.
(Xəncər)

Altı bulaq içərlər,
Üstü zəmi biçərlər.
(Qoyun)

Altı daşdı, daş deyil,
Üstü daşdı, daş deyil.
Heyvan kimi otlayır,
Heyvana yoldaş deyil.
(Tısbağa)

Altı taxta, üstü taxta,
Oturub bir otaqda.
Qoyun deyil, ot otlayır,
Heyvana yoldaş deyil.
(Tısbağa)

Altı camış,
Üzü keçi.
Yüklənibdi
Bir cüt ata.
(Məst)

Altı inci, mirvari,
Üstü inci mirvari,
Arasında bir yarpaq.
(Dil)

Altı mərmər,
Üstü mərmər,
İçində bir
Bülbül oynar.
(Dil)

Altı sudu,
üstu ot.
(Sulu qəlyan)

**İÇ–ÇÖL (ÜST)...**

İçi qırmızı, çölü boz,
Üstü yemiş, içi qoz.
(Şaftalı)

İçi darı,
Çölü sarı.
(Çiyələk)

Çölü sarı,
İçi darı.
(Əncir)

**O YAN, BU YAN...**

O yanı qaya,
Bu yanı qaya,
İçində ağca maya.
(Nehrə)

O yanı qac,
Bu yanı qac,
İçində odlu ağac.
(Təndir)

O yanı taxta,
Bu yanı taxta,
İçində alabaxta.
(Beşikdə uşaq)

O yanı mərmər,
bu yanı mərmər,
İçində bir nazənin pərvər.
(Dil)

O yanı yastı,
Bu yanı yastı.
Dörd ayağını
Yerə nə basdı?
(Oturacaq – miz)

**YER ALTINDA...**

Yer altında qanlı bəsti.
(Çuğundur)

Yer altında qıllı baş.
(Soğan)

Yer altında sarı biz.
(Kök)

Yer altında gümüş kəmər.
(Su)

**AĞAC BAŞINDA...**

Ağac başında al yanaqlı qız.
(Alma)

Ağac başında qırmızı qız.
(Zoğal)

Ağac başında bir torba un.
(İydə)

Ağac başında qara yumaq.
(Qara əncir)

Ağac başında qımro bitər.
(Fındıq)

\

**SUYA GİRƏR, SUDAN ÇIXAR...**

Suya girər, lillənər,
Sudan çıxar dillənər.
(Zəncir)

Suya girər, bir olar,
Sudan çıxar min olar.
(Saç)

Suya girər, millənər,
Sudan çıxar dillənər.
(Qurbağa)

Suya girdi, dağıldı,
Sudan çıxdı – yığıldı.
(At quyruğu)

Sudan çıxıb, daş deyil,
Qanadlıdı, quş deyil.
(Balıq)

Sudan cıxır, boğulur,
Suya girir – doğulur.
(Balıq)

Sularda batar,
Quruda yatar,
Hoppanar, düşər,
Ordları şişər.
(Qurbağa)

Su üzündə ağca fərə.
(Düyü)

**VAR–YOX...**

Adı var,
Özü yox.
(Söz)

Bədəni var,
Başı yox,
Qolları var,
Qılçası yox,
Qarnını yırt,
Qanı yox.
(Köynək)

Anada var,
Atada yox,
Nuxada var,
Bakıda yox.
(«N» hərfi)

Bir taxçam var,
düyü ilə dolu.
(Dişlər)

Bir təpəm var, qara otdan,
Kökü sümük, üstü ətdən.
(Baş və tüklər)

Bir cüt quyum var,
qıraqları qırx çəpər.
(Kirpiklər)

Bir toyuğum var –
süzər-süzər,
Yumurta tökər.
(Cəhrə)

Bir hovuzum var, dəmirdən.
Suyu gəlir yetmiş yeddi dəlikdən.
(Aşsüzən)

Tərəzi var, təngi var,
Hər bir rəngdən rəngi var.
Salıb üstə oturram,
Həngi var, ahəngi var.
(Gəbə)

**BİR DAMIM VAR...**

Bir damım var,
qapısı yox.
(Qarpız)

Bir damım var,
Tək dirəkli.
(Göbələk)

Bir damım var,
Bir çəngə ot tutmaz,
Yüz baş mal tutar.
(Qarışqa və yuvası)

Bir damım var, iki dirəkli.
(Qoyun əmcəyi)

Bir damım var,
içi dolu yarmaca.
(Ağız və dişlər)

**BİZDƏ (EVİMİZDƏ) BİR KİŞİ VAR...**

Bizdə bir kişi var,
Hər gələnə əl verir.
(Qapının dəstəyi)

Bizdə bir kişi var,
Təpəsi dəlik.
(Buxarı)

Bizim evdə bir kişi var,
Təpəsində yüz deşiyi var.
(Kəfkir)

Bizdə bir kişi var,
Ağzında iki dişi var.
(Maşa)

Bizdə bir kişi var,
Ağzında on dişi var.
(Həvə)

Bizdə bir kişi var,
Qırx iki dişi var.
(Daraq)

Bizdə bir kişi var,
Yetmiş iki dişi var.
(Məcməyi)

Bizdə bir kişi var,
Dəmirdən dişi var.
(Yun təmizləyən daraq)

Bizdə bir kişi var,
Dörd qıçı var.
(Stol)

Bizdə bir kişi var,
Əyri–müyri işi var.
Bizə gələrsən,
Gülməkdən ölərsən.
(Cəhrə)

Evimizdə bir kişi var,
Xorhaxor yatışı var.
(Pişik)

## BİZDƏ BİR GƏLİN GƏZƏR...

Bizdə bir gəlin gəzər,
Saçıyla yer təmizlər.
(Tuğ, süpürgə)

Evimizdə bir gəlin var –
Lalə bədəndi,
Al ata, yaşıl nəsli
Deyin nədəndi?
(Xına)

## UZUN QIZ UZANAR... GÖRƏN NƏ QAZANAR?

Uzun qız evləri gəzər.
(Oxlov)

Uzun qız oba gəzər,
Xamırnan özün bəzər.
(Oxlov)

Uzun qız uzanar,
Özünə köynək qazanar.
(Qarğıdalı, oxlov)

Uzun qıztək ayaqla
Yumurlanar, lovğa gəzər,
Gedib–gəlib xamır əzər.
(Oxlov)

Uzun qızın kölgəsi yox,
Müştərisi hər şeydən çox.
(Su)

Uzun–uzun qayışlar,
Gedib Gəncədə işlər.
(Yol)

Uzun hacı, kök hacı,
Duman başının tacı.
(Dağ)

Uzun boy, qısa ayaq,

Gəzər yastı–yapalaq.
(Ördək)

## BİR BALACA BOYU VAR...

Bir balaca boyu var,
Dam dolusu toyu var.
(Lampa)

Bir balaca boyu var,
Al atlazdan donu var.
(İnnab)

Bir balaca boyu var,
Qırmızıdan donu var.
(Zoğal)

Bir balaca boyu var,
Darayıdan donu var.
(İydə)

Bir balaca boyu var,
İçi dolu gül mıncıq.
(Əncir)

Bapbalaca boyu var,
İldırımnan soyu var.
Əl vurarsan qudurar,
Dünyaya od vurar.
(Tüfəng)

## ÖKÜZÜM VAR...

Bir öküzüm var,
ağzınnan ayran axar.
(Cəhrə)

Bir öküzüm var,
quyruğuyla çit hörər.
(İynə)

Bir öküzüm var,
quyruğundan tutmasan,
dama girməz.
(Qaşıq)

İki öküzüm var,
Biri göy, biri qızıl,
Qızıl öküz yatar, durmaz.
Göy öküz gedər, gəlməz.
(Od, tüstü)

*Variantı:*

İki öküz bir yerdə,
Biri aldı, biri çal.
Alı yatır tərpənmir,
Çalı gedir hənir–hənir.
(Od, tüstü)

## BİR ATIM VAR...

Bir atım var,
çullasan çulun salar,
Çullamasan
qulun salar.
(Sac)

Bir atım var,
minə bilmirəm,
Ağzın açsa,
dinə bilmirəm.
(Şir)

Bir atım var, atılar,
Qulaqları çatılar.
Quyruğunu bərk qısar,
Sinib dərədən pusar.
(Canavar)

Bir atım var,
hər yetəni minər.
(Səhəng)

## BİR QUŞUM VAR...

Bir quşum var – bağdadı,
Dimdiyi yarpaqdadı.
(Badımcan)

Bir quşum var, alaca,
Getdi, qondu ağaca.
Özünə bir ev tikdi,
Nə qapı qoydu, nə baca.
(Baramaqurdu)

Bir quşum var,
Dərisi puldan,
Gözləri nurdan.
(Balıq)

Bir quşum var,
bir göz qırpımında ərşə gedər.
(Xəyal)

## QARA TOYUQ VƏ QARALIQ

Qara toyuq,
Göy cücələr.
(Ulduzlu səma)

Qara toyuq yer eşər,
Ağ toyuq suda bişər.
(Kotan və düyü)

Qara toyuq –
Qarnı yarıq.
(Buxarıda yanan ocaq)

Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.
(Bulud, göy gurultusu)

Qara toyuğum
Qapıda yatar,
Yumurta tökər.
(Kündə)

Qara xanın qarnı yarıq,
İçi dolu qızıl balıq.
(Gecə və ulduzlar)

Qara sacın altı qara,
Dur, üstündə ocaq qala.
(Gecə və ay)

## ANCAQ İNKARLA QURULANLAR

Nə evdədi,
nə çöldə,
Nə göydədi,
nə yerdə.
(Pəncərə)

Nə gecə yatar,
Nə suya batar,
Nə də sahibindən
uzaqlaşar.
(Kölgə)

## İNKARLA TƏSDİQLƏNƏNLƏR

Nə əli var,
nə ayağı,
Nə başı var,
nə qulağı.
Gah ağladar,
gah güldürər.
(Söz)

## TƏSDİQLƏNƏNLƏRİ İNKARLA AYDINLAŞDIRANLAR

Göydən düşər – sınmaz.
Oda düşər – yanmaz.
Suya düşər – batmaz.
(Kölgə)

Ağca təpə,
Başı küpə.
Nə küpədi,
Nə də təpə.
(Plov)

## TƏSDİQLƏNİB-İNKAR EDİLƏNLƏR

Canı var,
qanı yox,
Əti var,
gönü yox.
(Çibin)

Torpaq deyil,
quş deyil,
Quru deyil,
yaş deyil.
Buynuzu var,
qoç deyil,
Qanadlıdır,
quş deyil.
(Kəpənək)

Ana bir qız doğubdu,
Nə əli var, nə ayağı.
Qızı oğlan doğubdu,
Həm əli var, həm ayağı.
(Yumurta, cücə)

Ot yeyər, inək deyil.
Yumurtlar, toyuq deyil.
(Bağa)

## DİALOQLU TAPMACALAR

–A qoç, hardan gəlirsən?
–Qanlı qaya dibindən.
–Qanın niyə quruyub?
–Allah, belə buyurub.
(Qoyun quyruğu, kəklik)

–Ağ quşum, hardan gəlirsən?
–Qan bulağından.
–Qana niyə batmayıbsan?
–Öz əməlimdən.
(Süd)

## ƏSKİ İNAM VƏ ETİQADLA BAĞLI OLANLAR

Meşədə bir qız gördüm,
gözləri şəhla,
Düşdüm onun izinə,
qaldım, tək–tənha.
(Ceyran)

Yerə vurdum baltanı,
Ağzı gümüş xaltanı.
Yerdən bir oğlan çıxdı –
Dünyaların soltanı.
(Buğda)

Min bir oğul, bir ata,
Hamısı minib bir ata.
(Qarğıdalı)

Üçü bizə yağıdır,
(Qış)

Üçü cənnət bağıdır,
(Yaz)

Üçü yığar, gətirər,
(Yay)

Üçü vurar, dağıdar.
(Payız)

Bir quşum var alaca,
Gedər, qonar ağaca,
Özünə bir ev tikər,
Nə qapı qoyar, nə baca.
(Barama qurdu)

Püstədi ha, püstədi,
Taxtı rəvan üstədi,
Camış kimi ot otlar,
Su içməyir xəstədi.
(Barama qurdu)

***

Hardan gələr, bilinməz,
Gəlib gözə görünməz.
Gözləri zildən qara,
Səbəb olur ah-zara.
Əlləri topal–topal,
Ayağı ağır, qara.
(Əzrayıl)

## TARİXİ HADİSƏLƏRLƏ BAĞLI YARANANLAR

Ərəb əlində,
Dizi belində,
Atın üstündə.
Bir ucu yerdə,
Bir ucu göydə.
(Nizə)

## MÜASİR TAPMACALAR

Gücün alır nazik teldən,
Xəbər verir
hər bir eldən.
(Radio)

Nə əli var, nə ayağı,
Eşər, tökər torpağı.
(Traktor)

Çağırıram hündürdən,
Səsi gəlir kəndirdən.
(Telefon)

Yerə vurdum, qırılmadı,
Daşa vurdum, qırılmadı,
Suya saldım, qırıldı.
(Kağız)

## SƏSTƏQLİDİ SÖZLƏRDƏN YARANAN TAPMACALAR

Ovun alsan miyoldar,
Sığallasan xoruldar.
(Pişik)

Taxçadan düşdü tap elədi,
(Siçan)

Gülsənəm onu hap elədi.
(Pişik)

Dağda tappıldar,
(Balta)

Suda şappıldar.
(Balıq)

Vay–vay uçar,
Vay–vay qonar,
Vay iliksiz,
Vay sümüksüz.
(Ağcaqanad)

Vıy vıyıldar,
Vıy sızıldar,
Vıy iliksiz,
Vıy sümüksüz.
(Milçək)

Nə əli var, nə ayağı,
Dağıdar dəli sayağı,
Şıqhaşırıq açar qapı.
(Külək)

Fır–fır ötər,
Ağ–ağ tökər.
(Dəyirman)

## SÖZ OYUNLU TAPMACALAR

Biz bizə biz deyirik.
Siz bizə nə deyirsiniz?
(Biz)

O nədir ki,
qoz qabığına girər,
qala qapısına girməz?
(Qala)

Ataya dəyməz,
Babaya dəyməz,
Xalaya dəyməz,
Əmiyə dəyməz,
Dəyərə dəyməz,
Dəyməzə dəyər,
Allaha dəyməz,
Billaha dəyər.
(Dodoq)

## RİYAZİ TAPMACALAR

Beş, beş, beş –
On beş. 5+5+5=15
Üç – on səkkiz.15+3=18
İki – iyirmi.     18+2=20
Neçə eylər hamısı? 20

İki tülkü balası,
Üç – anası.
(yəni üçüncü anası)
Dörd – atası,
(yəni dördüncü atası)
Neçə eylər hamısı?
(Dörd: iki bala, ata və ana)

Nə deyirsən, yalquz qaz?
Bizə bizcən də gərək,
Bizim yarımızcan da gərək,
Dörddə birimizcən də gərək,
Sən də bizim içimizdə,
Onda olluq yüz qaz?
(63 qaz)

*Variantı:*
Göydə gedən yüz qaz!
Nə deyirsən, yalquz qaz?
Bizə bizcən də gərək,
Bizim yarımızcan da gərək,
Dörddə birimizcən də gərək,
Sən də bizim içimizdə,
Onda olluq yüz qaz?
(63 qaz)

İki tülkü balası,
Üç – anası
(yəni üçüncü anası).
Dörd – atası
(yəni dördüncü atası),
Neçə eylər hamısı?
(Dörd: iki bala, ata və ana)

Bir dərədə yeddi təpə,
Hər təpədə yeddi yuva,
Hər yuvada yeddi tülkü,
hər tülkünün yeddi balası –
Neçə eylər hamısı?
(2401 tülkü balası)

## MƏNSUR TAPMACALAR

O nədir ki, yayda donar,
qışda əriyər?
(Nəfəs)

O nədir ki, uzağı yaxın
eylər?
(Fikir)

O nədir ki,
baldan şirindir, zəhərdən
acı?
(Dil)

Su içində od.
(Samovar)

Bir damım var, içi dolu ağ
yarmaça.
(Ağız və dişlər)

Bir donum var, tikişi yox.
(İnsanın dərisi)

Bir ağacım var, iki budağı.
(Adam və onun qolları)

O hansı ağacdır ki,
kökü havada durar, budaqları
yerdə.
(Günəş)

İçdiyim benzindi,
Ayağım rezindi.
(Avtomobil)

## MƏNZUM TAPMACALAR

Tap tapmaca,
Gül yapmaca,
Məməli xatın,
Dişləri yox.
(Toyuq)

Tap tapmaca,
Qab altdaca.
(Xörək)

Bizdə bir kişi var,
Ağzında iki dişi var.
(Maşa)

Bizdə bir kişi var,
Dörd qıçı var.
(Stol)

Çölü sarı,
İçi darı.
(Əncir)

Nə gecə yatar,
Nə suya batar.
(Kölgə)

Araba gedər,
izi yox,
Yanar, yanar,
közü yox.
(Günəş)

Aldım bir dənə,
Açdım min dənə.
(Nar)

Uzun boyu,
Ağdı qanı,
Sudu canı.
(Xiyar)

Alaca, ha, alaca,
Sərdirmişəm yamaca,
Düz dırmaşır ağaca.
(Lobya)

Hapı-hap,
Zəncir sap.
Dörd budağı,
Bir yarpağı.
(Xalça)

Bir yanı ağ,
Bir yanı al,
Ağzına al,
Dadıdı bal.
(Şaftalı)

Balaca Bəsti,
Yanları yastı,

Sənəm parçası,
Zərdi haçası.
(Nehrə)

Yaşıl tağım var,
Al otağım var,
Göy paltarımda
Boz qurşağım var.
(Qarpız)

Suda gəzər, canı yox,
Boğazlasan qanı yox.
Suya atsan, o batmaz,
Quruya yatsa, qalxmaz.
(Qayıq)

Bir quşum var alaca,
Getdi, qondu ağaca,
Özünə bir ev tikdi,
Nə qapı qoydu, nə baca.
(Qabaq, barama qurdu)

Bizim evdə bir quyu,
İçində ağca suyu.
Suyun içində ilan,
İlan ağzında gövhər,
Gecələr bizə göndər.
(Lampa)

Dilim-dilim nar,
Dizimətən qar.
(Odun, kül)

Uçdu bir kəklik,
Qondu bir dilbər.
(Tustü, Od)

Üstü taxta, altı daş,
Səkkiz ayaq, iki baş.
(Vəl, öküzlər)

Bu gün çərşənbədir,
Qəlbimə düşən nədir?
Dəryadan tüstü qalxır,
İçində bişən nədir?
(Qəlyan)

## İNTELLEKTUAL TAPMACALAR

Suda bitər,
Suda itər.
(Buz)

Nə baltadır, nə kərki,
Bütün kəsərdən iti.
(Ağıl)

Tut ağacı, üzü pərdə
Barmaq gəzir pərdə-pərdə.
Gah dərində, gah zərində
Ağlar ahu-zar dilində.
(Tar)

## İNFORMATİV TAPMACALAR

Başı şabalıd,
quyruğu qayçı.
(Qaranquş)

At baba, ha hut baba,
Dolan evi yat, baba.
(Süpürgə)

Şəkli işıqdan,
İpi var mıxdan.
(Güzgü)

Anası qundaqda yatır,
Oğlu bazara gedir.
(Güllə və giliz)

–Əyri-müyrü, hara gedirsən?
–Təpəsi dəlik, sən nə deyirsən?
(Tüstü və baca)

Dam üstə at kişnər.
(Novdan)

Qırmızı divar üstə
ağ fərələr düzülüb.
(Damaq və diş)

O nədir ki, gündüz gözü korlaşır,
gecə od tutub yanır.
(Ulduz)

O nədir saymaq olmaz,
Olmasa, qalmaq olmaz.
(Un)

Canı var, qanı yox,
Yer altında sanı yox.
(Qarışqa)

Yük üstə para fətir.
Bacarırsan, tut gətir.
(Ay)

Qara sacın altı qara.
Dur üstündə, ocaq qala.
(Gecə)

Göydə doğular,
Yerdə boğular.
(Yağış)

Göydən düşdü,
Yerə yapışdı.
(Yağış)

Göydə uçar bir maya,
İşıq salar dünyaya.
(Günəş)

Bir donum var, tikişi yox,
Sökülməklə heç işi yox.
(Yumurta qabığı)

Tərəzidə çəkilməz,
Bazarda satılmaz,
Baldan şirin dadı var,
Yemək olmaz, canı var.
(Uşaq)

Bir evdə iki qardaşım var,
Ha gedirlər, bir–birini ötə bilmirlər.
(Ayaqlar)

Dərisi var, üzü yox.
(Bit)

Anası qara,
Qızı qırmızı,
Oğlu qıvrımca–qıvrımca.
(Ocaq, od, tüstü)

Ay gedər,
İl gedər,
Gecə–gündüz
Yol gedər.
(Su)

Dəryada bir gül bitib,
Adı yox.
Şirinliyindən yemək olmaz,

Dadı yox.
(Uşaq)

Sarı saqqal,
Uzun hoqqar.
Onu tanımayan
Olsun çaqqal.
(Qarğıdalı)

Gəl! Gəl! – deyirəm, gəlməz.
Gəlmə! Gəlmə! – deyirəm, gələr.
(Dodaqlar)

Yol içində qazan qaynar.
(Qarışqa yuvası)

Uzun–uzun dərvişlər
Bizim evə gəlmişlər,
O qədər oynamışlar,
Xurt–xəşil olmuşlar.
(Yağış)

Atdan hündür, itdən alçaq.
(Yəhər)

Mən baxıram, o qaçır.
(Qulaq)

Burdan vurur qılıncı,
Dəhnədə oynar ucu.
(İldırım)

Altında qazan qaynar,
Üstündə ocaq yanar.
(Qəlyan)

O yanı çəpər,
Bu yanı çəpər,
İçində atlı çapar.
(Nehrə)

Özü bir qarış,
Saqqalı iki qarış.
(Sirkə)

Bizim evdə dörd gəlin var,
Dördü də bir boydadır.
(Otağın küncləri)

Bu yanı daş,
O yanı daş,
İçində qırx-əlli baş.
(Ev, və ya hamam)

Altı hovuz içərlər,
Üstü zəmi biçərlər.
(Qoyun)

Başını kəsərsən, danışar.
(Qələm)

Gəlirdim bənddən,
Səs gəlir kənddən.
Ağzı sümükdən,

Saqqalı ətdən.
(Xoruz)

**EMOSİONAL TAPMACALAR**

Ağ qıza əl uzatdım,
Məsti budaqda qaldı.
(Pambıq)

Əzan verir, namaz bilmir,
Arvad alır, kəbin bilmir.
(Xoruz)

Araz qırağı düzdü,
Sanasan, əlli, yüzdü.
Oğul gedir davaya,
Anası hələ qızdı.
(Arı)

Dağlarda lalə gəzər,
Əldə piyalə gəzər.
Nə doğar, nə balalar,
Dalınca bala gəzər.
(Arı)

O nədir, dərya kimi bulanmaz,
O olmasa, bütün dünya dolanmaz?
(Məhəbbət, yaxşılıq)

Axşam oldu – qırıldıq,
Səhər açıldı – dirildik
(Yuxu)

Odda yanmaz,
Suda batmaz.
(Söz, yaxud buz)

Ay gedər, ha, il gedər,
Gecə-gündüz yol gedər.
Nə dili var, nə ağzı,
Nərildər, aslan gedər.
(Su)

***

Anam atlandı,
Xalı qatlandı,
Quyruq bulandı,
Qum səpələndi.
(Yağış)

***

Yer altında yaza gedər.
(Su)

***

Yer altında gümüş kəmər.
(Su)

***

Gedir, gedir, gözü yox,
Adam deyil, hey qaçır,
Meşə deyil, səs salır.
(Çay)

***

Dağdan gəlir dağ kimi,
Qolları budağ kimi.
Əyilir su içməyə,
Böyürür oğlağ kimi.
(Sel)

***

Göydə doğulur,
Yerdə boğulur.
(Yağış)

***

Yorğa gedər, tozu yox.
(Su)

***

Hayındı mindi,
Huyundu endi.
Altı qıçı var,
İki dabanı.
(Tərəzi)

***

Nağaraçı nağara çalır,
Nə nağarası var, nə çubuğu.
(Ağacdələn)

***

Nə əli var, nə ayağı,
Eşər, tökər torpağı.
(Ekskavator, traktor)

***

Suya girər, millənər,
Sudan çıxar, dillənər.
(Kotan zəngiri)

***
Ağac atı nalladım,
Səmərqəndə yolladım
(Məktub)

***
Sap sapı,
Balta sapı.
(Birə)

***
Yonaram, gen olar,
Kəsərəm, uzun olar.
(Quyu)

***
Babamın qara çuxası var,
qatlamaq olmaz.
Cibinin pullarını
cütləmək olmaz.
(Göy, ulduzlar)

***
Üç qardaşın bir papağı
(Sacayaq)

***
Alçaq kişi allanar,
Qızıllanıb sallanar.
(Zoğal)

***
Qayadan qamış sallanır.
(Dəvənin quyruğu)

***
Birisi bir qız doğdu,
Nə başı var, nə ayağı,
Bu qız da birin doğdu,
Başı da var, ayağı da.
(Toyuq, yumurta, cücə)

***
Bir donum var,
qatlamaq olmaz,
Üstündəki əşrəfləri
cütləmək olmaz.
(Göy və ulduzlar)

***
Min–minarə,
Dibi dairə,
Min yarpaq içində
Bir çiçək.
(Göy, ulduzlar və ay)

***
Kolun üstündə qarğa,
İçi dolu qorca.
(İtburnu)

***
Gecə bəy kimi durur,
gündüz qaravaş.
(Süpürgə)

***
Qatbaqat yorğan–döşək,
Onu tapmayan eşşək.
(Kələm)

***
Dörd kişi işlər,
İkisi yatar, ikisi durar.
(Ding – çəltikdöyən)

***
Qamış niyə quruyub?
Allah belə buyurub.
(Quyruq)

***
İki qardaşdı,
Yan-yana otururlar,
Bir-birini görmürlər.
(Gözlər)

***
Kötüyü göydədir,
budaqları yerdə.
(Günəş və şüaları)

***
Səhər gəlir,
Axşam gedir.
(Günəş)

***
Gündüz gəzir,
Gecə dincəlir.
(Günəş)

***
Gecə gəzir,
Gündüz dincəlir.
(Ay)

***
Nə uçur,
Nə yeriyir,
Gecə-gündüz
Yol gedir.
(Vaxt)

***
Sarıdı, zəfəran deyil,
Yazılıdı, Quran deyil.
(Qızıl onluq)

***
Bir balaca fit daşı,
Yandırdı dağı, daşı.
(İstiot)

***
Dağda tappıltı,
Çayda şappıltı,
Obada fərman,
Kənddə Süleyman.
(Dağ çapan, balıq, it, xoruz)

***
Həmişə insana quldur,
Getdiyi, gəldiyi eyni yoldur.
(Qapı)

***
Adama baxır gülür,
Dindirəndə dinmir.
(Şəkil)

***
Araxçınım var atlaz.
Ataram suya batmaz.
(Kağız)

***
Bir evciyim var,
Hər nə desən, qapısından
içəri alar.
Otaqda qışdır, çöldə bahar.
(Soyuducu)

***
A dağlar, bir anası,
Hərənin bir anası.
O hansı canlıdır ki,
Yüz bala, bir anası.
(Arı)

***
Gül deyil yarpaqları var,
Adam deyil, dili var.
(Kitab)

***
Saqqalı var bir qucaq,
Belində üç–dörd qurşaq.
(Sürüpgə)

***
Başı daraq,
Quyruğu oraq.
Tezdən durub
Zəngulə vurar.
(Xoruz)

***
Dırınqo-dırınqo
Gedir bir qıçı üstə,
Gəlir bir qıçı üstə.
(Qapı)

***
İlişdi ha, ilişdi,
At boynuna ilişdi.
Toya gələn qonaqlar

Yarpaqsız nə yemişdi?
(Göbələk)

***

Mənə şirin yağ versənə,
Çiçəkli bir bağ versənə.
Doğmamış inəklərdən
Çalxanmamış yağ versənə.
(Bal arısı)

***

Ovdan gəldi yeddi qardaş,
Hər birinə bir bacısı
Gətirdi bir boşqab aş.
Qardaşların yeddisi də
Öz bacısına «sağ ol!» dedi.
Bu xoş sözü
neçə bacı dinlədi?
(Bir bacı)

***

Qarabaqara,
Dibi də qara.
Uzaqda min-min çiçək,
Yaxındasa bir ağ ləçək.
(Gecə: göy, yer, ulduzlar və ay).

***

Bazardan qazan aldım,
Qazana quyruq saldım.
Quyruq qaldı, qazan əridi.
(Ayaqqabı)

***

Armuda baxır iki ayı –
Hər birinin qarşısında
iki tayı –
Neçə edir hamısının sayı?
(Üç)

***

Ovdan gəldi yeddi qardaş,
hər birinə bir bacısı
gətirdi bir boşqab aş.
Qardaşların yeddisi də
Öz bacısına «sağ ol!» dedi.
Bu xoş sözü neçə bacı
dinlədi?
(Bir bacı)

***

İki oğul, iki ata –
Hər birinə düşdü bir
yumurta.
Xurcunda varmış neçə
yumurta?
(Üç)

***

Gəncə ortadan nə ilə ayrılır?
(«N» hərfi ilə)

***

Başqasının belinə dırmaşır,
Amma təpələri öz yükü ilə aşır.
(Yəhər)

***
İki əkiz qardaş həmişə qonşuluqda yaşayır, amma bir-birini görə bilmirlər.
(Gözlər)

***
İki əkiz ananın
Beş cüt balası.
(İki əl və barmaqlar)

***
O nədir ki, iki dəfəyə dünyaya gəlir,
Bir dəfəyə dünyadan gedir.
(Quş)

***
Nə döyür,
nə söyür,
Amma hamını ağladır.
(Soğan)

***
Armuda baxır iki ayı –
Hər birinin qarşısında
iki tayı –
neçə edir hamısının sayı?
(Üç)

***
İki oğul, iki ata –
Hər birinə düşdü bir yumurta.
Xurcunda varmış neçə yumurta?
(Üç)

***
Uzun qız uzanar,
Özünə paltar qazanar.
(Oxlov)

***
Vur başına, sonra otuzdur günün altda.
(Qoz)

***
İynə ucundan baxar,
İstanbula od yaxar.
(Tüfəng)

***
Yumru-yumru yumaqlar
Dərə-təpəni oymaqlar.
(Gözlər)

***
Uzanıb yerdə yatar,

Bəzən də divardan naz satar.
(Xalça)

***
Bizim həyətə gəlmişlər,
Xırda–xırda olmuşlar.
(Odun)

***
Quyruğundan yapışıb
Qaranlıq tövləyə salar.
(Qaşıq)

***
Nə ağzı var, nə dişləri,
Dişləməkdir işləri.
(Gicirtkan)

***
Bizim bağda bir bitki var,
Yemək olmur yetişəndə.
(Xiyar)

***
Sarı əbası var bunun,
Büzmə yaxası var bunun.
Üstü çopur, içi dilim,
Gör nə səfası var bunun.
(Limon)

***
Özü əyri,
Yolu düz.
(Kotan)

***
Özü ala,
Yeri tala.
Para–para,
Qəlbi qara.
(Lalə)

***
Gecə dağılar,
Gündüz yığılar.
(Yorğan–döşək)

***
Masa üstə göbələk –
Hünərin var, tap görək.
(Lampa)

***
Altı haça,
Üstü haça.
İki üzük,
İki qılça.
(Qayçı)

***
Başqasının belinə dırmaşır,
Amma təpələri
öz yükü ilə aşır.
(Yəhər)

***

İki əkiz qardaş
həmişə qonşuluqda yaşayır,
amma bir-birini görə bilmirlər.
(Gözlər)

***

İki əkiz ananın
Beş cüt balası.
(İki əl və barmaqlar)

***

O nədir ki,
İki dəfəyə dünyaya gəlir,
Bir dəfəyə dünyadan gedir.
(Quş)

***

Nə döyür,
nə söyür,
Amma hamını ağladır.
(Soğan)

***

Biz, biz, biz, biz idik,
Otuz iki qız idik,
Əzildik,
Büzüldük,
Bir taxçaya düzüldük.
(Dişlər)

***

Bu gün çərşəmbədir,
Qəlbimə düşən nədir?
Dəryadan tüstü qalxır,
İçidə bişən nədir?
(Qəlyan)

***

Yerir, yerir izi yox,
Dərə, təpə, düzü yox.
Yayda, qışda balalar,
Dərisi var, üzü yox.
(Bit)

***

Ay gedər,
İl gedər,
Yol gedər
Gecə–gündüz.
(Su)

***

Dəryada bir gül bitib,
Adı yox.
Şirinliyindən yemək olmaz,
Dadı yox.
(Uşaq)

***

Sarı saqqal!
Uzun hoqqar.
Onu tanımayan
Olsun çaqqal.
(Qarğıdalı)

***

Yol içində qazan qaynar.
(Qarışqa yuvası)

***

Uzun-uzun dərvişlər
Bizim evə gəlmişlər.
O qədər oynamışlar,
Xurt-xəşil olmuşlar.
(Yağış)

***

Atdan hündür, itdən alçaq.
(Yəhər)

***

Mən baxıram, o qaçır.
(Qulaq)

***

Altında qazan qaynar,
Üstündə ocaq yanar.
(Qəlyan)

***

O yanı çəpər,
Bu yanı çəpər –
İçində atlı çapar.
(Nehrə)

***

Özü bir qarış,
Saqqalı iki qarış.
(Sirkə)

***

Bizim evdə dörd gəlin var,
Dördü də bir boydadır.
(Otağın güncləri)

***

Bu yanı daş,
O yanı daş –
İçində qırx-əlli baş.
(Ev, ya hamam əmsalı)

***

İynə gözünnən baxar,
Cümlə cahanı yaxar.
(Tüfəng)

***

Aya bax axtalanıb,
Qapılar taxtalanıb.
Bazara bir at gəlib,
Beş yerdən noxtalanıb.
(Gəmi)

***

Get Leyli, gəl Leyli,
Qıç üstə dincəl Leyli.
(Qapı)

***
Arada bitib olar çəpər,
Əl uzatsan, qanın içər.
(Böyürtkən kolu)

***
Babamın bir öküzü vardı,
uzun–uzun buynuzu vardı.
Yükləsəm, yük aparmaz,
Dişləsə, ət qoparmaz.
(Bit)

***
Kol dibində
bir qanlı fındıq.
(Çiyələk)

***
O nədir ki, hər şeyə yapışır.
(Ad)

***
Tap–tapı,
Balta sapı.
Beş budaqdı,
Bir yarpaqdı.
(Əl)

***
Qaradı, qənddi, şəkərdi,
İçinə girəndə ətimi çəkəndi.
(Böyürtkən)

***
Bizdə bir kişi var,
Uzun yatışı var.
(Çarpayı)

***
Qocaca tülkü,
Dağdan ilxı endirir.
(Ülgüc, tük)

***
Üstüm qızıl,
Buğdam ağ.
(İtburnu)

***
Dörd qardaş bir–birinə baxır.
(Otağın küncləri)

***
Zər zərə yapışar,
Zər divara yapışar.
Zərçi baba gəlməmiş,
Zər divardan qopmaz.
(Qıfıl, açar)

***
Ata bax, ay ata bax,

Qızıl yəhər ata bax.
İçi dərya, üstü bulaq,
Ortasındakı oda bax.
(Samovar)

***
Körpü altında dörd düdük.
(İnəyin məmələri)

***
Başı şabalıd,
quyruğu qayçı.
(Qaranquş)

***
Altı ayda bir qarış,
Bir ayda altı qarış.
(Sünbül)

***
Ərəblər, ha ərəblər,
Ayaqda qıl corablar.
Onu elə qoymaq olmaz,
Əl vuranı xarablar.
(Tikan)

***
Yerdə gəzir,
Suda üzür.
(Qurbağa)

***
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm.
(Yazı)

***
Suyun ortasından
tüstü çıxır.
(Samovar)

***
Uzun-uzun dərvişlər
Gecə bizə gəlmişlər.
O qədər oynamışlar,
Xurd-xəşil düşmüşlər.
(Əriştə)

***
İki dağ arasında
bir yaylıq sərmişəm,
heç qurumur.
(Dil)

***
Kökü göydə,
Budağı yerdə.
(Şüa)

***
Bir qab, iki qarpız,
Biri soyuq, biri isti.
(Ay, günəş)

***

Uzun qulağım,
Gödək qulağım.
Şəftəli bükdüm,
Dizanə kürküm.
(Düyün, üskük, tikiş)

***

Bazarda satılmır,
Tərəzidə çəkilmir,
Baladan şirindir,
Amma yeməli deyil.
(Yuxu)

***

Əlimnən əkdim,
Dilimnən bikdim.
(Yazıb oxumaq)

***

Daşdandı, dəmirdəndi,
Yediyi xəmirdəndi.
Aləmi doydursa da,
Özü doymaz, nədəndi?
(Dəyirman)

***

Adam deyil, gözü var,
Dişləməyə ağzı var.
(Qayçı)

***

Axşam doğur,
Səhər yer ovur.
Axşam yığılır,
Səhər dağılır.
(Kürd toyuq və cücələri)

***

Göydən gələr, ələnər,
Torpaq üstə bələnər.
(Qar)

***

Tap tapmaca,
Gül hopbaca.
Məməli xatın,
Əl boydaca.
(Siçan)

***

Dağlar qədər yaşı var,
Dağa çatan başı var.
Adam deyil, saçı var,
Səsi gur-gur guruldar.
(Şəlalə)

***

Adam deyil, saçı var,
Dörd dənə qılçası var.
Axşam tövlədə yatar,
Gündüz hayıma çatar.
(At)

***

On qardaş iki bağı var,
Mənə bitişik iki budağı var.
(Qol, əl, barmaqlar)

***

Özü uzundu,
Zəri çox.
Dərisi var,
Tükü yox.
(İlan)

***

Bulud bulud içində,
Ay da bulud içində.
Göydən yerə od yağdı,
Biz də yandıq içində.
(Günəş)

***

Qazdım, qazdım quş çıxdı,
Qanadları yaş çıxdı.
Şər vaxtı yatan oğlan,
Sübh durub bir baş çıxdı.
(Su)

***

Sandıq-sandıq istədik,
Qızıl sandıq istədik,
Göydən od ələnəndə
Biz də yandıq, istədik.
(Günəş, su)

***

Əl ilə tutmaq olmur,
Göz ilə görmək olmur.
(Külək)

***

Dünyanın ahı hanı?
Gəzir cümlə-cahanı.
Dərələrdə ölüdür,
Nə əti var, nə qanı.
(Külək)

***

Dörd qardaşım var:
Biri suluyur,
Biri üfürür,
Biri isidir,
Biri bitirir.
(Yağış, yel, günəş, torpaq)

***

Oturmuşudum səkidə,
Ürəyim sək-səkədə.
Göydən bir al düşdü,
Bir qızıl nəlbəidə.
(Günəş)

***

Göydə gəzər bir maya,
İşıq salar dünyaya.
(Günəş)

***
Göydən baxar qızıl daş,
Dünya ona əyər baş.
(Günəş)

***
Yağar yağış, qaçar qış,
Gətirər cürbəcür iş.
Otlar qalxıb boy atar,
Fəsillərə naz satar.
(Yaz)

***
Hər yan ələk–vələkdi,
İşi tamam kələkdi.
Dəyirmana can verir,
Xırmana da gərəkdir.
(Yel)
***
Ayağından aldırmaz,
Ağzına yüyən saldırmaz.
(Yel)

***
Ələsən, vələy olar,
Dəyirmana dən dolar.
İnsan əli dəyməmiş,
Xırmanda gərək olar.
(Yel)

***
Ye üzünün qarası,
Ağacların anası.
(Torpaq)

***
Mal etsən, malın alar,
Şanında balın alar.
Yazda, yayda çullanar,
Qış fəsli yalın eylər.
(Torpaq)

***
Babamın bir donu var,
Qatlayıram qat götürmür.
(Torpaq)

***
Altı daş, üstü yaş,
arasında çəmənlik.
(Səməni)

***
Biri cəlir,
Biri oturur,
Biri yatır.
(Çay, ağac, torpaq)

***
O nədi ki, dayanıbdı
dayaqsız,
O nədi ki, boyanıbdı
boyaqsız.
(Yer, göy)

***
Sac üstündə çatdayır,
Ovucdan ovuca addayır.
(Qovurğa)

***
Saçaq-saçaq saçaqlar,
Gəzər onu qaçaqlar.
Dolu olar yelini,
Bəzəyərlər gəlini.
(Novruz xonçası)

***
El-obada addanar,
Şirin olar, daddanar.
Gah atlanar, yellənər,
Gah alışar, oddanar.
(Axır çərşənbə)

***
Say istəsəm, say verər,
Pay istəsəm, pay verər.
Əyilib gülün dərsəm,
Xoşbəxt ömür, ay verər.
(Novruz bayramı)

***
Qırmızı xatın xonçanı bəzər.
(Yumurta)

***
Qabaqda yeli gözəl,
Dalınca seli gözəl.
Yaxasında sünbülü,
Başında teli gözəl.
(Yaz, payız, günəş)

***
Başı qarnına girir,
Belində daş gəzdirir.
Tapın görək o nədir,
İlan başın əzdirir.
(Tısbağa)

***
Bucağa,
Gecə gələr ocağa.
(Yarasa)

***
Ağzı ilə işləyir,
Qəndimizi dişləyir.
(Qənd qayçısı)

***
Axtar, ara,
Telini dara.
O hansı bitkidi,
Dərmandı dalağa.
(Darı)

***
Gülü yan-yana düzdü,
Sayı əllidi, yüzdü.

Şah küsdü, oba küsdü,
Əlin bağçadan üzdü.
(Arılar)

***

Balıq deyil, sudadı,
Ayağı torpaqdadı.
İçində böcək yatır,
Günə yaman çox baxır.
(Su zanbağı)

***

Rəngi sarıdır,
Sarılığa dərmandır.
(Zirinc)

***

Uzun qamış ağıza girər,
Qulaqlara nəğmə gətirər.
(Tütək)

***

Saqqız deyil, uzanır,
Saçaq kimi sallanır.
(Saç)

***

Payızda çiçək açar,
Yayda verər çoxlu bar.
(Fındıq)

***

Bağçanın alasına,
Gün düşər talasına.
Elə canlı olarmı,
Yem verməz balasına?
(Çəyirtgə)

***

Araba gedər, izi yox,
Yonqar yanar, közü yox.
Yol gedəndə yükü yox,
Dərisi var, tükü yox.
(Zəli)

***

Ala dağdan düşür el,
Ayağında uzun tel.
(Hörümçək)

***

Bir meşəm var,
Mən kəsdikcə
O uzanır.
(Saqqal)

***

Bir kişi dağdan ilxı göndərir.
(Ülgüc)

***

Gəlinin başı torpaqda,
saçı çöldə.
(Yer kökü)

***
Anası qara,
Qızı qırmızı,
Oğlu qıvrımca-qıvrımca.
(Ocaq, od, tüstü)

***
O nədi ki,
O gözünü yumanda
Dünya zülmət görünür.
O gözünü açanda
Aləm nura bürünür.
(Günəş)

***
Mən gedirəm,
O da gedir.
(Kölgə)

***
Mən gedirəm,
O qalır.
(Ləpir)

***
Bir balaca nar daşı
ocaqda bişirər aşı.
(Od, köz)

***
Bir nəlbəki nar kiləsi,
Həddin yoxdu əl vurası.
(Od, qar)

***
Bir balaca fit daşı,
Götürə bilməz heç kişi.
(Od)

***
Göy öküz gedər, gəlməz,
Qırmızı yatar durmaz.
(Tüstü, od)
***
Bir qızıl öküzü var –
Harda yatsa, ot bitməz.
(Od)

***
Damda dana böyrüşər,
Qızlar ora yüyürüşər.
(Toy)

***
Ağ atlı,
Qırmızı atlı,
Evə çatdı.
Aləmi bir-birinə qatdı,
Özü yıxıldı yatdı.
(Araq, çaxır, sərxoş adam)

***
Tava dəlik,
Tas dəlik –

Biri də gəldi üstəlik.
(Günü)
***
Axşam gedər,
Səhər gələr.
(Günəş)

***
Dəyirmi təpə,
Qızıldan küpə.
(Günəş)

***
O hansı ağacdı ki,
kökü havada durur,
budaqları yerdədi?
(Günəş)

***
Cavanlıqda oturar,
Qocalıqda yorğalar.
(Alov)

***
Tap tapmaca,
Qab altdaca.
(Xörək)

***
Bizdə bir kişi var,
Ağzında iki dişi var.
(Maşa)

***
Ataya dəyməz,
Babaya dəyməz,
Xalaya dəyməz,
Əmiyə dəyməz,
Dəyərə dəyməz ,
Dəyməzə dəyər,
Allaha dəyməz,
Billaha dəyər.
(Dodoq)

***
Bizdə bir kişi var,
Dörd qıçı var.
(Stol)

***
Çölü sarı,
İçi darı.
(Əncir)

***
Nə gecə yatar,
Nə suya batar.
(Kölgə)

***
Araba gedər, izi yox,
Yarar, yanar, gözü yox.
(Günəş)
***
Aldım bir dənə,

Açdım min dənə.
(Nar)

***

Uzun boyu,
Ağdı qanı,
Sudu canı,
(Xiyar)

***

Alaca ha, alaca,
Sədirmişəm yamaca,
Düz dırmaşır ağaca.
(Lobya)

***

Hapı–hap,
Zəncir sap.
Dörd budağı,
Bir yarpağı.
(Xalça)

***

Bir yanı ağ,
Bir yanı al,
Ağzına al,
Dadıdı bal.
(Şaftalı)

***

Balaca Bəsti,
Yanları yastı,
Sənəm parçası,
Zərdi haçası.
(Nehrə)

***

Yaşıl tağım var,
Al otağım var,
Göy paltarımda
Boz qurşağım var.
(Qarpız)

***

Suda gəzər, canı yox,
Boğazlasan qanı yox.
Suya atsan o batmaz,
Quruya yatsa qalxmaz.
(Qayıq)

***

Bizim evdə bir quyu,
İçində ağca suyu.
Suyun içində ilan,
İlan ağzında gövhər,
Gecələr bizə göndər.
(Lampa)

***

Dilim–dilim nar.
(Odun)

***

Dizimətən qar.
(Kül)

***
Uçdu bir kəklik.
(Tüstü)

***
Qondu bir dilbər.
(Od)

***
Üstü taxta, altı daş.
(Vəl)

***
Səkkiz ayaq, iki baş.
(Öküzlür)

## BULMACALAR

Bahar çağı,
Çay qırağı,
Bir şələ ot,
Bir də qoyun,
O tərəfə,
Hansı yolla,
Aparарsan?
Nə canavar qoyuna dəysin,
Nə də qoyun otu yesin.
Kim bilir, həllini desin?

(Əvvəl qoyunu aparmaq lazımdır, ona görə ki, ot, canavarla qalsa, yeyilməz. Sonra canavar aparılmalı və qoyun

təzədən geri qaytarılmalıdır. Beləcə, ot aparılır sonra isə qoyun. Bu halda qoyun da, ot da salamat qalır.)

***

Qələmlə ayaqqabının nə kimi oxşarlığı var?

(Biri kağızda iz buraxır, o biri yolda).

***

Bir oğlanın neçə bacısı varsa, bir o qədər də qardaşı var. Bu oğlanın bacısının bacıları iki dəfə qardaşlarından azdır. Bu ailədə neçə qardaş, neçə bacı var?

***

Bir ata ilə oğul gəmi ilə səyahətə çıxır. Yolda tufan olur, gəmi dağılır. Ata ölür, oğul isə ağır yaralanır. Oğlanı xəstəxanaya aparırlır. Baş həkim otağa girir və deyir:

–Bu ki mənim oğlumdur.

Bu, ola bilərmi? Olarsa, necə?

(Baş həkim oğlanın anasıdır.)

***

İki ata və iki oğul yol ilə gedirdilər. Birdən alma ağacına rast gəldilər. Alma ağacının üstündə üç alma var idi. Onlar necə etsinlər ki, hərəsinə bir alma çatsın? (Əslində üç nəfər: baba, ata və oğul yol gedirlər və hərəsinə bir alma çatıb).

***

Stolun kənarında molla, centlmen və kovboy oturub. Stolun altında neçə ayaq görünər?

(Molla bardaş qurub, centlmen ayağını ayağına aşırıb, kovboy hər iki ayağını stolun üstünə uzadıb. Deməli, stolun altında centlmenin bir ayağı görünür).

## YANILTMACLAR

Atamdakılardan ata atdım,
Atımdakılardan atama atdım,
Atam aldı, atıma atdı.
Atım atdı, atam aldı.

***

Atı qov, iti tut,
iti qov, atı tut.

***

Ala dana bala çəpişlə kəllələşdi. Kəllələşdiyindən çəpişin başı ala dananın başıyla başlaşdı. Başlaşan başlar başabaş başlaşdı.

***

Ay qılquyruq qırqovul! Gəl bu kola gir, qılquyruq qırqovul.

***

Arxın arxasından axtardığımı aradım,
Aradım, axtardım, arxdan, arxasından.
Arxasından arxın aradığımı axtardım.
Arananı arxasından aradım arxın.

***

Atəş aşı bişirər,
Od bozbaşı bişirər.

***

Aralarında aralıq alındı,
Alınan aralıq aralandı.

***

Arvaddan arvada ar, ardan ara arvad.

***

–Ağ balqabaq,
boz balqabaq;
boz balqabaq,
ağ balqabaq.

***

–Ay qılquyruq qılqovur, gəl bu kola gir, Qılquyruq qırqovul!

***

–Ay axsaq aşbaz Həsən şah, aşbazlar aş bişirir, sən də gəl aş bişir, ay axsaq aşpaz Həsəq şah.

***

Mollanı əmmamələməli, əmmamələməməlimi?

***

Cümə axşamı gələcəyəm sizə cüməaxşamlaşmağa, cüməaxşamlaşsan da, cüməaxşamlaşacağam, cüməaxşamlaşmasan da, cüməaxşamlaşacağam.

***

Getdim, gördüm bir bərədə bir bərbər bir bərbəri bər–bər bəyirdir. Dedim:

–Ay bərbər, nə üçün sən bərbər bu bərbəri bər–bər bəyirdirsən?

Dedi:

–Bu bərbərin atası bərbər, mən bərbərin atası bərbəri bər-bər bəyirtdiyi üçün mən bərbər bu bərbəri bər-bər bəyirdirəm. Əgər bu bərbərin atası bərbər mən bərbərin atası bərbəri bər-bər bəyirtməsəydi, mən bərbər bu bərbəri bər-bər bəyirtməzdim.

***

Getdim, gördüm bir dərədə yeddi qara, qaşqa, səkil, təpəl çəpiş otlayır. Dedim:

–Ey yeddi qara, qaşqa, səkil, təpəl çəpiş, niyə bizim yeddi qara, qaşqa, səkil, təpəl çəpişin yerini otlayırsan?

Dedi:

–Niyə sizin yeddi qara, qaşqa, səkil, təpəl çəpiş bizim yeddi qara, qaşqa, səkil, təpəl çəpişin yerini otlayıb? Onun üçün biz yeddi qara, qaşqa, səkil, təpəl çəpişlər, sizin yeddi qara, qaşqa, səkil, təpəl çəpişlərin yerini otlayırıq.

***

Bala balaya bala-bala bala dedi.
Bala balanı bala-bala bala yedi.

***

Bağa bax, baxçaya bax,
Bax bağa, bax çaya.

***

Bala bula,
bula bala,
Buladan balaya,
baladan bulaya.
Bal a, bul a,
Bala adam bal bulur, bulan balı adama bulur.

***

Bala banda bala balaban çaldı.
Qat ipək, qatdanmış ipək,
Çil ipək, çillənmiş ipək.

***

Bazarda nə ucuz? Mis ucuz, güncüt ucuz, duz ucuz.
Bu mis nə pis imiş. Bu mis kaşan misi imiş.

***

Bağa buğa girdi, buğa bağa girdi. Buğanı bağa bağladı. Bağı buğaya bağladı. Buğanın bağını bağa bağladı.

***

Bu çiti söküm,
Bezdən tikim.
Çovdar çitini
Təzədən tikim.

***

Qara qaranı qarayla qaraladı.
Qaralanan qara qaradan qavralandı.

***

Qamış-qəmiş, qanmamış, qanatmamış, qanmadığından qanatmadığını qanma-mış..

***

Qalada qalan qalada qaldı. Qalan qalanla qalada qaldı.

***

Qarmaqarışıqlıqda qara qarışqa qara qışqırıq qopartdı.

***

Qurd quzuya, quzu qurda, quzu quzuya, qurd qurda, qurd qurdun quzusuna, quzu quzunun qurduna quyu qazdı.

***

Sac açmışam,
Bilməmişəm
Yaş asmışam.

***

Qırx küp,

Qırxının da
Qulpu qırıq küp.

***

Ay ağ qılquyruq qırqovul, qara qılquyruq qırqovulu gördünmü?

***

Həlim aşı toxmaqlansa yaxşıdır, toxmaqlanmasa?

***

Çatı gətir çayda tay çataq.

***

Bir bərbər o biri bərbərə dedi ki, bir bəri bax..

***

Aşbaz Abbas aş asmış, asmışsa da az asmış.

***

Cüt dükcə, cüt-cüt dükcə, üç cüt dükcə.

***

Göy cəngə, gömgöy cəngə, dümgöy cöngə.

***

Ovladıqlarımı ovda ovladım, ovlamadıqlarımı ovda ovlamadım.

***

Dəyirmana girdi köpək,
Dəyirmançı vurdu kötək.

Köpək yedi, köpdü köpək,
Kötək yedi, köpdü köpək.

***

Getdim, gördüm, bir taxçada Bal,
Bir taxçada qıl,
Bir taxçada zil.
Balı uddum,
Qılı diddim,
Zili, atdım.

***

Ey qəfəsdəki çil bildirçin qardaş,
Gəl səninlə çil birdirçinləşək,
Çil bildirçinləşsən də,
Çil bildirçinləşməyəcəm,
Çil bildirçinləşməsən də
Çil bildirçinləşəcəyəm.

***

Dadaş dayı dəyirmanın dalında dalay-dalay diyə-diyə durutdu.

***

Səkinə səhər saat səkkizdə su sənəyini suda salıb sındırıtdı. Sənəyini Səkinə sınıxçıya saldırıtdı. Sınıxçıya Səkinə söyləyitdi:

– Sən sağ, sənəyim salamat, sınıxçı. Sənəyimi sən saldırdın, sınıxçı.

***

Selpo sədri Sərvinaz səpinçinin saxsı su sənəyini salıb suya sındırdı.

# UŞAQ NAĞILLARI

## UŞAQLARA HƏSR OLUNANLAR

### CIRTDAN

Biri vardı, biri yoxdu, bir qarı vardı. Bu qarının bir balaca nəvəsi vardı. Nəvə o qədər balaca idi ki, ona Cırtdan deyərdilər.

Bir gün Cırtdan gördü ki, qonşu uşaqları meşəyə oduna gedirlər, gəlib nənəsinə dedi:

– Ay nənə, uşaqlarla oduna mən də gedəcəyəm.

Qarı uşaqları çağırıb hərəsinə bir parça yağ yaxmacı verdi. Cırtdanı da onlara tapşırdı.

Yolda Cırtdan özünü yerə vurub getmədi, yoldaşları dedilər:

– Ay Cırtdan, niyə gəlmirsən?

Cırtdan dedi:

– Nənəm məni sizə tapşırıb, məni dalınıza alıb aparın.

Yoldaşları onu növbə ilə dallarına alıb meşəyə gətirdilər.

Uşaqlar başladılar odun yığmağa. Gördülər ki, Cırtdan yığmır. Dedilər:

– Ay Cırtdan, sən niyə odun yığmırsan?

Cırtdan cavab verdi:

– Nənəm məni sizə tapşırıb, mənə də yığın.

Uşaqlar ona da odun yığdılar. Sonra hər kəs öz odununu şələ bağlayıb dalına aldı. Gördülər Cırtdan oturub baxır. Ona dedilər:

– Ay Cırtdan, sən niyə odununu götürmürsən?

Cırtdan cavab verdi:

– Nənəm məni sizə tapşırıb, mənim odunumu da götürün.

Uşaqlar əlacsız qalıb onun da odununu dallarına götürdülər. Bir az yol gedəndən sonra gördülər ki, Cırtdan geridə qalıb ağlayır. Dedilər:

– Ay Cırtdan, niyə ağlayırsan?

Cırtdan cavab verdi:

– Yorulmuşam. Nənəm sizə yağ yaxmacı verdi....

Yoldaşları onun sözünü ağzında qoydular. Onlardan biri Cırtdana acıqlandı:

– Pis öyrənərsən. Daha səni dalımıza götürən deyilik!

Cırtdan əlacsız qalıb yoldaşlarının dalınca getməyə başladı. Onlar bir xeyli getdikdən sonra axşam oldu. Qaranlıq qovuşdu, yolu azdılar. Meşədən çıxanda gördülər ki, bir

tərəfdən işıq gəlir, o biri tərəfdə it hürür. Biri dedi: işıq gələn tərəfə gedək, o biri dedi: it hürən tərəfə. Bilmədilər ha tərəfə getsinlər. Axırda Cırtdandan soruşdular:

– Ay Cırtdan, it hürən tərəfə gedək, yoxsa işıq gələn tərəfə?

Cırtdan cavab verdi:

– İt hürən tərəfə getsək, it bizi qapar. İşıq gələn tərəfə gedək, bəlkə yolu tapa bildik.

Uşaqlar işıq gələn tərəfə gedib bir divin evinə çıxdılar. Div onları görəndə sevinib öz–özünə dedi: «Yaxşı oldu. Gecə onları bir-bir yeyərəm». Uşaqlara bir az çörək yedirdib yatırtdı. Gecədən bir az keçəndən sonra div uşaqların birini yemək istədi. Uşaqların yatıb-yatmadığını bilmək üçün dedi:

– Kim yatıb, kim oyaq?

Bu sözü eşidəndə Cırtdan tez başını qaldırıb dilləndi:

– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan, niyə yatmırsan?

Cırtdan dedi:

– Nənəm mənə hər gecə qayğanaq bişirərdi, yedirib yatırardı.

Div qalxdı, tez qayğanaq bişirib Cırtdana yedirtdi ki, bəlkə yatsın.

Bir qədər keçəndən sonra div yenə soruşdu:

– Kim yatıb, kim oyaq?

Yenə Cırtdan başını qaldırıb dedi:

– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan, indi niyə yatmırsan?

– Hər gecə nənəm mənə çaydan xəlbirlə su gətirərdi.

Div ayağa qalxdı, bir xəlbir götürüb çaydan su gətirməyə getdi. Cırtdan da tez yoldaşlarını oyadıb dedi:

– Bu div bizi yemək istəyir. Qalxın, qaçaq.

Uşaqlar tez qalxdılar, qaçıb çaydan keçdilər.

Bu tərəfdən div nə qədər xəlbiri suya salıb qaldırsa, gördü ki, xəlbirdə su qalmır. Axırda təngə gəlib qayıtmaq istəyəndə, bir də gördü ki, uşaqlar çayın o tərəfindən gedirlər. İstədi sudan keçib uşaqların dallarınca düşsün, amma keçə bilmədi. Axırda onları səslədi:

– Ay uşaqlar, sudan nə təhər keçdiniz?

Cırtdan tez cavab verdi:

– Get bir dənə dəyirman daşı tap, boynuna keçirt, özünü suya at, onda keçərsən.

Div Cırtdanın sözünə inandı, gedib bir dəyirman daşı tapıb boynuna keçirtdi, özünü suya atdı, suda boğulub öldü.

## GİLƏNAR

Balaca Gilənar bütün günü darvazanın qabağında oturub atasının saldığı bağın keşiyini çəkirdi. Birdən külək qalxdı. Yavaş–yavaş şiddətləndi. Elə bil, onun acığı tutmuşdu. Ağacların üstünə hücüm çəkir, budaqları sındırır, gül ləklərini əzirdi. Gilənar fikirləşdi: Necə edim, atamın bağını küləyin əlindən qurtarım. Yerdən balaca bir daş götürüb küləyə atdı. Külək qışqırdı:

– Ah, dəcəlin biri, dəcəl. Sən mənə daş atırsan?

O, qızı tutmağa çalışdı. Gilənar qaçdı. Şimal küləyi buza dönmüş əlini qızın saçlarına uzatmağa çalışdı. Qız fürsət tapıb divar deşiyində gizləndi. Şimal küləyi qəzəbindən vıyıldadı,

qızın gizləndiyi divarı yerlə yeksən elədi. Gilənarı buz kimi soyuq nəfəsilə dondurdu.

– Aha, indi əlimdən qurtara bilməzsən.

Bağban sevimli qızı üçün göz yaşı axıdırdı. Qızın gizləndiyi yerdə bir ağac əkdi. Bağban ağaca Gilənar adı verdi. Buna başqa ağaclardan çox qulluq elədi, əzizlədi. Sərçələr Gilənar ağacı haqqında hər yerdə danışırdılar. Qarğalar bunu Şimal küləyinə xəbər verdilər. O da Gilənar ağacını məhv etməyə and içdi.

Bir gün Şimal küləyi yenə bağa hücüm çəkdi. Arı quşları bağbana xəbər verdilər ki, qızını Şimal küləyindən qorusun.

Bağban ağacın üstünə ağ örtük saldı. Şimal küləyi qaçıb gəldi, ağacı axtardı, ancaq tapa bilmədi. Qarğalarla dalaşmağa getdi. Qarğalar bilmirdilər ki, Gilənarın üstündə ağ örtük çəkilib, onlar bundan xəbər tutunca arı quşları fürsəti əldən vermədilər. Onlar bağbana xəbər verdilər. O da ağacı ağ örtüyünü dəyişdi. Onu yaşıla bürüdü. Şimal küləyi yenə qaçıb gəldi, bağçaya nəzər saldı. Ağ örtüklü ağac görmədi. Qarğalara acığı tutdu.

– Bir də məni aldatsanız, dimdiklərinizi donduracağam.

Qarğalar Gilənar ağacının yaşıla büründüyünü dedilər. Bağban da bu vaxt yaşıl örtüyə qırmızı düymələr tikdi. Şimal küləyi yenə Gilənar ağacının yanından ötdü, ancaq onu tanımadı. O vaxtdan Bağban payızda Gilənar ağacının üstünə sarı, qışda boz örtük çəkdi. O hər dəfə örtüyü dəyişdirməklə ağacı qoruyurdu.

## GÖYÇƏK FATMA

Biri var idi, biri yox idi, Allahın bəndəsi çox idi, bir kişiynən bir arvad var idi. Günlərin birində iş belə gətirdi ki, bu kişinin arvadı azarlayıb öldü. Həmin arvaddan Fatma adında yetim bir qızı, bir də oğlu qaldı. Kişi gördü ki, uşaqlara baxa bilməyəcək, odu ki, ayrı bir arvad aldı. Kişinin bu arvaddan da bir qızı oldu, amma bu yaman kifir qız idi. Bu arvad gələn gündən yetim Fatmanı gözü götürmədi. Öz qızının adını da Fatma qoydu. Amma bu qızınan onun yerdən göyə qədər fərqi var idi. Yetim Fatma gözəl, göyçək bir qız, çirkin Fatma isə qara, keçəl idi. Analıq yetim Fatmaynan oğlana gün

verib, işıq vermirdi. Onları gah suya, gah oduna göndərirdi. Evdə qarabaş kimi işlədirdi.

Günlərin birində arvad iki ayağın bir başmağa dirəyib ərinə dedi:

– Kişi, əgər bu uşaqları aparıb azıtmasan, səndə oturmuyacam. Mənim bu uşaqlardan zəhləm gedir, onlara daha mən baxa bilmirəm.

Kişi nə qədər yalvar-yapış elədi ki, ay arvad, insafın olsun, mən bu bir parça tifilləri hara azıdım, yazıqdılar, gedərlər meşədə qurd-quş yeyər. Arvadın hırı tutmuşdu, elə nırx deyib durdu ki, əgər azdırmasan, gününü qara eliyəcəm. Kişi çox götür-qoy elədi, gördü ki, ayrı əlacı yoxdu. Fatmaynan oğlunu götürüb getdi meşəyə. Uşaqlarını alladıb dedi:

– Balalarım, siz moruq, çiyələk yığa-yığa gedin dərənin dibinə, mən də bu biri tərəfdən bir az odun qırım, axşamüstü gəlib sizi də götürərəm, gedərik.

Uşaqlar atalarının sözünə inandılar. Moruq, çiyələk yığa-yığa lap meşənin sıx yerinə çatdılar. Sizə kimnən deyim, kişidən. Kişi uşaqları aldadıb bu tərəfdən ağlaya-ağlaya, kor-peşiman qayıtdı evə. Axşam oldu. Qaranlıq düşdü, meşədə göz-gözü görmürdü. Ayı, canavar, pələng, şir meşəyə bir nərilti, gurultu, inilti salmışdılar ki, vahimədən adamın bağrı çatlayırdı. Uşaqlar ha gözlədilər, dədələri gəlib çıxmadı. Axırda əlacsız qalıb bir ağacın başına çıxıb orada gecələdilər. Sabah tezdən durub yol başladılar bir cığırnan getməyə. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib bir bulağın başına çatdılar. Fatmanın qardaşı yaman susamışdı. Özünü tez verdi bulağın başına, istədi sudan doyunca içə. Fatma qoymaq istəmədi, elə bil ürəyinə dammışdı ki, bu suda bir şey var. Fatma nə qədər elədi ki, qardaşı sudan içməsin, olmadı. Oğlan ağzını bulağın gözünə diriyib sudan doyunca içdi. O saat

dönüb oldu qara bir inək. Fatma üz-gözünü cırıb şivən saldı ki, ay qardaş, sənə demədimmi içmə, indi mən neyniyim, başıma haranın daşını töküm.

Qardaşı dedi:

– Bacı, daha iş-işdən keçib, mənimki də beləymiş, gəl gedək. Amma bu sirri nə badə bir adama deyəsən ha!

Fatma inəyi də qabağına salıb ayaq ləpiriynən o qədər getdi ki, meşədən çıxdı. Bir dağın başına çıxıb gördü ki, evləri uzaqdan görükür. Düz gəldi evlərinə. Arvad gördü ki, qız gəldi, amma yanında da bir qara inək. Əvvəlcə üz-gözünü turşutdu, qaş-qabağını tökdü, istədi qızı qovlasın. Sonra fikirləşdi ki, oğlan yoxdu, yəqin ölüb-itib, meşədə qalıb. Qız da ki, bir yaxşı inəynən gəlib. İnəyi sağıb yeyərik. Bir azdan sonra qızı yenə azdırarıq, o da itib cəhənnəmə vasil olar. Kişi də qızını görüb bir tərəfdən sevindi, bir tərəfdən də oğlunu yadına salıb bikeyf oldu.

Analıq hər gün Fatmanın əlinə bir az yun verib inəyi otarmağa göndərərdi. Fatma axşama kimi inəyi otarır, analığı verdiyi yunu da didib əyirərdi. Bir gün yenə inəyi otardığı yerdə bərk yel əsdi, yel Fatmanın yumağını götürüb apardı. Fatma, «a yel baba, yumağımı aparma» – deyə-deyə yüyürürdü. Yel baba yumağı aparıb bir evin bacasınnan içəri saldı. Fatma gəlib bu evin qapısını döydü. İçəridən bədheybət bir qarı çıxıb dedi:

– A bala, nə var, nə istəyirsən?

Fatma dedi:

– Qarı nənə, yel baba yumağımı sənin bacannan içəri saldı, gəlmişəm ki, onu verəsən.

Qarı dedi:

– A qızım, gəl mənim başıma bax, sonra yumağını verim.

Fatma razı oldu, içəri girib gördü qarının evi zir-zibilnən doludu. Odu ki, dedi:

– Qarı nənə, süpürgəni ver, evini süpürüm.

Qarı süpürgəni verdi. Fatma evi süpürüb tər-təmiz elədi. Sonra da başladı qarının başına baxmağa, gördü ki, bunun başı doludu ilan, çayannan, baxdı ki, qarının başında bitlər var, tısbağa boyda, birələr var, qurbağa boyda.

Qarı dedi:

– A qızım, de görüm sənin ananın başı qəşəngdi, yoxsa mənim? Mənim birələrim qəşəngdi, yoxsa onun.

Fatma dedi:

– Ay nənə, əlbəttə, sənin başın qəşəngdi. Sənin bit, birələrin də lap sərçə, bülbül kimi şeylərdi.

Bu sözlər qarının xoşuna gəldi, odu ki, dedi:

– Bala, burdan gedəndə qabağına üç bulaq çıxacaq, birinin suyu dümağ, süd kimi, o birininki qapqara şəvə kimi, birinin də suyu qıp-qırmızı lalə kimi. Ağ suda soyunub çimərsən, qara sudan da saçına, qaşına, kirpiyinə çəkərsən. Qırmızı sudan da yanaqlarına, dodaqlarına çəkərsən. Sonra gedib qara inəyin bir buynuzunnan yağ, birinnən də bal əməcəksən.

Fatma qarının yanından çıxıb gəldi, yolda günçıxan tərəfdə qabağına bir bulaq çıxdı, suyu dümağ süd kimi, girib suda çimdi. Bir az gedib günbatan tərəfdə də bir bulağa rast oldu. Bu bulağın suyu da qapqara idi. Fatma bu suynan başını yuyub, bir az da qaşına, kirpiyinə çəkdi. Qırmızı sudan da bir az yanaqlarına, dodaqlarına çəkdi. Fatmanın gözəlliyi bir idi, indi oldu min. Fatma elə bir gözəl qız oldu ki, heç misli-bərabəri olmadı. Aya dedi, sən çıxma, mən çıxacam, günə dedi, sən çıxma, mən çıxacam. Yanaqlar qıp-qırmızı alma kimi, dodaqları qaymaq, dişləri inci, gözü maral gözü. Nə deyim, bir baxan deyərdi bir də baxaydım.

Fatma düz gəlib çıxdı qara inəyin yanına, onun başını, gözünü sığallayıb başladı buynuzlarını əmməyə, gördü ki, doğrudan da, inəyin bir buynuzunnan yağ, birinnən də bal gəlir. Fatma hər gün inəyin buynuzlarını əmib elə kökəldi ki, lap balığa döndü. Fatmanın analığının bu işə həm paxıllığı tutdu, həm də mat qaldı ki, görən Fatma neyləyir ki, belə kökəlib, qəşəngləşir. Odu ki, sabahdan öz keçəl qızını da qoşdu Fatmanın yanına ki, o da naxıra gedib qəşəngləşsin.

İş belə gətirdi ki, yenə bərk bir yel qopdu, bu dəfə də yel keçəl Fatmanın yununu götürüb apardı. Yun gedib həmin qarının bacasınnan içəri düşdü. Keçəl Fatma yunun dalınca qaça-qaça gedib qarının evinə çıxdı. Qapını döyüb yununu istədi. Qarı qızı içəri çağırıb dedi:

– A qızım, gəl başımı bitlə, sonra yununu verim.

Qız qarının başına baxıb gördü ki, bit-birəynən doludu. «Tfu» eləyib geri çəkildi. Qarı dedi:

– A qızım, mənim başım təmizdi, yoxsa sənin ananın?

Qız dedi:

– Allah vurmuşdu səni, başın ilan-qurbağaynan doludu, əlbətdə, anamın başı yaxşıdı.

Qarı bir altdan yuxarı baxıb dedi:

– A qızım, sən ki, belə dedin, ala yununu verirəm, amma burdan gedəndə qabağına üç bulaq çıxacaq. Birinin suyu qara, birinin suyu ağ, o birininki də qırmızı. Sən əvvəlcə qara suya girib çimərsən, sonra ağ suynan başını yuyub, bir az da qaşına, kirpiyinə, qırmızı sudan da alnına sürtərsən. Sonra da qara inəyin döşlərini əmərsən.

Qız qarının yanınnan çıxıb yolda qara suynan çimdi, ağ sudan qaşına, kirpiyinə çəkdi, qırmızı sudan da alnına sürtdü. Əvvəldən də bir şey olmayan keçəl Fatma dönüb oldu qara qul; hər yeri oldu qap-qara kösəy kimi. Bircə dişləri, gözləri ağarırdı. Keçəl Fatmanın heç nədən xəbəri yox idi. Gəlib

inəyin əmcəyini ağzına salıb başladı sormağa, gördü ki, ağzına irin gəlir, tez başladı inəyin o biri məməsini əmməyə, gördü ki, bunnan da qan gəlir. Durub kor-peşiman evlərinə gəldi. Anası qızına baxan kimi əllərini iki dizinə vurub dedi:

– Bıy, başına güllər, ay qız sənə nə oldu ki, bu günə düşdün?

Qız başına gələni anasına söylədi. Daha iş işdən keçmişdi. O günnən keçəl Fatmanı anası evdən heç yerə buraxmadı. Amma göyçək Fatma hər gün inəyi aparıb otarır, özü də günü-günnən qəşəngləşirdi. Analıq gördü ki, Fatma inəyi otarmağa apardıqca yaxşılaşır, odu ki, bir gün bir az quru yuxa bişirib paltarının altınnan kürəklərinə qoydu, əri evə gələndə yerə yıxılıb arxası üstə o üzə, bu üzə çevrildi. Arvad tərpəndikcə yuxalar xırha-xırnan qırılırdı. Arvad ufuldana-ufuldana dedi:

– A kişi, görürsənmi nə bərk azarramışam. Ölürəm, mənə bir əlac.

Kişi dedi:

– Arvad sənin dərmanın nədi, de tapım?

Arvad dedi:

– Mənim dərmanım qara inəyin ətidi. Onu kəsib ətini mənə yedirtsən yaxşı olacam.

Kişi əvvəlcə inəyi kəsmək istəmədi, amma arvad əl çəkmədi ki, çəkmədi. Kişi axırda inəyi kəsdi. Göyçək Fatma gördü ki, inəyi kəsdilər. Qaldı məəttəl ki, indi nə yeyəcək, acınnan öləcək. Durub getdi həmin qoca qarının yanına, əhvalatı ona söylədi. Qarı dedi:

– Qızım, eybi yoxdu, qoy inəyi kəssinnər, sən onun ətinnən yeməzsən, qoy onlar yesinnər, sonra xəlvətcə onun bütün sümüklərini torbaya yığıb gətirərsən mənim yanıma. Qorxma, qardaşın indi də xoruz cildinə düşəcək.

Fatma qarının yanınnan gəlib o dediyi kimi elədi. İnəyin ətinnən yemədi, onsuz da analığı heç ona ət vermədi. Bəli, Fatma inəyin sümüklərini irili-xırdalı yığıb bir torbaya doldurdu, xəlvətcə düz gətirdi qarının evinə, qarı yekə bir quyu qazıb sümükləri basdırdı ora. Üstünü torpaqlayıb qıza dedi:

– Bala, qorxma, bu sümüklərdən nə istəsən, o saat hazır olacaq.

Qız durub evlərinə gəldi, bir-iki gündən sonra padşahın böyük oğlunun toyuydu, hamını çağırmışdılar. Fatmanın analığı da keçəl qızını geyindirib-keçindirib toya gedirdi. Göyçək Fatma da analığına yalvar-yaxar elədi ki, toya onu da aparsın. Analığı qoymadı ki, qoymadı, dedi:

– Bircə sənin yerin əskik idi, qaxıl otur yerində, onsuz da sənin paltarın nə gəzir ki, geyinib gedəsən.

Analıq bir çanaq darını yerə töküb, bir boş cam qoydu, dedi:

– Mən gələnə kimi bu darını yığarsan çanağa, bu camı da göz yaşınla doldurarsan, əgər dediklərimi eləməsən, vay sənin gününə.

Fatma qaldı mat-məətəl ki, neyləsin. Analığı gedən kimi kor-peşiman daban alıb düz gəldi qarının yanına, analığının tapşırdığı işləri söylədi.

Qarı dedi:

– Qızım, qorxma, bu işlər mənim əlimdə su içimi kimi bir şeydi.

Qarı qıza bir çanaq darı verdi, bir cam da duzlu şor su. Dedi:

– Apar bu darını tök analığının darı çanağına, duzlu suyu da tök cama, elə bilsin ki, ağlayıbsan, gözünün yaşıdı. Qaldı yerə tökülən darılar, toyuq-cücələri burax qoy darını dənləyib qurtarsınlar.

Qarı bu sözləri qıza deyəndən sonra onu götürüb gəldi inəyin sümüyünü basdırdığı yerə. Quyunun ağzını açıb dedi:

– Ey qara inək, sənnən bir qəşəng padşahanə libas, bir də bir qızıl başmaq istəyirəm ki, Fatma geyinib getsin toya.

O saat bir də gördülər ki, bu şeylər hazır oldu. Qarı qıza bir torba kişmiş, bir torba da kül verib dedi:

– Qızım, bu paltarı, qızıl başmağı geyib, torbaları da götürüb gedərsən toya, orada səni analığın tanımayacaq, toyda səni də oynadacaqlar. Sən oynayanda camaatın üstünə kişmiş tökərsən, analığının üzünə kül, sonra tez qayıdıb gələrsən evə, paltarını soyunub oturarsan.

Bəli, Fatma zər-zibaynan tikilmiş paltarı geyib, qızıl başmağı ayağına taxıb döndü huri-mələyə. Getdi toya, hamı bu gözəllikdə qızı görüb mat qaldı. Fatma oynaya-oynaya adamların qabağına getdikcə hamının qucağına kişmiş töküb, analığının gözünə kül səpdi. Sonra toydan çıxıb tələsik qayıtdı evə. Yolda çaydan hoppanıb keçəndə başmağının bir tayı ayağından çıxıb düşdü suya. Tələsdiyindən başmağı qoyub qaçdı. Həmin gün demə padşahın oğlu ova çıxıbmış. Qayıdan baş yolda atını çayda sulamağa gətirdi. At dodağını suya vurub geri çəkildi. Padşahın oğlu əyilib suya baxdı, gördü ki, suda bir tay qızıl başmaq var, tez çıxardıb özü ilə gətirdi. Bu tərəfdən də Fatma gəlib paltarını soyunub gizləndi. Analığı qaş-qabaqlı gəldi evə. Fatma dedi:

– Ana, bir az söylə görüm toyda nə oldu, nə keçdi?

Arvad dedi:

– Heç, nə olacaq, bir qaragünlünün biri oynayanda hamının qabağına kişmiş tökdü, bizim qabağımıza kül atdı.

Bunları burda qoyaq, görək padşahın oğlu başmağı neylədi. Başmaq o qədər qəşəng idi ki, heç padşahın xəzinəsində də beləsi yox idi. Padşahın oğlu başmağı öz lələsinə verib dedi:

– Apar bu başmağı şəhərbəşəhər, kəndbəkənd axtar, hansı qızın ayağına olsa, gərək onu alam.

Lələ hər yeri gəzdi, bütün kəndləri, şəhərləri hələk-fələk elədi, başmaq heç kimin ayağına olmadı. Axırda xəbər alırlar ki, bu başmağı ayağına taxmamış kim qaldı, dedilər ki, bircə Fatma adlı bir yetim qız var, o qalıbdı. Gətirib başmağı Fatmanın ayağına geyindirdilər, gördülər ki, elə bil başmaqçı öz əli ilə tikib, düz qızın ayağına. O saat gedib padşah oğluna xəbər apardılar ki, bəs belə-belə, başmaq filan qızın ayağına oldu. Oğlan toy tədarükü görüb Fatmanı gəlin gətirmək üçün öz adamlarını göndərdi ki, qızın başını bəzəsinlər. Bu tərəfdən Fatmanın analığı paxıllığınnan az qaldı çatlasın, odur ki, Fatmanın əl-ayağını kəndirlə bağlayıb saldı təndirə, üstünü də örtdü. Öz qızı keçəl Fatmanı da bəzəndirib qoydu göyçək Fatmanın yerində. Yengələr, sağdışlar, solduşlar gəldilər ki, qızın başını bəzəyib gəlin aparsınlar, gördülər ki, qız o qız deyil.

Dedilər:

– Ay balam, bu qız niyə belə qaralıb?

Qızın anası nırx deyib durdu ki, elə bu həmən göyçək Fatmadır, günün altında durub, gün qaraldıb. Yengə tez başmağı gətirib qızın ayağına taxdı, gördü yox, olmadı. Öz-özünə fikirləşdi ki, axı bu qız mən gördüyüm deyil, bunu bəzəyib aparsaq padşahın oğlu nə deyər? Elə bu fikirdəydi ki, gördü küçədən uşaqlar oxuyurlar:

Gün çıx, gün çıx,
Kəhər atı min çıx,
Keçəl qızı evdə qoy,
Saçlı qızı götür qaç.

Yengə qızın tez başına baxıb gördü qız qart keçəldi. Tez durdu ki, gedib əhvalatı oğlana söyləsin. Birdən məhlədə bir xoruz başladı banlamağa:

Quqquluqu,
Fatma xanım təndirdə,
Əl–ayağı kəndirdə.

Yengə gəlib tez təndirin ağzını açdı, gördü doğrudan da Fatmanın əl–ayağını kəndirlə bağlayıb təndirə salıblar. Qızı çıxardıb gətirdilər evə, yetmiş yerdən ona bəzək-düzək verib, geyindirib-keçindirib apardılar padşahın oğluna. Hamı toyda çalır, oynayır, şadlıq eləyirdi keçəl Fatma ilə anası qan ağlayırdı.

Aradan bir müddət keçəndən sonra keçəl Fatmanın anası dedi:

– A qızım, olan-olub, keçən-keçib, bir dur get gör bacın nə qayırır?

Keçəl Fatma geyinib-keçinib getdi bacısının yanına, xoş-beş on beşdən sonra dedi:

– Ay bacı, yaman çimmək istəyirəm, dur gedək dərya kənarında çimək.

Göyçək Fatma bacısının xətrini sındırmayıb öz qızıl teştini də götürüb getdi dərya kənarına. Keçəl qız dedi:

– A bacı, əvvəlcə sən soyun, mən səni çimizdirim, sonrada sən məni çimizdirərsən.

Fatma sözə inanıb soyundu, dəryanın qırağında çimmək istəyəndə keçəl Fatma onu itələyib suyun dərin yerinə saldı. Göyçək Fatma sudan çıxa bilmədi. Keçəl qız Fatmanın paltarını geyinib oğlanın evinə gəldi. Axşam oldu, qız üz–gözünü gizlədə-gizlədə bir təhər gecəni saldı. Yatmaq vaxtı

gələndə oğlan gördü ki, Fatmanın saçı heç əlinə dəymir. Odu ki, dedi:

– Ay Fatma, sənin saçın heç gözümə dəymir.

Qız dedi:

– Başımı yumuşam deyin yığılıb bir yerə, sabah quruyar, yenə uzanar.

Sabah açıldı, oğlan atına minib dəryanın kənarıyla gedirdi, bir də gördü ki, bir balıqçı toru nə qədər çəkirsə, sudan çıxarda bilmir. Oğlan atdan düşüb balıqçıya kömək elədi. Bir təhər toru çəkib sudan çıxardılar. Bir də gördülər ki, tora bir balıq düşüb ki, əcdaha boyda, tez balığın qarnını yardılar. Oğlan gördü ki, buy budu göyçək Fatma balığın qarnında, tez qızı çıxardıb bir şeyə büküb evə gətirdi. Fatma başına gələn əhvalatı tamam başdan–ayağa kimi ərinə danışdı. Oğlan o saat əmr elədi ki, bir dəli qatır gətirsinlər. Keçəl Fatmanı qatırın quyruğuna bağladıb dağda-daşda sürütdədilər. Keçəl Fatmanın hər tikəsi bir dərədə qaldı. Sonra göyçək Fatmayla padşahın oğlu keyf çəkib dövran keçirdilər.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıl söyləyənin.

## İBRAHİM

Biri var imiş, biri yox imiş, uzaq keçmişlərdə qəddar bir padşah var imiş. Bu şahın qoyduğu qanuna görə övladlar əldən düşmüş qoca ata-analarını səbətə qoyub dallarına alar, aparıb əlçatmaz, sıldırım bir qayaya qoyarlarmış. Qayanın hansı səmtinə baxsaydın qalaq-qalaq insan sümüyü görərdin. Bu açıq qəbiristanlığın yüksək qayalıqları insan ətinə dadanmış quşların məskəni idi. Bütün quşlar zirvədə dayanıb yeni gətiriləcək insanı acgözlüklə gözləyirdilər. Səbətdə qoca gətirən insanın başının üstündə dövrə vurar, tük ürpədən

heybətli səs çıxarardılar. Adam diri qocanı yerə qoyub aralanan kimi qaraquşlar, quzğunlar həmin qocanı didik-didik edib yeyər, quruca sümüklərini saxlayardılar. Qoca adamları bu cür dəfn etmək adətə çevrilmişdi. Qəddar şahın qoyduğu bu qanundan heç kəs imtina edə bilməzdi.

Günlərin bir günündə İbrahim adlı bir oğlan atasının əldən-ayaqdan düşdüyünü görüb, ona dedi:

– Gedək, ata, artıq sənin vaxtındır. Səni bir az da gecikdirsəm el məni qınayar.

Ata naəlac qalıb dedi:

– Nə deyirsən, oğul, məsləhət sənindir.

Evdəkilərin hamısı qoca ilə halallaşdılar. İbrahim atasını səbətə qoyub dalına aldı. O ağır-ağır, kədərli halda insan qəbiristanlığa üz qoydu. Az getdilər, çox getdilər, yolda qoca dərindən bir ah çəkdi. İbrahim atasından ah çəkməyinin səbəbini soruşdusa da qoca demədi. İbrahim ondan əl çəkmədi. Axır ki, atası dedi:

– Heç, oğul, yadıma düşdü ki, bir vaxt mən də sənin kimi atamı səbətə qoyub, həmin bu yol ilə qəbiristanlığa aparırdım. İndi sən də məni aparırsan.

Qocanın bu sözləri İbrahimin ürəyinə ox kimi sancıldı. İstədi ki, atasını evə qaytarsın, ancaq el adətini pozmaqdan çəkindi. O yolunu yavaş-yavaş davam etdirirdi. Qəbiristanlığa çatanda quşların dəhşətli qarıltısı İbrahimi vahiməyə saldı. Atasını yerə qoyub bir qədər dincini almaq istədi. Ancaq, acgöz quşlar dövrə vurub, ata və oğulun başı üstə hərlənir, İbrahimin aralanmasını gözləyirdilər. Qoca acgöz quşlara baxıb oğluna dedi:

– Get, oğlum, get, sənə can sağlığı. Ancaq səbəti də aparmağı unutma.

İbrahim cavab verdi:

– Ata, mən anamı bu səbətlə gətirmişdim, evimizdə axırıncı qoca sən idin, səni də ki, gətirmişəm. Daha səbət nəyimizə lazımdır?

Qoca dedi:

– Yox, oğul, axı sənin də oğlun var. O böyüyəcək, sən isə qocalacaqsan. Bir vaxt o da bu səbətlə səni gətirib quşlara yem edəcək. Apar, oğul, apar, o səbət sənə də qismət olacaq.

İbrahimin bütün varlığı titrədi. Elə bil qəflət yuxusundan ayıldı. Birdən atasını qucaqlayıb qışqırdı:

– Yox, ata, yox, mən səni bu vəhşi quşlara yem etməyəcəyəm. Mən səni saxlayacağam.

O, daşla, ağacla quşları qovdu. Gördü ki, qayanın dibində bir mağara var. İbrahim atasını həmin mağaraya qoyub dedi:

– Ata, sən burada yaşa, mən sənə yorğan-döşək, hər gün də yemək-içməyini gətirəcəyəm.

İbrahim mağaranın ağzına daş düzdü. Daşların arasından içəri işıq düşürdü. O, dediyi kimi də elədi. Atasının yemək-içməyinə yaxşı fikir verirdi.

Günlərin bir günündə şəhərə gələn suyun başında əjdaha peyda oldu. Əjdaha suyun qabağını elə kəsmişdi ki, şəhərə bir damcı su gəlmirdi. Onun əlindən bütün camaat zara gəlmişdi. Əjdaha ilə pəhləvanlar nə qədər vuruşa gəlsələr də ona qalib gələ bilmədilər. Padşah car çəkdirib elan etdi ki, hər kim əjdahanı ya öldürsə, ya da torpaqdan qovsa, onu dünya malından qəni edərəm. Hər kim bu işə girişdisə, əjdaha ağzından püskürdüyü alovla onu külə döndərirdi. Daha heç kəs onunla üz-üzə gəlməyə cürət edə bilmirdi.

Sənə kimdən xəbər verim İbrahimdən. İbrahim yemək götürüb yenə atası olan mağaraya yollandı. Ata gördü ki, yemək var, amma nədənsə oğlu su gətirməyib. Soruşdu:

– Oğul, bəs su niyə gətirməmisən?

İbrahim cavab verdi ki, hal-qəziyyə belədi, camaat susuzluqdan qırılır. Əjdahanın əlindən zara gəlmişik. Heç kəs ona bata bilmir.

Qoca bir qədər fikirləşib dedi:

– Oğul, mən o əjdahanın öhdəsindən gələ bilərəm.

İbrahim sevincək dedi:

– Ata, sən əjdahanın öhdəsindən gələ bilsən, bütün xalqı xoşbəxt etmiş olarsan. Üstəlik şah xəzinəsinin yarısını bizə bağışlayar.

Qoca dedi:

– Oğul, sən şahın yanına get. Ona de ki, uzunu on arşın, eni dörd arşın bir güzgü hazırlasın. Camaat həmin güzgünün arxa tərəfindən tutaraq əjdahaya doğru getsin. Əjdaha güzgüdə öz şəklini görüb vahiməyə düşəcək, qaçacaq. O qaçdıqca siz onu güzgü ilə qovun. Əjdaha sizin torpaqdan ilim-ilim itəcək.

İbahim şahın yanına gedib dedi:

– Şah sağ olsun, mən o əjdahanın öhdəsindən gələrəm. Ancaq bu şərtlə ki, verdiyiniz sözə əməl edəsiniz.

Şahın susuzluqdan dili-dodağı qurumuşdu. Çar-naçar qalıb and içdi ki, xəzinəmin yarısı sənindir. İstəyirsən indidən daşıtdır, bircə bizi sən bu bəladan qurtar.

İbrahim dedi:

– Şah sağ olsun, mənə böyük bir güzgü düzəltdir.

Şah İbrahimin dediyi kimi böyük güzgü düzəltdirdi. Güzgünün yanlarından arxa tərəfdən əl tutmağa yer qoydular. Camaat güzgünü əjdahaya tərəf apardı. Əjdaha gördü ki, ona tərəf ağzından od püskürdən bədheybət bir heyvan gəlir. Gördü ki, bu heyvan bunu deyəsən yeyəcək, başladı götürülməyə. Camaat da onu arxadan güzgü ilə qovurdu. Əjdaha hərdənbir geri dönüb baxanda gördü ki, o bədheybət heyvan gəlir. Başlayırdı daha bərk qaçmağa. Xülasə, qaça-qaça padşahın torpağından çıxdı. Camaat döşəndi suyun canına.

Hamının gözlərinə şəfa gəldi. Sevincdən, şadlıqdan hamı İbrahimi atıb-tuturdu. Padşah İbrahimi çağırtdırıb dedi:

– Oğul, şərtimiz şərtdir, ancaq de görüm, bu fikir, bu tədbir sənin ağlına haradan gəldi?

İbrahim dedi:

– Şah sağ olsun, bu mənim tədbirim, hünərim deyil. Cavanlar nə qədər ağıllı olsalar da, qocalara, onların müdrik nəsihətlərinə, məsləhətlərinə ehtiyacları var. Biz bütün qocaları göz bəbəyimiz kimi qorumalıyıq. Onları qurda-quşa yem etməməliyik. Bütün insanları xilas edən bu tədbiri mənə öyrədən atam oldu.

İbrahim bütün əhvalatı olduğu kimi padşaha nəql etdi. Camaat heyrətlə qulaq asırdı. Padşah əmr etdi:

– Bu saat qocanı bura gətirin.

Camaat sevinclə dağa tərəf yüyürdü. Qocanı təntənə ilə şəhərə gətirdilər. Şah xəzinəsinin yarısını İbrahimə verib murdar adəti ləğv elədi. O gündən öz əcəlləri ilə ölənə qədər qocalara hörmət və qayğı göstərildi. Qocaların sevinci yerə-göyə sığmırdı.

## OXAYLA ƏHMƏD

Nağıl-noğul bilmirəm, bilsəm də söyləmərəm. Şahdan gəlmiş nökərəm, dinmə, qabırğalarını sökərəm. Sizə hardan söyləyim, kimdən danışım, keçmişlərdə bir kişi var imiş. Bu kişinin gözünün ağı-qarası, aman-zaman bircə oğlu var imiş. Kişi oğlunu çox istəyirmiş, onu əlini ağdan-qaraya vurmağa qoymazmış.

Kişi kasıbçılıqla dolanırmış. Hər gün gedib dəryaya tor atıb balıq tutar, onları satıb birtəhər başını girləyərmiş. Kişinin oğlunun adı Əhməd idi.

Bəli, ay dolanır, il keçir, Əhməd on dörd yaşına çatır. Kişi bir gün oğluna deyir:

– Oğul, mənim heç bir elmdən xəbərim yoxdur, özüm də yazı-pozu bilmirəm. Ona görə də ömrüm-günüm dəryaya tor atıb balıq tutmaqla keçib. İndi görürsən ki, qocalıb əldən düşmüşəm. Daha tor atmağa taqətim yoxdur. Oğul, istəmirəm sən də mənim kimi olasan. Odur ki, səni oxumağa qoymaq istəyirəm. Bəlkə bir elm öyrənib adam olasan. Mənim kim əzab-əziyət çəkməzsən.

Əhməd dedi:

– Atayı-mehriban, buyruq sənindir. Nə məsləhət görsən, elə də elərəm.

Kişi dedi:

– Bərəkallah oğlum, hazırlaş, bir yaxşı molla tapaq, sənə elm öyrətsin.

Ata-bala gecəni yatıb sübh tezdən durdular. Çantalarına bir az azuqədən-zaddan qoyub yola düşdülər. Az getdilər, çox getdilər, bu kənd mənim, o kənd sənin, soraqlaşdılar, bir yaxşı molla tapa bilmədilər. Axırda gəlib meşədə bir bulaq başına çatdılar. Kişi dedi:

– Oğul, çox yorulmuşuq. Həm də acmışıq. Gəl bu bulağın başında bir az çörək yeyib dincələk.

Ata-bala bir az şordan, çörəkdən yeyib, bulağın suyundan doyunca içdilər. Yayın isti günü sərin, buz kimi bulaq suyu kişinin çox xoşuna gəldi. Suyu içib qurtarandan sonra dedi:

– Oxay, nə qəşənq sudu!

Elə bu söz kişinin ağzından çıxan kimi suyun ortasından bir kişi çıxıb dedi:

– A kişi, məni çağırıb neyləyirsən, mənə görə nə qulluq?

Əhmədin atası sudan çıxan adamı görüb lap məəttəl qaldı. Az qaldı ki, nitqi tutulsun. Handan-hana özünə gəlib dedi:

– Ay qardaş, sən kimsən, mən səni nə vaxt çağırdım?

Sudan çıxan adam dedi:

– Bəs, Oxay deyən sən deyildin?

Kişi dedi:

– Nə olsun ki? Bəyəm oxay demək olmaz?

Sudan çıxan adam dedi:

– Elə o oslun ki, mənim adım Oxaydı. Sən məni çağırdın, mən də gəldim.

Kişi barmağını dişlədi:

– Demək sənin adın Oxay imiş?

Oxay dedi:

– Elədir ki, var. A kişi, de görüm hara gedirsən, məqsədin nədir?

Kişi dedi:

– Vallah, hal-qəziyyə belədi, oğlumu oxutmaq üçün molla axtarmağa gedirəm.

Oxay dedi:

– Məndən yaxşı molla hardan tapacaqsan? Ver oğlunu oxudum, gələn il gəl apar. O vaxtacan cəmi elmləri öyrənib açarları qoysun cibinə.

Kişi razı olub oğlunu verdi Oxaya. Bir az da dil-ağız eləyib yalvardı ki, sən Allah, gözümün ağı-qarası bircə oğlum var, ondan yaxşı muğayat ol.

Oxay dedi:

– Arxayın ol. Ona elə baxacağam ki, heç ruhu da inciməsin. Nə vaxt oğlunu ürəyin istəsə, gəl bulağın başına. Sudan iç, Oxay de, o saat oğlun yanında hazır olacaq.

Kişi oğlu ilə öpüşüb xudahafizləşəndən sonra başladı daban alıb evinə sarı qayıtmağa. Oxay da Əhmədi qoltuğuna

vurub, bir ismi-əzəm oxuyub, suyun altına qayıtdı. Əhməd bir gözünü açıb gördü ki, bir qalaçanın içindədi. Amma üst-başı islanmayıb, heç elə bil suyun dibinə batan bunlar deyilmiş. Qaldı məəttəl ki, görən bu nə işdi.

Bunlar qalaçaya çatan kimi Oxay Əhmədi aparıb bir otağa qoydu. Özünə də tapşırdı ki, sənin yerin bura olacaq. Oxay gedəndən sonra Əhməd qapını açıb çölə çıxdı, ətrafa baxanda onu vahimə bürüdü. Gördü ki, böyük bir qalaçanın içindədi. Qalaçanın bir kərpici qızıldan, bir kərpici gümüşdəndi. Bura ləl-cəvahiratdan, mirvari və zərbərcəddən o qədər bəzək-düzək vurulub ki, adam baxanda gözləri qamaşır. Əhməd bir az irəli gedib gördü ki, qalaçanın bir tərəfi tamam bağ– bağçadır. Amma bu bağçada bitən hər şeyin rəngi qırmızıdır. Qalaçanın o biri tərəfinə keçib gördü ki, burda o qədər vahiməli heyvanlar var ki, adam baxanda az qalır ürəyi partlasın. Şir, pələng, əjdaha, ayı, canavar, tülkü, çaqqal, ilan, hər nə desən var. Tez yavaşca burdan da çəkilib, qalaçanın o biri yanına getdi. Gördü ki, burda daşdan, torpaqdan tutmuş suya qədər hər nə varsa, hamısı alışıb yanır. Alov, tüstü, duman asimana qalxır. Tez burdan qaçıb özünü saldı qalaçanın dal tərəfinə. Gördü ki, bura tamam dəryayi-ümmandı. Göz işlədikcə hara baxırsan sudu. Əhməd bir o tərəfə, bir bu tərəfə baxıb gördü ki, suyun qarağında bir boş gəmi var, fikirləşdi ki, deyəsən, Oxay mənim atamı aldatdı, yaxşısı budur, nə qədər ki, başım üstümdədi, elə bu gəmiyə minim qaçım. Əhməd gəmiyə minib başladı getməyə. Yeddi gün, yeddi gecə suyun üzündə yol getdi. Bir də baxıb gördü ki, qabağında elə bir divar durub ki, dibi dəryadadır, başı göyün yeddinci qatına çatır. Diqqət eləyib gördü ki, divar tamam insan kəlləsindən hörülüb. Əhməd divara yaxınlaşan kimi doxsan doqquz yerdən səs gəldi:

– Ey cavan, özünə yazığın gəlsin, nəbada gəmidən düşəsən. Ayağın yerə dəyən kimi, Oxay səni də bizim günümüzə salacaq. Biz də vaxtı ilə sənin kimi cavan idik. Oxay bizi aldadıb öz qalaçasına gətirdi. Sonra hərəmizi bir bəhanə ilə öldürüb bu günə qoydu. Cavan oğlan, indi hara getsən Oxay gəlib səni tapacaq. Xəbər alacaq ki, hara gedirdin? Deyərsən ki, ürəyim darıxdı, dəryanı gəzməyə çıxmışdım. Onda Oxay səni öldürməyib aparacaq yenə qalaçaya. Biz nə qədər elədik, bu qalaçadan qaça bilmədik. Bu qalaçanın sirrini onun qızından başqa heç kim bilmir. Çalış o qızdan sirri öyrən. Əgər öyrənə bildin, sənə ölüm yoxdur. Öyrənə bilməsən, sən də bizim günümüzə düşəcəksən.

Elə bu vaxt Əhməd gördü ki, dəryanın ortası bulaq kimi qaynadı. Oxay başını qaldırıb sudan çıxdı. Əhmədə acıqlanıb dedi:

– Sən buralarda nə gəzirsən?

Əhməd dedi:

– Gördüm təkcə qalmışam, ürəyim darıxır. Odu ki, gəmiyə mindim ki, bir az dəryada gəzim, ürəyim açılsın.

Oxay daha Əhmədə bir söz deməyib, yanına salıb gətirdi qalaçaya, özünə də tapşırdı:

– Əhməd, mənim burada qırx otağım var, darıxanda hərdən bir-ikisini gəzərsən, ürəyin açılar. Al, bu otuz doqquz otağın açarını verirəm sənə. Amma qırxıncı otağı məbada açasan.

Əhməd açarları alıb qoydu cibinə. Oxay qapıdan çıxan kimi Əhməd başladı otaqları gəzməyə. Otaqların hansını açdısa, gördü burada bir cah– cəlal var ki, heç bir padşahın xəzinəsində olmaz. Quş iliyi, can dərmanı, hər nə desən burada tapmaq olar. Əhməd otuz doqquz otağın hamısın gəzdi. Gəlib qırxıncı otağa çatanda öz-özünə dedi: “Görəsən burada nə sirr var ki, Oxay bu otağın açarını vermədi? Mən gərək buranı açıb

baxam, görüm içəridə nə var ki, Oxay onu belə göz bəbəyi kimi qoruyur”.

Əhməd bu fikirlə qıfılı sındırıb içəri girdi. Gördü ki, qırxıncı otaq onun gördüyü otaqların hamısından seçilir. İçəridə hər nə varsa hamısı zil qaraya bürünüb. Yerə cürbəcür xalılar, gəbələr döşənib. Hamısı da zil qara. Ev tamam almaza tutulmuş şəvə kimi qara qablarla, güldanlarla, şamdanlarla bəzənib. Evin lap başında qara mərmər taxtın üstündə almaz kimi işıq salan bir qız üzüqoylu uzanıb ağlayır. Səsə qız başını qaldırıb baxdı. Əhməd gördü ki, bu elə qızdı ki, yemə, içmə, xətti xalına, gül camalına tamaşa elə. Alma kimi yanaqları, lalə kimi dodaqları, saçlar qara, qaşlar qara, gözlər qara. Mərmərdən inci dişlər, ağ buxaqdan cücü dişlər, gəl məni gör, dərdimdən öl. Əhməd qızı görən kimi bir könüldən, min könülə ona aşiq oldu. Gözəllikdə Əhməd qızdan heç də geri qalmırdı. Qız da Əhmədi görən kimi onun gözəlliyinə valeh olub, ürəyində ona məhəbbət bağladı. Bir xeyli götür– qoydan sonra Əhməd qızdan soruşdu:

– Ey nazənin sənəm, bir məni agah elə, görüm sən kimsən, nəçisən, bu qara otaqda tək-tənha neyləyirsən?

Qız dedi:

– Ey oğlan, bil və agah ol ki, bura mənim başımın tükü sanı qədər igidlər, pəhləvanlar gəlib, mən heç birisinə sirr açmamışam. Görürəm ki, mərifətli, qabiliyyətli adama oxşayırsan, odur ki, sənə sirr açıram. Mən Oxayın qızıyam. Bu gördüyün qalaça atamındır. Özü də yeddiqat sehrli tilsimdir. Mənim bu qara otaqda olmağımın səbəbi odu ki, atam başımın tükü sanı adamları aldadıb bura gətirib onlara zülm eyləyir. Mən onlara kömək eləməyim deyə, hər yeni adam gətirəndə məni tilsimləyib bu otağa salır. Mən də dərddən-qəmdən bu otağı qara bəzəyib içində oturaram.

Qız dərdini söyləyə-söyləyə Əhmədlə eşiyə çıxdı. Qalaçanın dörd tərəfini gəzə-gəzə Əhmədə dedi:

– Əhməd, qalaçanın qabağındakı bu bağçaya qırmızı bağça deyirlər. Burada hər nə əksən qırmızı rəngdə çıxar. Atam bu bağçada o qədər baş kəsib ki, ağaclar, çiçəklər, otlar su əvəzinə qan içib. Odur ki, burada hər nə bitsə qırmızı rəngdə olur.

Qalaçanın o biri tərəfinə keçib vəhşi heyvanları gördülər. Qız dedi:

– Bu gördüyün heyvanların hamısı insan idilər. Atam bunları tilsimləyib heyvan şəklinə salıb.

Sonra gəlib qalaçanın o biri tərəfindəki od-alova baxdılar. Qız dedi:

–Əhməd, bu gördüyün od-alov atamın öldürdüyü adamların ah-naləsindən, qəzəbindən əmələ gəlib.

Axırda onlar gəlib dəryanın qırağında dayandılar, qız dedi:

– Bu dərya günahsız ölənlərin göz yaşlarından əmələ gəlmişdir. Görürəm sən yaxşı oğlansan, sənə yazığım gəlir. İstəmirəm atam səni də bunların gününə salsın. Sənə bir neçə məsləhət verəcəyəm, onları yadında yaxşı saxla. Oxay adamları gətirib əvvəlcə oxudur, gündə onlara bir tilsim öyrədir. Aradan doxsan doqquz gün keçəndən sonra onları imtahan eləyir. Yaxşı bilənləri öldürür, korazehinləri qurda, quşa, heyvana döndərir, heç nə bilməyənləri buraxır. İndi sən atam öyrətdiyi tilsimlərin hamısını yaxşı öyrən. Amma imtahan eləyəndə hər nə soruşsa denən bilmirəm. Ancaq bu yolla onun əlindən qurtara bilərsən.

Qız Əhmədlə sağollaşıb yenə öz otağına çəkildi. Əhməd isə bundan sonra özünü daha da ehtiyatla aparmağa başladı. Qızın dediyi kimi Oxay hər gün Əhmədə bir cür heyvan cildinə girməyi öyrədirdi. Doxsan doqquz günün içində

Əhməd hər şəklə düşməyi öyrəndi. Vaxt tamam olanda Oxay Əhmədi imtahan elədi. Ondan hər nə xəbər aldısa Əhməd dedi:

– Usta, yadımdan çıxıb, heç nə bilmirəm.

Oxay Əhmədə hədə-qorxu gəlib bir xeyli döydü, bərkə-boşa çəkdi:

– Ədə, zalım oğlu, mən sənə bu qədər zəhmət çəkmişəm, heç biri yadında qalmayıb?

Əhməd dedi:

– Usta, görmürsənmi heç nə bilmirəm, bir şey bilsəm, canımı qurtarardım da!

Oxay həqiqətən də Əhmədin heç nə bilmədiyinə arxayın oldu və onu sağ-salamat atasına təhvil vermək qərarına gəldi. Bir neçə gün sonra Oxayın Əhmədin atasına verdiyi vədə tamam oldu. Əhmədin atası bulağın başına gəldi, doyunca sudan içib "Oxay" dedi. Oxay da Əhmədi götürüb bulağın başına gətirdi, atasına dedi:

– Ay qardaş, havayı əziyyət çəkib oğluna yaxşı molla gəzmə. Oğlun əfəlin biridir. Nə qədər elədim, heç nə öyrənə bilmədi. Mənə belə aciz uşaq lazım deyil. Al apar, bundan oxuyan olmaz.

Kişi oğlunu götürüb kor-peşman evlərinə tərəf üz qoydu. Əhməd sevindiyindən bilmirdi neyləsin. Bir az gedəndən sonra yolda atasına dedi:

– Ata, sən qabaqda get, mən bu saat gəlirəm.

Kişi razı oldu. Əhməd ayaq saxlayıb bir kolun dalına girdi. Cildini dəyişib bir axsaq turac oldu. Başladı atasının qabağından bir o tərəfə, bir bu tərəfə qaçmağa. Kişi çox əlləşdi, amma turacı tuta bilmədi. Turac gedib yenə həmin kolun dibinə girdi. Əhməd yenə adam şəklinə düşüb qayıtdı atasının yanına. Atası dedi:

– Oğul, mən səndən heç yarımadım. Səni oxutdum ki, bir mirzə olasan, qazanıb gətirəsən, mən də rahat oturub yeyəm,

fərasətsiz çıxdın, oxumadın. İndicə qabağımda bir axsaq turac var idi, nə qədər əlləşdim tuta bilmədim. Heç olmasa yanımda olsaydın, onu tutub kəsərdik. Bir günlük azuqəmiz olardı.

Atasının bu sözünə Əhmədin gülməyi tutdu. Kişi dedi:

– Bala, niyə güldün, burada gülməli nə var?

Əhməd dedi:

– Ata, darıxma, sonra gülməyimin səbəbini deyərəm.

Yazıq kişi daha nə bilsin ki, Əhməd bütün elmləri, tilsimləri öyrənib. Özünü yoxlayırmış.

Əhməd dedi:

– Ata, heç darıxma, sən deyən olacaq, sən evdə oturacaqsan, mən qazanıb səni dolandıracağam.

Kişi dedi:

– Ay oğul, axı sən məni nə ilə dolandıracaqsan?

Əhməd dedi:

– İndi ki, belə oldu, buradaca deyim, sən də bil. İndi mən bir yaxşı at olacağam. Aparıb məni yüz manata satarsan. Amma nəbada yüyənimi satasan ha! Əgər səni aldadıb yüyəni alsalar, onda bir daha mənim üzümü görməyəcəksən.

Əhməd sözünü deyib qurtaran kimi bir yaraşıqlı köhlən ata döndü. Atası atı çəkə-çəkə apardı düz bazara. At o qədər qəşəng idi ki, üstündə dava düşdü. O dedi mən alacağam, bu dedi mən alacağam. Axırda bir qolu zorlu çıxıb atı kişidən yüz manata aldı. Atı alan nə qədər yalvar-yaxar elədisə də kişi yüyəni satmadı. Bu pulla onlar bir xeyli dolandılar. Artıq kişi oğlundan razı idi, dolanışıqları da qaydasına düşmüşdü.

Günlərin birində bunların pulları qurtarmışdı. Əhməd yenə at şəklinə düşdü. Atası atı satmaq üçün bazara çıxardı. Bu dəfə atı alan bir hündürboylu bir dərviş kişini üzdən-gözdən salıb yüyəni də zorla aldı. Sən demə, bu dəfə atı alan Oxay imiş. Kişi evə gələndə Əhmədin sözləri yadına düşdü. İkiəlli başına qapaz vurub dedi:

– Ay haray, indi mən nə eləyim?! Niyə yüyəni əlimdən verdim?! Mən bir də Əhmədin üzünü görməyəcəyəm.

Kişi burada tək-tənha qalmaqda olsun, görək Əhmədin başına nə gəldi. Əhməd at cildində başını qaldırıb gördü ki, yüyəni öz ustasının əlindədir. Oxay Əhmədi çəkə-çəkə öz qalaçasına gətirdi. Atın yüyənini qızına verib dedi:

– Bunu saxla, qoyma qaçmağa, gedim qılıncı gətirim, başını kəsək.

Qız baxıb gördü ki, bu Əhməddir. Atası onu bu dəfə sağ buraxmayacaq. Qızın bir tərəfdən Əhmədə yazığı gəldi, bir tərəfdən də ürəyində ona məhəbbəti var imiş. Açıq-aşkar onu buraxmağa da atasından qorxurdu. Odu ki, yüyənin altını çəkib boşaltdı, astadan Əhmədə dedi:

– Əhməd, yüyəni boşaltmışam, başını bircə dəfə tərpətsən açılacaq. Atam gələndə başını tərpədib qaçarsan.

Qız sözünü qurtarmışdı ki, Oxay əlində sıyırma qılınc gəlib dayandı atın qabağında, dedi:

– Əhməd, bu yaşa çatmışam, hələ məni aldadan olmayıb. Amma sən aldatdın, dedin ki, heç nə bilmirəm. Sən demə, dərsini əzbərdən bilirmişsən.

Oxay bunu deyib qılıncı çəkdi ki, Əhmədin boynunu vursun. At başını yuxarı qaldıranda yüyən yerə düşdü. O saat Əhməd bir sehr oxuyub bir dəli ceyran oldu, başladı meşələrlə, dağlarla qaçmağa. Oxay qılıncı yerə atıb bir sehr oxudu, oldu mahir bir ovçu. Ox-yay götürüb düşdü ceyranın dalına. Ceyran qaçdı, ovçu qovdu, dağlar aşdılar, dərələr keçdilər.

Bulaqdan su içdilər, axırda ikisi də yorulub əldən düşdülər. Əhməd gördü ki, Oxay lap çathaçatdadı, tez bir qızıl balıq olub, özünü verdi dəryaya. Oxay da dönüb bir qoca balıqçı oldu, torunu atdı dəryaya. Balıq qaçdı, balıqçı torunu atdı. Əhməd gördü ki, Oxay onu tez yorub tutacaq. Odur ki, tez bir qoz ağacı olub, bağın bir küncündə bitdi. Oxay isə

dönüb oldu bir ala qarğa. Başladı ağacdan bütün qozları daşımağa. Əhməd gördü ki, Oxay ondan yenə əl çəkmir, dönüb bir qızıl alma oldu, sandıqda gizləndi. Oxay iyləyib, çüyləyib, Əhmədin yerini tapdı, sandığı açdı. Əhməd dönüb tez bir alacəhrə oldu, Oxay da dönüb bir çalağan oldu, başladı onu qovmağa. Əhməd qaçdı, Oxay qovdu, biri qaçıb, o biri qovmaqda olsun, gəlib bir şəhərin üstünə çıxdılar. Həmin şəhərin padşahı öz arvadıyla yasəmən bağında oturubmuş. Oxayla Əhməd qovhaqov gəlib bu bağçanın üstünə çatdılar. Əhməd tez bir dəstə qızıl gül olub padşahın arvadının qucağına düşdü. Oxay işi belə görəndə bir dərviş olub başladı padşahın yanında oxumağa. Oxay avazla oxuyub adamı valeh edirdi. Dərviş oxuyub qurtarandan sonra padşah ona hər nə verdisə almadı, dedi:

– Padşah, indi ki, mənə yaxşılıq eləmək istəyirsən, elə o arvadının qucağındakı bir dəstə gülü versən kifayətdir.

Padşah nə qədər istədi ki, gülü verməsin, dərviş qırsaqqız olub əl çəkmədi. Axırda padşah pərt olub gülü vermək istədi. Əhməd işi belə görəndə əfsn oxuyub bir ovuc taxıl oldu. Oxay toyuq olub başladı buğdaları dənləməyə. Oxay buğdanı yeyib qurtardı. Arxayın oldu ki, daha Əhməd ölüb. Demə, buğdanın bir dənəsi padşahın ayağının altında qalıbmış. Əhməd tez bir çaqqal şəklinə düşüb toyuğu da, cücələri də boğub öldürdü, Oxayı cəhənnəmə vasil elədi.

Əhməd Oxayın tilsimini sındırıb, onu öldürəndən sonra onun qızı yadına düşdü. Öz-özünə dedi: “Bu heç kişilikdən deyil. Oxayın qızı məni ölümdən qurtardı. Qalaçanın bütün sirlərini öyrətdi, böyük yaxşılıqlar elədi, amma mən onun atasını öldürüb özünü tək qoydum. İndi yaxşısı budur, gedib Oxayın qızını tapıb onu əzab-əziyyətdən qurtarım. Özü də gözəl-göyçək qızdı. Əgər mənə gəlməyə razı olsa, onunla evlənib şad-xürrəm ömür sürərəm”. Əhməd bu fikirlə bir vird

oxuyub qalxdı göyə. Göyün yeddinci qatıyla uçub gəldi həmin bulağın yanına. Əhməd Oxayın bütün tilsimlərini bilirdi deyə, bulağın başına çatan kimi elə ağzını açmamış qalaçanın qapısı taybatay açıldı.

Əhməd qalaçadan içəri girib düz getdi qırxıncı otağa. Qapını açıb gözlərinə inanmadı. Otaqdakı qara şeylərin hamısı dönüb al-əlvan, ağappaq olmuşdu. Amma bircə qız başdan-ayağa qara geyinmişdi. Əhməd içəri girib qızla görüşdü, bir xeyli dərdləşəndən sonra soruşdu:

– Məni bu sirdən agah elə görüm, niyə əvvəl otaq qapqara bəzənmişdi, indi hər tərəf al-əlvandır, özün isə qara geyibsən?

Qız dedi:

– Əhməd, hər şey mənə aydındır. Bilirsən, sən Oxayı öldürmüsən. Mən buna bir tərəfdən sevinirəm. Yaxşı oldu, elə o öz cəzasına çatdı. Ona görə də qara bəzədiyim otağı indi al-əlvan bəzəmişəm. O biri tərəfdən də dərd çəkirəm, necə olsa atadı, ona görə da qara geyinmişəm.

Qız sözünü qurtarıb o biri otağa getdi, özünə yeddi qat bəzək-düzək verib, zər-zibadan elə paltar geyindi ki, baxanın gözü qamaşırdı. Əhməd baxıb gördü ki, qızın gözəlliyi əvvəl bir idisə, indi min olub. Az qaldı ki, Əhmədin huşu başından çıxsın. Bir könüldən min könülə qıza aşiq oldu, dedi:

– Ey gözəl sənəm, indi nə deyirsən, mən gəlmişəm səni aparam. Mənə gəlməyə razısanmı?

Qız dedi:

– Razıyam, amma mən elə oğlana getmək istəyirəm ki, o mənə vəfalı olsun, igid olsun, həm də ağıllı olsun.

Əhməd dedi:

– Məgər mən vəfasızam? Vəfasız olsaydım, Oxayı öldürəndən sonra sənin yanına gəlməzdim. Qoçaq olma-

saydım, bütün aləmə qan udduran Oxayı öldürə bilməzdim. Ağıllı olmasaydım, bütün tilsimləri sındıra bilməzdim.

Qız dedi:

– Bu sözlərin hamısı doğrudur. Bunları sən özündən ötrü eləyibsən. İndi mən bilmək istəyirəm görüm mənim yolumda neylərsən? Mən sənə o zaman gedərəm ki, gedib ağ divin almalarının sirrini öyrənib, gəlib mənə deyəsən.

Əhməd əlini gözünün üstünə qoyub dedi:

– O mənim gözüm üstə.

Elə o saat qalaçadan çıxıb başladı yol getməyin binasını qoymağa. Az getdi, çox dayandı, çox getdi, az dayandı, gəlib bir meşəyə çatdı.

Əhmədi meşəlikdə qoyaq, görək qız neylədi. Bu tərəfdən qız göyə qalxıb uça-uça gəldi düz Əhmədin gəlib çıxdığı meşəyə. Qız gözəllikdə misli-bərabəri olmayan bir pəri şəklinə düşüb Əhmədin qabağına çıxdı. Əhmədi görən kimi dedi:

– Oğlan, soruşmaq ayıb olmasın, haradan gəlib haraya gedirsən?

Əhməd dedi:

– Heç, elə-belə, yolumu itirib gəlib bura çıxmışdım.

Qız dedi:

– Əhməd, sən məndən heç nə gizlətmə, mən filan padşahın qızıyam. Bütün elmlərdən xəbərdaram. Oxayın qızı səndən intiqam almaq üçün səni gedər-gəlməzə göndərir ki, gedib sehrli almaların sirrini öyrənəsən. Gəl sən bu yoldan dön.

Əhməd dedi:

– Ey gözəl pəri, mən Oxayın qızına söz vermişəm. Ölsəm də, qalsam da gedib almaların sirrini öyrənəcəyəm.

Qız dedi:

– Əhməd, yoxsa qorxursan ki, Oxayın qızı əlindən çıxar? Mənim haram ondan əskikdir? Razı olsan gedərik bizim

şəhərə, orada evlənərik, səni dünya malından qəni edərəm. Atam da qocalıb, onun taxt-acına sahib olarsan.

Əhməd dedi:

– Ey pəri, mənə heç nə lazım deyil. Mən Oxayın qızına söz vermişəm, onu da alacağam.

Əhməd sözünü qurtarıb başladı yol getməyə, heç dalına da baxmadı. Elə bir az getmişdi ki, qız cildini dəyişib bir pəhləvan oldu. Kəsə yolla gəlib çıxdı Əhmədin qabağına. Əhməd baxıb gördü ki, ona sarı elə nəhəng pəhləvan gəlir ki, boyu çinar boyda. Hər qolunda da yeddi dəyirman daşı. Daşları elə oynadır, elə bil əlində aşıq oynadır. Pəhləvan Əhmədin yolunu kəsib dedi:

– Ey cavan oğlan, hara belə?

Əhməd dedi:

– Gedirəm sehrli almaların sirrini öyrənəm.

Pəhləvan bərkdən qəhqəhə çəkib dedi:

– Ədə, zalım oğlu, mən yekəlikdə pəhləvan gedib o almaların sirrini öyrənə bilmədim. İndi sən bir tikə uşaq necə öyrənəcəksən?

Əhməd dedi:

– Öyrənə bilmərəm də, bilmərəm. Bu yolda öldü var, döndü yoxdur.

Pəhləvandan soruşdu:

– Bəs yaxşı, ay pəhləvan qardaş, sən hara gedirsən?

Pəhləvan dedi:

– Ey cavan, Oxay adlı bir tilsimkarın gözəl-göyçək, ağıllı bir qızı var. Oxayın sağlığında heç kimi o qıza yaxın dura bilmirdi. İndi eşitmişəm ki, Oxay ölüb, gedirəm onun qızını zorla qaçırdam.

Əhməd dedi:

– Ey pəhləvan, bil və agah ol, o qız mənim nişanlımdır. Nə qədər mən sağam, heç kim onu qaçırda bilməz.

Pəhləvan bu sözləri eşidən kimi cin vurdu təpəsinə. Gözləri hədəqəsindən çıxdı. Ağzı köpüklənə-köpüklənə dedi:

– Ədə, bir buna bax, bir tikə uşaq da mənə meydan oxuyur. Elə bu dəyirman daşının birini üstünə salsam, altında xəşil kimi əzilərsən.

Əhməd pəhləvanın belə coşduğunu gördükdə qılıncını çəkib dedi:

– Ey pəhləvan, çox da boy-buxununa, qoluna güvənmə, boş danışmaqdan bir şey çıxmaz. Bu meydan, bu şeytan, kim kimi öldürsə qanı halaldır.

Qız gördü ki, Əhməd bu sınaqdan da yaxşı çıxdı, dedi:

– Ey cavan, sənin kimi uşaq-muşaqla vuruşmaq mənə əskiklik gələr. Odur ki, səni öldürmürəm, çıx get.

Bu sözləri deyib, başını aşağı salıb getdi.

Əhməd təzədən yol getməkdə olsun, qız bu dəfə də cildini dəyişib qarı şəklinə düşdü. Gedib Əhmədin yolunun qabağındakı xaraba bir qalaçanın qapısında oturdu. Əhməd gəlib qalaçaya çatanda gördü ki, qapıda bir qoca qarı oturub, alt dodağı yer süpürür, üst dodağı göy. Sir-sifətindən zəhrimar tökülür. Qarı Əhmədi görən kimi dedi:

– Ey bəni-insan, bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq salar. Sən nə cürətlə buralara ayaq basmısan?

Əhməd dedi:

– Ey qarı nənə, mən ağ divin sehrli almalarının sirrini öyrənməyə gəlmişəm.

Qarı bərkdən gülüb dedi:

– Mənim başımın tükü sanı pəhləvanlar, igidlər gəlib, bu sirri öyrənə bilməyib başlarını qoydular. Gəl görək indi sən neyləyəcəksən.

Qarı Əhmədi yanına salıb bir otağa apardı. Bir qızıl məcməyinin içində üç dənə qızıl alma gətirdi. Almaların üçü də bir rəngdə, bir ölçüdə, bir boyda idi. Qarı dedi:

– Oğlan, səninlə əvvəlcə bir şərtim var. O şərtimi yerinə yetirsən, biləcəyəm ki, ağıllı oğlansan. Almaların da sirini öyrənib çıxıb gedəcəksən. Yox, şərtimi yerinə yetirə bilməsən, başını bədənindən ayırıb ananı ağlar qoyacağam.

Əhməd dedi:

– Qarı nənə, mən razıyam, de görək, nə deyirsən?

Qarı dedi:

– Bu almaların biri birillik, biri ikiillik, biri də üçillikdir. Bu sirri təkcə məndən başqa heç kim bilmir. İndi sən de görüm, bunların hansı birillik, hansı ikiillik, hansı üçillikdir?

Əhməd dedi:

– Qarı nənə, bu mənim əlimdə su içimi kimi bir şeydir. Dur bir qab su gətir, bu saat deyim.

Qarı bir qab su gətirib Əhmədin qabağına qoydu. Əhməd almaların üçünü də suya atdı. Almaların biri o saat suyun dibinə batdı, ikincisi suyun ortasında qaldı, üçüncüsü isə suyun üstündə üzürdü.

Əhməd dedi:

– Qarı nənə, suyun dibinə çökən alma təzədir, həm də ağırdır. O birillikdi. Suyun ortasındakı alma bir xeyli qalıb, suyu çəkilib deyə, yüngülləşib. Bu da ikiillikdi. Lap suyun üzündə qalan alma isə quruyub, o üçillikdir.

Qarı gördü ki, oğlan hamısını düz deyir, odur ki, dedi:

– Bala, elə o almaların sirri bunda idi ki, sən özün tapdın. Görürəm, çox ağıllı oğlansan, səni öldürmürəm, indi çıxıb gedə bilərsən.

Əhməd üzünü çevirdi ki, çıxıb getsin, qız cildini dəyişib düşdü əvvəlki şəklinə "Əhməd, Əhməd", deyib, onu səslədi. Əhməd geri baxıb gözlərinə inanmadı – qarı dönüb Oxayın qızı olmuşdu. O gözünü ovuşdurub qıza dedi:

– Bu nə əhvalatdır, mən yuxu görürəm, nədi?

Qız dedi:

– Əhməd, sən yuxu-zad görmürsən, bu gördüyün qarı mən özüməm. Yolda sənin qabağına çıxan padşah qızı da, pəhləvan da mən özüm idim. Səni sınaqdan keçirirdim. Şükür olsun Allaha, bütün sınaqlardan çıxdın. İndi mən səninəm, nə deyirsən eyləyək.

Əhməd dedi:

– Yaxşısı budur, gedək əvvəlcə qalaçadakı adamların hamısını tilsimdən qurtaraq, sonra da gedək gözü yolda qalan atamı sevindirək, toyumuzu edək.

Əhmədlə qız qalaçaya gəldilər. Oxayın tilsimə saldığı adamların hamısını dirildib azad elədilər. Bu adamlar hamısı sevindiklərindən Əhmədlə qızın ayağına döşənib dedilər:

– Siz ki bizi bu tilsimdən qurtardınız, ölənəcən sizə qulluq etməyə hazırıq.

Əhməd dedi:

– Bizə heç bir qulluq lazım deyil. Bircə xahişimiz odur ki, indi biz gedirik atamın yanına, orada toy eləyib evlənəcəyik. Siz də bizimlə gedib toyda yeyib, içib şadlıq eləyəsiniz. Sonra da kim hara istəyir, çıxıb gedə bilər.

Əhmədlə qız Oxayın var-dövlətindən qiymətdə ağır, çəkidə yüngül şeyləri götürdülər, sonra adamlara dedilər:

– Kim nə istəyirsə, bu xəzinədən götürsün.

Adamlar da qızıldan, gümüşdən istədikləri qədər götürüb üz qoydular getməyə. Gethaget gəlib çıxdılar Əhmədgilin evlərinə. Əhmədin atası gördü ki, qabaqda oğlu ilə bir gözəl qız, dallarınca da o qədər adam gəlir ki, iynə atsan yerə düşməz. Əhməd gəlib atasının yanına çatdı. Ata-bala görüşüb öpüşdülər, atası dedi:

– Oğul, bu nə işdir, bu adamlar kimdir, bu vaxtacan haradaydın?

Əhməd başına gələnlərin hamısını atasına söylədi. Həmən gündən toy tədarükü görməyə başladılar. Qırx gün,

qırx gecə elə bir toy oldu ki, ruzigarın gözü indiyə qədər belə bir toy görməmişdi. Oğlanla qız evlənib arzularına çatdılar. Siz də muradınıza çatasınız.

## BACI VƏ QARDAŞ

Xasay adlı bir kasıb kişi vardı. Xasayın Ballı adlı bir arvadı, Fatma adlı bir qızı, Kavi adlı bir oğlu vardı. Xasay kişi kasıbkarlıqla külfətini dolandırdığı yerdə, birdən Ballı vəfat elədi. Xasayın evi, uşağı dolanmadığından gedib bir arvad aldı. Ay keçdi, il keçdi, bu arvadın keçəl bir qızı oldu.

Arvad ögey uşaqlarına çox əzab verirdi. Onların gününü göy əskiyə bükmüşdü. Xasay çox çətinliklə uşaqlarını böyütdü. Qızı ərə gedəsi, oğlu arvad alası oldu. Bir gün arvad dedi:

– Ay kişi, indi Fatmaynan Kavi böyüyüb, özlərini dolandıra bilərlər.

Onları apar azdır, bəlkə mənim gözüm onları görməyə.

Xasay dedi:

– Arvad, camaat bizi qınıyar, övladı azdırmaq olmaz.

Arvad dedi:

– Gərək azdırasan, yoxsa səndə oturmaram.

Xasay əlacsız qaldı, uşaqlarını yanına salıb odun gətirmək mahnasıynan meşəyə apardı. Dedi:

– Siz burda odun yığın, mən də o biri tərəfdə şələmi qayırım, qurtaran kimi gəlib sizi də götürüb gedərəm.

Xasay uşaqları qalın meşədə qoyub yola düzəldi. Qaçıb evinə gəldi.

Bəli, bacı-qardaş başladılar odun yığmağa. Bir də başlarını qaldırıb gördülər lap axşamdı. Əl-ayağa düşdülər. Çox axtardılar, atalarını tapa bilmədilər. Bildilər ki, bu iş analıqlarının işidi.

Meşədə baş alıb getməyə başladılar. Amma bilmirdilər ki, haraya gedirlər. Üç gün, üç gecə yol getdilər. Axırda bir bulaq başına çatdılar.

Kavi bulaqdan su içdi, oldu öküz. Fatma çox ağladı, başına döydü, bir yana çıxmadı. Qardaşı dedi:

– Bacı, ağlama, yenə qardaşınam. Bir buynuzum baldı, bir buynuzum yağ. Dalıma min, acdıqca yeyərsən. Gedib evimizi taparıq.

Fatma qardaşının belinə minib, yağ, bal yeyə-yeyə gəlib evlərinə çıxdı. Daz qız onu görüb anasına dedi:

– Budu, Fatma qardaşını bir öküzə verib, minib gəlir.

Anası dedi:

– Ziyanı yoxdu, iki olanda neylədilər ki, bir olanda neyləyələr.

Qoy gəlsin, tez başın batıraram gedər.

Fatma qapıda öküzdən düşüb evə gəldi. Hamıynan görüşdü. Qardaşının necə olduğunu xəbər aldılar. Fatma dedi:

– Qardaşımı meşədə ayı yedi. Bu öküzü də meşədən tapdım.

Ögey ana o gündən Fatmaya gündə bir küllü kömbə verib, daraqla yun daramağı ona iş-peşə elədi.

Fatma küllü kömbəni, yunu, darağı götürüb axşamacan çöldə öküzü otarırdı, yunu darayırdı. Acdıqca öküzün bir buynuzundan bal, bir buynuzundan yağ əmirdi. Axşam yunu, kömbəni gətirib analığına verərdi. Bir gün belə, beş gün belə, axırda analığı bildi ki, bu iş öküzün işidi. Özünü yalandan xəstəliyə vurdu. Xasay kişi yanına gəldi, dedi:

– Ay arvad, sənə nə olub?

Arvad dedi:

– Ölürəm. Öküzü kəsib ətindən mənə kabab versən, sağalaram.

Xasay öküzü kəsib ətindən arvada kabab verdi. Arvad sevinib yorğan-döşəkdən qalxdı. Fatma qardaşından ötrü başını yoldu, ağladı.

Öküzün bir damcı qanı dilə gəlib dedi:

– Ay bacı, qorxma məni öküz eləyən ayrı şey də eləyə bilər. Mən bir xoruz olacağam, hər nə dərdin olanda dərmanı mənim əlimdə olacaq. Mənim sür-sümüyümü bir quyuya tök, sənə paltar lazım olanda gəl quyunun ağzını aç apar.

Fatma qardaşı deyən kimi elədi. Qardaşı bu dəfə oldu bir xoruz.

Analığı bacısının dalınca hər nə etsəydi xoruz ona xəbər verərdi.

Bir gün şah Məhəmmədin şadlıq məclisi idi. Arvad, uşaq axışıb oraya gedirdi. Analığı Fatmanı çağırıb bir çanaq darını külə qatıb ona verdi, dedi:

– Mən gələnə kimi bu darını küldən seç, bir qab da göz yaşı hazırla.

Bunu deyib öz qızıyla bərabər şah Məhəmmədin şadlıq məclisinə getdi. Qonaqlar çörəkdən, xörəkdən yedilər. Şah Məhəmmədin şadlığında kimi xuşkəbər, kimi yemiş, kimi alma paylayırdı. Fatma gözü yaşlı qardaşının yanına gəlib

əhvalatı nağıl eylədi. Xoruz toyuqları başına toplayıb darını küldən seçdi. Bacısına bir qab duzlu su qayırtdırıb dedi:

– Bu sənin işlərin. İndi get şah Məhəmmədin toyuna.

Fatma sevinmiş gedib quyunu açdı. Gördü quyuda bir dəst elə paltar var ki, heç padşahın da evində ola bilməz. Fatma geyinib şah Məhəmmədin məclisinə getdi. Məclisdə analığı tərəfə kül, qonaqlara tərəf gül səpib oynadı. Toy qurtaranda qaça-qaça evlərinə gəlirdi ki, birdən başmağının tayı sıçrayıb hovuza düşdü. hovuza girə bilməyib, tələsik evə gəldi. Təzə paltarını çıxardıb yenə quyuya qoydu, köhnə paltarını geydi. Məclisdən camaat dağıldı. Daz qıznan anası gözünün külünü oyxalaya-oyxalaya evlərinə gəldilər. Fatma darını, duzlu suyu gətirib analığına verdi, dedi:

– Niyə bikefsən, şah Məhəmmədin toyunda nə gördün, nə eşitdin?

Analıq donquldana-donquldana dedi:

– Nə görüb, nə eşidəcəydik? Bir Tanrı bəxtəvəri gəlib xalqın üstünə gül səpdi, bizim üstümüzə də kül. İndi də gözlərimizi təmizləyə bilməmişik.

Fatma ürəyində “hay elədi” – deyib qardaşının yanına getdi.

Axşamüstü idi, şah Məhəmməd atını hovuzda sulamağa getdi. Ha elədi, at suya yaxın getmədi ki, getmədi. Düşdü atdan, hovuza əyildi, gördü hovuza bir başmaq tayı düşüb. Hovuza girdi, başmağı çıxartdı. Baxdı heç kəsin evində belə başmaq yoxdu. Dedi ki, bu başmaq hər kimin ayağına olsa, onu alacağam.

Şah Məhəmməd başmağı götürüb evlərinə gəldi. Sabah vəzir, vəkilnən bərabər düşdü qapı-qapı gəzməyə, başmaq tayını ayaqlara geydirib qızı axtarmağa. Bu xəbər hər yana yayılmışdı. Şaha ərə getmək üçün illərnən su görməyən ayaqlar islağa qoyulmuşdu.

Analıq Fatmanın əl-ayağını kömürləyib, öz qızının ayağını axşamdan islanmağa qoymuşdu. Şah başmaq tayını hansı qızın ayağına geydirirdisə, olmurdu. Dolana-dolana gəlib Xasaygilə çıxdı. Analıq daz qızı irəli itələdi. Başmaq onun vəl ayağının ucunda qaldı. Fatma gəldi, başmağı geydi. Başmaq lap ayağının qalıbı oldu. Şah Məhəmməd baxdı Fatmaya, gördü doğurdan da bu ayıbsız gözəldi. Bir könüldən min könülə ona aşiq oldu. Kora, keçələ rast gəlmədiyinə sevindi. Qızı aparası oldu. Qız gedib quyudakı paltarını geyindi, xoruz qardaşını da götürüb getdi. Məhəmməd yeddi gün, yeddi gecə toy eləyib, Fatmanı aldı.

Tağda üç yemiş yetişdi. Biri sizin, biri bizim, biri onların. Onlar yedilər, o yana getdilər, biz yedik, bu yana gəldik.

## TƏLƏTİN NAĞILI

Biri vardı, biri yoxdu, keçmiş əyyamlarda Tələt adında yetim bir uşaq vardı. Onun qoca nənəsindən, bir də uçuq daxmasından başqa heç bir şeyi yox idi. Tələt balaca olduğu üçün nənəsi Şamama onu işə-gücə göndərməzdi. Özü sap əyirib, corab toxuyardı, aparıb bazarda satıb, axşam evinə dönərdi.

Bir gün Tələt nənəsi Şamama qarıya dedi:

– Nənə, corab toxu, bir cüt ver mənə, aparım bazarda satım.

Şamama qarı dedi:

– Oğul, bu il gəl sən bayır-bacağa çıxma, zəmanə çox pisdi. Yeni ildə çıxarsan.

Tələt ayağını yerə döyüb, dedi:

– Nənə, əgər məni bazara buraxmasan, acıq eləyib, çıxıb gedəcəyəm.

Şamama qarı Tələtin ürəyini sındırmadı, bir cüt də artıq corab toxuyub, onu yanınca bazara apardı. Tələt nənəsindən corabı alıb, özünü camaatın içinə vurdu. Corabı nənəsi deyən qiymətdən də artığa satdı.

Şamama qarı nəvəsini belə fərasətli görüb çox şad oldu, ayından, oyundan alıb, evlərinə qayıtdılar.

Bir neçə gün Şamama qarı nəvəsini yanına salıb bazara apardı. Hər gedəndə də ona bir cüt corab verərdi. Tələt də corabı artıq qiymətinə satıb, pulunu nənəsinə verərdi.

Bir gün Şamama qarı bərk naxoşladı. Toxuduğu corablar da evdə qaldı. Tələt nənəsindən gizlin corabları götürüb bazara çıxdı. O, corabları satmaqda olsun, sənə danışım bir nəfər kordan. Bu mahalda bir kasıb kişi olurdu. Bu kişi kor idi. Belə ki, evdən bayıra çıxa bilməzdi. Bir gün bu kişi əlinə ağac alıb, evdən bayıra çıxdı, ağacını yerə sürtə-sürtə gəlib, "ya qismət" deyib bir daşın üstə əyləşdi. Tələt də corabları satıb yolla gedirdi. Gördü ki, qara daşın üstə bir kor əyləşib, elə deyir:

– Ya qismət!

Tələt onun ovcuna bir qədər pul basdı. Çəkilib bir tərəfdə gizləndi ki, görsün, bu bazardan uzaq oturub nə qismət axtarır? Gördü ki, bir dərviş əlində təbərzin, bu korun yanına gəldi, bir ləl çıxarıb ona verdi, çıxıb getdi. Tələt bir də gördü ki, bir qarapaltarlı kişi gəlib ləli korun əlindən aldı, ona bir-iki ağac da vurub getdi.

Tələt bu qarapaltarlı adamın dalınca getdi, qarabaqara gəlib bir imarətin qabağına çatdı. Qarapaltarlı adam yuxarı çıxdı, bu da onun dalınca. Qarapaltarlı adam içəri girdi, qapını örtdü. Tələt qapının deşiyindən baxdı gördü ki, o, paltarını soyundu, bir arvad gəlib onun qabağına süfrə döşədi, xörəklərini yeyib yatdılar. Tələt bu imarəti nişanlayıb getdi, gördü ki, həmin kor yenə oturub. Çıxardıb ona iki qara pul verdi.

Kor durub yola düzəldi. Tələt koru aparıb evinə saldı. Onun da evini nişanlayıb, nənəsinin yanına gəldi. Şamama qarı Tələt gedəndən sonra durub taxçaya baxdı, gördü ki, axşama evdə çörək yoxdu. İstədi corabları aparıb satsın, gördü corablar da yoxdu. İstəyirdi bayıra çıxa, gördü nəvəsi əlində çörək budur, gəlir. Xəbər aldı:

– Bala, hardaydın?

Tələt dedi:

– Nənə, corabları aparıb satdım. Çörək də alıb gətirmişəm.

Şamama qarı nəvəsinin bu zirəkliyinə çox sevindi. Özü də səhərdən bəri ac idi. Tez süfrə salıb, çörək yeməyə oturdular. Süfrə başında Tələt nənəsindən xəbər aldı:

– Nənə, filan küçədə bu rəngdə, bu nişanda bir imarət var, o kimin imarətidi?

Şamama qarı dedi:

– Oğul, o imarət tacirbaşının imarətidi. Özü də çox zalım, tamahkar adamdı. Öz köpüyündən keçməz, amma özgəsinin köpüyünü tez alar.

Tələt xəbər aldı:

– Nənə, bəs filan daxmada bir kor kişi var, özü də qocalıb, o kimdi?

Qarı dedi:

– Oğul, o kor haman tacirbaşı Məlikin nökəri olub, Məlikin dövlətini o qazanıb, amma indi Məlik onu o hala salıb. Tələt nənəsinin bu sözünün üstündən heç bir kəlmə də danışmadı. Rahatca çörəyini yeyib, yıxılıb yatdı. Səhər tezdən durub bazara çıxdı, gördü ki, həmin qarapaltar Məlik tacir bazarda gəzir, yanında da bir adam var. Bu adam bazarı dolanıb deyir:

– Məlik tacirə nökər lazımdı. Hər kimin meyli var, gəlsin, yaxşı pul verəcək.

Tələt birdən irəli yeriyib, dedi:

– Mən qalaram. Neçə verərsən?

Məlik tacir dedi:

– Ayda üç yüz tümən.

Tələt dedi:

– Qalaram. Amma gərək mənə dilindən kağız verəsən ki, bu adamı ayda üç yüz tümənə özümə nökər tuturam.

Məlik tacir razı oldu. Tələti götürüb, evinə gəldi. Tələt kağızı alıb, cibinə qoydu. Aradan bir neçə gün keçəndən sonra Məlik tacir Tələtə dedi:

– Hazırlaş, səfərə gedirik.

Tələt dedi:

– Tacirbaşı, mənim bir qoca nənəm var, aylığımı ver, aparım qoyum nənəmin yanında, sonra hər yana desən, gedim.

Məlik tacir haqverməz adamdı. Əlini cibinə salıb, əlli tümən çıxarıb Tələtə verdi, dedi:

– Pulları mala vermişəm. Hələlik bu əlli tüməni apar, qoy nənənin yanında, qalanını sonra verərəm.

Tələt özlüyündə dedi:

– Donuzdan bir tük də qoparmaq qənimətdir.

Əlli tüməni alıb, tez özünü nənəsinə yetirdi, pulu verib dedi:

– Nənə, mən gedirəm.

Şamama qarı xəbər aldı:

– Ay oğul, hara gedirsən?

Tələt dedi:

– Səfərə gedirəm.

Nənəsi dedi:

– Bala, kimlə gedirsən?

Tələt dedi:

– Məlik tacirə nökər dayanmışam, onunla gedirəm.

Şamama qarı dedi:

– Oğul, getmə, o bir imansız adamdı. Gedərsən, sənin başını batırar.

Tələt dedi:

– Heç qorxma! Onun başında mən acı turp əkməsəm, sənin nəvəliyinə layiq deyiləm.

Tələt nənəsi ilə halallaşıb, Məlik tacirin yanına gəldi. Gördü ki, Məlik tacirin qapısında üç qatır, bir də yəhərli at var. Haçannan-haçana bir adam bir yabı da gətirdi. Məlik tacir özü ata minib, Tələti də yabıya mindirdi. Atlarını sürməyə başladılar. Az gedib, çox dayandılar, çox gedib, az dayandılar, gəlib bir hündür dağın döşünə çatdılar. Atdan yerə düşdülər. Məlik tacir dedi: Tələt, bu dağı görürsən?

Tələt dedi:

– Bəli, görürəm.

Məlik dedi:

– Bu dağa çıxmağa heç yandan yol yoxdu. Biz səni çıxardacağıq bu dağa. Sən də dağda nə ki, qızıl rəngində daş-qaş var, tök aşağı. Sonra biz səni yenə bu dağdan düşürdərik.

Tələt bir xeyli fikirdən sonra öz-özünə dedi: “qoy razı olum, görək bunun axır sözü nə olacaq”.

Məlik tacir diri-diri atın qarnını yarıb, nə ki, içalatı vardı, çəkib çıxartdı bayıra atdı, bir qədər də ətinin ora-burasından kəsib, atın cəmdəyini yüngülləşdirdi. Tələti götürüb atın qarnının içinə saldı, əlinə də bir bıçaq verib dedi:

– Elə ki gördün atın cəmdəyi yerə dəydi, bıçağı dəriyə çəkib bayıra çıxarsan.

Məlik tacir atın qarnını tikib, bir qıraqda gizləndi. Haçannan-haçana iyirmiyəcən iri-iri quş gəlib, atın cəmdəyini caynaqlarına aldılar, göyə qalxızdılar, aparıb dağın başına qoydular. Bir balaca dimdiklədilər, gördülər ki, quru sümükdü, uçub getdilər. Quşlar gedəndən sonra Tələt atın qarnından çıxdı, gördü ki, burda o qədər ləl-cavahirat var, gəl görəsən.

Tələt üç qatır yükü bu qiymətli daş-qaşdan yerə tökdü. Məlik tacir də qatırlarını yüklədi. Tələt dedi:

– Məni düşürün.

Məlik dedi:

– Sən orda qal.

Məlik tacir atına mindi, qatırları da götürüb getdi. Tələt dağın başında qaldı, heç bilmədi hayana getsin. Bir də gördü ki, burda çoxlu uşaq cəmdəyi var, öz-özünə dedi:

– Ey dad, qalıb burda mən də bunlar kimi olacağam. Yaxşısı budur, baş götürüb qaçım.

Hər yana getdisə, gördü dağdan enib qurtara bilməyəcək. Oturub ağlamağa başladı. Bir də gördü ki, burada eniş-yoxuş bir yer var, dedi: "burda qalıb qurd-quşa yem olunca, qoy bu dağdan aşağı sallanım, bəlkə düşüb bir yana çıxdım".

Tələt dağdan sallandı, o daşdan, bu daşdan tuta-tuta birtəhər aşağı düşdü. Gördü bura dəryadı, hər tərəf sudu, heç bir yana yol yoxdu ki, çıxasan. Dəryanın da yanı meşədi.

Tələt oturub dizlərini qucaqlayıb fikir eləyirdi, axırda öz-özünə dedi: "Boş fikirdən nə çıxar, girim bu meşəyə, bəlkə yeməyə bir şey tapdım". Durub meşəyə girdi, gördü burda ağaclar var ki, hər yarpağı bir yorğan boyda, özü də iki barmaq qalınlığında, dedi: "Əcəb oldu. Bundan dərib sal qayıraram, dəryaya ataram, özüm də içinə minərəm, bəlkə gedib bir yana çıxa bildim".

Yarpaqdan bir neçəsini dərib, qabağına qoydu, gördü ki, bu yarpaqları bir-birinə bitişdirə bilməyəcək. Bir neçə qədəm irəli yeridi.

Gördü ki, burda bir ağac var, bu ağacın qol-budağından yapışqan kimi bir şey tökülür. Tez bundan bir-iki ovuc gətirdi, yarpaqları bir-birinə yapışdırmağa başladı. İşini tamam qurtarandan sonra götürüb dərya kənarına gəldi, dəryaya saldı. Gördü ki, su buraxmır. Keçib içində oturdu, əlinə də bir ağac

alıb, sürməyə başladı. Tələt dəryanın üzü ilə neçə gün, neçə gecə yol gedəndən sonra gəlib quruya çıxdı. Piyada yol getməyə başladı. Bir müddət yol gəlib çıxdı meşəyə, gördü ki, burada bir yuva var, yuvanın ağzında bir ilan. İlan Simurq quşunun balalarını yemək istəyir. Tələt yerdən bir daş götürüb, ilanın başına saldı. Daş ilanın başına dəyən kimi ilan çapalayıb öldü. Simurqun balaları buna yerbəyerdən alqış elədilər. Bu da oturub bunların qarovulunu çəkməyə başladı. Birdən Simurq özü gəlib çıxdı.

Tələti görən kimi caynağına alıb, onu öldürmək istədi. Balaları ağızağıza verib dedi:

– Ana, bu oğlan ilanı öldürüb, bizi onun əlindən qurtardı.

Simurq dedi:

– İndi ki, mənim balalarıma bu yaxşılığı eləyibsən, diləyini məndən istə. Mən sənin qulluğunda hazıram.

Tələt dedi:

– Ey Simurq, məni İsfahan şəhərinə apar.Simurq dedi:

– O da mənim gözüm üstə. Bu gecəni qal, səhər səni aparım Tələt gecəni Simurq quşunun yanında qaldı, səhər tezdən durub, quşun qanadlarının arasında oturdu. Simurq göyə qalxdı, bir neçə qanad çalıb, aşağı endi, dedi:

– Gözlərini aç!

Tələt gözlərini açıb, o yan-bu yana baxıb, gördü ki İsfahan şəhərinin kənarındadı.

Simurq dedi:

– Oğlan, indi gedə bilərsən.

Tələt Simurq quşundan ayrılıb bir baş evlərinə gəldi, gördü ki, nənəsi evdə oturub yun əyirir.

Şamama qarı nəvəsini görən kimi, qucaqlayıb öpdü, ondan xəbər aldı:

– Bala, necə gəldin?

Tələt dedi:

– Nənə, lap yaxşı gəldim.

Tələt gecəni nənəsinin yanında qalıb, səhər tezdən durub gəldi.

Məlik tacirin qapısını döydü. Məlik tacir qapını açıb gördü ki, Tələtdi. Boğazının yolu quruyub dedi:

– Tələt, gəl içəri.

Tələt içəri girib eyvana keçdi. Məlik tacirlə üzbəüz oturub, əlini cibinə saldı, qəbzi çıxardıb, dedi:

– Tacirbaşı, bir ilimin zəhmət haqqını ver.

Məlik tacir daha heç bir söz tapa bilmədi ki, buna desin.

Tələt yenə dedi:

– Tacirbaşı, hesab elə, ayda üç yüz tüməndən, bir ilin zəhmət haqqını

ver.

Məlik tacir dedi:

– Oğul, iki gün mənə möhlət ver, üçüncü günün tamamında gəl haqq-hesabını apar.

Tələt durub gedəndən sonra Məlik tacir öz ortağını çağırıb dedi:

– Ortaq, Tələt gəlib çıxıb. Məndən bir ilin zəhmət haqqını istəyir. Tədbir gör...

Ortaq dedi:

– Sən bu işi həvalə elə mənə. Mən ona heç zəqqum da verməərəm.

Məlik tacir razı oldu, ayağa durub, Tələtə xəbər göndərdi ki, bu axşam mənə qonaqdı. Tələt də gəldi. Məlik tacir aş bişirtdirdi. Ortağı aşa bihuşdarı qatdı, Tələtə verdilər. Tələt aşı yeyib bihuş oldu, tez onu palaza səridilər, qatıra yükləyib, qatırı da şəhərdən kənar buraxdılar.

Qatır Tələti bir kəndin qırağına gətirdi. Burda bir kişi xırman döyürdü. Gördü ki, yüklü bir qatır gəlir, amma qatırın yanında heç kəs yoxdu. Tez qatırın qabağın saxlayıb, yükünü

açdı. Gördü ki, palazın arasında bir oğlan uşağı var, amma huşu özündə deyil. Qoca xırmançı onu huşa gətirdi.

Tələt ayılıb gördü ki, İsfahan burda nə gəzir, Yanında bir qoca kişi var, özü də xırmanda oturub.

Tələt dedi:

– Əmi, mənə İsfahanın yolunu göstər.

Qoca dedi:

– Bala, mənim heç oğlum yoxdu, gəl mənim yanımda qal.

Tələt dedi:

– Yox qala bilmərəm, gərək gedəm.

Qoca dedi:

– İndi ki, gedirsən, düş bu yola, gedib çıxarsan İsfahana.

Tələt qatırı qocaya bağışlayıb, bir az yola çörək aldı, bir müddət yol gedəndən sonra bir meşəyə çatdı... Bir də gördü ki, meşənin içində bir yekə dev var, əlində də qara toppuz. Tələtin ürəyinə qorxu düşdü, qaçmaq istədi. Dev o saat Tələtin üstünü aldı: Tələtin biləyindən yapışıb götürdü çiyninə, öz imarətinə apardı.

Dev Tələtə dedi:

– Ey oğlan, neçə gündü acıydım, özümə ov axtarırdım. Rastıma sən gəldin, gərək səni yeyəm.

Tələt dedi:

– Ey devlərbaşı, mən də bərk acam. Əvvəl mənim qarnımı doydur,

sonra ye.

Dev razı olub, Tələtin qarnını doydurdu. Yatmaq zamanı gələndə xəbər aldı:

– Devbaşı, o qara şey nədi?

Dev dedi:

– Ona qara toppuz deyərlər. Nə desən o tez əməl eləyir.

Dev yıxılıb yatdı. Amma Tələtin gözünə yuxu getmədi. Gecəni xəlvət eləyib, durub, toppuzu əlinə alıb, dedi:

– Toppuz, devi vur ölüncə!

Toppuz düşdü devin üstünə. O qədər vurdu ki, dev cəhənnəmə vasil oldu. Tələt toppuzu götürüb, gecə ilə yol getməyin binasını qoydu. Az gedib, çox dayandı, çox gedib, az dayandı, bulaqlardan bir oymaq su içib, iynə yarım yol gedəndən sonra özünü çatdırdı İsfahana. Şəhərə girib, bir baş Məlik tacirin qapısına gəldi. İçəri girdi, gördü ki, bütün tacirlər burdadı. Əlini cibinə salıb, istədi ki, Məlik tacir verən qəbzi çıxartsın, gördü ki, qəbz yoxdu. Bildi ki, qəbzi tacir çıxardıb. Tez toppuzunu əlinə alıb, irəli yeridi, dedi:

– Məlik tacir, bir ilin zəhmət haqqını ver.

Məlik tacir dedi:

– Get, sabah gələrsən.

Tələt toppuzu göyə atıb dedi:

– Toppuzum, ölüncəyə qədər vur bunları!

Toppuz düşdü tacirlərin üstünə, o qədər vurdu ki, hamısını, Məlik taciri də onların içində xurd-xəşil elədi.

Camaat səsə yığılıb xəbər aldı:

– Bu tacirləri niyə öldürdün?

Tələt camaatı bir yerə yığdı, sonra haman koru da çağırdı, Məlik tacir bunlara nə ki, zülm eləmişdi, açıb söylədi.

Camaat işi belə görəndən sonra yerbəyerdən Məlik tacirə lənət oxuyub, bütün var– yoxunu öz aralarında paylaşdırdılar. Tələt kor kişini də yanına aldı, birlikdə şad ürəklə ömür sürüb yaşadılar.Göydən üç alma düşdü: biri mənim, biri özümün, biri də nağıl deyənin.

## UŞAQ PƏHLƏVAN

Biri var idi, biri yox idi, bir pinəçi var idi. Bunun uşağı yox idi. Bir ər, bir arvad idilər. Bu kişi hər gün gün çıxanda durub gedərdi pinəçiliyinə, axşam gün batanda gələrdi evlərinə. Günlərin bir günü şər qarışan vaxtı pinəçiynən arvadı evdə oturub övlad dərdi çəkirdilər. Bir də gördülər ki, qapının ağzında bir qoca dərviş peyda oldu. Dərviş bir qəsidə oxuyurdu ki, adamın tükləri biz-biz olurdu. Kişi tez qapını açıb dərvişi evə apardı. Bir az söhbətdən sonra dərviş dedi:

– Yaman susamışam. Uşağı göndər bir cam su gətirsin.

Ev yiyəsi dərvişdən bu sözü eşidən kimi rəngi-rufu qaçıb bir ah çəkdi. Dərviş o saat başa düşdü ki, kişi sonsuzdu, övladı yoxdu. Tez cibindən bir alma çıxardıb ev sahibinə verdi, özü də tapşırdı ki, almanı arvadıyla yarı bölüb yesinlər, övladları olacaq. Pinəçi bu işə çox şad oldu, sevinə-sevinə dedi:

– Ağa dərviş, bəs sənə nə pay verim ki, yaxşılığından çıxım?

Dərviş dedi:

– Mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm. Sağ-salamat qalın, mən getdim.

Elə dərvişin söz ağzından qurtaran kimi, baxıb gördülər dərviş çoxdan qeybə çəkilib. Ər-arvad almanı yarı bölüb yedilər. Aradan doqquz ay, doqquz gün keçdi. Pinəçinin arvadı bari-həmlini yerə qoyub, bir qəşəng oğlan doğdu. Oğlan nə oğlan, Rüstəm Zal heç onun əlinə su da tökməyə layiq deyildi. Biz eşitmişik uşaq aynan, ilnən böyüyər, amma bu uşaq günbəgün, saatbasaat boy atıb çinara dönmüşdü. Yeddi yaşında atlını atdan salırdı. Qolunda bir güc varıydı ki, küçədə hansı uşaqla zarafatlaşsa ya belini, ya da qolunu sındırardı. Qonum-qonşu lap bunun əlindən təngə gəlmişdi. Odur ki, gedib padşaha şikayət elədilər.

Padşah pinəçini çağırıb, qulaqburması verdi ki, uşağının ipini çək, əgər bir də nadinclik eləsə, başını bədənindən ayırdacam. Elə həmin gün pinəçinin oğlu küçədə uşaqlarla oynayanda vəkilin oğlunun belini sındırdı. Xəbər padşaha çatan kimi, əmr elədi ki, uşağı gətirib başını bədənindən ayırsınlar. Padşahın adamları gəlib nə qədər elədilər uşağı apara bilmədilər. Axırda beş-on yerdən sarıyıb atlara bağlayıb çəkdilər. Uşağı atlar sürüdükcə, o da yoldakı ağacların hansına əl atırdısa ki, özünü saxlasın, ağaclar köklü-köməcli qopub əlində qalırdı. Axırda bir yekə ağacı dibindən çıxardıb özüylə padşahın yanına apardı. Padşahın baş vəziri çox uzaq görən adam imiş. Gördü ki, bu uşaqda olan qüvvət padşahın heç bir pəhləvanında yoxdu, dedi:

– Padşah sağ olsun, sən gəl bu uşağı öldürtmə, vaxt gələr bizə lazım olar. Gəl bunu verək zorxanada pəhləvanlar öyrətsinlər.

Vəzirin sözü padşahın ağlına batdı, uşağı göndərdi pəhləvanların yanına. O gündən padşahın adlı-sanlı

pəhləvanları uşağı ox atmağa, nizə tutmağa, əmud vurmağa öyrətdilər. Ay dolandı, il keçdi, uşaq elə bir zor pəhləvan oldu ki, heç kim onu yerindən tərpədə bilmədi. Bunun adı-sanı hər yerə yayıldı.

Bunu burada qoyaq, sizə kimdən xəbər verək, firəng padşahından. Firəng padşahı tez-tez bu padşahın torpağına basqın eləyib, bac-xərac alarmış. Elə bu vaxt gəlib xəbər gətirdilər ki, firəng padşahı şəhəri üzük qaşı kimi mühasirəyə alıb, bac-xərac istəyir. Padşah vəzir-vəkili, bütün əyan-əşrəfi yığıb tədbir istədi. Çox götür-qoydan sonra vəkil dedi:

– Gəlin uşaq pəhəvanı göndərək, gedib onları əzsin.

Vəzir bu tədbirə razı olmayıb dedi:

– Doğrudur, uşaq pəhləvan qüvvətlidi, amma onu davaya göndərsək, bizə gülərlər. Deyərlər gör bu yekə ölkədə bir pəhləvan tapa bilməyiblər, südəmər uşağı göndəriblər. Bir də hələ o uşaqdı, tələylə, kələklə onu tutarlar. İndidən onu düşmənin əlinə verməyək. Bir gün gələr ki, bizə lazım olar.

Padşahın pəhləvanlarının hamısını göndərdilər davaya. Firəngin qoşunu bunları tamam qırıb çatdı. Böyük məsləhət-məşvərətdən sonra gördülər ki, ayrı əlacları qalmayıb, uşaq pəhləvana dedilər:

– Gəl sən çıx qoşunun qabağına, düşmənlə vuruş.

Uşaq pəhləvan dedi:

– Nə qoşun, nə dava, onlar mənə neyləyib ki, gedib dalaşım. Mən dava-şava bilmirəm.

Gördülər ki, elə bu doğrudan da heç nə başa düşmür. Vəzir dedi:

– İndi mən onu göndərim, siz də baxın.

Uşağın bir dəst paltarı varıydı ki, onu bir pəhləvan güclə götürə bilərdi. Özü də məşq eləyəndə həmişə onu geyərdi. Bu dəfə məşqə bir az qalmış vəzir əmr elədi ki, onun paltarını gizlətsinlər, özünə də desinlər ki, firəng padşahının qoşunları

apardı. Bəli, vaxt gəldi, uşaq pəhləvan məşq eləməyə gedəndə nə qədər axtardısa paltarını tapa bilmədi. Dad-haray saldı ki, bu saat mənim paltarımı verin.

Vəzir irəli yeriyib dedi:

– Oğul, sənin paltarını düşmənin qoşunu zorla alıb apardı. İndi gəl qılıncdan-qalxandan götür, get paltarını al, onları da qılıncdan keçir.

Vəzirin sözü uşağın xoşuna gəldi. O saat dedi:

– Mənə qılınc, at verin, bu saat gedib onları hamısını qırıb çatacam.

Padşah əmr elədi ki, ona qılınc gətirsinlər. Nə qədər möhkəm qılınc gətirdilərsə, uşaq əlinə alıb bir o ucundan, bir bu ucundan tutub əyən kimi iki böləndü. Padşahın xəzinəsində qılınc qalmadı, hamısını qırdı. Axırda padşahın yadına düşdü ki, xəzinədə babasından qalma bir qılınc var ki, ağırlığından onu heç kim götürə bilmir. İki pəhləvan göndərib qılıncı bir müsibətlə gətirtdilər. Uşaq qılıncı əlinə alıb bir az əyib, atıb-tutub dedi:

– Daha neyləyim, bunu da qırsam, onda qılıncsız qalacam, qılınc olmayan yerdə bu da bir qılıncdı, – deyib bağladı belinə. Sonra buna at gətirdilər. Əlini hansı atın belinə qoydusa o saat atın beli qırıldı. Padşahın ilxısında nə qədər at vardısa, hamısını uşaq şil-küt elədi. Axırda birdən yada düşdü ki, padşahın dərya atını gətirsinlər. Bu at yerlə, göylə əlləşirdi, ayrıca qalaçada saxlanırdı. Atın yemini damın üstündən tökürdülər, heç kim yaxın gedə bilmirdi.

Vəkilin uşaq pəhləvandan zəhləsi gedirdi deyə fikirləşdi ki, elə yaxşı olar, qoy bunu göndərək atı gətirməyə, at vurub öldürər. Uşaq atı görən kimi qaşqasının arasından bir yumruq ilişdirdi ki, at o saat səndirləyib az qaldı yıxılsın. Uşaq tez təkaltılı-zaddı yəhəri atın belinə basıb, sıçrayıb mindi. Hamı onun bu iyidliyinə heyran qaldı. Uşaq pəhləvan atını minib

özünü vurdu qoşuna ki, verin mənim köynəyimi! Qılıncı sağdan vurub soldan çıxdı, soldan vurub sağdan çıxdı. Qoşun qaçıb dağıldı. Firəng padşahı gördü yox, bu yaman güclü pəhləvandı, onunla bacarmayacaq, odur ki, başladı hiyləyə.

Firəng padşahının bir cadugər qızı varıymış, bütün tilsimləri öyrənib, açarını cibinə qoyubmuş. Padşah qızını çağırıb dedi:

– Qızım, bu pəhləvan bütün qoşunumu qırıb tərk elədi. Gör bunu bir təhər tora sala bilərsənmi?

Qız dedi:

– Ata, o, mənim əlimdə.

Bəli, qız bir rəml atıb, fala baxıb gördü ki, bu pəhləvan yeddi yaşında bir uşaqdı. Hələ küçədə-bacada uşaqlarla aşıq-qoz oynayası vaxtıdır. Odur ki, uşaq şəklinə düşüb dedi:

– Ay qoçaq oğlan, məni tanıyırsanmı?

Uşaq dedi:

– Sən kimsən?

Qız dedi:

– Mən sizin məhlədə həmişə gəlib sən aşıq-qoz oynayanda yanınızda durardım. İndi yaman oynamaq istəyirəm. Gəl bir aşıq-qoz oynayax.

Qız uşağın boş damarından tutmuşdu deyə uşaq o saat atdan düşüb yerdə çala qazdı. Başladılar qıznan aşıq-qoz oynamağa. Qız fürsəti fota verməyib sürməyə sehr-cadu oxuyub püflədi göyə. O saat uşaq tilsimə düşdü. Tirtap yıxılıb yatdı. Qız o saat qoşuna xəbər verdi.

Yeddi böyük pəhləvan gəlib uşağı güclə yerdən qaldırıb apardılar. Uşaq bir də gözünü açıb gördü ki, əl-ayağı tamam zəncirlə sarım-sarım olub. Ha əlləşdi, zəncirləri qıra bilmədi.

Hər gün firəng padşahının qızı uşağı dilə tuturdu ki, gəl sən bizim tərəfimizdə qal. Uşaq elə nırx deyib dururdu ki, mən dədəmin, anamın yanına gedəcəm. Düz bu qalmaqla uşaq

pəhləvan yeddi il əli-qolu kündəli zindanda qaldı. Uşaq gəlib on dörd yaşında bir nəhlivan oldu.

On dörd yaşında pəhləvanın qabağında dayanmaq asan iş deyildi. Oğlan bir güc verib zəncirləri parça-parça elədi, başladı zindandan çıxıb getməyə. Firəng padşahına xəbər çatdı. Padşah o saat əmr elədi ki, qoşun uşaq pəhləvanı tutub gətirsin. Uşaq pəhləvan baxıb gördü ki, uzaxdan böyük qaraltı gəlir, heç qoyun sürüsü də bu boyda olmaz. Bir az da gözünü uzağa zilləyib gördü ki, bu gələn qoşundu. Başa düşdü ki, onu tutmağa gəlirlər. Bu o vaxt idi ki, uşaq pəhləvan hündür bir dağın başındaydı. Qoşun lap gəlib uşaq pəhləvana çatdı. Başladılar dağa dırmaşa-dırmaşa ona ox atmağa. Uşaq pəhləvan gördü dağın başı yekə-yekə qayalarla, daşla, kəltənlə doludur. Başladı ev boyda qayaları dağın başından diyirləməyə. Hər dəfə bir yekə qayanı diyirləyəndə əlli-altmış adam birdən xurd-xəşil olurdu. Qoşun başçısı baxıb gördü yox, beləliklə onu tutmaq olmayacaq. Odur ki, başladı uşaq pəhləvanı dilə tutmağa ki, gəl sən dağın başından düş yerə, nə istəyirsən verək. Uşaq pəhləvan dedi:

– Mənə heç nə lazım deyil. Mən öz yerimizə, dədəmin, anamın yanına gedəcəm. Əgər mənə yaxın gəlsəniz, hamınızı qırıb tökəcəm.

Qoşun başçısı gördü yox, doğrudan da kim ona yaxın getsə şil-küt olacaq. Odur ki, kor-peşiman başladı geri qayıtmağa. Bu tərəfdən də uşaq pəhləvan az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib bir şəhərə çatdı. Gördü camaat hamısı şəhər meydanına tərəf gedir. Soruşdu ki, nə var? Dedilər ki, bu gün uşaq pəhləvanın atasını dar ağacından asacaqlar.

Uşaq pəhləvan xəbər aldı ki, axı onu niyə asırlar? Dedilər:

– Padşahın vəkilinin evini yarıbdı. Vəkil də padşaha şikayət eləyibdi deyə padşahın əmriylə onu asırlar.

Uşaq pəhləvan bu sözləri eşidən kimi başa düşdü ki, bura öz şəhərləridir, asılan da öz dədəsidir. Cin vurdu kəlləsinə, özünü yetirdi düz meydana. Gördü ki, doğrudan da dar ağacı qurulub. Meydanın bir tərəfində də taxtın üstündə padşah, vəzir, vəkil, qoşun böyükləri, pəhləvanlar əyləşiblər. Təbil çalındı, hamı o yan, bu yana boylanmağa başladı.

Başdan-ayağa qırmızı geyinmiş iki bığıburma cəllad dədəsini qabaqlarına salıb dar ağacının yanına gətirdilər.

Uşaq pəhləvan dədəsini görən kimi pələngə döndü, özünü yetirdi dədəsinin yanına, dedi:

– Dədə, qorxma, mən ölməmişəm, de görüm bu nə işdi?

Qoca kişi əli-qolu bağlı başladı gözləri yaşarmağa, dedi:

– Oğul, sən uşaqlıqda vəkilin oğlunu yıxıb qolunu sındırmışdın. Sən gedəndən sonra vəkil oğlunun hayıfını almaqdan ötəri mənə şər atıb ki, onun evini yarmışam. Bu qoca vaxtımda yerimdən tərpənə bilmirəm, mən necə ev yara bilərəm? Padşah da o zalımın sözünə inanıb məni dar ağacından asdırır.

Uşaq pəhləvan dədəsinin bu sözünü eşidən kimi əl atdı cəlladların xirtdəyinə, elə sıxdı ki, başları bədənlərindən ayrıldı. Özünü yetirib padşahı yaxaladı, istədi boğub öldürə, vəzir uşaq pəhləvanı tanıyıb dedi:

– Oğul, sən gəl padşahı öldürmə, onda sənlə onun nə fərqiniz olar. Sən də olarsan ədalətsiz, zalım.

Oğlan vəziri tanıyıb, onun sözünə qulaq asdı. Elə oradaca vəkili dar ağacına çəkib boğazından asdı. Padşahın tacını da başından götürüb qoydu vəzirin başına. Dedi:

– Ey vəzir, sən insaflı adamsan. Belə yelbeyin, hər yalana aldanandan padşah olmaz. Sən özün padşah ol, camaatı da incitmə.

Bu iş elə camaatın da ürəyindən idi. Camaat istədi köhnə padşahı daşa bassın. Vəzir qoymadı, dedi:

– Camaat, padşaha bundan artıq zülm olmaz ki, onu taxt-tacdan atalar. İndi qoyun o da qara camaatın içində dolanıb isti-soyuğu, aclığı-toxluğu, haqqı-nahaqqı gözləriylə görsün. Öz tutduğu işləri yadına salsın. Onda gündə on dəfə ölüb diriləcək.

Təzə padşah uşaq pəhləvanla atasını götürüb öz yanına apardı. Öz qızını da uşaq pəhləvana verib onu qoşun böyüyü təyin elədi. Başladılar ömür sürüb gün keçirməyə.

## GÜLOĞLAN

Biri var idi, biri yox idi, iki qardaş var idi. Bu qardaşların biri dövlətli, biri kasıb idi. Dövlətli qardaş sonsuz idi. Kasıb qardaşın Güloğlan adlı bir yaxşı oğlu var idi. Dövlətli qardaş kasıb qardaşın oğlu olduğuna paxıllıq eləyirdi. Bir gün dövlətli qardaş uzaq bir yerə qoyun satmağa gedirdi. Dövlətli qardaş kasıb qardaşına dedi:

– Qardaş, gəl oğlunu qoy mənimlə getsin, qoyuna kömək eləsin.

Gələndə əvəzində sənə pul verərəm. Kasıbsan, dolanarsan. Kasıb qardaş dövlətli qardaşın ürəyindəkini bilmirdi deyə, razı oldu. Dövlətli qardaş Güloğlanla qoyunları qabağına qatıb, yola düşdü.

Yolda dövlətli qardaş Güloğlanı gecənin birində yatdığı yerdə qoyub, çıxdı getdi. Elə ki evlərinə yetişdi, kasıb qardaş onun yanına gəlib dedi:

– Ay qardaş, bəs Güloğlan niyə gəlmədi?

Dövlətli qardaş dedi:

– Qardaş, yolda canavarlar bizim üstümüzə töküldü. Mən qaçdım, yaxamı qurtardım. Güloğlanı yedilər.

Kasıb qardaş bundan ağladı. Bikef, məyus qayıtdı evinə. Bunlar burda qalsınlar, sənə kimdən xəbər verim, Güloğlandan. Güloğlan gecənin birində yuxudan oyandı, gördü əmisi yoxdu. Bildi ki, əmisi paxıllıqla onu burda qoyub gedibdi. Güloğlan bir gün, bir gecə yol getdi, gəldi bir şəhərə çatdı.

Şəhərdə bir qocaya qonaq oldu. Qoca Güloğlanı qərib görüb, ona bacardığı qədər hörmət elədi. Evində olanı azdan-çoxdan onun qabağına qoydu. Güloğlan yedi, yatdı, sabahısı elə yuxudan təzəcə qalxmışdı ki, birdən şəhərə səs-küy düşdü. Güloğlan dedi:

– Ay baba, bu nə səs-küydü?

Qoca dedi:

– Oğul, dağda bir əjdaha peyda olub, hər nə verirlər, qəbul eləmir, padşahın qızını istəyir. Deyir ki, ya padşahın qızını mənə verin, ya da şəhəri alt-üst eləyəcəyəm. Padşah da deyib ki, bir qızdan ötrü şəhəri dağıtdırmaq olmaz, əlac yoxdu, gərək qızı əjdahaya verəm. İndi bu gün padşahın qızını əjdahaya aparırlar. Bu səs-küy onun üçündü.

Güloğlan dedi:

– Baba, izn ver, mən də gedim görüm, o əjdaha necə əjdahadı.

Qoca dedi:

– Oğul, sözünü sındırmıram, get, ancaq əjdahaya yaxın durma, səni də kamına çəkər.

Güloğlan yaxşı, deyib, evdən çıxdı. Camaat əjdahaya tamaşa etmək üçün dəstə-dəstə gedirdilər. Şahzadələr, vəzirlər, vəkillər, qullar, qarabaşlar da padşahın qızını gözü yaşlı, əlləri qoynunda, əjdahaya aparırdılar. Güloğlan bir tərəfdən gəlib,

özünü dağa yetirdi. Dağın ətəyində bir daşın üstündə oturdu. Güloğlan oturan yerdə heç kəs yox idi.

Camaat o biri tərəfdən, dağa, əjdahanın yanına tərəf gedirdi. Güloğlan daşın üstündə oturub fikrə getmişdi. Əllərini başına qoyub dayanmışdı. Bir azdan bir quş uçub oraya gəldi. Quş Güloğlanın oturduğu daşdan bir az aralı bir kola qondu, birdən-birə adam kimi dil açıb dedi:

– Ay Güloğlan, yatıbsan oyan, oyanıbsan eşit. O sən oturan daşın altında bir yay-ox var. Daşı qaldır, o yay oxu götür, dağın başına get. Əjdahanı o yay-oxdan savayı heç nə öldürməz. Yay-oxla vur əjdahanı öldür, padşahın qızını qurtar.

Quş bunu deyib, uçub getdi. Güloğlan sevinmiş yerindən qalxdı, daşı qaldırdı. Gördü doğrudan da daşın altında bir yay-ox var. Güloğlan yay-oxu götürüb, dağa dırmaşdı. Gəlib o zaman yetişdi ki, adamlar padşah qızını gətirib əjdahaya vermək istəyirlər. Əjdaha padşah qızını udmaq istəyəndə Güloğlan çıxarıb yay-oxu çəkdi, əjdahanın kəlləsindən bir ox vurdu. Əjdaha nərilti, gurultu ilə yıxılıb öldü. Padşah qızı şadlığından özünü Güloğlanın üstünə atmaq istəyəndə, Güloğlan hələlik bu sirr açılmasın deyə qızdan aralandı. Yeyin-yeyin enib qocanın evinə yetişdi. Yay-oxu da bir yanda gizlədib oturdu. O tərəfdən padşah qızı dağda nə qədər hərləndisə, Güloğlanı tapa bilmədi. Sevinmiş yüyürə-yüyürə evlərinə gəldi. Əhvalatı ata-anasına nağıl elədi.

Padşah hökm elədi, şəhərə car çəkdirdi, əjdahanı öldürüb qızını qurtaran oğlanı axtardı. Adamlar Güloğlanı nə qədər axtardılarsa, tapa bilmədilər. Qayıdıb padşaha xəbər apardılar ki, tapa bilmədik.

Güloğlan evə gələndə qoca kişi evdə deyildi. O da səs-küyə şəhərə çıxmışdı. Qoca bir də töyşümüş evə gəldi, gördü Güloğlan evdədir. Güloğlan üzünü qocaya tutub dedi:

– Ay baba, nə gördün, nə eşitdin?

Qoca dedi:

– Ay oğul, nə görəcəyəm? Eşitdim ki, dağda bir oğlan çıxıb yay-oxla vurub əjdahanı öldürüb, padşah qızını qurtarıbdı. Oğlanın baxtı açılıb, padşah indi şəhərdə car çəkdirib onu gəzir ki, böyük xələt versin, hörmət eləsin. Padşah qızı da əjdahanı öldürən oğlanı çox bəyənibdi. Onun igidliyini dilində əzbər eləyibdi. Ancaq hardadırsa, oğlan tapılmır.

Güloğlan bir söz demədi. Bundan bir xeyli keçdi.

Gecələrin birində padşahın vəziri küçə ilə gedirdi. Birdən bir gözəl qız gördü. Qız əl eləyib vəziri çağırdı, özü isə yoluna davam eləyib getməyə başladı. Vəzir bu sirri bilmək üçün qızın dalınca getdi.

Qız getdi, vəzir getdi, o qədər getdilər ki, axırda şəhərdən çıxdılar. Bir xeyli getdilər, meşənin kənarında bir hündür qayaya rast gəldilər. Qız qayanın bir tərəfindən keçdi, yuxarı çıxdı. Vəzir də onun dalınca getdi.

Bir qalaçaya yetişdilər. Qız qalaçanın içinə girdi. Qalaçanın qapısı bağlandı. Bir az keçdi, içəridən bir qoca sehrkar qarı çıxdı. Qarı oxudu, üfürdü, vəziri bir daş elədi. Sonra dönüb qalaçaya girdi.

Bunlar burda qalsınlar, sizə vəzirin oğlanlarından xəbər verim. Vəzirin oğlanları gözlədilər, gecədən xeyli keçdi, ataları gəlmədi, axırda atlanıb şəhərə çıxdılar, atalarını gəzməyə başladılar. Şəhərdə atalarını tapa bilmədilər. Şəhərdən çıxdılar, o qədər getdilər ki, axırda qayadakı qalaçaya yetişdilər. Düşüb qalaçaya girmək istəyəndə qalaçanın qapısı açıldı, sehrkar qarı eşiyə çıxdı, oxudu, üfürdü, vəzirin oğlanlarını da daş elədi. Bu tərəfdən xəbər tutdular ki, vəzir oğlanları ilə itibdi. Hər yana ün saldılar, çar çəkdilər, ancaq onlardan bir xəbər çıxmadı ki, çıxmadı.

Bunlar da burda qalsınlar, sizə padşahdan xəbər verim. Günlərin bir günü bir xoş saatda padşah atlanıb maral ovuna çıxmışdı. Başının atlıları ilə çox gəzdi, axtardı, axırda bir gözəl maral tapdı. Maralı tutmaq üçün başının atlıları ilə onun dalınca düşdü. Maral qaçdı, onlar qovdular. Axırda padşahın başının atlılarının atları yoruldu, gerilədilər.

Şah maraldan aralanmadı. Maralı dağdan-daşdan uçura-uçura qovurdu. Maral axırda qaça-qaça gəldi haman vəzir oğlanları ilə daş olan qalaçaya yetişdi. Maral qalaçaya tərəf gələndə qalaçanın qapısı açıldı.

Maral içəri girdi, qapı örtüldü. Bir az keçdi, qapı açıldı, içəridən qarı çıxdı. Oxudu, üfürdü, padşahı da daş elədi. Padşahın başının atlıları geri qayıdıb, padşahın oğlanlarına xəbər verdilər ki, ataları bir maral dalınca düşüb getdi, geri qayıtmadı. Padşahın oğlanları atlanıb çıxdılar.

Dağları, daşları, hər yeri gəzdilər. Atalarından bir əsər tapa bilmədilər. Axırda atlarını sürüb qalaçaya gəldilər. Qalaçanın qapısını açıb içəri girmək istədilər. Birdən qalaçanın qapısı açıldı. İçəridən sehrkar qarı çıxdı. Oxudu, üfürdü, padşahın oğlanlarını başının atlıları ilə daş elədi.

Bunlar burda qalsınlar, sizə Güloğlandan xəbər verim. Güloğlan qoca kişinin evində olurdu. Gündüzlər şəhərə çıxır gəzir, axşamlar evə gəlirdi. Bir gün yenə şəhərə çıxmışdı. Gördü şəhərdə danışırlar ki, padşah, vəziri, vəkili, oğlanları ilə bərabər itiblər. Neçə vaxtdır ki, tapılmırlar.

Camaat padşah tapılana qədər onun yerinə qızını taxta çıxardıbdır. Qız da taxtda qərar tuta bilmir. Bir yandan atasının, qardaşlarının itməyi, bir yandan da onu əjdahanın ağzından qurtaran oğlanın tapılmamağı qızı rahat qoymur. Qız padşahlığı aparmaq istəmir, ancaq camaat razı olmur. Hələlik taxtda oturur.

Güloğlan şəhəri dolanıb axşam evə qayıtdı. Qoca kişi də evdə idi. Xörək gətirildi, yedilər, içdilər, söhbətə başladılar. Söhbət arasında Güloğlan dedi:

– Ay baba, bilmirsənmi padşah, vəzir, vəkil, oğlanları ilə harda itiblər? Hayana gedib, qayıtmayıblar, başlarına nə gəlib, nə olubdu?

Qoca kişi dedi:

– Bilmirəm, şəhərdə danışırlar ki, vəzir gecənin birində yox olub.

Evdən çıxıb bir də geri dönməyib, oğlanları da vəziri axtarmağa gedəndə itiblər. Padşah da bir maralın dalına düşüb, gecə-gündüz qovlayıb-qovlayıb, bütün atlılar yorulub qalıblar, o isə maraldan əl çəkməyib. İndi haraya gedib, heç kim bilmir. O da maralın balasına rast gəlib. Padşahın oğlanları da atalarının dalınca gedib, qayıtmayıblar. Şəhərin ətrafı dağdı, meşədi, əjdaha var, hərami var, yırtıcı heyvanlar var, sehrkarlar var. Kim bilir, hansına rast gəldilər, tələf oldular, getdilər. Güloğlanla qoca gələcəkdən, keçmişdən söhbət elədilər, gecədən xeyli keçmiş yatdılar. Elə ki sabah açıldı, Güloğlan sıçrayıb yerindən qalxdı, yay-oxunu götürdü, çiyninə keçirtdi. Bir az çörək də götürəndə qoca dedi:

– Ay oğul, haraya belə səfərin var? Sən qonaq olsan da indi qonaqlıqdan çıxıb mənim oğlum olubsan, sənə elə isinişmişəm ki, bir gün gözümdən uzaq olmağını istəmirəm.

Güloğlan dedi:

– Ay baba, çox sağ ol. Mənə çox yaxşılıq, hörmət eləyibsən, mən onu itirmərəm. Əlbət, olar ki, onların altından çıxaram. İndi mən, sən gecə söylədiyin dağları, daşları, meşələri gəzməyə çıxıram. Görüm bu yerin dağlarında, daşlarında nə var, nə yox. Nə sirr var ki, gedən geri qayıtmır.

Qoca dedi:

– Ay oğul, mən sənə dedim ki, bu dağlarda, daşlarda həramilər, yırtıcılar var. Gəl sən getmə, tələf olarsan.

Güloğlan dedi:

– Baba, qorxma. Sağlıq olsa, mənə heç nə olmaz, yenə qayıdıb gələrəm.

Qoca ha elədi, Güloğlan dayanmadı, üzünü dağlara çevirib getdi. Üç gün, üç gecə dağları, daşları, meşələri gəzdi, dolandı, axırda həmən padşah, vəzir, oğlanları daş olan qalaçaya yetişdi. Güloğlan qalaçanın çöl tərəfində oturdu. Yorulmuşdu, həm də fikir-xəyala cummuşdu. Güloğlan fikir xəyalda ikən oturduğu yerdə onu yuxu apardı. Güloğlan gözü yuxuda, könlü isə oyaq olan zaman yenə həmən quş uçub gəldi, ona yaxın bir budağa qondu, dedi:

– Ay Güloğlan, yatıbsan oyan, oyanıbsan eşit! Bu qalaçada bir sehrkar qarı var. Sehrlə hər dona girə bilir. Sehrkar qarı bir gözəl qız sifətinə düşüb, vəziri gətirib qalaçanın qapısında daş eləyib. Oğlanları da dalınca gələndə onları da daşa döndərib. Bir gün də maral cildinə girib, padşahı dalınca gətirib, burada onu da daş eləyib, sonra da oğlanlarını, başının atlıları ilə daşa döndərib. İndi o sehrkar qarı qalaçadadı. Yaxşı eşit mənim dediklərimi! Qalxıb gedərsən qalaçanın qapısını itələrsən, açılar, içəridən sehrkar qarı çıxar. Onda sən deyərsən:

– Süleyman eşqinə sehrkar qarının sehri batil olsun! Onda sehrkar qarı nə qədər sehr oxuyub, səni də daş eləmək istəsə, eləyə bilməz. Sehri batil olar. O zaman sən yay-oxu çəkib onun sinəsindən vurarsan. Sehrkar qarı ölər, sehri pozular, qalaçası dağılar. Daş olmuşlar da dönüb adam olarlar.

Quş bunu deyib, uçub getdi. Güloğlan quşun dediklərini bütün eşitdi. Yerindən qalxdı, qalaçanın yanına gəldi. İtələdi, qalaçanın qapısı açıldı. İçəridən sehrkar qarı çıxdı. Qarı çıxanda Güloğlan dedi:

– Süleyman eşqinə qarının sehri batil olsun!

Qarının sehri batil oldu. Qarı nə qədər istədi ki, sehr oxuyub Güloğlanı daş eləsin, sehri baş tutmadı. Güloğlan qarıya aman vermədi. Yay-oxu çəkdi, sehrkar qarının sinəsindən bir ox vurdu. Sehrkar qarı yıxılıb öldü. Sehr pozuldu, qalaça dağıldı. Daş olanlar dönüb adam oldular.

Padşah, oğlanları, vəzir, oğlanları başının adamları ilə Güloğlanın yanına gəldilər. Onu aralığa alıb, başına dolandılar. Padşah Güloğlana çox hörmət elədi. Sehri necə batil etdiyini ondan soruşdu. Güloğlan sehrkar qarını öldürüb, sehri batil elədiyini, onları qurtardığını söylədi. Onlar hamısı şadlıqla şəhərə qayıdıb gəldilər. Şəhər əhli bunların gəldiyini eşidib görüşə toplandılar... Padşah qızı da oraya gəldi. Qız Güloğlanı görən kimi tanıdı, ancaq hələlik danışmadı, işin axırını gözlədi.

Padşah üzünü camaata tutub, başlarına gələnləri başdan-ayağa nağıl elədi. Güloğlanın onları necə qurtardığını, onun igidliyini bir-bir söylədi. Camaat Güloğlanın igidliyinə, qoçaqlığına mat qaldı. Bu zaman padşah qızı dedi:

– Ay ata, sizi sehrdən qurtaran Güloğlan o oğlandı ki, məni də əjdahanın çəngindən qurtarıb. O vaxtdan bəri mən də bunu axtarırdım, indi burda tapdım.

Güloğlan əhvalatı bir də camaata danışdı. Bundan hamı çox şad oldu. Güloğlanı evində saxlayan qoca hamıdan çox sevindi.

Padşah, Güloğlanın rəyini bilәndən sonra yaxşı toy eləyib, qızını Güloğlana verdi. Güloğlan bir müddət burda qaldı. Bir gün öz yerlərinə getmək üçün padşahdan izn aldı. Padşahla, vəzir-vəkillə, evində olduğu qoca ilə görüşüb padşahın qızını da götürüb yola düşdü. Gecə-gündüz yol gedib, gəldi öz yerlərinə yetişdi. Güloğlanın atası oğlunun gəlməyindən xəbər tutub, şad oldu. Oğluyla görüşdü. Başına gələnləri ondan xəbər aldı. Güloğlan başına gələnləri əvvəldən

axıra kimi atasına nağıl elədi. Atasının öz qardaşının onun oğluna xəyanət elədiyinə çox acığı tutdu. Onda bu hayıfın qalmamağı üçün oğluna dedi:

– Oğul, gərək hayıfını paxıl əmindən alasan.

Güloğlan getdi, yay-oxu çəkdi, paxıl əmisini öldürdü. Güloğlan özü ilə böyük var– dövlət gətirmişdi. Evlərinə dolanacaq düzəltdilər, gün gördülər, ömür sürdülər, öldülər, yerə keçdilər. Nağıl da onlardan yadigar qaldı.

## YAXŞILIĞA YAXŞILIQ

Həmid adlı yoxsul bir kişi var idi. Bu kişinin altı xırda uşağı var idi. Həmid kişi hər gün meşədən şələ ilə odun gətirib satar, aldığı pulla uşaqlarını yarı qarnı ac, yarı qarnı tox dolandırardı. Bir gün Həmid kişi yenə tezdən durdu. Əl-üzünü yudu, oturub bir az çörək yedi, sonra dəhrəsini, baltasını götürüb meşəyə odun yığmağa getdi. Az getdi, çox getdi, meşənin lap qalın yerinə çatdı. Bir də gördü bir şey od tutub yanır. Kişi yaxına gedib gördü alovun içində bir qutu var. Bu qutunun içindən səs gəlir.

– Ay aman, kömək eləyin, məni bu alovun içindən qurtarın!

Həmid kişi çox rəhmli adam idi. Ürəyi yandı. Özünü alovun içinə atıb qutunu kənara çıxartdı. Qutunun ağzını açan kimi, içindən bir ilan çıxıb, kişinin boğazına dolandı, qışqırıb dedi:

– Səni elə vuracağam ki, parça-parça olasan.

Kişi yalvarıb dedi:

– İlan qardaş, insaf elə, mürvət elə. Mən səni ölümdən qurtardım, sənə yaxşılıq elədim. Yaxşılığın əvəzini vermirsən vermirsən, tay məni niyə vurursan? Məndən əl çək, bir bölük çolma-çocuğum var.

Onları yetim qoyma!

İlan onun boğazını sıxıb dedi:

– Nahaq yerə mənə yaxşılıq eləmisən. Niyə, bilmirdin ki, biz nəsil yaxşılıq qabağında pislik elərik? Yaxşılığın əvəzində səni vurub balalarını yetim qoyacağam.

Kişi dedi:

– A ilan qardaş, gəl sən bu daşı ətəyindən tök. Bu dəfə yaxşılığın qabağında pislik eləmə, adətini poz, məni vurma.

İlan dedi:

– Üz vurma, səni vuracağam. Mən qaydanı poza bilmərəm.

Kişi naəlac qalıb dedi:

– İlan qardaş, onda aman ver, üç şərtə gedək, sən də sözünü de, mən də deyim. Onlar səni haqlı bilsələr, sözüm yoxdu, vurarsan ölərəm.

İlan kişinin sözünə razı oldu. Kişi qutunu da götürüb ilan boğazında yola düşdü. Az getdi, çox getdi, bir bayquşa rast gəldi. Kişi bütün əhvalatı bayquşa nağıl eləyib dedi:

– Bayquş qardaş, bizim şərtimizi kəs. De görək, bu yaxşılığın qabağında ilan məni vurmağa haqlıdırmı?

Bayquş bərkdən ulayıb dedi:

– Əlbəttə, vurmağa haqlıdı. Siz insan nəslinin yaxşılığının qabağında pislik eləmək lazımdı. Sizdən mənim də ürəyim yaralıdı. Məni qoymursunuz ulayıb istədiyim yerləri xaraba qoyam. Mən dağıdıram, siz tikirsiniz. İlan qardaş, bunu elə vurarsan ki, parça-parça olar.

İlan istədi Həmid kişini vursun. Həmid kişi şərtlərini onun yadına salıb dedi:

– Bizim hələ iki şərtimiz qalıb, aman ver.

İlan razılaşdı. Həmid ilan da boynunda yola düşdü. Bir qədər gedəndən sonra bir canavara rast gəldi. Kişi dedi:

– Ay canavar lələ, bu ilan alov içində yanırdı. Mən onun köməyinə çatdım, özümü alovun içinə salıb onu ölümdən qurtardım. Bu yaxşılığın qabağında ilan deyir səni vuracağam. Sən nə deyirsən, bu haqlıdırmı?

Canavar bərkdən ulayıb dedi:

– Əlbəttə, haqlıdı. O, sənə böyük xətir qoyub ki, hələ bu vaxta kimi vurmayıb.

Kişi dedi:

– Canavar qardaş, düz demirsən. Məgər yaxşılıq eləyənə pislik elərlər.

Canavar dedi:

– Mən düz deyirəm. İlan ondan ötrü haqlıdır ki, bu insanlardan mənim də ürəyim yaralıdı. Qoymurlar istədiyim qoyunu, quzunu yeyəm. Məni görəndə vurub öldürürlər. İndicə bir sürüyə təpindim.

Çoban itlərə "tut" dedi. Birtəhər ölümdən qurtardım. Dad bu insanların əlindən. Onların yaxşılıqlarının qabağında pislik lazımdı. İlan qardaş, bunu elə vur ki, parça- parça olsun.

İlan Həmid kişiyə dedi:

– Eşitdin ki, bu da ikinci şərt. İndi düş yola üçüncü şərtə gedək.

Kişi ilan boğazında yola düşdü. Dərələrdən sel kimi, təpələrdən yel kimi gedib bir tülküyə rast gəldilər.

Kişi tülküyə baş əyib dedi:

– Salam-əleyküm, tülkü baba, xoş gördük.

Tülkü yuxarı tullanıb dedi:

– Əleyküm-əssəlam, ay topqarasaqqal kişi! Xoş gəlmisən, beş gətirmisən.

Bu ilanı boynuna dolayıb, hara belə gedirsən?

Kişi dedi:

– Ay tülkü baba, bu ilan meşədə alov içində yanırdı. Mən onun imdadına çatıb ölümdən qurtardım. Bu yaxşılığın qabağında deyir "Səni vuracağam". İndi sən şərtimizi kəs, görək bu məni vurmağa haqlıdı, ya yox?

Tülkü bərk qəzəbləndi, gözlərini bərəldib dedi:

– Gözünün içinə qədər yalan danışırsan. Bu yekəlikdə ilan heç vaxt o qutuya sığmaz. İlan qardaş, sən qutuda idin, yoxsa bu kişi sənə böhtan atır?

– Yalan demir, mən qutuda idim.

Tülkü dedi:

– Sən də yalan deyirsən. Sən heç vaxt o qutuya sığmazsan. Şahidinizi göstərin, şərtinizi kəsim.

İlan hirslənib dedi:

– A tülkü baba, nə şahid? Şahid bu qutu. İstəyirsən içərisinə girim, bax gör sığıram, yoxsa sığmıram.

Tülkü dedi:

– Yaxşı, onda razıyam. Amma heç ağlım kəsmir ki, sən bu qutuya sığasan. Şərtinizi kəsərəm, bu kişini buradaca vurarsan ölər. Üç gündü ki, dilimə ət dəyməyib, acından qarnım cur-cur curuldayır. Bir az ətindən mən yeyərəm.

İlan dedi:

– A kişi, qutunu yerə qoy.

Kişi qutunu yerə qoydu. İlan qutunun içinə girib qıvrılan kimi, tülkü cəld qutunun ağzını örtdü və kişiyə dedi:

– A kişi, yaxşılığa yaxşılıq hər kişinin işidi. Amma yamanlığa yaxşılıq hər ötənin işi deyil. Fürsəti fövtə vermə, bu gavuru tez öldür, canın qurtarsın.

Kişi o saat bir tonqal ocaq qaladı, qutunu götürüb alovun içinə atdı. İlan nə qədər qışqırdı, yalvardı, onun sözünə baxan olmadı. İlan qutu ilə bərabər yanıb kül oldu. Kişi tülküyə dua, alqış eləyirdi ki, birdən ovçuların qıyhaqıy səsi, tazıların hürüşməsi eşidildi. Tülkü əl-ayağa düşüb kişiyə dedi:

– A kişi, o ovçular məni axtarırlar. Mən onların əlindən qurtarıb buraya gəlmişəm. Sənə yaxşılıq eləyib ölümdən qurtardım, əvəzində sən də mənə yaxşılıq elə, məni gizlə.

Həmid kişi fikirləşməmiş ovçular gəlib çıxdılar. Tülkü işi belə görüb qaçmaq istədi. Amma tazılar imkan verməyib, başının üstünü kəsdilər. Ovçular tülkünü diri tutdular.

Kişi ovçulara salam verib dedi:

– Ovçu qardaşlar, mən çoxdandı ki, bu hiyləgər tülkünün dalınca gəzirdim, Amma ki, tuta bilmirdim. Çox yaxşı oldu ki, siz onu tutdunuz.

Bunu mənə verin.

Ovçular soruşdular:

– Tülkü sənin nəyinə gərəkdi?

Kişi dedi:

– Bu tülkü məndə toyuq-cücə qoymayıb, hamısını yeyib qurtarıb. İstəyirəm onun dərisini özüm soyam, içərisinə saman doldurub saxlayam. Gündə bir dəfə ona baxam ki, ürəyim soyuya.

Tülkü Həmid kişidən bu sözləri eşidəndə bir altdan yuxarı ona baxıb dedi:

– Ay namərd insan, heyif mənim sənə elədiyim yaxşılığa. Belə bilsəydim, heç səni ilanın əlindən qurtarmazdım, qoyardım vurardı.

Həmid kişi dedi:

– Çox danışma. Bir yaxşılıq eləyibsənsə, min də pislik eləyibsən.

Sonra üzünü ovçulara tutub dedi:

– Qardaşlar, neçə istəyirsiniz verim, bunun dərisini soyub mənə verin.

Ovçulardan biri bıçağını çıxartdı. Tülkünü yerə yıxdı, dərisini boğazından çıxartmaq istəyəndə, Həmid kişi dedi:

– Dayan, elə soyma!

Ovçu dedi:

– Bəs necə soyum?

Həmid kişi soruşdu:

– Bir mənə deyin görüm, siz bu tülkünün dərisinə, bir də onu soymaq üçün çəkdiyiniz zəhmətə məndən neçə alacaqsınız?

Ovçu dedi:

– On tümən.

Həmid kişi on beş tümən pul çıxardıb ovçuya verdi, dedi:

– Al, bu on beş tümən, soymaq zəhməti də sizə qalsın. Tülkünü elə diri-diri mənə verin. Beləliklə, mənim ürəyim soyumaz. Mən gərək onu öz əllərimlə diri-diri soyam.

Ovçular pulu alıb getdilər. Elə ki gedib gözdən itdilər, Həmid kişi tülküyə dedi:

– Tülkü qardaş, sən mənə yaxşılıq eləmişdin, mən də sənin xəcalətindən çıxdım. Get, yaşa!

Bunu deyib Həmid kişi tülkünü buraxdı, özü də ipini açıb arasına odun yığmağa başladı. Tülkü də ona kömək elədi. Həmid kişi şələsini dalına alıb evlərinə getdi. Tülkü də balalarının yanına qaçdı.

# İKİ YOLDAŞ

Biri varmış, biri yoxmuş, bir qarının İlyas adında bir nəvəsi varmış. İlyas həm gözəl, həm də ağıllı imiş. Nənə-bala çox əzab-əziyyətlə, kasıblıqla dolanırmış. Qarı yun əyirib corab toxuyarmış, İlyas da aparıb bazarda satarmış. İlyasla nənəsi nə qədər çalışırlarmış ki, güzaranları bir az yaxşılaşsın, amma heç bir şey çıxmırmış. Axırda İlyas təngə gəlib, nənəsinə dedi:

– Nənə, görürsən ki, corab toxuyub satmaqla heç nə qazana bilmirik, indi mən istəyirəm kəndimizdən baş götürüb gedəm özgə şəhərlərə, kəndlərə, bəlkə oralarda bir işdən– gücdən tapıb işləyəm, bir az puldan– paradan qazanam.

Qarı əvvəlcə istədi nəvəsini buraxmasın. Dedi:

– Oğul, sən hələ uşaqsan, ağzından süd iyi gəlir, haranı tanıyırsan ki, ora gedəsən. Gedərsən yolda-izdə nanəcibə rast

olarsan. Gəl, sən heç yerə getmə, mən də qocalmışam, bir əlimdən tutanım yoxdur. Məni qoyub hara gedirsən?

İlyas dedi:

– Nənə, qorxma, hara getsəm tez qayıdıb gələcəyəm, sən mənə xeyir-dua ver, dalısıycan işin olmasın.

Qarı gördü nəvəsinin tərs damarına düşüb, dediyindən dönməyəcək, dedi:

– Oğul, indi ki, sözümə baxmırsan, get, Allah köməyin olsun.

Amma sənə üç söz öyrədəcəyəm. Yolda bir adamla yoldaşlıq eləsən bu sözləri yadına salıb o adamı sınayarsan.

Qarı gətirib İlyasın heybəsinə dörd fətir, bir az da soğanla şor qoydu, özünə də tapşırdı:

– Yolda sənə yoldaşlıq eləmək istəyən bir adama rast olsan, bir az gedəndən sonra bu fətirin birini çıxardıb verərsən həmin adama, özünə də deyərsən ki, kəs yeyək. Əgər həmin adam fətirin çox hissəsini kəsib özü götürsə, az hissəsini sənə versə, bil ki, o adam tamahkardı, sənə zərər verər, bir bəhanə tapıb ondan ayrılarsan. Yox, əgər fətiri ya tən bölsə, ya da çox hissəsini sənə verib, az hissəsini özü götürsə, onda onunla yol yoldaşı olarsan. Bir az gedəndən sonra bəhanə eləyib deyərsən ki, məni burda bir saat gözlə, dəyəsi yerim var, ora dəyib gəlirəm. Gedib kənardan baxarsan, əgər həmin adam səni gözləsə, onunla ürəkdən dost olarsan. Yox, çıxıb getsə, ondan uzaq olarsan. Üçüncü sözüm də odur ki, əgər qabağınıza çay çıxsa, sən yoldaşına deyərsən ki, gəl min dalıma, sudan keçirdim. Əgər o dalına minsə, ondan da uzaq olarsan, yox, işdi, o səni dalına alıb çaydan keçirsə, ondan əl çəkməzsən.

Qarı nəsihətini eləyib, xeyir-duasını verəndən sonra İlyas başladı yol getməyin binasın qoymağa. Az getdi, çox getdi, yolda bir adama rast oldu. Bu adam ədəb-ərkanla İlyasa salam verib dedi:

– Qardaş, xeyir ola, hara belə gedirsən?

İlyas dedi:

– Uzağa səfərim var.

Həmin adam dedi:

– Elə mən də səfərə çıxmışam, təkcə getmək çətindi, səninlə yol yoldaşı olaram, söhbət eləyə-eləyə gedərik.

İlyas dedi:

– Yaxşı olar, mən də özümə bir belə yol yoldaşı axtarırdım.

İlyasla həmin adam bir xeyli yol getdilər. Bir bulağın başına çatanda

İlyas dedi:

– Qardaş, mən yaman acmışam, bir az oturaq çörək yeyək.

Hər ikisi oturdular bulağın başında, göy otluğun üstündə. İlyas heybəsindən bir dənə fətir çıxardıb verdi həmin adama, dedi:

– Al, bu fətiri yarı böl, yeyək.

Həmin adam fətiri kəsib çox payını özünə götürdü, az hissəsini İlyasa verdi. İlyas bir altdan yuxarı baxıb, gördü ki, həmin adamın gözündən elə bil cin çıxır, ürəyində dedi:

– Hə, səndən mənə yoldaş olmadı.

Bir az çörək yeyəndən sonra dinclərini alıb, təzədən başladılar yol getməyə. Bir xeyli yol gedəndən sonra birdən İlyas dedi:

– Qardaş, sən məni burda bir saat gözlə, bu yaxın kənddə bir balaca işim var, ora dəyim, sonra qayıdıb gedərik.

Kişi razı oldu. İlyas bir təpənin dalında gizləndi. Bir də gördü ki, kişi heç beş dəqiqə də gözləmədi. Elə İlyas bu tərəfə gələn kimi, o da başladı o biri tərəfə getməyə.

Kişi uzaqlaşıb gedəndən sonra İlyas başladı ayrı yolla getməyə. Bir xeyli gedəndən sonra indi də qabağına bir cavan

oğlan çıxdı. İlyas bu oğlanla başladı söhbətə. Bu oğlan da İlyasdan xəbər aldı:

– Qardaş, xeyir ola, səfərin haradı?

İlyas dedi:

– Heç, gedirəm bir iş tapıb işləyəm, bir az puldan-paradan qazanam.

Oğlan dedi:

– Elə mən də özümə bir sənin kimi yoldaş axtarırdım, yaxşı oldu səni tapdım.

İlyasla oğlan şirin söhbət eləyə-eləyə başladılar yol getməyə. Bir az gedəndən sonra İlyas dedi:

– Qardaş, mən yaman acmışam, bir az oturaq çörək yeyək.

Oğlan razı oldu. Oturdular yolun kənarında, bir göy otluğun üstündə. İlyas heybəsindən bir fətir çıxarıb verdi oğlana, dedi:

– Al, bu fətiri böl, yeyək.

Oğlan fətiri iki yerə bölüb çoxunu İlyasa verdi. İlyasın bu iş xoşuna gəldi, ürəyində dedi: “Deyəsən, elə mən axtardığım adamı tapmışam”.

Hər ikisi çörəklərini yeyib durdular ayağa, başladılar yol getməyə. İlyas oğlanı sınamaq üçün nənəsinin ikinci sözünü də yadına saldı, dedi:

– Qardaş, gəlsənə məni burda bir saat gözləyəsən, bu yaxın kənddə mənim bir balaca işim var, onu düzəldim, sonra gəlim bir yerdə gedək.

Oğlan dedi:

– Get, arxayın ol, lap sabaha qədər də gəlməsən səni burda gözləyəcəyəm.

İlyas oğlandan ayrılıb bir xeyli getdi. Bir ağacın dalında gizlənib başladı baxmağa. Gördü ki, yox, bu oğlan heç yerindən tərpənmir. Oturub onu gözləyir. İlyas bir az ora-bura

gedib axırda gördü oğlan sədaqətli adama oxşayır, odur ki, gəldi yanına, dedi:

– Qardaş, çox sağ ol, məni çox gözləməyəsən deyə tez qayıtdım, di dur gedək.

Oğlanla İlyas təzədən başladılar yol getməyə. O qədər getdilər ki, axırda gəlib çatdılar bir çayın qırağına. İlyas öz-özünə dedi ki, atalar üçə qədər deyiblər, gəl elə bu dəfə də oğlanı sına. Dedi:

– İndi bu çaydan keçmək lazımdı, ikimiz də qılçalarımızı çırmayınca elə mən soyunum səni alım dalıma, keçək o tərəfə.

Oğlan dedi:

– Qardaş, elə iş yoxdur, mən dura-dura qoymaram ki, sən soyunub məni dalına alasan. Gəl min dalıma, mən səni keçirəcəyəm.

Oğlan tez qılçalarını çırmayıb İlyası aldı dalına, çaydan keçirib qoydu o tərəfdə yerə. İlyas tamam arxayın oldu ki, nənəsinin dediyi adam elə budur.

İlyasnan oğlan o qədər biri-birinə isinişmişdilər ki, yolun uzaqlığı heç yadlarına da düşmürdü. Bir də başlarını qaldırıb gördülər ki, hər yan düzənlik, çəmənlikdi. Qabaqlarında isə ucu-bucağı görünməyən bir dərya var. Dəryanın lap kənarında qəşəng bir hündür bina var. Amma uzaqda bir çoban qoyun otarır. Gedib çobandan xəbər aldılar:

– Çoban qardaş, de görək bu ev kimindi, niyə buralarda başqa ev-eşik görünmür?

Çoban dedi:

– Qardaş, bura şəhər deyil, kənd deyil. Qaldı o böyük bina, orda bu torpaqların padşahının qızı olur. Qız analığının zülmündən cana doyub, gəlib burda insan ayağı dəyməyən bir yerdə bu binanı tikdirib, təkcə ömür, gün keçirir. Onun yanında kişi tayfası yoxdur, amma çoxlu qulluqçuları, qarabaşları var.

İlyas bu əhvalatı eşidəndən sonra başını aşağı salıb başladı fikir eləməyə. Oğlan gördü İlyas qəm dəryasına batıb, soruşdu:

– Qardaş, düzünü de görüm sənə nə oldu belə fikrə getdin?

İlyas dedi:

– Hal-qəziyə, Allahdan gizli deyil, bəndədən nə gizlin, çoban bu əhvalatı söyləyəndə ürəyimdən keçdi ki, nə olaydı, o qızı bircə dəfə görə biləydim.

Oğlan dedi:

– Qardaş, bu mənim əlimdə bir su içimi kimidir. İndi ki, belə oldu, sən çobandan bir keçi al, dalısıynan işin olmasın.

İlyas o saat çobana pul verib ondan bir yaxşı keçi aldı, keçini qabaqlarına salıb gəldilər düz qızın küləfirəngisinin qabağına. Oğlan dedi:

– İlyas, mən nə eləsəm, sən məndən heç nə soruşma. Sonra özün görəcəksən ki, mən niyə belə eləyirəm.

Bəli, oğlan keçini yerə uzadıb başladı qulağını qatlayıb əzməyə. Keçi qulağının əzildiyinə dözə bilməyib bərkdən bəyirdi. Oğlan gah keçinin quyruğunu qatladı, gah tükünu yoldu, gah da qulağını əzdi. Keçi ağrıya dözə bilməyib hey bəyirirdi. Keçinin səsinə şahzadə qız yuxudan ayılıb qulluqçusuna dedi:

– A qız, get gör bu nə səs-küydü.

Qız küləfirəngiyə çıxıb gördü iki adam keçini gah o tərəfə çevirir, gah bu tərəfə, quyruğunu qatlayır, qulağını əzirlər. Qız dedi:

– Ay qardaşlar, siz neyləyirsiniz?

Oğlan dedi:

– Bu keçini kəsmək istəyirik, amma təhərini bilmirik.

Qulluqçu qız bərkdən gülüb dedi:

– Qəribə kişidilər, bir keçini kəsə bilmirlər.

Qız gedib xanımına dedi:

– Xanım, iki bığıburma cavan oğlan bir keçini kəsə bilmir.

Xanım bu işə bir az gülüb, qulluqçusuna dedi:

– Ay qız, bir bıçaq götür get, onlara öyrət ki, keçini necə kəsərlər.

Qulluqçu qız əlində bıçaq İlyasgilə sarı getməkdə olsun, görək İlyas neylədi. Bu vaxt idi ki, şahzadə qız küləfirəngidən baxırdı. Oğlan dedi:

– Qardaş, gördün fəndim baş tutdu, şahzadə qız küləfirəngiyə çıxdı, indi nə qədər keyfindi bax.

İlyas baxıb gördü ilahi pərvərdigarə, bu elə bir gözəl qızdı adam baxanda ağzının suyu tökülür. Qız bir az baxandan sonra getdi evə.

Oğlan dedi:

– Qardaş, de görüm şahzadə xoşuna gəlir, ya yox?

İlyas dedi:

– Vallah qız o qədər xoşuma gəldi ki, onu bircə dəfə də görsəm, ölsəm də ürəyimdə dərdim qalmaz.

Oğlan dedi:

– Yaxşı, bu dəfə də onu sənə göstərərəm.

İndi də oğlan başladı ki, guya keçini soya bilmir. Bir ağac özü götürüb, birini də verdi İlyasa. Özünə də öyrətdi ki, qışqır-bağır sala-sala keçinin cəmdəyini başla döyəcləməyə. Oğlanla İlyas keçinin cəmdəyinə bir hərəkət gəldilər ki, şappıltı az qalırdı yeddi ağaclıq yol getsin. Bu hay-küyü eşidib şahzadə qız yenə çıxdı küləfirəngiyə, gördü bu iki oğlan elə hey keçinin cəmdəyinə ağac vururlar. Şahzadə yenə qulluqçusuna dedi:

– Soruş gör, indi nə eləmək istəyirlər.

Qulluqçu səslədi:

– Ay çobanlar, nə eləmək istəyirsiniz?

Dedilər:

– Keçinin dərisini soymaq istəyirik, amma bilmirik necə soyaq.

Şahzadə qız dedi:

– Qız, bunlar yazıq, avam adama oxşayırlar, get onları çağır həyətə, özlərinə də öyrət ki, keçini necə soyarlar.

Qulluqçu gedib xanımının tapşırığını bunlara yetirdi. Elə bunlar da onu istəyirdi ki, bir təhər həyətə girsinlər. Tələsik keçini də götürüb getdilər həyətə. Qulluqçu bunlara keçini soymaq qaydasını öyrətdi. İlyasla oğlan yalandan hıqqana-hıqqana o qədər əlləşdilər ki, axşam şər qarışdı. Oğlan qulluqçuya dedi:

– Qəşəng qız, get xanımına de ki, bunlar qərib adamlardı, qalmağa heç bir yerləri yoxdu, bu gecəliyə bizə yatmağa bir yer versin, səhər durub gedərik.

Qulluqçu gedib xanımına dedi. Xanım razılıq verib, tapşırdı ki, onlara bir otaqda yer versin. Qız gəlib İlyasla yoldaşını apardı bir evə. Tapşırdı ki, burda gecələyin, amma səhər durub gedərsiniz. Qız getdi ki, bunlara yorğan-döşək gətirsin. İlyas dedi.

– Qardaş, xanımı görmək istəyirəm, nə eləyək ki, onu bir də görüm.

Oğlan dedi:

– Bu dəfə qorxuram gəlməyə.

İlyas əl çəkmədi ki, gör bir təhər eləyə bilərsənmi. Oğlan dedi:

– İndi ki, elə oldu, onda sən başını qoy yerə, ayaxlarını qaldır yuxarı, qulluqçu gəlib səni belə görsün, sonra dalısıynan işin olmasın.

İlyas ayaqlarını göyə qaldırıb təpəsi üstə dayandı. Bu halətdə qulluqçu əlində yorğan-döşək içəri girdi. Xəbər aldı:

– Bu niyə təpəsi üstə durub?

Oğlan dedi:

– Bizim yerlərdə adamlar belə yatırlar.

Qız gəlib əhvalatı xanımına danışdı. Xanım gəlib özü bu əhvalatı gördü, başladı bunları ordan-burdan danışdırıb ürəklərini öyrənməyə.

Xanım başa düşdü ki, bunların kələyi var, əmr elədi, o saat ikisini də qapıdan eşiyə atdılar.

İlyasla oğlan qaldılar gecənin qaranlığında düzün üzündə. Bir xeyli gedəndən sonra qabaqlarına bir qəbiristanlıq çıxdı. Bərk yağış yağıb, yel əsirdi. Eşikdə qalmaq mümkün deyildi. Oranı-buranı axtarıb bir də gördülər ki, qəbirlərin arasından yerin altına bir lağım gedir. Lağımla bir az gedib çıxdılar bir yekə sərdabənin içinə. Gördülər sərdabənin küncündə beş-altı meyit də var. İlyasla oğlanı vahimə bürüdü, amma neyləsinlər, eşikdə qalıb qurt-quş dağıdınca elə burda qalmağı məsləhət bildilər.

İlyasla oğlan yenicə yanlarını yerə qoyub dincəlmək istəyəndə, gördülər lağımın içindən adam səsi gəlir, elə bil ağır bir şey gətirirlər.

İlyası vahimə basdı. Oğlan dedi:

– Qardaş, deyəsən bu gələn quldurlara oxşayır, özü də bura onların gizlənmək yerləridir. İndi bizim bircə yolumuz var, o yolnan qurtara bildik qurtardıq, yox, qurtara bilməsək, hökmən bizi öldürəcəklər.

İndi gəl hərəmiz o ölülərin kəfənini üstümüzə örtək, uzanaq meyitlərin arasında, əgər bizi ölü bilib dəymədilər, səhər durub qaçarıq, yox, işi başa düşsələr, onda mən tez kəfəni üstümnən atıb deyəcəyəm:

– Ey ölülər, nə durubsunuz, qalxın ayağa, bu insanları qıraq, canımız onların əlindən qurtarsın. O saat mənim sözüm ağzımdan çıxan kimi sən də kəfəni onların üstünə atıb de ki,

gəlin bunları qıraq. Onda quldurlar qorxub qaçarlar. Onlar qaçandan sonra biz də çıxıb gedərik.

Oğlan sözünü deyib işıqları keçirdi, kəfəni çəkdi üstünə, amma gözünün ucuyla kəfənin altından baxırdı ki, görsün bu gələnlər kimdi, budu, qırx quldur dalbadal doldular sərdabənin içinə. Quldurbaşı əmr elədi, işıqları yandırdılar, ortalığa o qədər qızıl, gümüş, daş-qaş tökdülər ki, gəl görəsən. Başladılar bölüşdürməyə. Gətirdikləri şeylərin hamısını tən yarı böldülər, amma bu şeylərin içində bir qəşəng qılınc var idi. Qılıncın qəbzəsi, qını tamam başdan-ayağa ləl-cavahiratla bəzədilmişdi.

Hamının qılıncda gözü var idi. Quldurbaşı dedi:

– Hər kim bu qılıncla yerdəki meyitləri bircə dəfə vurmaqla tən yarı bölə bilsə, qılınc onun olacaq.

Quldurbaşı qılıncı əlinə götürüb getdi ki, əvvəlcə meyiti özü iki bölsün. Qılıncı qaldırdı ki, oğlanı iki bölsün. Tez oğlan yerdən sıçrayıb kəfəni atdı onun üstünə, bərkdən qışqırıb dedi:

– Ey bədbəxt ölülər, nə durmusunuz, görmürsünüzmü bu insanlar bizi qəbirdə rahat yatmağa da qoymurlar, tez qalxın bunların hamısın qıraq, canımız dincəlsin.

Söz oğlanın ağzından qurtarmamış, İlyas ondan da bərk qışqırıb qalxdı ayağa:

– Qardaş, gəl bunları qıraq.

Quldurları vahimə bürüdü. Qızıl-gümüşü də burda qoyub başladılar qaçmağa. Quldurlar qaçandan sonra İlyasla oğlan qızılları böldülər. Qılıncı da oğlan götürdü. Quldurlar gedib bir xeyli fikirləşdilər ki, bu nə olan işdir, bəlkə bizi qara basır. Odur ki, quldurbaşı qoçaq, ürəkli oğlanlardan iki nəfərini göndərir ki, gedib görsünlər ölülər ordadı, ya qaçıblar. Quldurlardan iki nəfəri yaraqlanıb-yasaqlanıb qayıtdılar qəbiristanlığa. Sinə-sinə, yavaşca, ayaqlarının ucu ilə yeriyib sərdabənin qapısından baxdılar. İlyasla oğlan gördülər ki, hənir gəlir. Oğlan başa düşdü ki, gələn quldurlardandı, onları

yoxlamağa gəliblər. İlyasın qulağına pıçıldadı ki, sən dava salıb de ki, heç olmasa mənə bir quruş verin. Bəli, İlyas o saat başladı qışqırmağa ki, di mənim də bir quruşumu verin. Oğlan dedi:

– Ay ölülər, gördünüz pulları payladım, hərənizə bir quruş düşdü, indi daha qızıl qalmadı ki, hamınıza verəm. Gözləyin, bəlkə buralara bir adam gəlsə, onu öldürüb sizin quruşunuzu da verərik.

Oğlan tez əlin atıb qapıdan busan adamın papağını götürüb atdı İlyasın üstünə, özünə də dedi:

– Al, Allahın yetirdi, quldurlar qaçanda birinin papağı qapının küncünə ilişib qalıb, bu da sənin bir quruşunun əvəzi.

Qapıdakı iki nəfər bu əhvalatı görən kimi başladılar əkilməyə.

Düz gəlib başçılarına söylədilər ki, sərdabədə o qədər meyit var ki, qızılların hamısını bölüşüblər. Hələ üstəlik mənim papağımı da alıb birinə verdilər. Quldurlar qaçıb gizlənməkdə olsun. İlyasla oğlan qızılları yığışdırıb gecəynən başladılar yol getməyə. Gethaget, gethaget, gəlib çatdılar İlyasın evinə. Başladılar yeyib-içib keyf çəkməyə. Bir neçə gündən sonra İlyas qızıllardan bir az da xırdalayıb özünə toy tədarükü görməyə başladı. Bunlar burda qalsınlar, görək qırx quldur neçə oldu. Həmin gecəni səhərə qədər quldurlar yatmadılar, fikirləşdilər ki, burda deyəsən kələk var, heç ölü də dirilib pul bölüşərmi. Yəqin görəsən hansı lotu imiş bizə gələk gəlib, biz də qorxub, qaçmışıq. Səhər sübh tezdən qırx quldurun hamısı yaraqlı-yasaqlı gəldilər qəbiristanlığa. Girdilər sərdabəyə, gördülər ölü nədi, zad nədi, lələ köçüb yurdu qalıb. Lap yəqin elədilər ki, axşam bunları qorxudan ölü yox, diri adamlar imiş. Düşdülər hər yeri axtarmağa. Bir-iki gündən sonra soraq aldılar ki, bəs İlyas hardansa çoxlu qızıl tapıb, toy eləyib evlənmək istəyir. Quldurlar yəqin elədilər ki,

yeməyə çörək tapmayan İlyas bu qədər qızılı hardan ala bilər, elə bizim qızıllarımızı aparıb. Quldurlar gecənin bir vaxtı doluşdular İlyasın evinə, qılınclarını çəkib dedilər:

– De görək bizim qızılları hara qoyubsan? Deməsən səni tikə-tikə doğra-yacayıq!

İlyas dedi:

– Qardaşlar, bir az səbirli olun, qılıncları taxın yerinə. Qızıllarınızın hamısı durur. Nə vaxt istəyirsiniz götürüb apara bilərsiniz.

Quldurlar İlyasın sözündən sonra bir az sakit olub oturdular. Oğlan dedi:

– Ey quldur qardaşlar, siz gördünüzmü biz qəbiristanlıqda sizə nə kələk gəldik. Özümüz də əhli-keyf adamıq, gəlin dostlaşaq, gecənin bu vaxtı harda gedib qalacaqsınız, bu gecə bizə qonaq olun, yatın burda, səhər tezdən qızıllarınızı da götürüb gedərsiniz.

Quldurlar fikirləşdilər ki, gecədən xeyli keçib, doğrudan da gedib qalmağa başqa yerləri yoxdur. Bir də iki-üç adam qırx quldura nə eləyə bilər. Razı oldular gecələməyə. Quldurlar hərəsi evin bir tərəfinə döşənib yatmaqda olsun, sizə xəbər verim İlyasın dostundan. Oğlan eşiyə çıxıb tez quldurların birinin atını minib özünü yetirdi padşahın yanına, əhvalatı danışdı:

– Sənin xəzinəni yaran qırx quldur bu saat bizdədir, tez qoşun göndər tutsunlar.

Padşah əmr elədi, qoşun İlyasın evin üzük qaşı kimi mühasirəyə aldı. Quldurların hamısını tutdular, İlyasla oğlan qızıllardan bir xeyli gizlədib özlərinə saxladılar, qalanını padşahın adamları apardı. İlyas həmin pulnan bir yaxşı imarət tikdirdi. Özünə ev-eşik düzəltdi. İlyas ha istəyirdi ki, yolda gördüyü qızı yadından çıxartsın, çıxarda bilmirdi. Dərdini yoldaşına danışdı. Oğlan dedi:

– İlyas, bilirəm sən o qızı almaq istəyirsən. Amma onu elə-belə asanlıqla ala bilməzsən. Burda bir tədbir işlətmək lazımdır. Əgər biz elə-belə bu paltarda bir də ora getsək, qız o saat tanıyacaq. Gedib hərəmizə bir yaxşı köhlən at, bir dəst gözəl şahanə paltar alarsan.

İlyas gedib oğlanın dediklərini elə həmin gün tapdı. İlyas nənəsini evdə qoydu, ata suvar olub, yoldaşıyla getdilər. Gəlib çıxdılar həmin qızın imarətinin qabağına. O qədər gözlədilər ki, axşam qaranlığı düşdü. Oğlan gəlib darvazanı bərkdən döydü. O saat qulluqçulardan biri gəlib qapını açıb dedi:

– Ay qardaş, kimsiniz, nəçisiniz? Gecənin bu vaxtı kimi istəyirsiniz?

Oğlan dedi:

– Bacı, uzaq yerdən gəlirik, qərib adamıq, qalmağa yerimiz yoxdu. Bu gecəliyə bir yer verin, yataq, səhər durub gedərik.

Qulluqçu dedi:

– Ay qardaşlar, burda durun, gedim xanıma deyim, icazə versə gələrsiniz.

Qız gedib xanımına əhvalatı söylədi. Xanım dedi:

– Yoxsa o keçini kəsə bilməyən adamlardı?

Qulluqçu dedi:

– Xanım, yox, bunlar əməlli-başlı adamdılar. Şahzadəyə oxşayırlar.

Xanım razılıq verdi. Qulluqçu gedib onları içəri buraxdı. Xanımın qulluqçuya ürəyi qızmadı, özü çıxıb onları yoxlamaq istədi. Qulluqçuya dedi:

– Tövlədən bir qoç gətir qonaqlar kəssinlər.

Oğlan bu sözü eşidən kimi İlyasın qulağına pıçıldadı ki, nə durmusan, qız bizi yoxlamaq istəyir. Qoçu elə kəsib soyarsan ki, elə bil bir sərçə başı kəsirsən. Qız qoçu gətirən kimi İlyasnan oğlan bir göz qırpımında qoçun başını kəsib,

soyub şaqqaladılar. Xanım baxıb gördü yox, bunlar igid adamdılar. Onlara əməlli-başlı yer verdirib getdi. Oğlanlar çörəkdən-xörəkdən yeyib yatdılar. Səhər açıldı. Qız onların yanına gəlib dedi:

– Axı mən heç sizdən soruşmadım ki, kimsiniz, hardan gəlib hara gedirsiniz?

İlyas bir ah çəkdi, dedi:

– Xanım, vallah düzünü deməyə utanıram, səni də aldatmaq istəmirəm.

Qız dedi:

– Nədən utanırsan, de. Bəlkə dərdinə əlac elədik.

İlyas dedi:

– Vallah Allahdan gizlin deyil, bəndədən nə gizlin, bir analığım var idi. Mənə o qədər divan elədi, o qədər şər-böhtan atdı ki, axırda onun əlindən cana doyub baş götürüb çıxdım. İndi hara gedəcəyimi özüm də bilmirəm.

Qız dedi:

– Elə bunu deməyə utanırdın.

İlyas dedi:

– Xanım, bəli, bunu deməyə utanırdım. Qorxurdum deyəsən ki, sən necə kişisən ki, bir arvadın əlindən baş götürüb qaçırsan. Mən şahlarla, şahzadələrnən vuruşmuşam. Nər kimi pəhləvanların arxasını yerə vurmuşam. Şirlər, pələnglərlə üz-üzə gəlmişəm. Amma arvada əl qaldırıb, qılınc vurmağı özümə ar bilirəm. Odur ki, baş götürüb, bu diyardan uzaqlaşmışam. İndi xanım, mənim bu fikirlərim sənə bir təhər gələr. Çünki belə işlər sənin başına gəlməyib. Bir də yaxşı deyiblər, kotan nə bilir qayış nə çəkir.

Xanım dedi:

– Oğlan, mən görürəm ki, sən yaxşı adama oxşayırsan. Mən də öz dərdimi sənə deyim, qulaq as. Mən də səndən dərdli

adamam. Analığımın zülmündən, şərindən, xatasından baş götürüb bu diyara gəlmişəm.

Xanımın ürəyi yumşalmışdı. Bütün başına gələn qəzavü–qədərin hamısını birbəbir İlyasa nağıl elədi. Qız dedi:

– Oğlan, bəs indi nə eləmək fikrindəsən?

İlyas dedi:

– Xanım, vallah mən burda qərib, yersiz, kimsəsiz adamam. İndi hara gedəcəyimi özüm də bilmirəm. Biz də səndən bir gecəliyə yer istəmişdik. İndi çıxıb getməliyik.

Xanım dedi:

– Ey oğlan, əgər yerə görə getmək istəyirsinizsə, getməyin. Nə qədər istəyirsiniz qalın.

İlyas xanımdan çox razılıq eləyib dedi:

– Xanım, sizə zəhmət versək də keçib, onda bir neçə gün qalıb fikirləşək.

Bəli, aradan beş gün, on gün keçdi. Qız İlyasa tamam alışdı. Elə oldu ki, İlyas bir-iki saat evdən çıxanda qız onnan ötəri darıxası oldu. İlyasın yoldaşı gördü qız tamam məhəbbətini salıb oğlana. İlyası bir tərəfə çəkib dedi:

– İndi sən qıza de ki, daha biz yığışıb, getmək istəyirik, nə deyirsən?

İlyas elə də elədi. Xanımın yanına gedib dedi:

– Xanım, sən bizə o qədər hörmət elədin ki, biz bilmirik bu hörmətin əvəzini necə çıxacağıq. İndi çıxıb getmək istəyirik. Sən nə məsləhət görürsən?

Xanım bu sözləri eşidən kimi, gözləri doluxsundu, bir ah çəkib, başını aşağı saldı. İlyas gördü fırsətdi, dedi:

– Xanım, niyə ah çəkdin?

Qız əvvəlcə səbəbini demək istəmədi. İlyas çox yalvar-yapış eləyəndən sonra qız utana– utana dedi:

– Vallah sənə o qədər isinişmişdim ki, indi getməyini istəmirəm.

İlyas dedi:

– Xanım, onu bil ki, mən getmək istəsəm də ürəyim burda qalır. Mən sənin məhəbbətini çoxdan ürəyimə salmışdım. Gəl göturüm səni gedək mənim vətənimə, orda bir yaxşı toy eləyib evlənək.

Qız bir xeyli fikirləşəndən sonra, başını aşağı salıb, razılıq işarəsi verdi. Elə həmin günü atları, dəvələri yükləyib, qızın qul-qarabaşını da götürüb, yola düşdülər. Yola düşməmişdən əvvəl qız dedi:

– Bu evi-eşiyi burda qoyub gedirik. Mən bir neçə söz yazım, apar vur qapının başına. Qız qələmi əlinə alıb bir kağıza yazdı: “Ey bu yoldan keçən qərib adamlar, bu evi sizə halal eləyirəm. Ölənə kimi qalıb gününüzü keçirə bilərsiniz”.

İlyas həmin kağızı aparıb, darvaza qapısına yapışdırdı. Sonra yol başlayıb gəldilər İlyasın evinə üç gün üç gecə toy eləyib evləndilər. İlyasın yoldaşı da kimsəsiz adam idi deyə o da qaldı bunların yanında. İlyas nənəsini də yanına gətirib, keyf-damağnan. ömür sürüb, gün keçirdilər. Siz də xoş günlər görüb, uzun ömür sürəsiniz.

## LOĞMANLA ŞƏYİRDİ

Günlərin bir günü Loğman ilə şəyirdi səyahət eləyə-eləyə bir şəhərə gəldilər. Onlar mənzil tutub rahatlanandan sonra, Loğman şəyirdini bazara göndərdi ki, çörək, yağ, şor alıb gətirsin. Şəyird bazara gedib yağın qiymətini xəbər aldı.

Ona dedilər:

– Batmanı yüz dinardı.

Soruşdu:

— Çörək neçəyədi?

Dedilər:

– Onun da batmanı yüz dinar.

Soruşdu:

– Bəs şoru neçəyə verirsiniz?

Dedilər:

– Batmanı yüz dinara.

Şəyird bazarda nəyin qiymətini soruşdu, “yüz dinardır”– dedilər.

O, sevinə-sevinə ustanın yanına gəlib dedi:

– Nə yaxşı şəhərə gəlmişik. Yüz dinardan baha qiymət yoxdu.

Loğman diqqətlə şəyirdə qulaq asıb dedi:

– Elə isə burda qalmaq olmaz, tez çıxıb getməliyik.

Şəyirdi dedi:

– Nə üçün?

Loğman dedi:

– Bir yerdə ki, yağla şora fərq qoyulmadı, orda yaşamaq məsləhət deyil.

Şəyird ustasına etiraz elədi. Loğman öz sözünün üstündə dayandı, ancaq hələlik bu şəhərdə qalmağa razılıq verdi. Bir neçə gündən sonra, car çəkildiyini eşitdilər. Məlum oldu ki, bu gün bir nəfəri padşahın əmri ilə asacaqlar. Loğman şəyirdi ilə dar ağacı qurulmuş meydana gəldi. Adamlar toplaşandan sonra, padşah vəzirləri ilə gedib bir tərəfdə oturdu, üzünü müqəssirə tutub dedi:

– Bu saat təqsirlərini bir-bir de, kəndiri öz əlinlə boğazına keçir ki, səni assınlar.

Müqəssir dedi:

– Padşah sağ olsun, mən bağbanam. Bir gün bağda işlədiyim zaman oğruya rast gəldim. Qaçıb onu tutmaq istəyəndə, dırmaşıb divara çıxdı, küçəyə atılanda yıxılıb qıçı sındı. Məni dustaq edib dedilər: "Günah səndədi ki, bağın hasarını uca eləmisən. Divar alçaq olsaydı, oğru hoppananda yıxılıb qıçı sınmazdı, buna görə səni cəzalandırmaq lazımdı".

Padşah:

– Doğrudu, lap doğrudu, – deyə cəzanın düzgün olduğunu təsdiq elədi.

Bağban dedi:

– Padşah sağ olsun, divarı mən hörməmişəm.

Padşah dedi:

– Bəs kim hörüb?

Kişi dedi:

– Bənna.

Padşah dedi:

– Elə isə bağbanı azad eləyib, bənnanı gətirin.

Bağbanı buraxdılar, bənnanı tapıb dar ağacının altına gətirdilər. Cəllad kəndiri hazırlayanda bənna dedi:

– Padşah sağ olsun, günah məndə də deyil.

Padşah dedi:

– Bəs kimdədi?

Bənna dedi:

– Şəyirdimdə. Əgər o kərpici çox verməsəydi, mən divarı hündürə qaldıra bilməzdim.

Padşah əmr verdi, şəyirdi tapıb hüzura gətirdilər.

– Şəyird yalvardı:

– Kərpic çox verməkdə mənim təqsirim yoxdu, – dedi.

Padşah soruşdu:

– Bəs kim təqsirkardı?

Şəyird dedi:

– Padşah sağ olsun, mən ustama kərpic verəndə yoldan bir arvad keçirdi. Onun qolunda çox qəribə bir qolbağ varıdı. Gözüm qolbağa sataşanda, heyran qalıb başımı itirdim. Bir də ayılıb gördüm ki, usta divarı hörüb ucaldıbdı.

Padşah əmr elədi:

– Bu saat o arvad tapılıb dar ağacının dibinə gətirilsin.

Məmurlar axtarıb arvadı tapdılar, meydana gətirdilər. Padşah ondan soruşdu:

– Bu şəyirdin ağlını başından alan sənin qolbağın olubmu?

Arvad dedi:

– Bəli.

Padşah dedi:

– Elə isə kəndir sənin boynuna salınacaq. Cəllad, çək bu arvadı dara!

Arvad dedi:

– Padşah sağ olsun, bu işdə mən müqəssir deyiləm.

Padşah dedi:

– Bəs kimdi?

Arvad dedi:

– Müqəssir zərgərdi ki, elə qəşəng qolbaq qayırıb.

Padşah bir qədər fikirləşib, onun sözlərini təsdiq elədi, dedi:

– Doğru deyirsən, yerdə də olsa, göydə də, bu saat zərgəri dar ağacının dibində hazır eləyin!

Məmurlar arvadı buraxıb zərgərin dalınca getdilər, bir azdan sonra onu çəkə– çəkə padşahın hüzuruna gətirdilər. Padşah ondan soruşdu:

– Qolbağını sən qayırmısanmı?

Zərgər dedi:

– Bəli, padşahım.

– Bəs sən fikirləşməmişsən ki, o çox gözəl olsa, baxanın gözləri qamaşar, əlindəki işləri çaşdırar?

Zərgər padşahın sualına cavab verməyə söz tapmadı. Cəllad kəndiri halqalayıb onun boynuna saldı. Ancaq zərgərin boynu yoğun, başı balaca olduğundan kəndiri saxlamadı. Ha elədilər, başı halqadan çıxdı.

Cəllad gəlib təzim elədi:

– Padşah sağ olsun, zərgərin başı kiçik, boynu yoğundu, kəndir dayanmır, bilmirəm nə eləyim?

Padşah dedi:

– Bundan asan nə var ki? Bir nəfər başı böyük, boynu nazik adam tapıb kəndiri keçir onun boynuna, qurtarsın getsin!

Cəllad padşahın əmrini yerinə yetirmək üçün adamların içərisinə girdi, gözləri Loğmanın şəyirdinə sataşanda sevinə-sevinə qışqırdı:

– Padşah sağ olsun, başı böyük, boynu nazik. Adamı tapmışam.

Padşah dedi:

– Keçir halqanı onun boynuna.

Şəyird yalvarıb-yaxarıb müqəssir olmadığını dedikdə, padşah onun sözünü kəsdi:

– Boş danışma, müqəssir olub-olmamağının bizim üçün əhəmiyyəti yoxdu. Bizə yekəbaş, nazik boyun lazımdı. Cəllad, nə dayanmısan, assana bunu!

Loğman bu haqsızlığa dözə bilməyib irəli gəlib dedi:

– Padşah sağ olsun, sizin əmriniz doğrudu. Bunun boynu kəndirə keçirilməlidi. Ancaq o, mənim şəyirdimdi. Özümüz də sizin şəhərinizə qonaq gəlmişik. Hələ paytaxtın gözəlliyini doyunca seyr etməmişik. Bunu mənə bağışla. Qoy sizin sağlığınıza gəzib məmləkətinizə tamaşa eləsin.

Padşah Loğmanın sözlərini bəyənib dedi:

– Doğru deyirsən, qoca, afərin, onu sənə bağışlayıram. Cəllad, burax müqəssiri, qoy getsin.

Cəllad kəndiri şəyirdin boğazından çıxarıb azad elədi. Onlar qayıdıb mənzillərinə gəldikdə, Loğman dedi:

– Bu nə yaxşı şəhərdi. Qalıb burda yaşamaq lazımdı.

Şəyird utana-utana başını aşağı salıb dedi:

– Yox usta, bir şəhərdə ki, yağla şorun fərqi olmadı, orda yaşamaq qorxuludu. Başımızı bədənimizin üstündə salamat saxlamaq üçün burdan getməyimiz məsləhətdi.

Loğman güldü. O saat o şəhərdən çıxıb getdilər.

# HEYVANLAR, QUŞLAR VƏ BİTKILƏR HAQQINDA NAĞILLAR

## CİK-CİK XANIM

Biri var idi, biri yox idi, bir sərçə var idi. Adı Cik-cik xanım idi. Bir gün Cik-cik xanım bu qaratikan kolundan, o birinə qonub Cik-cik eləyirdi.

Birdən Cik-cik xanımın ayağına tikan batdı, nə qədər əlləşdi, çıxara bilmədi. Gözlərinin yaşını töküb ağlamağa başladı.

Qarı nənə onu görüb soruşdu:

– Ay Cik-cik xanım, nazlı xanım, məzəli xanım, niyə ağlayırsan?

Cik-cik xanım ağlaya– ağlaya qarı nənəyə cavab verdi:

– Ay qarı nənə, ayağıma tikan batıb, qanayıb, gəl çıxart!

Qarı nənə Cik-cik xanımın ayağından tikanı çıxarıb təndirə atdı.

Cik-cik xanımın kefi duruldu. Bir o yana, bir bu yana uçub dedi:

– Qarı nənə, mənim tikanımı qaytar!

Qarı nənə dedi:

– Haradan alım, atdım təndirə, yandı.

Cik-cik xanım dedi:

– Mənə nə borc, tikanımı ver! Verməsən, çörəyini götürüb qaçaram.

Qarı nənə güldü.

Cik-cik xanım o yana uçdu, bu yana uçdu, Qarı nənənin çörəyini götürüb qaçdı.

Cik-cik xanım göy ilə uçurdu, gördü yerdə bir çoban qoyun sağır. Yerə qondu, çobana tərəf gəlib dedi:

– Bərəkətli olsun, çoban qardaş! Çörək gətirmişəm, al, südə doğra, ye!

Çoban çörəyi aldı, çanağına doğradı, üstünə də süd töküb dedi:

– Cik-cik xanım, nazlı xanım, məzəli xanım, gəl sən də ye.

Cik-cik xanım cavab verdi:

– Mən toxam, yemirəm, özün ye.

Çoban çörəyi yeyib qurtardı.

Cik-cik xanım qanadlarını yellədib dedi:

– Ay çoban qardaş, mənim çörəyimi ver, gedirəm.

Çoban dedi:

– Çörəyini haradan alım? Yedim, getdi.

Cik-cik xanım dedi:

– Mənə nə borc yedin. Çörəyimi ver, yoxsa qoyununu götürüb qaçaram!

Çoban gülüb dedi:

– Ay Cik-cik xanım, nazlı xanım, məndə nə günah var ki, qoyunumu aparasan? Çörəyi özün verdin, mən nə dedim.

Cik-cik xanım dedi:

– Gör indi sənin başına nə oyun gətirəcəyəm?

Cik-cik xanım o yana uçdu, bu yana uçdu, çobanın qoyununu götürüb qaçdı. Çoban qışqırmağa başladı:

– Ay aman, ağam məni öldürəcək!

Cik-cik xanım caynağında qoyun uçurdu, gördü ki, bir dəstə atlı gəlir, onlara yaxınlaşıb soruşdu:

– Ay qardaşlar, hara gedirsiniz?

Atlılar cavab verdilər:

– Cik-cik xanım, nazlı xanım, gedirik padşaha gəlin gətirək.

Cik-cik xanım uçub padşahın qapısına qondu, qoyunu xidmətçilərə verib dedi:

– Alın, padşahın toyuna gətirmişəm.

Cik-cik xanım içəri girib yuxarı başda əyləşdi.

Xidmətçilər qoyunu kəsib, kabab bişirdilər, qonaqlara payladılar.

Qazı ilə Cik-cik xanıma da bir qabda kabab qoydular. Qazı tez-tez yeyib Cik-cik xanımı ac qoydu.

Cik-cik acığa düşüb padşaha dedi:

– Mənim qoyunumu ver!

Dedilər:

– Qoyunu yemişik, qurtarıb gedib.

Cik-cik xanım dedi:

– Onu-bunu bilmirəm, qoyunumu verirsiniz, verin, vermirsiniz, gəlininizi aparacağam!

Hamı güldü. Cik-cik uçub çəpərin üstünə qondu, gözlədi. Gəlini zurna-balaban çala-çala gətirdilər. Cik-cik xanım o yana uçdu, bu yana uçdu, gəlini atın üstündən alıb qaçdı. Padşah bir başına döydü, bir gözünə, ağladı. Cik-cik xanım gəlini hündür bir ağacın dibində yerə qoydu, gördü ki, ağacın kölgəsində bir aşıq saz çalır. Cik-cik xanım dedi:

– Salam əleyküm, ay aşıq qardaş, gəl gəlini verim sənə, sən də sazı ver mənə.

Aşıq sevinib dedi:

– Ay Cik-cik xanım, nazlı xanım, məzəli xanım, səndən mən heç bir şey əsirgəmərəm. Al sazı!

Cik-cik xanım sazı aldı, gəlini verdi. Aşıq gəlini götürüb evinə apardı. Cik-cik xanım ağacın gölgəsində oturub, sazı dınqıldatmağa başladı.

Tikan verdim, çörək aldım,
Dınqıl sazım, dınqıl sazım.
Çörək verdim, qoyun aldım,
Dınqıl sazım, dınqıl sazım.
Qoyunu verdim, gəlin aldım,
Dınqıl sazım, dınqıl sazım.
Gəlini verdim, bir saz aldım,
Dınqıl sazım, dınqıl sazım.

Elə o gündən bəri Cik-cik xanım ömrünü saz çala-çala, toy-nağara ilə keçirir.

## GÜNƏŞİN NAĞILI

Biri varmış, biri yoxmuş. Bir dəfə Günəş bərk yoruldu. Daha yataqdan qalxmaq istəmədi. Dünyaya qaranlıq çökdü. Yerin sakinləri – adamlar, heyvanlar, quşlar bir yerə yığışıb məsləhətləşdilər. Çox götür-qoydan sonra Günəşin yanına qasid göndərməyi qərara aldılar. Dedilər:

– Qoy gedib Günəşə yalvarsın, bəlkə onun sözünə baxıb yataqdan qalxdı.

Günəşin evi sıx meşənin uca dağın axırıncı dənizin arxasında idi. Ora yalnız quşlar gedib çıxırdı. Yerin sakinləri Tovuzquşunu seçdilər. Dedilər:

– O, çox gözəldir. Günəş onun sözünü yerə salmaz.

Tovuzquşu yola düşdü. Meşəni keçdi, dağdan aşdı, dənizin üzərindən uçub Günəşin pəncərəsinə qondu. Onu oyatmağa başladı. Günəş gözünü açmadan soruşdu:

– Kimsən, nə istəyirsən?

– Mən Tovuzquşuyam. Səni oyatmağa gəlmişəm. Tez çıx, işlər çətinə düşüb.

– Kimin işidir, çətinə düşən?

– Lap elə mənim. Qaranlıqda Qarğadan seçilmirəm. Əlvan quyruğumu heç kəs görmür.

Günəş hirsləndi.

– Deməli mən sənin quyruğuna lazımam. Rədd ol, burdan. Bir quyruğa görə bütün dünyanı işıqlandırmaq istəmirəm.

Tovuzquşu əliboş qayıtdı. Sonra Günəşin yanına Bülbülü göndərdilər. Hamı düşünürdü, onun qəşəng səsi var. Günəşi

birtəhər razı salar. Doğrudan da Günəş Bülbülün nəğməsini eşidəndə həyəcanlandı, köks oturdu, yuxulu-yuxulu dedi:

– Səsin ürəyimi yerindən oynatdı. Nə arzun varsa, söylə, səninçün hər şeyə hazıram.

– Xahiş edirəm, dünyanı işıqlandırın. Qoy gecə qurtarsın.

Günəş maraqla soruşdu:

– Məgər sən gecələr mahnı oxuya bilmirsən?

– Əksinə, mən hər gecə oxuyuram. Bir-iki gün də səhər açılmasa, səsim tutulacaq.

Günəş onun sözündən pərt oldu. Deməli mən yalnız ondan ötəri yerimdən qalxmalıyam ki, sən dincələsən, boğazın ağrımasın, hə? Bəs, öz istirahətim necə olsun? Rədd ol, burdan. Bülbül də kor-peşiman geri qayıtdı. Bu dəfə Günəşin yanına Tutuquşunu göndərdilər. O, dənizin arxasındakı evə çatar- çatmaz qışqırdı:

– Bəsdir, tənbəllik elədin, oyanmaq vaxtıdır. Çünki mən qaranlıqda yamsıladığım adamların necə hirsləndiyini görmürəm.

Günəş cavab vermədi. Qorxdu ki, Tutuquşu onun özünü də yamsılayar.

Tutuquşu da yerə əliboş qayıtdı. Elə bu vaxt Xoruz xahiş etdi ki, Günəşi oyatmağa onu göndərsinlər. Yer sakinləri arasında heç kəs ona inanmırdı. Deyirdilər ki, Xoruz gözəl deyil, səsi kobuddur. Amma ondan başqa getmək istəyən yox idi. Əlacsız qalıb razılaşdılar. Xoruz uça-uça dənizin arxasındakı evə gəldi. Günəş şirin yuxuda idi. Xoruz ona yaxınlaşıb dərindən nəfəs aldı. Öz nəğməsini oxumağa başladı. Günəş səksənib ayıldı. Az qala yıxılacağdı. Yorğanı üstündən düşdü, bütün dünya işıqlandı. Günəş gözlərini ovuşdura-ovuşdura qışqırdı:

– Bu kimdir? Mənim evimdə nə gəzirsən?

– Quqqulu qu, quqqulu qu, oyan, ay tənbəl, öz vəzifəni bilmirsən?

Günəş gərnəşdi.

– Nə vəzifə?

– Axı sənin vəzifən işıq saçmaq, yeri qızdırmaqdır. Sənsiz yer üzündü həyat olmaz. Hər yana zülmət çökər. Onda öz həyatın da mənasız keçər.

Günəşin gözləri doldu.

– Mən onsuz da ömrüm boyu əbəs işləmişəm, heç kəs qədrimi bilmir. Mənə qiymət vermir. Tovuzquşu ancaq quyruğuna xidmət edir, Bülbül öz nəğmələrinə qulaq asır, Tutuquşu da ağılsızın biridir.

Xoruz onunla razılaşmadı. Dedi:

– Ey, tənbəl Günəş, sən adamları unutmusan. Axı onlar sənsiz yaşaya bilməz.

Günəş təəccübləndi.

– Adamlar nəyimə gərəkdir? Guya onlar olmasa, işığım, hərarətim azalacaq.

– Bəs necə? Adamlar olmasa, rəngin solar. Səhər çağı sənin şuaların şehli otların, sünbüllərin, çəmənlərin üzərinə düşüb bərq vurur, çoxalır. Bəs, torpağı əkib becərən, yaşıllaşdıran kimdir?

Günəş dedi:

– Əlbəttə adamlar.

– De görək, su götürmək üçün yerdəki quyuları kim qazıb? – Adamlar qazıb. Bundan nə olsun ki?

– Sən məşhur bir məsəli unutmusan. Qulaq as, gör orda nə deyilir?

Ayın əksi göllərə düşür, Ulduzlar sayrışır, hər quyuda Günəşin şəkli görünür. Günəş onun sözləri ilə razılaşdı. Xoruz dedi:

– Qadınlar bulaq başında toplaşanda sən onların kuzəsində əks edirsən. Yaxşı deyiblər, göydə bir Günəş var, yaxşı ev sahibinin isə kuzəsi bir Günəşdir.

Günəş onunla razılaşdi.

– Nə deyim, bəlkə də sən haqlısan, ancaq yerimdən qalxmağa həvəsim gəlmir.

– Onda rəngin solacaq, sönüb gedəcəksən. Lap kotan kimi. Yadındadır kəndlinin kotanı da işsiz qaldıqından tamam pas atmışdı.

– Elədir, elədir, sən haqlısan.

– İndi gördün, adamlar olmasa, dünyaya zülmət çökər. Sən isə insan əli ilə düzəldilən hər şeydə bərq vuran minlərlə günəşi görə bilməzsən.

Günəş fikrə getdi:

– Ay xoruz, nəğmələrin çox şirindir, ancaq başa düş ki, mən özümçün yaşamaq, dincəlmək istəyirəm.

– E, e, e, tənbəl Günəş, yalnız özü üçün yaşayan hər kəs, başqaları üçün ölmüş kimidir. Yalnız yaxşı işləyənlər, yaxşı da dincəlir.

Günəş yataqdan qalxdı, var-qüvvəsi ilə yeri işıqlandırdı. O vaxtdan bəri Xoruz hər səhər gün doğmamış yataqdan qalxıb öz nəğməsini oxuyur. O, əvvəlcə üzünü Günəşə tutub deyir:

– Quqqulu qu, quqqulu qu, oyan, işə başlamaq vaxtıdır. – Sonra o, torpağa müraciət edir. – Oyan, öz şirənlə toxumlara və köklərə qüvvət ver.

Xoruz üçüncü mahnısını adamlar üçüm oxuyur. Yerinizdən qalxın, oyanın, gün çıxıb, torpaq sizi gözləyir, oyanın.

## ŞƏNGÜLÜM, ŞÜNGÜLÜM, MƏNGÜLÜM

Biri varmış, biri yoxmuş, bir keçi varmış. Keçinin üç balası varmış. Birinin adı Şəngülüm, birinin adı Şüngülüm, o birinin də adı Məngülüm.

Bu keçi hər gün gedib meşədə və çöldə otlayar, geri qayıdanda buynuzunda ot, ağzında su, döşlərində süd gətirərmiş. Astanada dayanıb qapını döyərmiş, Şəngülüm, Şüngülüm, Məngülüm atıla– atıla, dingildəyə– dingildəyə qapının dalına gəlib soruşarmış:

– Kimdir?

– Şəngülüm, Şüngülüm, Məngülüm!

Açın qapını, mən gəlim.
Ağzımda su gətirmişəm,
Döşümdə süd gətirmişəm,
Buynumuzda ot gətirmişəm.

Şəngülüm, Şüngülüm, Məngülüm sevinib tez qapını açarmış. Keçi içəri girib onların otunu, suyunu verərmiş. Yedirər, içirər, yatırdarmış. Sabah örüşə gedəndə yenə də hər gün üçünün üzündən öpüb tapşırarmış: Şəngülüm, Şüngülüm, Məngülüm, qurd sizi aldadar, aparar yeyər, ha. Hər kim qapını döydü, mən deyən sözləri eşidməmiş açmayın.

Günlərin bir günü Qurd özünə söz verdi ki, Şəngülüm, Şüngülüm, Məngülümü yeyəcəm. Keçinin qapısının ağzına gəldi. Yavaş– yavaş qapını döyməyə başladı. Şəngülüm,

Şüngülüm, Məngülüm dingildəyə– dingildəyə qapının dalına gəlib səsləndilər:

– Kimdir?

Qurd dedi:

– Mənəm, Keçiyəm, balalarım, açın qapını.

Şəngülüm, Şüngülüm, Məngülüm o saat bilirlər ki, qapını döyən anaları deyil, Qurddur, onlara kələk gəlir. Qurd nə qədər yalvardı, qapını açmadılar. Qurd qapını sındırmaq istəyirdi, bir də gördü ki, Keçi gəlir. Qaçıb bir kolun dalına girdi. Orda gizləndi ki, görsün Keçi qapını necə açır. O, biri tərəfdən Keçi gəlib qapını döyə– döyə dedi:

– Şəngülüm, Şüngülüm, Məngülüm!

Açın qapını, mən gəlimş
Ağzımda su gətirmişəm,
Döşümdə süd gətirmişəm,
Buynumuzda ot gətirmişəm.

Şəngülüm, Şüngülüm, Məngülüm oynaya-oynaya gəlib qapını açdılar. Keçi içəri girdi. Həmişəki kimi onlara su, ot, süd verdi. Bir az ordan– burdan söhbət elədilər. Balaları qapının döyüldüyünü söylədilər. Keçi dedi:

– O xain Qurddur.

Sonra balalarının üzündən öpüb getdi.

İndi sizə xəbər verim Qurddan. Keçinin sözlərini Qurd öyrənmişdi. Koldan çıxıb bir az gözlədi. Sonra yavaş– yavaş gedib qapını döyməyə başladı. Çəpişlər oynaya– oynaya qapının dalına gəlib soruşdular:

– Kimdir?

Qurd səsini Keçinin səsinə oxşadıb dedi:

– Şəngülüm, Şüngülüm, Məngülüm.
Açın qapını, mən gəlim!
Ağzımda su gətirmişəm,
Döşümdə süd gətirmişəm,
Buynumuzda ot gətirmişəm.

Balaları elə bilirdi ki, bunları çağıran analarıdır. Cəld qapını açdılar. Qurd o saat Məngülümü yedi, Şəngülüm, Şüngülüm qaçıb gizləndilər. Qurd çox axtardı, onları tapmadı. Keçinin qorxusundan qaçıb getdi. Elə ki, Qurd getdi, Şəngülüm, Şüngülüm gizləndikləri yerdən çıxıb qapını bağladılar. Bir küncdə oturub ağlamağa başladılar. Axşam düşdü. Keçi örüşdən qayıdıb qapını nə qədər döydü, ona cavab verən olmadı. Çəpişlər elə bildilər ki, yenə də Qurddur. Ona görə cavab vermədilər. Keçi geri çəkilib qapıya bir buynuz ilişdirdi. Dalbadal bir buynuz, iki buynuz Şəngülümlə Şüngülüm gördü ki, qapını sındıracaq, gəlib qulaq verdilər, balaca deşikdən baxdılar ki, analarıdır. Qapını açdılar. Keçi onlardan soruşdu:

– Bəs, Məngülüm hanı?

Onlar başladılar ağlamağa. Əhvalatı analarına danışdılar. Keçi hirslənib dedi:

– Yaxşı, Qurdla mənimki qalsın, siz qapını bağlayın, evdə oturun.

Bəli, Keçi düşdü yolun ağzına. Az getdi, çox getdi, gəlib bir damın üstünə çıxdı. Ayaqlarını yerə döyməyə başladı. İçəridən səs gəldi:

– O kimdi, damın üstə.
Tappır– tuppur döyür
Ayağın damın üstə.

Keçi dedi:

– Balamı sən yemisən?

Tülkü dedi:

– Yox, mən yeməmişəm, get qurddan soruş.

Keçi ordan dəmirçinin yanına gəlib dedi:

– Dəmirçi qardaş, mənim buynuzlarımı qılınc kimi iti elə, nizə kimi şiş. Sənə bir kasa qaymaq, bir kasa da süd verəcəyəm.

Dəmirçi razı oldu. Bir azdan Keçinin buynuzları qılıncdan da iti oldu. Keçi onun qaymağını, südünü verdi. Keçi getdi çıxdı Qurdun damının üstünə. Bu vaxt qurd da bir qazan aş asmışdı, ocağın üstə bişirirdi. Keçi damı döyəndə bunun aşının içinə torpaq töküldü. Onda qurd çağırdı:

– O kimdir damım üstə,
Toz tökər şamım üstə?
Aşımı şor eylədi,
Gözümü kor eylədi?

Keçi cavab verdi:

– Mənəm, mənəm, canavar
Buynuzum qoşa-qoşa.
Balamı sən yemisən
Gəl girək bir savaşa.

Qurd cavab verdi:

– Çox gözəl, gəl savaşa, elə mən səni axtarırdım.

Qurd sözünü tamam elədi. Dişlərini qıçırtdı, istədi Keçini yesin. Keçi ona aman vermədi. Geri çəkilib irəli gəldi, ona elə bir buynuz vurdu ki, buynuzlar iki qarış onun döşünə işlədi. Qurd bərkdən ulayıb yerə yıxıldı. Keçi o saat onun

qarnını yırtıb Məngülümü çıxartdı, bağrına basdı, gözlərindən öpdü. Qurd qışqırıb dedi:

– Vay qarnım, vay.

Keçi dedi:

– Məngülümü yeməyəydin!
Vay qursağım deməyəydin!

Xain Qurd öldü. Keçi balası Məngülümü götürüb evə yollandı. Şəngülüm, Şüngülüm Məngülümü görəndə çox sevindilər. Onun üzündən-gözündən öpdülər, şadlıq elədilər.

## TÜLKÜ, TÜLKÜ, TÜNBƏKİ

Biri var idi, biri yox idi, bir tülkü var idi. Günlərin birində tülkü baba quyruğunu belinə qoyub çöldə gəzirdi ki, görsün quşdan, cəmdəkdən bir şey taparmı, yesin. Çox gəzdi, çox dolandı, axırda gəlib çıxdı bir quyunun başına. Boynunu uzadıb əyildi, quyuya baxdı. Gördü quyunun dibinə bir parça ağappaq quyruq düşüb. Tülkü sevindiyindən oynamağa başladı. Uzun quyruğunu yerlə sürüyə-sürüyə bir xeyli oynadı. Sonra öz-özünə dedi: “Yaxşıca əlimə quyruq düşüb, onu yeməsəm, heç hara getməyəcəyəm”. Tülkünün ağzının suyu axmağa başladı. Elə bil quyruq çağırıb ona deyirdi: “Tülkü baba, gəl məni ye, tülkü baba, gəl məni ye”.

Tülkü baba özünü saxlaya bilməyib, quyuya tullandı, guppultu ilə quyunun dibinə düşdü. Yazıq tülkünün əzilməmiş bir yeri qalmadı. Ufuldaya– ufuldaya ayağa qalxdı, quyruğun yanına getdi. Ağzını açdı ki, quyruğu yesin, donub yerində qaldı. Demə, bu, quyruq deyilmiş, bir parça ağ daş imiş. Tülkü baba çox fikir elədi, tədbir tökdü, istədi quyudan çıxsın, çıxa bilmədi. Çünki quyu çox dərin idi. Tülkü baba quyruğunu yanına qısıb, bir küncdə çömbəldi. Aranı dağa apardı, dağı arana gətirdi, fikirləşdi ki, burdan nə cür çıxsın. Bir də gördü bir ilanla, bir tısbağa onun yanına gəlirlər.

Tülkü baba sevinib dedi:

– A ilan, a tısbağa qardaş, siz burda nə gəzirsiniz?

Tısbağa cavab verdi:

– Tülkü baba, biz də sənin kimi öz tamahımızın ucundan buraya düşmüşük. Kənara çıxa bilmirik.

Elə bu vaxt quyunun başından səs gəldi.

Tülkü dedi:

– Gizlənək, görək bu kimdi?

Hər üçü bir küncdə gizləndilər. Bir az keçmişdi, bir də gördülər bir şey tappıltı ilə quyuya düşdü. Baxdılar quyuya düşən çaqqaldı. Tülkü ona baxıb güldü. Bu da tülkü babagil kimi aldanmışdı. Tamahının ucundan özünü quyuya salmışdı. Tülkü bərkdən dedi:

– Çaqqal qardaş, xoş gəlmisən, beş gətirmisən?

Çaqqal tülkü babanı görüb bağırdı:

– Axmaq-axmaq danışma, çəkil oyana görüm. Quyruq özümündü.

Tülkü baba cavab verdi:

– Ay axmaq caqqal, heç acıqlanma. O quyruq deyil, bir parça ağ daşdı. Səni aldadan kimi, məni də aldadıb bura salıb. İndi hamımız burda acından qırılacağıq.

Çaqqal dodaqlarını büzüb ağlamağa başladı. Bu zaman quyunun başından bir gurultu eşidildi. Tülkü baba çaqqala dedi:

– Axmaq-axmaq ağlayıb baş-gözümüzü aparma. Quyunun başında səs-küy var. Gəl gizlənək, görək indi qonağımız kim olacaq?

Çəkilib bir küncdə gizləndilər. Bir az keçmişdi, bir zorba qurd quyudakı daşı quyruq hesab eləyib atıldı, şappıltı ilə quyunun dibinə düşdü. Qol-qabırğası əzilmiş halda yerdən qalxıb quyruğun üstünə cumdu. Baxdı ki, quyruq nə gəzir? Bu, bir ağ daş imiş. Acıqlı-acıqlı o tərəfə, bu tərəfə baxmağa başladı, küncə qısılmış tülkünü, çaqqalı, tısbağanı, bir də ilanı gördü. Qurd bağırdı:

– Yoxsa, burdakı quyruğu siz yemisiniz?

Çaqqal qorxusundan tülkünün böyrünə qısıldı. Tülkü quyruğunu yerə sallayıb qulaqlarını irəli uzatdı. Qurda cavab verdi:

– Qurd ağa, heç acıqlanma. Bura sən deyən yer deyil. Hamımız acından öləcəyik. Sən görən quyruq deyil, bir parça ağ daşdı. O daş bizi aldadan kimi, səni də aldadıbdı. Ax tamah, tamah...

Qurdun qulağı büzüşdü, istədi tülkü babaya cavab versin, quyunun başından bir səs gəldi. Bunlar hamısı qaçıb gizləndi. Bir yekə donuz tappıltı ilə quyuya düşdü. Donuzun ayağı o qədər ağrımışdı ki, ayağa qalxa bilmirdi. Quyudakılar buna baxıb gülüşdülər. Donuz ağlaya-ağlaya dedi:

– Qardaşlar, bəs, siz burda nə qayırırsınız?

Tülkü baba cavab verdi:

– Heç soruşma, donuz qardaş, sənin başına gələn bizim də başımıza gəlib. Gəl bəri görək bu bir parça ağ daş daha hansı axmağı bu tora salacaq?..

Bu zaman quyunun başından bir donquldanma eşidildi. Bunlar altısı da qaçıb gizləndi. Bir böyük ayı gurultu ilə quyunun dibinə düşdü. Ayı yumşaq idi, heç yeri əzilmədi, tez ayağa durdu, tüklərini qabartdı, acıqlı-acıqlı hər tərəfə göz gəzdirdi. Quyudakıları görüb dal ayaqları üstə qalxdı, gözlərini bərəldib qışqırdı:

– Deyin görüm burdakı quyruğu hansınız yediniz?

Quyudakıların dili tutuldu. Tülkü baba irəli yeriyib, qorxa– qorxa dedi:

– A ayı lələ, biz quyruq yeməmişik. Sən gördüyün quyruq deyil, bir ağ daşdı. Səni aldadan kimi, bizi də aldadıb bura salıb. Heç acıqlanma. Burdan nə sən çıxa biləcəksən, nə də biz.

Ayı tülkü babanın sözünə gülüb, sıçradı ki, quyudan çıxsın, amma bacarmadı. Çünki quyu çox dərin idi. Əlacsız qalıb tülküyə dedi:

– Tülkü baba, bəs, nə eyləyək ki, burdan çıxaq?

Tülkü baba cavab verdi:

– Mən də bilmirəm. Gəlin hamımız bir yerdə yaxşıca fikirləşək, görək bir yol tapa bilərikmi?

Hərə bir tərəfdə oturub fikirləşməyə başladı. Amma nə qədər fikirləşdilərsə, bir yol tapa bilmədilər. Axırda hamısı yoruldu. Hərə bir tərəfdə uzanıb yatdı, ancaq tülkü baba yatmadı, fikir eləyirdi ki, bir kələk tapsın, bunların hamısını ayı qırsın, özü də onun əlindən qurtarsın.

O günü onlar ac qaldılar, sabahısı da ac qaldılar. Üçüncü günü tülkü gördü daha dura bilmir, acından öləcək. Yoldaşlarını başına topladı. Üzünü onlara tutub dedi:

– Qardaşlar, görürsünüz hamımız acından ölürük. Hamımızın ölməyimiz-dənsə, yenə də birimizin ölməyi yaxşıdı. Qoyun mən bir mahnı oxuyum, hər kimin adı axıra düşsə, onu yeyək.

Yoldaşlarının hamısı buna razı oldu. Tülkü ayağa qalxıb oxumağa başladı. Gör nə cür oxuyur?

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Çaqqal çavuş,
İlan qamçı,
Tısbağa çanaq,
Biz ona qonaq.

Hamı bir-birinin üzünə baxdı. Tülkü üzünü ayıya tutub dedi:

– A ayı lələ, sən bilirsən ki, biz burda nə su tapacağıq içək, nə arpa, buğda tapacağıq ölçək. Ona görə də bizə çanaq saxlamaq lazım deyil. Mən nəğməni oxudum. Məndən demək, sizdən yemək.

Onlar tökülüb tısbağanı yedilər.

Ayı dedi:

– Tülkü baba, bundan bir şey olmadı. Bir də oxu.

Tülkü oxumağa başladı:

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Çaqqal çavuş,
İlan qamçı,
Bircə damcı.

Yenə hamı bir-birinin üzünə baxdı. Tülkü dedi:

– A ayı lələ, de görüm, bizim burda atımız, ulağımız yox, qamçı nəyimizə lazımdı? Mən nəğməni oxudum. Məndən demək, sizdən yemək.

Tökülüb ilanı da yedilər.

Ayı dedi:

– Tülkü baba, bundan da bir şey olmadı. Bir də oxu görək kimə düşür.

Tülkü oxumağa başladı:

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.

Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Çaqqal çavuş,
Bizdən soruş.

Hamı tülkünün üzünə baxdı. Tülkü dedi:

– Qardaşlar, çanaqla qamçını yedik. Qaldı indi bizim çavuşumuz. Çavuş nəyi-mizə lazımdır? Dava eləməyəcəyik ki, təlim verə, məclisə getməyəcəyik ki, əzan deyə. Məndən demək, sizdən yemək.

Tökülüb çaqqalı da yedilər. O günü belə keçirdilər. Gecə yatdılar. Səhər tezdən yenə bir-birinin üzünə baxdılar. Ayı dedi:

– Tülkü baba, acından ölürəm, oxu görək indi kimə düşür?

Tülkü oxumağa başladı:

– Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurd ulavuş,
Səsi bayquş.

Yenə də hamı bir-birinin üzünə baxdı. Tülkü dedi:

– Ayı lələ, ulavuş bizim nəyimizə lazımdı? Elə əslinə baxsan, o uladı ki, biz bu günə qaldıq. İndi acından qırılırıq. Mən nəğməni oxudum. Məndən demək, sizdən yemək.

Ayı o saat qurdu qarmaladı. Basıb onu da yedilər. O günü də belə keçirib sabahı elədilər. Ayı üzünü tülküyə tutub dedi:

– Tülkü baba, acından ölürəm. Durma oxu, bir nahar eləyək.

Tülkü oxumağa başladı:

Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq,
Donuz toxmaq...

Yenə də hamı bir-birinin üzünə baxdı. Tülkü dedi:

– Ayı lələ, de görüm toxmaq bizim nəyimizə lazımdı? Məndən demək, səndən yemək.

Ayı o saat pəncəsilə basıb donuzun belini qırdı. Hərəsi bir tərəfdən onun ətini parçalayıb yeməyə başladılar.

Bir neçə gün də donuzun əti ilə dolandılar. Tülkü donuzun ətindən bir qədər qoltuğunda gizlətmişdi. Burnunu qoltuğunun altına salıb onu yeyirdi. Ayı onu görüb dedi:

– Tülkü baba, əti hardan alıb yeyirsən? Mənə də ver.

Tülkü baba cavab verdi:

– Heç haradan almıram. Öz qoltuğumun ətidi, söküb yeyirəm. Sən də öz qoltuğunun ətini sök, ye. Ayının ağlına batdı, öz qoltuğunu dişi ilə sökdü. Qan başladı sel kimi axmağa. O qədər qan axdı ki, axırda ayı taqətdən düşdü, yerə uzanıb öldü. Tülkü: "Mən deyəndə ayı axmaq, mənə gülürlər", – deyib gülə-gülə ayının ətindən parçalayıb yeməyə başladı. Bir müddət də ayının əti ilə dolandı. Sonra yenə də aclıq başladı. Tülkü aclığa davam gətirə bilməyib, bərkdən vaqqıldamağa başladı. Tülkü vaqqıldaya-vaqqıldaya deyirdi:

– Ax, tamah, ax tamah!.. Sən nə pis şeysən. Əgər tamahımı yığsaydım, bura düşməzdim!

Bir ovçu ordan keçirdi. Tülkünün səsini eşidib, quyunun başına gəldi. İp sallayıb tülkünü quyudan kənara çıxartdı, dedi:

– Ay tülkü, camaatda toyuq qoymadın, çöllərdə quş qoymadın, yazıqların hamısını boğub yedin. İndi də mən səni boğub öldürəcəyəm, dərini soyub boğazından çıxardacağam.

Ovçu tülkünü boğub, kənara atdı. O, elə bilirdi ki, tülkü ölüb. Biçağını itiləyirdi ki, onun dərisini soysun. Birdən tülkü yerdən sıçrayıb götürüldü. Ovçu səsə qanrılıb baxdı ki, tülkü odu təpənin başında. Səs də onun səsidi, deyir:

– Ovçu qardaş, adam işin birini qurtarmamış, o birinə başlamaz. Hələ bir bax, gör, boğub öldürübsən, ya yox, sonra dərisini soymağa hazırlaş.

Ovçu bir söz demədi. Gördü ki, tülkü düz deyir, korpeşiman evinə qayıtdı.

## OTLARIN BƏHSİ

Biri vardı, biri yoxdu, bir Baldırğan vardı. Bu Baldırğan payız və qış aylarında yatardı,yaz və yay aylarında yüksək dağlara, sərin yaylaqlara gedərdi. Sərin sudan içərdi, qaymaqdan yeyib üç arşın qol– budaq atardı. Hər gün özünü öyüb deyərdi:

– Görəsən dünyada mənim kimi xoşbəxt varmı? Dünyanın kefi hamısı məndə, gəlinlər, qızlar məni dərib yeyir. Məclislər bəzəyi, otlar yaraşığıyam. Mənim yanımda bal heç bir şeydir.

Günlərin bir günündə bir Xımı torpaqdan başını qaldırıb dünyaya baxırdı, Baldırğanın özünü öyməsini eşitdi. Bərkdən gülüb dedi:

– Ay Baldırğan, deyəsən özünü tək görmüsən? Məclislər yaraşığı mənəm, mən olan yerdə səni heyvanların qabağına atarlar.

Baldırğan dedi:

– Ay zir-zibil yoldaşı, sən də başını başlara qatmısan? Səni hər ötən ayaqlar, sonra «xala xətrin qalmasın» yeyərlər.

Dombalan bunların bəhsini eşitdi. Bərk qəzəbləndi. Elə bir nərə çəkdi ki, yer ayrıldı. Üzünü onlara tutub dedi:

– Mən olan yerdə siz nə hədlə özünüzü öyürsünüz? Mən ömr uzadıb, dərdlər qovuram.

Baldırğan gülüb dedi:

– Sən də elə Xımının tayısan, zibil yoldaşısan.

Dombalan dedi:

– Ay ağlı topuğunda, mən məclislərdə gəzirəm. Kababla çığırtma, qayğanaq, bal və yağ ilə bir yerdə otururam. Adamları kökəldirəm, sən nəsən!?

Xımı dedi:

– Sən də düz demirsən. Sən o qədər aran suyu içmisən ki, qarnın şişib, qızdırma ağlını aparıb, mən ikinizdən də başam.

Baldırğan dedi:

– Ay qarnışişik Dombalan, səni toy məclisində doymaq üçün, amma məni məzə üçün yeyərlər. Sizin ikinizin də mənim yanımda diliniz yoxdur.

Kişmiş kənardan baxırdı, bunların bəhsini eşidib dedi:

– Mən burdayam ha... heç özünüzü öyməyin. Mən olan yerdə sizi zibilliyə atarlar. Məni aşa tökərlər, pilov üstündən yeyərlər, mən sancını kəsərəm.

Dombalan dedi:

– Sən heç danışma,yeyilməkdən başqa heç şeyə dəyməzsən. Çox zaman heyvanlara yem olursan.

Xımı dedi:

– Ədə, sən ki, qurdlar, cücülər yemisən, nə danışırsan?

Dombalan dedi:

– Ay Kişmiş, mən yaxşı yemlərin zülalını çəkib, cecəyini verirəm sənə. Sən niyə danışırsan?

Püslül bunların söhbətinə dərin-dərin qulaq asdı. Bərkdən silkələnib dedi:

– Mən buradayam ha....mən təmizlik yoldaşıyam. Hamınızdan başam. Qızlar, gəlinlər əlindən düşmürəm.

Bərk gülüşüb, ona dedilər:

– Sən get, zibil süpürməyinə, ay süpürgə! Bura sənin yerin deyil.

Birdən Gəndalaş səslənib dedi:

– Mən olan yerdə heç kəs özünü tərifləyə bilməz. Məskənim gözəl sular kənarı, isti sular içidir. Həkiməm, həkim! Qan mənim qorxumdan axmaz, qaçıb gizlənər. Mən tərsimiş yaraları sağaldıram. Mən şişləri qaytararam.

Dedilər:

– Ay Gəndalaş, səni heç heyvan da yeməz. Adamların ağzını acı eləyirsən. İyindən hamı yeddi ağaclıq kənar qaçır. Sən bizlə bəhsə girə bilməzsən.

Gəndalaş dedi:

– Mən hamıdan başam. Qorxusundan heç kəs mənə səmt gələ bilməz. Siz qorxaqsınız, hər yetişən sizi yeyər.

Atquyruğu bunu eşidib dedi:

– Ay Gəndalaş, deyəsən özündən qoçaq bilmirsən? Qulaq as: – Qorxusundan kimsə mənə dəyməz. Hər kəsə bir sillə vuraramsa, qan qusar.

Ona gülüb dedilər:

– Dünyada nə xeyrə, nə də şərə yararsan. Sən otluqdan çıxmısan, nəslini dəyişmisən.

Quzuqulağı (turşəng) atquyruğunun dibindən başını qaldırıb dedi:

– Mən hamınızdan başam. Məni gəlinlər, qızlar öz əllərilə dərib yeyərlər. Mən yeməklərin gülüyəm. Məni qəysəbəyə qatarlar. Aşa, şorbaya tökər, məclisdə məzə üçün yeyərlər.

Gülüşüb ona dedilər:

– Ay aman, bizdən kənar gəz, dişlərimiz qamaşar.

Qırxbığım danışığa qarışıb dedi:

– Nə özünüzü öyürsünüz? Mən pilovların, yeməklərin ləzzətiyəm. Yaxşı məclislərdə mən pilovla ortaya gələrəm, siz kənardan baxırsınız. Öskürməni, qarın ağrısını kəsərəm, adamı kökəldərəm. Mən həkiməm, siz nəyə lazımsınız?

Əvəlik Qırxbığımın səsini eşidib dedi:

– Mən buradayam ha... Bir az yavaş danış. Mən olan yerdə sən nəyə lazımsan? Mən yeddi il qarnı ağrıyanların qarnını yaxşı edərəm. Öskürməni qovaram. Döş ağrısını yaxşı elərəm. Bəlqəmlə səfranı qovaram. Siz adamların qarınlarına girəndə yaşaya bilməzsiniz, amma mən yaşaram, orada olan dərdləri qovub kənara çıxardaram. Mən həkiməm, həkim! Siz nəsiniz? Mənim məskənim bulaqbaşı, gəlinlər, qızlar oylağıdır.

Unnuca onun sözlərini eşidib dedi:

– Ədə, nə özünü öyürsən, sən mən ola bilməzsən. Mən çox adamı ölümdən qurtarıram. Məni qatıqlı aşa tökərlər, ləzzətlə yeyərlər.

Cincilim böyürdən çıxıb dedi:

– Mənəm, mənəm demə! Mən adamların bağlı qarnını səndən tez açaram. Məni aşa tökərlər. Məndən kətə bişirərlər. Cincilim kətəsi yeyən, deyər bir də yeyim.

Əməköməci papağını gözünün üstündən yuxarı qaldırıb dedi:

– Ədə, sən danışdığın işlər mənim işimdir, sən hələ uşaqsan. Mən Ərəstoyam, Ərəsto!

Qazayağı qaz kimi dikəlib dedi:

– Deyəsən dərəni xəlvət görmüsünüz, ağzınıza gələni deyib özünüzü öyürsü-nüz. Heç başqasından danışmırsınız. Mən hamınızdan başam. Məni yeməyən tapılmaz. Mən ömrü uzadaram, sancını kəsərəm, insana qüvvət verərəm.

Xıncılovuz əlini əsdirib dedi:

– Bax, orda çaşdın ha! Başqasının işini öz adına çıxırsan. Ömürləri uzadan mənəm, məni kababla, qızartma ilə, qovurma ilə yan-yana qoyarlar. Amma səni süpürüb atarlar. Xıncılovuzun qovurması dillərdə dastandır. Amma sənin adın it dəftərində də yoxdu.

Göbələk qəzəblənib dedi:

– Mən olan yerdə səni kababın, çığırtmanın, qovurmanın səmtinə qoymazlar. Öz yerini tanı! Mən kababdan başam. Məni yeyənlərin canı salamat olar, kökələr.

Yarpız Göbələyin sözünü kəsib dedi:

– Özünü çox öymə! Məni qatıqla aşa tökərlər. Özüm baş ağrısının dərmanıyam. Yaxşı yeməklərin yoldaşıyam.

Yonca gülüb dedi:

– Çox dava eləməyin! Heç biriniz adam və heyvan kökəldə bilməzsiniz. Amma mən kökəldərəm. Acığım tutanı da öldürərəm. Mənim zəhərim suley-manıdan bərkdir.

Bat-bat bu sözü eşidib dedi:

– Mən olan yerdə bir kəs dəlilik adı tuta bilməz. Kim məni dişləsə, o saat dəli edirəm. Mənə sataşmayanın da yarasını sağaldaram. Məndə olan zəhəri Loğman da qayıra bilməz.

Qayaotu dedi:

– Pəh, pəh, pəh, təzə həkim gəlibdir. Mən yara sağaldanda, sən heç dünyaya gəlməmişdin. Çibanın yan-yörəsindən heç kəs keçə bilmir. Amma mən onu deşib sağaldaram. Mən qara və sarı yaranın dərmanıyam.

Bağa yarpağı bu sözdən bərk qəzəblənib dedi:

– Ay Qayaotu, sən nə hərzə-hərzə danışırsan? Mənim kimi çiban deşib sağaldan hələ anasından olmayıbdır. Mən bütün yaraların hovunu alıram, çirkini çıxardıram. Mənə yara məlhəmi deyərlər, xalis Loğmanam, Loğman!

Qantəpər gülüb dedi:

– Siz hamınız mənim şagirdimsiz. Yara sağaltmağı məndən öyrənmisiz. Hələ üstəlik mən qanı da kəsirəm, soyuq dəyən adamı sağaldıram. Görün Loğman mənəm, ya sizsiniz?

Gülxətminin rəngi dəyişdi, bir nərə çəkib dedi:

– Mən olan yerdə sizin «loğmanam», – deməyə haqqınız yoxdur. Loğman mənəm. Mən bütün dərdlərin dərmanıyam.

Mən bütün yaraları sağaldıram. Hovlanan yaranın dərmanı mənəm.

Qarğıdalı teli onun hirsləndiyini görüb dedi:

– Özünü bir balaca yığışdır! Dəvədən böyük fil də var. Heç kəs sağalda bilmədiyi naxoşluqları mən sağaldıram. Böyrək xəstəliyini mən yaxşı edirəm. Adamın ağzından içəri girib orada olan xəstəkiklərə də divan tutub hamını bayıra qovuram.

Həmərsin onun sözlərini eşidib dedi:

– Dünyada özünü tək bilmə. İçəridə olan xəstəlikləri mən sağaldıram. Ömrü mən uzadıram. Vərəm məndən qorxur. Şişmiş dalağı mən yatırdıram. Loğman həkimliyi məndən öyrənmişdir.

Şahdərə otu Həmərsinin sözünü kəsib dedi:

– Nə belə özünü öyürsən? Bir kişi istərəm ki, sövda xəstəliyini sağaltsın. Amma mən tamam sağaldıram. Kimin sövdası varsa, gəlsin bu saat sağaldım.

Xıncılım torpaqdan baş qaldırıb dedi:

– Çox bekara mübahisə edirsiz. Dünyada məndən baş yoxdur. Məclislərdə gəzərəm, qovurmamı yeyən deyər, bir də yeyim.

Dağdagəzər başını əsdirib dedi:

– Bir özünüzdən deyəndə, bir də qonşunuzdan deyin. Mən hamınızdan başam. Məclislərdə məni məzə üçün yeyərlər. Aş altına qoyarlar. Yemlərin ən yaxşısını torpağın altında mən yeyərəm. Zir-zibili yenə sizə çatar.

Çiçəklər, bənövşələr, yasəmənlər, bir də qərənfillər özlərini bir çəmənliyə verib bu danışıqlara qulaq asırdılar. Bu bəhs onların xoşuna gəlmədi. Dedilər:

– Biz olan yerdə sizin danışmağa haqqınız yoxdur. Bizim ətrimiz ruhları təzələyir. Biz dünyanın yaraşığıyıq, bəzəyiyik. Bizi gəlinlər, qızlar yaxalarına taxarlar.

Bu sözləri Qızılgül eşitdi, bərk hirslənib dedi:

– Güllərin, çəmənlərin bəzəyi mənəm. Ətrim hamıya ləzzət verir. Gülabım məclislərdə gəzir. Dərdlər dərmanıyam, ruh təzələyənəm.

Lalə dedi:

– Heç özünüzü öyməyin. Siz hamınız tez solarsız. Həmişə həsrətlə yaşar, öz dərdinizə dərman tapmazsız.

Birdən Dələmə özünü ortaya atıb dedi:

– Bir kişi istərəm, südü dondurub qatıq və pendir eləyə. Amma mən eləyirəm, mənim məskənim gözəl dağlar, çiçəkli otluqlardır.

Qanqal ona gülüb dedi:

– Artıq iş görmürsən. Danış məndən. Həsrətimi ulaqlar, dəvələr çəkər. Toxumumu gəlinlər qovurub yeyər.

Zəyərək dedi:

– Ay aman, qoymayın, ağzıma tikan batdı. Səni ki, eşşək yeyir. Mənim yağım dərdlər dərmanıdır. Məni qızlar qovurğaya qatıb yeyərlər.

Bu sözlərin hamısına Üzərlik kənardan qulaq asırdı. Lovğalıqlar onun cinini başına yığdı. Sıçrayıb düz dağın təpəsinə düşdü. Bərkdən nərə çəkib dedi:

– Deyəsən, dərə xəlvət, tülkü bəylik edirsiz? Mən həm həkiməm, həm falçıyam. Mən olan yerə xəstəlik, bəd nəzər ayaq basa bilməz. Mən gözəl gəlinləri, qızları, oğlanları, uşaqları, var-dövləti qoruyaram. Mən sağaltmayan dərdi Loğman da sağalda bilməz. Mənim yanımda hamınızın dili gödəkdir.

Ona dedilər:

– Özünü çox öymə! İyin o qədər pisdir ki, heyvan da səni yeməz. Məkanın peyinlik, küllükdür.

Bəli, hər yerə səs düşdü. Bütün otlar, pencərlər tökülüb gəldi. Hərə döşünə döyüb özünü öydü. Axırda bu qərara gəldilər ki, gedib soruşsunlar, görsünlər ki, kim haqlıdır.

Qabaqca Baldırğan, onun dalınca Xımı, o biriləri də Xımının dalınca yola düşdülər. Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, bir çobana rast gəldilər, dedilər:

– Çoban qardaş, de görək, bizim hansımız başıq, yaxşıyıq?

Çoban dedi:

– Əlbəttə, Yonca ilə Dələmə otu, bir də Baldırğan.

– Sən tərəfkeşlik edirsən. Özünə lazım olanları tərifləyirsən.

Çobandan ayrıldılar. Çox getdilər, az dayandılar, az getdilər, çox dayandılar, bir arvada rast gəldilər. Ondan soruşdular:

– De görək, hansımız yaxşıyıq?

Arvad dedi:

– Əlbəttə, Quzuqulağı ilə Gicirtkan.

Dedilər:

– Sən də düz demirsən.

Bərkitdilər çarıqların dabanını, qırdılar yerin damarını, təki gedib bir eşşəyə rast gəldilər, ondan soruşdular:

– De görək, hansımız yaxşı olarıq?

Eşşək bərkdən anqırıb dedi:

– Əlbəttə, Qanqal.

Dedilər:

– Ay aman, ağzıma tikan batdı.

Bundan da ayrıldılar. Orda ayla, illə, burda şirin dillə, gedib xəfənəkli bir kişiyə rast gəldilər. Ondan soruşdular.

– De görək, bizim hansımız yaxşı olarıq?

Kişi bir xeylaq öskürdükdən sonra dedi:

– Əlbəttə, Unnuca ilə Əvəlik.

Dedilər:

– Sən də düz demirsən.

Yola düşdülər, dağların dabanıyla, yolların kənarıyla gedib bir yaralanmış adama rast gəldilər. Yaralının qanı axırdı. Ondan soruşdular.

Yaralı ağzını-gözünü büzüb ufuldaya-ufuldaya dedi:

– Əlbəttə, Qantəpərlə Gəndalaş, bir də Bat-bat.

Dedilər:

– Sən də düz demirsən.

Belə-belə çox adama rast gəldilər. Hər biri özünə lazım olanı bəyəndi. Axırda gedib bir yüksək dağa çıxdılar. Burada onlar bir həkimə rast gəldilər. Gördülər ki, həkim dərman hazırlamaq üçün çiçək yığır. Hamısı qaçıb onun yanına gəldilər. Dedilər:

– Həkim! Bizim bəhsimizi sən kəs; de görək, hansımız yaxşıyıq? Sən bizim hamımızı yaxşı tanıyırsan.

Həkim dedi:

– Siz hamınız yaxşısınız, dərdlər dərmanısınız. Hərənizin bir işiniz var. Siz Loğmanlar Loğmanı, həkimlər həkimisiniz. Mənim can-ciyərimsiniz. Ancaq ağsaqqalınız Üzərlikdir, onun sözündən çıxmayın. O sizdən də çox bilir, məndən də.

Həkim bilmədiyi, tanımadığı otları, çiçəkləri də öyrəndi, çox şad oldu. Otlar da onun sözünü təsdiq edib, oradaca Üzərliyi özlərinə padşah, Gülxətmi ilə Qantəpəri vəzir, Qarğıdalı teli ilə Əvəliyi vəkil, Bağayarpağı ilə Qayayarpağını xəzinədar seçdilər. Üzərlik ədalətli bir padşah oldu. Otların hər birinə bir vəzifə tapşırdı. Onlar hər biri öz yerinə döndü. Kefləri kök, damağları çağ. İnsanlara və heyvanlara mənfəət verib ömür sürdülər, dövran keçirdilər.

# QIZIL VƏ İLAN

Səfər adlı bir yoxsul kişi var idi. Səfər kişinin bir oğlu, bir arvadı var idi. Bir də var-dövlətdən bir inəyi var idi. Səfər kişinin peşəsi çöldən biyan çıxardıb satıb külfətini dolandırmaq idi.

Səfər kişi bir gün yenə çölə biyan çıxartmağa getmişdi. Çöldə biyan qazanda, gördü biyanın dibində bir qızıl ilan yatır. Qızıl ilan səfər kişini görüb ayıldı, dedi:

– Ay kişi, bı biyan qazıyıb satmaqnan gündə neçə qazanırsan?

Səfər kişi köksünü ötürüb dedi:

– Ay başına dönüm, gündə bu biyan qazımaq ilən ikicə şahı qazanıram.

İlan dedi:

– Gündə iki şahı qazanmaqla külfətini necə dolandıra bilirsən? Sən gündə mənə bir qab süd gətir mən içim hər gün sənə bir ləl verim, apar xırdala, dolan.

Səfər kişi baş üstə deyib, qızıl ilana baş endirib getdi. Sabahı bir qab süd gətirdi, qoydu bir kolun dibinə. Qızıl ilan gəldi, südü içdi, ağzınnan bir ləl qabın içinə saldı getdi. Səfər kişi ləli götürüb sevinə-sevinə evinə gəldi. Apardı bazarda ləli xırdaladı, evinə əyər- əskik aldı.

Səfər kişi sabah yenə qızıl ilana süd apardı. Qızıl ilan gəldi, südü içdi, qaba yenə bir ləl saldı, getdi. Səfər kişi ləli götürüb getdi, xırdaladı, yenə evinə şey aldı. Səfər kişi bu

yolnan hər gün ilana süd aparır, bir ləl alır, gözəl dolanırdı. Bir gün Səfər kişi qırx günlük səfərə gedəsi oldu. Oğlunu yanına çağırıb dedi:

– Ay oğul, mən səfərdən gələnə kimi hər gün anan südü sağsın, mən biyan çıxartdığım yerdəki kolun dibinə qoy. Bir qızıl ilan gələr, südü içər, qaba ləl salar gedər, sən ləli gətir, anan qoysun sandığa saxlasın.

Səfər kişi bu sözü deyib getdi səfərə. Sabahı oğlan bir qab südü sağdırıb apardı atası deyən kolun dibinə qoydu. Qızıl ilan çıxdı, gəldi südü içdi, qaba bir ləl saldı getdi. Oğlan ləli gətirdi anasına verdi. Oğlan sabah yenə süd apardı, yenə ləl gətirdi, oğlan bir neçə gün belə elədi, axırda bezikdi. Dedi:

– Elə bir yolluq vuraram, qızıl ilan ölər, bütün ləllərini gətirərəm evmizə.

Oğlan sabah bu fikirnən bir qab süd apardı, qoydu kolun dibinə. İlan gəldi südü içdi, bir ləl salıb qaba, qayıdanda oğlan vurdu, qızıl ilanın quyruğu qırıldı. Qızıl ilan çevrildi vırdı, oğlan yandı kül oldu.

Qırx gün tamam oldu Səfər kişi səfərdən qayıtdı. Oğlunu evdə görmədi. Arvadınnan oğlunu xəbər aldı. Arvad dedi:

– Bir neçə gün bundan qabaq süd apardı, getdi, geri qayıtmadı.

Səfər kişi tez süd götürüb gəldi, südü kolun dibinə qoydu. Qızıl ilan gəldi, südü içdi, ləl salmadı, getdi girdi yuvasına. Üzünü çevirdi Səfər kişiyə dedi:

– Bir də buraya gəlmə, səni vuraram, yanıb kül olarsan.

Səfər kişi qorxa-qorxa dedi:

– Mənim nə günahım var ki, vurub kül eləyirsən.

Qızıl ilan dedi:

– Bundan artıq nə günahın olacaq. Bizim aramızda olan sirri özgəsinə verdin, indi hanı mənim quyruğum, hanı sənin

oğlun? Bundan sora bizim dostluğumuz tutmaz. Sənin sinəndən oğul dağı, mənim sinəmdən quyruq dağı getməz.

Qızıl ilan bunu deyib yuvasına girdi, yazıq yoxsul Səfər kişi də kor-peşiman evinə qayıtdı. Yenə biyan çıxardıb kasıblığınan dolanmağa, ömür sürməyə, gün keçirməyə başladı.

Göydən üç alma düşdü, biri bacadan baxanlara, biri nağılı söyləyənlərə, biri də nağıla qulaq asanlara. Onlar yedilər, içdilər, yerə keçdilər, biz yedik, içdik, dövrə keçdik.

## HİYLƏGƏR KEÇİ

Günlərin bir günündə el dağdan arana köçürdü. Bir keçi, bir dana, bir qoyunun bundan xəbəri yox idi. Özlərini xəlvət bir yerə verib otlayırdılar.

Heyvanlar bir vaxt başlarını qaldırıb gördülər ki, lələ köçüb, yurdu qalıb; bir-birinin üzünə baxdılar. Dana ağlayıb dedi:

– Keçi qardaş, qurd gəlib bizi yeyəcək. Tez bir çarə elə.

Keçi dedi:

– Gedək bir daxma tapıb içində yaşayaq.

Hər üçü buna razı oldu.

Çox gəzdilər, az gəzdilər, dana bir ayı dərisi, keçi bir qurd dərisi, qoyun da bir tülkü dərisi tapıb büründü.

Bir xeyli gəzəndən sonra daxma tapdılar.

Sevinə-sevinə içəri girib gördülər: bir ayı, bir qurd, bir də bir tülkü oturub söhbət eləyir:

Ayı sevinib dedi:

– Tülkü baba, qalx bir odun gətir.

Tülkü gedib odun gətirdi. Ayı odunu döşünə basıb dedi:

– Dınqır sazım, dınqır sazım,
Bir dana yemişəm,
Biri də bacadan düşdü.

Qurd odunu ayıdan alıb dedi:

– Dınqır sazım, dınqır sazım,
Bir keçi yemişəm,

Biri də öz ayağı ilə gəldi.

Sonra odunu tülkü aldı:

– Dınqır sazım, dınqır sazım,
Bir qoyun yemişəm,
Birini də yeyəcəyəm.

Bu sözü eşidən keçi qoyuna dedi:

– Qalx, mənə bir odun gətir.

Qoyun keçiyə bir odun verdi. Keçi odunu döşünə basıb böyürdü:

– Dınqır sazım, dınqır sazım,
Bir qurd yemişəm,
Dərisinə bürünmüşəm,
Birini də yeyəcəyəm.

Odunu danaya verdi. Dana bir şıllaq atıb dilə gəldi:

– Dınqır sazım, dınqır sazım,
Bir ayı yemişəm,
Dərisinə bürünmüşəm,
Birini də yeyəcəyəm.

Dana da odunu qoyuna verdi, qoyun söylədi:

– Dınqır sazım, dınqır sazım,
Bir tülkü yemişəm,
Dərisinə bürünmüşəm,
Birini də yeyəcəyəm.

Tülkü bu sözü eşidən kimi götürüldü. Onun dalınca qurd daban aldı, ayı da onlara baxıb qaçdı. Keçi yoldaşlarına dedi:

– Bu kələklə ölümdən qurtardıq. Gəlin qaçıb bir yana gedək. Onlar yolda fikirləşəcək, geri qayıdıb bizi yeyəcəklər.

Keçinin fikrini bəyənib yola düşdülər. Bir az getdilər. Qabaqlarına bir qaya çıxdı. Dırmaşıb qayanın başına çıxdılar, orada uzandılar.

Ayı, qurd və tülkü də bir xeyli qaçdılar. Sonra bir ağacın dibində durdular, Qurd dedi:

– Ədə, qoyun, keçi, dana bizi yeyə bilməz. Onlar bizi aldatdılar. Qayıdın gedək, onları yeyək.

Qayıdıb daxmaya gəldilər, gördülər ki, lələ köçüb, yurdu qalıb. Onların izi ilə gedib qayaya çatdılar. Gördülər ki, keçi, dana, qoyun qayanın başındadı. Ayı gözlərini aşağıdan yuxarı bərəldəndə, dana bərk qorxdu, ayağı sürüşüb tappıltı ilə qayadan yerə düşdü. Dananı görən keçi, səsi gəldikcə bağırdı:

– Dana qardaş, sən ayını bərk tut, qaçmasın, biz də qurdla tülkünü tutaq.

Tülkü keçinin bu sözlərini eşidən kimi qaçdı, onun dalınca qurd, qurdun da dalınca ayı götürüldü.

Keçi, dana, qoyun o ki, var güldülər, sonra hər üçü bir-birinə qoşulub arana gəldilər.

## TÜLKÜ BABA VƏ HACILEYLƏK

Keçmiş zamanlarda bir tülkü, bir də bir hacıleylək var idi. Bunlar qardaş olmuşdular. Bir gün tülkü hacıleyləyi qonaq çağırdı. Bir qazan ayranlı şorba bişirdi, bir siniyə tökdü, gətirib süfrəyə qoydu. Yeməyə başladılar. Qab dayaz idi. Hacıleyləyin dimdiyinə bir düyü də gəlmirdi. Amma tülkü hər dəfə dilini uzadanda şorbanın bir tərəfini yalayıb qurtarırdı. Belə-belə hacıleylək bir neçə düyü götürənə qədər tülkü ayranlı şorbanı yalayıb qurtardı. Hacıleylək tamam ac qaldı. Hacıleylək deyinə-deyinə evinə getdi. O gecə səhərə kimi qarnı curuldaya-curuldaya ac yatdı. Bir neçə gün keçdi, tülkü yenə də hacıleyləyi qonaq çağırdı. Hacıleylək üzüyumşaq bir quş idi. Ürəyində nə var idi, hamısını unutdu, yenə də tülküyə qonaq getdi. Tülkü bu dəfə də şorba bişirdi, siniyə tökdü, gətirib süfrəyə qoydu. Yenə hacıleylək dimdiyilə iki düyü götürməmiş, tülkü şorbanı yalayıb qurtardı. Hacıleylək yenə də ac qaldı, ürəyində dedi: “Yaxşı, tülkü, sənlə mənimki qalsın. Bu hayıfı yerdə qoymaram”. Hacıleylək özünü şad göstərdi, tülküyə dedi:

– Qardaş, çox sağ ol, mənə xəcalətlik verdin. Xəcalətindən çıxaram. Gəl bir seyrə çıxaq könlümüz açılsın.

Tülkü dedi:

– Elə mənim könlüm seyrə çıxmaq istəyirdi. Ay sağ ol. Ürəyimdən xəbər verdin.

Hacıleylək dedi:

– Onda mənim qanadlarımın üstünə min, göydə seyr eləyək.

Tülkü hacıleyləyin qanadının üstünə mindi. Hacıleylək göyə qalxdı. Bir az gəzəndən sonra hacıleylək tülküyə dedi:

– Qardaş, bax, gör yer nə təhər görünür?

Tülkü dedi:

– Bir xırman boyda görünür.

Hacıleylək bir az da yuxarı qalxıb dedi:

– Qardaş, indi bax, gör nə təhər görünür?

Tülkü baxıb dedi:

– Yer heç görünmür.

Hacıleylək bir az da yuxarı uçub dedi:

– Qardaş, tay qanadım ağrıyır, yorulmuşam. Bir az düş, dincini alım.

Tülkü dedi:

– Ay qardaş, başına dönüm, qurban olum, mən bu göyün üzündə haraya düşüm? Nə təhər düşüm? Məni aşağı endir.

Hacıleylək dedi:

– Yox, qanadlarım ağrıyır, düşməsən yerə salacağam. Özün bil.

Tülkü hacıleyləyin toruna düşdüyünü bilib, hiylə gəlməyə, yalvarmağa başladı:

– Qardaş, bir qələtdi eləmişəm, yamanlığa yaxşılıq deyiblər. Gəl bu dəfə günahımdan keç, ölüncə sənə xidmət edərəm.

Hacıleylək onun sözünü qəbul eləməyib dedi:

– Yox, yaxşılığa yaxşılıq, yamanlığa yamanlıq deyiblər. Nə əkərsən, onu biçərsən, mən sənə borclu idim, borcunu verirəm. – Hacıleyləyin tülküyə yazığı gəldi, göyün qatından aşağı endi, beş-on arşın hündürlükdən, – al gəldi – deyib tülkünü qanadının üstündən havaya tulladı.

Yel tülkünü hərləyə-hərləyə gətirib bir dəstə məktəb uşağının yanında yerə saldı. Uşaqlar yüyürüşəndə birinin kitabı yerə düşdü. Tülkü o saat kitabı götürdü. Qaçıb bir dağın döşündə bir mağaraya girdi. Onun sol qabırğası əzilmişdi deyə uzağa getmirdi. Mağaranın ağzına çıxıb kitabı açdı və mızıldamağa başladı.

Bir ayı burdan keçirdi, gördü tülkü əlinə bir kitab alıb oxuyur. Ayı soruşdu:

– Ay tülkü baba, əlindəki nədi?

Tülkü dedi:

– Utanmırsan, mənə tülkü baba deyirsən? Görmürsən ki, mən mollayam, uşaq oxuduram?

Ayı dedi:

– Bilməmişəm, bağışla, ay molla əmi, mənim iki oğlum var, gətirsəm onlara dərs verərsənmi? Əti sənin, sümüyü mənim.

Tülkü dedi:

– Niyə vermirəm? Çox yaxşı dərs verərəm. İki ayda onlara bütün elmləri öyrədərəm.

Ayı evinə gəldi, uşaqlarını gətirib tülküyə verdi. Tülkü dedi:

– Get, arxayın ol, bunları lap yaxşı oxudacağam.

Tülkünün bir mənzili var idi, mənzilin qabağı enli, gerisi dar idi. Ayının balalarını aparıb o dar yerdə parçaladı, bir neçə gün yedi. Sümüklərini də torbaya yığıb ağzını bərk-bərk bağladı. Ayı bir neçə aydan sonra gəlib dedi:

– Uşaqları gətir görüm, nə təhər oxuyurlar.

Tülkü dedi:

– Hələ uşaqları sənə göstərmək olmaz. Göstərsəm, gözləri yayınar, huşları dağılar. Get, sonra gələrsən.

Ayı qayıdıb getdi. Bir neçə aydan sonra ayı öz-özünə dedi: “Gedim, uşaqları görüm”. Gəldi tülkünün yanına, dedi:

– Könlüm uşaqları istəyir. Gətir görüm.

Tülkü dedi:

– Göstərə bilmərəm. Huşları dağılar.

Ayı yenə qayıdıb getdi. Bir aydan sonra gəlib dedi:

– Uşaqları gətir görüm, könlüm istəyir.

Tülkü balalarının sümüklərini gətirib ayının qabağına atdı.

Ayı dedi:

– Bu nədir?

Tülkü dedi:

– Bəs demişdin balalarımın əti sənin, sümüyü mənim. Mən də elə elədim. Ətlərini yedim, sümüyü də budur.

Ayı tülkünün üstünə yüyürdü ki, onu parçalasın. Tülkü yuvasının dar yerinə girdi. Ayı ora sığışmadı, başını soxanda tülkü dal deşikdən çıxıb qaçdı. Ayı birtəhər geri qayıtdı. Bir cütçünün yanına gəlib dedi:

– Ay cütçü baba, Allah qüvvət versin!

Cütçü dedi:

– Sağ ol, ayı qardaş.

Ayı dedi:

– Tülkü mənim balalarımı yediyini bilirsənmi?

Cütçü dedi:

– Bilirəm.

Ayı dedi:

– Bu sözü heç kəsə demə, sənə gündə bir qoyun verəcəyəm.

Cütçü dedi:

– Yaxşı, demərəm.

Hər gün ayı bu cütçüyə bir qoyun verirdi. Kişi qoyunu aparanda arvadı soruşurdu:

– Bu qoyunu hardan alırsan?

Kişi deyirdi:

– Sənə borc deyil, sən ye. Neyləyirsən soruşursan.

Bir gün kişi qoyunu gətirəndə arvadı dedi:

– Qoyunu hardan aldığını deməsən, səndə oturmayacağam.

Kişi əhvalatı ona nağıl edib dedi:

– Ayıdan alıram.

Kişinin sözlərini ayı bayırdan eşidirdi, bərkdən qışqırıb dedi:

– Yaxşı, səhər gör sənin başına nə oyun gətirəcəyəm.

Kişi arvadına dedi:

– Qoyun qarnını dəlirdi. İndi məni yaxşı ölümə verdin.

Kişi ayının qorxusundan cütə də getmədi. Qohum-qardaş yığışıb kişini töhmətlədilər.

– A kişi, yerini boş qoyma, get ək.

Kişi el töhmətinə boğuldu, səhər qorxa-qorxa əkin yerinə gəldi. Bu zaman tülkü baba onun yanına gəlib dedi:

– Ay cütçü, neçə gündür niyə cüt əkmirsən?

Kişi əhvalatı tülküyə nağıl edib dedi:

– Tülkü baba, bir ayı mənim başıma bu oyunu gətirdi. Onun qorxusundan gələ bilmirəm.

Tülkü dedi:

– Nə verərsən, onu öldürüm?

Cütçü dedi:

– Sənə iki toyuq, bir xoruz verərəm.

Tülkü sevindi, cütün bir o başına tullandı, bir bu başına tullandı, oynadı, dedi:

– Sabah mən quyruğuma bir süpürgə bağlayacağam, sonra o dağın başına çıxacağam, oyana – buyana yüyürüb toz eləyəcəyəm. Ayı sənin yanına gəlib deyəcək “o nə tozdur?” Onda deyərsən, “padşahın oğlu azarlıdı, həkimlər ona ayı ödü dərman deyiblər. O toz eləyən padşahın qoşunudu, ayı axtarır”. Onda ayı deyəcək, “mən harda gizlənim?” Onda sən deyərsən

ki, “gəl, bu çuvala gir, elə bilsinlər ki, buğdadı”. Sonrası ilə işin yoxdu.

Səhər tezdən tülkü quyruğuna bir süpürgə bağladı, həmin dağın başına çıxdı. Gözlədi, ayı cütçünün yanına gələndə, o yana – bu yana yüyürüb toz elədi. Ayı baxdı ki, təpənin başından bir toz qalxıb, göyün üzünü tutub. Ayı cütçüdən soruşdu:

– O nə tozdu?

Cütçü dedi:

– Hələ bilmirsən? Tez ol gizlən!

Ayı dedi:

– Nə var?

Cütçü dedi:

– Padşahın oğlu azarlayıbdı, həkimlər ona ayı əti dərman deyiblər. O padşahın qoşunudu, ayı axtarır.

Ayının canına qorxu düşüb dedi:

– Bəs harda gizlənim?

Cütçü dedi:

– Gəl, gir bu çuvala, ağzını bağlayım. Elə biləcəklər toxumdu.

Ayı çuvala girdi. Cütçü ağzını bərk-bərk bağladı. Kişi yavaşca tülküyə əl elədi. Tülkü də gəldi. Hərəsi bir ağac götürdülər, ayını döyməyə başladılar. O qədər döydülər ki, ayı öldü. Cütçü dedi:

– Sabah toyuqları, xoruzu gətirəcəyəm.

Səhər cütçü cütə çıxmışdı. Tülkü onun yanına gəlib dedi:

– Bəs toyuqlar necə oldu?

Cütçü dedi:

– Bay, yadımdan çıxıb. Səhər gətirərəm.

Sabah yenə tülkü cütçünün yanına gəldi. Cütçü ayran içmişdi, qarnı quruldayırdı. Tülkü ondan soruşdu:

– Cütçü baba, o səs edən nədi?

Cütçü dedi:

– Nə bilim, bir neçə il bundan qabaq bərk aclıq oldu, onda bir tazı küçüyü yedim. İndi sənin səsini eşidib, istəyir çıxsın.

Tülkü dedi:

– Ay cütçü baba, qurbanın olum, qoyma çıxsın, mən qaçım.

Cütçü dedi:

– Qorxma, qoymaram çıxsın, tez qaç!

Tülkü qaçıb gözdən itdi, cütçü də sevinə-sevinə evinə gəldi.

## AC QURDUN NAĞILI

Biri var idi, biri yox idi, bir qurd var idi. Bu qurd mahalda qoyun, keçi qoymurdu, yeyirdi. Amma yenə də ac idi.

Günlərin bir günü şirlə pələng gedirdilər. Az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, qurdun daxmasına çıxdılar. Qapıdan içəri girəndə gördülər ki qurd böyrü üstə yatıbdı. Pələng ondan soruşdu:

– A qurd qağa, necəsən?

Qurd dedi:

– Pələng qağa, üç gündü bir şey yemirəm, acam.

Şir dedi:

– Dur, bizimlə gedək, bəlkə qabağımıza bir şey çıxdı.

Qurd dedi:

– Yol getməyə məndə taqət yoxdu.

Pələng dedi:

– İndi ki belə oldu, sən burda qal, biz gedək. Naharda özümüzü sənə yetirərik.

Şirlə pələng getdilər. Qurd onların getdiyini görən kimi yerindən qalxdı, o biri qazmaya getdi. O, iki quzu parçalayıb gətirmişdi. Quzuların ətini qabağına qoyup iylədi, yenə də öz yerinə getdi. O biri tərəfdən pələng şirdən ayrılıb qurd qağan üçün ov axtarmağa başladı. Az getdi, çox getdi, bir çayın qırağına çatdı. Gördü bir balıqçı çayın qırağında yatıbdı, yanında bir neçə yekə balıq var. Pələng bir o yana, bir bu yana baxdı, balıqları götürüb qaçdı, özünü qurd qağasına yetirib dedi:

– Qağa, doğrudu, mən də acam, amma baxıb görürəmki, sən acından lap üzülürsən. Al bu balıqları ye. Görək sonrası necə olur.

Qurd dedi:

– Çox sağ ol, pələng qağa, yoxsa lap acından öləcəkdim. Pələng balıqları ona verib getdi.

Qurd öz-özüne dedi: “Yaxşıca peşə tapdım. Nə əlimi ağa, qaraya vuraram, nə də boz köpəyin üzünü görərəm. Bu sarsağlar özləri ac qalar, ovladığlarını mənə verərlər”.

Qurd tez ayağa durdu, balıqları aparıb quzu ətlərinin yanına atdı. Özü də dovşanın yanına gedib dedi:

– Dovşan qağa, belə olmaz. Bostanların şirin yemişini yeyirsən, mənə vermirsən?

Dovşan dedi:

– Qurd qağa, bu il bostanlarda sən deyən yaxşı yemiş olmayıb ki, sənə də gətirəm. Məni bağışla.

Qurd dedi:

– Heç zad bilmirəm, gərək mənim payımı gətirəsən.

Qurd buradan bir baş qızılquşun yanına gedib dedi:

– Qağa, on gün olar ki, mənə çolpa vermirsən, belə iş olar?

Qızılquş dedi:

– Çolpa yoxdu.

Qurd dedi:

– Bilmirəm, gərək mənə çolpa tapıb gətirəsən, yoxsa balalarını əlindən alacağam.

Bunlar burada qalsın, sənə deyim pələngdən. Pələng yol ilə gedirdi, gördü bir tülkü bir parça sümük gəmirir. Pələng ondan soruşdu:

– Tülkü baba, nə yeyirsən?

Tülkü dedi:

– Görmürsən?

Pələng tülkünün yanında yerə çöküb dedi:

– Tülkü baba bir qurd var, lap qocalıb, özü də acından ölür. Bayaq əlimə bir neçə balıq düşmüşdü, aparıb verdim ona.

Tülkü bərkdən güldü. Pələng ondan soruşdu:

– Niyə gülürsən?

Tülkü dedi:

– O qurdda olan quzu ətləri məndə olsa idi, düz bir il yeyib yatardım.

Pələngin ona acığı tutub dedi:

– Yalan deyirsən. Tülkü dedi:

– Gəl mərc çəkişək, gedib yoxlayaq.

Tülkü ilə pələng mərc çəkib yola düşdülər. Yolda şirə rast gəldilər. Şir soruşdu:

– Hara gedirsiniz?

Pələng tülkünün sözlərini ona söylədi. Şir də bunlara qoşuldu. Yolda qızılquşa rast gəldilər. Qızılquş qanad sallayıb dedi:

– Tülkü baba, filan yerdə bir qurd var, lap bizi talayıb, çapıb.

Tülkü gülüb yoldaşlarına dedi:

– Bu bir.

Bir az gedib dovşana rast gəldilər. O da qurddan şikayətə başladı. Tülkü dedi:

– Bu iki.

Pələng dedi:

– Tülkü baba, sən doğru deyirmişsən.

Tülkü, pələng, şir, dovşan, bir də qızılquş bir-birinə qoşuldular. Düz qurdun yanına gəldilər. Qurd bunları görən kimi qarnını qucaqlayıb yerə oturdu, guya acından lap ölür.

Pələng dedi:

– Qurd qağa necəsən?

Qurd dedi:

– Acından lap ölürəm.

Sözünü qurtaran qurd özünü ölülüyə vurdu ki, çıxıb getsinlər. Tülkü tez irəli çıxıb dedi:

– Qağamız dünyada pis güzəran keçirib. Gəlin onu yaxşıca dəfn eləyək.

Tülkü tez bir qəbir qazıb dedi:

– Daha durmayın, gəlin, qurd qağamıza bir az ağlayaq.

Yalandan bir az ağladılar. Qurd gördü ki, xeyr, işlər şuluqdu. Bunların əlindən qaçıb qurtara bilməyəcək. Boğazı lap qurudu. Tülkü pələngə dedi:

– Götürün qurd qağamızın cəmdəyini qəbrə qoyaq.

Tez qurdu götürdülər. Qurd özü-özünə dedi: "Bayıra çıxanda qaçaram". Tülkü işi duymuşdu, çox ayıq tərpənirdi. Qurdu qəbrə qoyan kimi tülkü üstünü tez torpaqladı, qurd oradaca öldü. Tülkü dedi:

– İndi qurd qağanızın qazmasını açın.

Tülkü dedi:

– Xainin özünü sağ basdırıb, malını da yeyərlər. Nə istəyirsiniz yeyin.

Qurdun ölüsünü yeyib üstündən su içdilər, sonra dağılıb getdilər.

## XORUZ VƏ PADŞAHIN NAĞILI

Biri var imiş, biri yox imiş. Bir də bir xoruz var imiş. Bir gün xoruz peyinlikdə eşələnib özünə yem arayanda bir qara pul tapdı, şad olub başladı oxumağa:

– Quqquluqu! Bircə şahı tapmışam!

Padşah xoruzun səsini eşidib buyurdu ki, gedib onun pulunu əlindən alsınlar. Şahını xoruzun əlindən alandan sonra xoruz başladı oxumağa:

– Quqquluqu! Padşah mənə möhtac imiş!

Padşah buyurdu ki, xoruzun şahısını aparıb özünə versinler.

– Quqquluqu! Padşah da məndən qorxar imiş!

Padşah bunu eşidəndə xoruza hirslənib buyurdu ki, onu tutub öldürsünlər. Xoruzun başını kəsəndə oxudu:

– Quqquluqu! Nə iti bıçaq imiş!

Xoruzun başını kəsincə onu soxdular qaynar suya ki, tükünü yolsunlar. Qaynar qazanın içində xoruz oxudu:

– Quqquluqu! Nə isti hamam imiş!

Xoruzu qazanın içindən çıxarıb tükünü yoldular və bişirib qoydular plovun üstünə. Burada xoruz oxudu:

– Quqquluqu! Nə ağca təpə imiş!

Plovu gətirdilər padşahın qarşısna. Padşah plovu yeyəndə xoruz onun boğazında yenə oxudu:

– Quqquluqu! Ne darca küçə imiş!

Ondan sonra xoruz getdi qaranlıq yerə, orada nə qədər oxudusa da səsini eşidən olmadı.

## TÜLKÜNÜN HİYLƏBAZLIĞI

Biri vardı, biri yoxdu. Bir ormanda aslan, qaplan, qurd, tülkü, çaqqal, dovşan, tısbağa yaşayırdı. Dava-dalaşdan, bir-birinin ətini didib yeməkdən uzaq idilər.

Bir gün ormanda quraqlıq başlayır. Bunlar da susuz bir müddət dolanırlar. Sonra şir bütün heyvanları başına yığıb deyir:

– Kələyimiz kəsildi. Gərək başımıza bir çarə tapaq.

Hamı düşür meşənin canına. Axtarırlar, axtarırlar, axırda baxırlar ki, bir yerdə bir bulaqdan azca su sızır. Yığışırlar, bulağın ətrafına qazıb böyük bir göl əmələ gətirirlər. Bütün heyvanlar qan-tər içində işləyir, təkcə tülkü yaxasını kənara çəkib, yardım eləmir. Bunlar da öz aralarında belə qərara gəlirlər ki, tülkünü sudan içməyə qoymasınnar. Başlayırlar gölün keşiyini çəkməyə. Əvvəlcə şir qoyunlara, sonra da çöl dovşanlarına tapşırır ki, gözdə-qulaqda olsunlar, tülkü gəlib su içməsin. Dağılışıb hərəsi bir yana gedir. Tülkü görür ki, bir dovşan suya nəzarət edir. Sudan ötrü ürəyi partlasa daç ehtiyatlanır. Dovşan şiri, başqa heyvanları çağırsa, yaxasını qurtara bilməz. Fikirləşir ki, dovşanı necə aldatsın? Gedib bir kələmlə kök tapır. Onları göldən bir az aralıda yerləşən kolun dalında gizlədib dovşana yaxınlaşır. Deyir:

– Dovşan qardaş, xeyir ola, niyə burda durmusan?

– Heçç özümü günə verirəm.

– Düz deyirsən, günə verməli havadı. O kolun dalında bir kələmnən kök də özünü günə verir.

Dovşanın ağzı sulanır. Tullana-tullana gedir baxsın. Tülküyə də bu lazım idi. Dovşan kələmlə kökü yeyənə kimi o da istədiyi qədər sudan içib gedir.

Sabahı gün tısbağanı gözətçi qoyurlar. Tülkü gəlib deyir:

– Tısbağa qardaş, təpənin o tayında arpa göyərib. Üzünə baxan yoxdu. Amma yolda bir dəstə tısbağa gördüm, ora gəlsələrç biri də qalmayacaq.

Tısbağanı da beləcə arpaya yollayır, sudan istədiyi qədər içib gedir.

Axşam heyvanlar bir yerə yığışırlar. Görürlər ki, gölün suyu günü– gündən azalır, belə getsə yayı başa çatdıra bilməyəcəklər. Dovşanla tısbağanı çağırırlar. Onlar şirin qorxusundan açıb deyirlər ki, bir dəfə gözdən buraxıblar, ona da səbəb tülkü oluö Heyvanlar başa düşürlər ki, tülkü kələk gəlib suyu içib. Qərara alırlar ki, tülkünü tutub cəzalandırsınlar.

Belə də edirlər. Ayını gölün sahilində qoyub gedirlər. Tülkü gəlib ona deyir:

– Dəymiş armudlar səni gözləyir.

Ayı gedir. Tülkü əyilib su içmək istəyəndə heyvanlar pusduqları yerdən çıxıb onu tuturlar.

Aslan deyir:

– Tülkünün cəzası nə?

Yerbəyerdən deyirlər:

– Ölüm… Ölüm…

Şir soruşur:

– Nə yolla öldürək?

Uzun məsləhətdən sonra qərara alırlar ki, tülkünü qurda tapşırsınlar. Qurd tülkünü quyruğunnaan yapışıb, yırğalasın, başı daşa dəysin, əzabla ölsün.

Şir üzünü tülküyə tutub soruşur:

– Tülkü, ölüm qabağı arzun nədir?

Tülkü deyir:

– Günahım böyükdü, Şir qardaş, əzabla öldürsəniz də azdı. Bir istəyim var.

– Nədi?

– Bir az quyruğuma, bədənimə yağ sürtün. Yırğalamaq mümkün olmasın. Qurdun ödü ağzına gəlməsin.

Tülkünün arzunu yerinə yetirirlər.

Qurd tülkünün quyruğundan yapışıb göyə qaldırmaq istəyəndə sürüşüb ağzından çıxır. Ha çalışır, bir şey alınmır. Axırda yorulub oturur.

Şir qəzəblənib qabağa çıxır. Nərilti ilə tülkünün quyruğunu dişlərinin arasına alır, göyə qaldırıb başının üstündə yırğalamağa başlayır. Bir-iki dəfə o tərəfə bu tərəfə yırğalamışdı ki, yağlı quyruq şirin ağzınnan çıxır, tülkü diyirlənib təpənin o tərəfinə düşür. Bir göz qırpımında qaçıb canını qurtarır.

Hiyləbaz tülkü bu dəfə də heyvanları aldatdı və bir daha o yerlərdə gözə görünmədi.

Şir peşiman-peşiman heyvanlara baxanda üzünə yağış damcıları düşür. Bir azdan bərk yağış yağır. Hamı qaçıb mağarasında gizlənir.

## TÜLKÜ VƏ XORUZ

Bir Xoruz ağacda oturub hərdən banlayırdı. Tülkü onun səsini eşidib ağacın dibinə gəlir və deyir:

– Xoruz qardaş, səni yoluxmağa gəlmişəm

– Sağ ol, tülkü baba, könlün xoş olsun. Kefin yaxşıdı?

Tülkü özünü eşitməməzliyə vurur.

–Nə dedin? Qulağım bir az ağır eşidir. Ağac qaçmır ki, Xoruz qardaş, düş aşağı gedib bir az meşədə gəzişək. Göyə çıxıb nəsə dimdiyini tərpətdiyini görürəm, amma səsin qulağıma çatmır.

Xoruz bir az qürrələnib deyir:

– Yox, düşə bilmərəm. Biz quşlara yer üzündə gəzmək haramdı.

– Bəlkə məndən qorxursan? Mən töbəliyəm.

– Səndən qorxmasam daç sənə oxşar heyvannardan qorxuram.

Tülkü deyir:

– Xoruz qardaş, sənin heç dünyadan xəbərin yoxmuş ki?

– Nolub ki?

– Bə eşitməmisən ki, təzə hakim gəlib. Hər yerdə əmin-amanlıqdır. Qoyunu qurda tapşırmaq mümkündü. Bax, quduz köpəklər gəlir. Başqa vaxt olsaydı, baş götürüb qaçmalıydın. İndi rahatca yerində otur, işində ol.

Xoruz köpək adı eşidən kimi qaçmağa hazırlaşır.

Tülkü yenə onu arxayın salmağa çalışır.

– Hara? Görmürsən mən sakit durmuşam. Sənə toxunmağı ağlıma gətirmirəm. O köpəklər də gəlib yanından sakitcə keçəcəklər.

Xoruz dedi:

– Tülkü qardaş, kim bilir, bəlkə təzə hakimin hökmü o köpəklərə hələ gedib çapmayıb? Gör necə dişlərini qıcırdırlar?

İtlər çathaçavtda tulkü Xoruza deyir:

– Sən deyəndi, Xoruz qardaş, bunların hələ qanundan xəbərləri yoxdu. Mən qaçdım, Sən öz canından muğayıt ol.

## AĞIQLI İLAN

Günlərin bir günündə,
Məmmədnəsir tinində,
Dəvə saman təpəndə,
Öküz toxum səpəndə.
Ayı dağdan aşanda,
Dilim bir az çaşanda,
Yazın gözəl çağında,
Qar durub daş yağanda,

Bir kəndli öz həyətində oturmuşdu. Elə bu vaxt görür ki, iki ilan bir-birinə sarmaşıb? dalaşa-dalaşa gəlib girdi onun bağına. O ilan bu ilanın üstünə tullanır, bu ilan o ilanın üstünə tullanır. Kişinin toyuq-cücəsi qorxub qaçır. Ala dana təpik atıb saxsı su qablarını sındırır. İlanlar ləklərin üstündə turp əkirlər. Bunu görən kəndlinin hirs vurur beyninə, durub ilanın birini öldürür. O biri ilan qaçıb çəpərə girməklə canını bir təhər qurtarır. Bu ilan özünə söz verir ki, nə olur olsun, gərək kəndlini sancsın. İlan nə qədər çalışır, bir fürsət tapa bilmir.

Kişi işi başa düşür, ilanın əlindən yurd-yuvasını tərk edib başqa yerə getməyi qərara alır. Var-yoxunu bir eşşəyə yükləyir. Var-yoxu deyəndə, olanı-qalanı beş-altı toyuğu, bir-iki saxsı qab-qacacağı, bir də arvadının cehizlərindən bir gümüş dolçası vardı. Ömür-gün yoldaşı dünyasını dəyişəndən bu dolçanı göz bəbəyi kimi qoruyurdu. Nə isə, kəndli evini satıb şəhərə köçür.

Bir gün həmin kişinin yaşadığı şəhərə gedən yolla bir karvan keçirmiş. Həmin ilan da eləməz tənbəllik, bu dəvə karvanında olan xurcunun içinə girər. Dəvə sahibi bunu görüb ilanı öldürmək istəyir. Karvan başçısı qoymur. Xülasə, ilan xurcunda qalır. Karvan kəndlinin təzə mənzilinin yanına çatır,

ilan sürüşüb xurcundan yerə düşür. Bunu görən karvanbaşı yoldaşlarına deyir:

– Siz yolunuzdan qalmayın, mən bu ilanı pusacağam.

İlan gedib kəndlinin həyətində bir xeyli gəzişir, sonra səkidəki su dolçasının içinə girir. Karvanbaşı kəndlinin qapısını döyüb deyir:

– Məni bu gecəliyinə tanrı qonağı edərsən?

– Allah göndərən qonağı qapıdan qaytarmaqmı olar. Keçin öz evinizdi.

Kəndli karvanbaşını içəri aparır. Yeyib-içib olandan-keçənnən söhbət edirlər. Gecədən bir az keçmiş söz gəlib düşür kəndlinin öz yurdunu tərk edib bu şəhərə gəlməsindən. Kəndli deyir:

– Bir ilanın bəlasına keçmişəm.

Karvanbaşı hələ ilan gəlib dolçaya girəndə ağzını bağlamışdı. Kəndli başına gələnləri söylədikdən sonra ayağa durur. Gedib gümüş dolçanın əlinə götürür. Deyir:

– A kişi, sənin bu dolçanda gözüm var. Gərək onu mənə satasan.

Kişi köks ötürüd cavab verir:

– O mənimçün çox qiymətlidir.

– Həyatından ki, qiymətli olammaz. Mən sənə həyatının qalan günlərini verim. Sən də əvəzini bu dolça ilə ödə.

Kəndli bir qədər fikirləşənnən sonra deyir:

– Yuvamdan artıq olmayacaq ki, götür o dolçanı da apar, ömrümün qalan günlərini də. Mənə bundan sonra heç biri gərək deyil.

Karvanbaşı gur yanan ocağın yanına gəlir. Deyir:

– Şərtləşdiyimiz kimi bu dolçanı mənə verdin. Onunla istədiyimi edə bilərəmmi?

– Elə.

Qonaq doçanı alovun içinə atır. Kəndlinin gözlərindən iki damla yaş süzülüb yanağında quruyur. Bir də baxır ki, dolçanın qapağı açıldı. Düşməni olan ilanı od götürdü. Kəndli indi anladı ki, qonaq ona ömrünün qalan günlərini bağışlamağa gəlibmiş.

# KOR DƏVƏ

Biri var idi, biri yox idi. Bir dəvə vardı. Bu dəvə bir gün yamyaşıl çəmənə rast gəlir. Otlaya-otlaya gedəndə görür ki, qırqovul otların arasında yuva qurub, mışıl-mışıl yatır. Dəvə dedi:

– Buy, başıma xeyir, bu quşlarda abır-həya qalmayıb ki, çəmənin ortasında halalca otuma yiyə durub.

Qırqovul ayılıb dəvəni gördü, qorxub öz yuvasından uçdu. Dəvə başını bulayıb ayağının altına baxmadan qırqovulun yumurtalarını əzib ordan keçdi. Evi dağılmış, balaları qırılmış qırqovulun çarəsi kəsildi. Ağlaya-ağlaya meşəyə doğru uçdu. Bu vaxt qabağına bir qarğa çıxdı. Qarğa soruşdu:

– Qırqovul bacı, niyə ağlayırsan?

Qırqovul dərindən köks ötürdü. Göz yaşlarını sel kimi axıda-axıda dedi:

– Ağlamayım, neyləyim, a qarğa qardaş? Dəvə gəldi yumurtalarımı əzdi. Mən yenə bala üzünə həsrət qaldım.

Qarğa dilləndi:

– Qəm yemə, qırqovul bacı, sənin qisasını ondan alaram.

Qırqovul təzədən köks otürüb dedi:

– Eh, keçənə güzəşt deyiblər, zalım dəvə əzdi, getdi.

– Heyifini onda qoymaq istəyirsən? Zalım heyvandı, nə bilirsən, bu gün etdiyini sabah təkrarlamayacaq?

– A qarğa, sən o boyda dəvəyə nə edə bilərsən?

Qarğa dedi:

– Bu daha sənlik deyil. Özüm bilərəm, neynərəm.

Qarğa qırqovulu ağlaya– ağlaya meşədə buraxıb çəmənliyə gəldi. Gördü ki, dəvə uzanıb özünü günə verir. Qarğa dəvəyə yaxınlaşdı. Əvvəl hiyləyə əl atıb dedi:

– Dəvə qardaş, əgər istəsən səni qaşıyardım. Sən də rahat- rahat yatarsan.

Dəvənin elə arzusu bu idi: bir mal axtarırdı ki, xamlayıb qoturlarını qaşıtsın. Dedi:

– Qarğa, əgər belə iş görsən, savab iş tutmuş olursan. Sənə minnatdar olaram.

Qarğa kələyinin baş tutduğunu görüb, dəvənin bədənini qaşımağa başladı. Dəvə xumarlanıb yuxulamağa başladı. Qarğa fürsəti fövtə vermədi. Atılıb dəvənin sağ gözündən bir dimdik götürdü. Dəvə gözlənilməz zərbədən inildədi. Başını sağa– sola çevirdi. Qarğanın hirsi soyumadı. Cumub dəvənin sol gözünü də çıxartdı. Dəvənin üzü al-qana boyandı.

Bir müddət keçdi. Dəvənin gözlərinin yarası sağaldı. Amma kor qaldı.

Kor dəvə «ah, uf» edə-edə bir kolun qırağında oturmuşdu. Bu vaxt bir qurbağa sudan çıxıb, yaxınlaşır. Dəvədən soruşur:

– Dəvə qardaş, nə olub? Niyə belə qəmgin oturmusan? Dərdin nədir?

Dəvə başını səs gələn tərəfə çevirdi. Qurbağaya belə cavab verdi:

– Ay qurbağa, bundan da böyük dərd olar? Qarğa gözlərimi çıxarıb indi də kor qalmışam. Nə yemək yeyə bilirəm, nə də gəzə.

Qurbağa dəvəni bir az da yandırıb tökməyə başladı:

– Dəvə qardaş, məgər sən boyda nəhəng heyvanın kiçik bir quşa gücü çatmadı?

– Eh, məgər sən qarğanın hiyləsini bilmirsən? Əvvəl məni ələ aldı, belimi qaşıyıb yuxuya verdi, sonra da gözlərimi çıxardı.

Qurbağa ürəyində dedi: «Mən səni qarğadan da betər günə salacam, onda görərsən ki, özündən kiçikləri incitmək o qədər də asan deyil.»

Qurbağa da hiyləyə keçib kor dəvəyə dedi:

– Dəvə qardaş, mən sənə kömək edə bilərəm. Sən həm yeyərsən, həm də gəzərsən.

Dəvə qurbağaya baxıb köksünü ötürdü:

– Sən mənə necə kömək edə bilərsən axı?

Qurbağa dedi:

– Hayındı hoppana-hoppana gedəcəm. Əgər quruldasam, onda bil ki, ot olan yerdəyəm. Sən də rahat gəlib yeyərsən.

Dəvə razı oldu. Bir müddət qurbağa dəvəni belə dolandırdı. Qurbağa gördü ki, məqam çatıb. Ona görə də bir-neçə addım aralıda dərin bir quyu tapdı. Quyunun başına gəlib quruldadı. Dəvə elə bildi ki, qurbağa otluq tapıb. Ona görə də qabağa gəlib quyuya düşdü. Dəvə quyunun dibində bir xeyli nərildədi. İmdad dilədi.

Bir azdan dəvənin nəriltisi kəsidli. Qurbağa meşəyə gəlib qarğa ilə qırqovulu gördü. Əhvalatı onlara danışdı. Onların hər ikisi sevindi. Qurbağaya əhsən dedilər. Qırqovul daha çox sevindi. Axı bundan sonra o balasız qalmayacaqdı.

## XOR– XOR PİŞİK

Əzəldən var idi, yox idi, bi kor qarı var idi. Bu qarının da bir dənə pişiyi var idi. Qarı hara nə qoyurdusa, pişiyi tapıb yeyirdi. Qarı pişiyin əlindən bezir, axırda pişiyi döyüb evdən qovur. Pişik az gedir, üz gedir, dərə-təpə düz gedir. Bərk yorulur, haldan düşür, bir tülkünün yuvasına girir və yuxulayır. Tülkü yuvasına gəlir, uzaqdan xorultu eşidir, qorxub qaçır. Qabağına bir donuz çıxır. Donuz soruşur:

– Qardaş, nə bərk qaçırsan?

Deyir:

– Yuvamda bir xorultu var, qorxumdan qaçıram.

Donuz deyir:

– Gəl gedək, mən qovum.

Gəlib yuvaya çatanda xorultunu eşidib başlıyırlar qaçmağa. Yolda qabaqlarına canavar çıxır.

– Xeyir ola, nə bərk qaçırsınız?

Tülkü deyir:

– Mənim yuvamda bərk xorultu var, ondan qorxub qaçırıq.

Canavar deyir:

– Gəlin gedək, mən onu udum.

Gəlirlər. Uzaqdan pişiyin xorultusunu eşidib başlayir haması qaçmağa. Az qaçırlar, üz qaçırlar, dərə-təpə düz qaçırlar, qabaqlarına bi çaqqal çıxır. Çaqqal bu məsələni eşidib gülə-gülə deyir:

– Gəlin gedək, mən onu qovum.

Gəlib dinləyirlər, xorultunu eşidib qoxularından dala qayıdırlar, başlayırlar qaçmağa. Bunlar qaçanda meşədə qabaqlarına ayı çıxır. Məsələni eşidəndən sonra ayı gülüb deyir:

– Gedək, mən onu kötəkləyim.

Yuvaya tərəf gələndə qabaqlarına bir xoruz çıxir. Bunlar yığılıb gəlirlər. Uzaqda dayanıb xorultuya qulaq asırlar. Fikirləşirlər ki, o səsi çıxaran nəhəng heyvanı necə yuvadan çıxarsınlar. Məsləhət eləyirlər ki, aş bişirsinlər. Ayı oduna gedir. Canavar qoç tapır, dovşan düyü. Donuz qazan gətirməyə, çaqqal toyuq tutmağa razılaşir. Hamısını topalayib aş bişirirlər. Düyünün həlimindən bir az yuvanın girişinə tökürlər. Ayi ağaca çıxir, donquz ağacın dibində durur, canavar daşın dalından pusur. Qalanlar da hərəsi bi tərəfdə gizlənirlər. Həlimin iyini alan pişik yuxudan oyanıb yuvadan çıxır, gərnəşir. Bu zaman birdən canavarın qulağına milçək qonur. Canavar qulağını tərpədir. Pişik canavarın qulağını siçan bilib üstünə tullanır. Canavar qorxusundan qaçır, pişik də hürküb ayi olan ağaca dırmaşır. Bundan hürkən ayi özünü ağacdan tullayır/ Ayı düz donquzun belinə düşür. Donuz tülkünün quyruğundan basıb qaçir. o birilər də onların dallarica qaşırlar. Pişik nənəsinin yanına qayıdir. Bundan sonar tülkü yuvasına gəlib keflə aşi yeyir. Bu yerdə nağıl bitir.

## QARI VƏ PİŞİK

Bir gün bir qarı inəyini apardı suvarmağa. İnək buzun üstündən sürüşüb yıxıldı və qıçı sındı. Qarı buza dedi:

– A buz, sən nə güclüsən?

Buz cavabında dedi:

– Əgər mən güclü olsaydım, günəş məni əritməzdi.

Qarı dedi:

– A günəş, sən nə güclüsən?

Günəş cavabında dedi:

– Əgər mən güclü olsaydım, bulud qabağımı kəsməzdi.

Qarı dedi:

– A bulud, sən nə güclüsən?

Bulud dedi:

– Mən güclü olsaydım, yağış məndən yağmazdı!

Qarı dedi:

– A yağış, sən nə güclüsən?

Yağış dedi:

– Mən güclü olsaydım, ot məndən bitməzdi.

Qarı dedi:

– A ot, sən nə güclüsən?

Ot dedi:

– Mən güclü olsaydım, qoyun məni yeməzdi!

Qarı dedi:

– A qoyun, sən nə güclüsən?

Qoyun dedi:

– Əgər mən güclü olsaydım, qurd məni yeməzdi!

Qarı dedi:

– A qurd, sən nə güclüsən?

Qurd dedi:

– Mən güclü olsaydım, it məni boğmazdı.

Qarı dedi:

– A it, sən nə güclüsən?
İt dedi:
– Əgər mən güclü olsaydım, çoban məni döyməzdi.
Qarı dedi:
– A çoban, sən nə güclüsən?
Çoban dedi:
– Mən güclü olsaydım, xanım məni söyməzdi.
Qarı dedi:
– A xanım, sən nə güclüsən?
– Xanım dedi:
– Əgər mən güclü olsaydım, siçan torbalarımı kəsməzdi.
Qarı dedi:
– A siçan, sən nə güclüsən?
Siçan dedi:
– Əgər mən güclü olsaydım, pişik məni yeməzdi!
Qarı dedi:
– A pişik, sən nə güclüsən?

Pişik iki əlini qabağa, iki ayağını dala qoyub, gərdənini çəkib, quyruğunu qalxızıb, gözlərini bərəldib, dilini çıxarıb, qarıya dedi:

Güclüyəm ha, güclüyəm,
Dəmir daraq dişliyəm.
Yük üstü yaylağımdır,
Yük altı qışlağımdır.
Kürsü üstə duraram,
Bığlarımı buraram...

# AXMAQ CANAVAR

Canavar bərk acmışdı. Neçə gün idi dişinə ət dəymirdi. Çox gəzib dolansa da, əlinə bir ov keçmirdi. Axırda meşədən çıxıb kəndə yaxınlaşdı. Arxın qırağındakı qamışlığa girib gizləndi. Az keçmiş bir quzu arxdan su içməyə gəldi. Suyu içib başını qaldıranda canavarı qarşısında gördü. Canavar dedi:

– Yaxşı əlimə düşmüsən. Neçə gündür dilimə ət dəymir. İndi səni yeyib qarnımı yaxşıca doyuraram.

Quzu qorxudan titrəyə-titrəyə dedi:

– İxtiyar sənindir, canavar lələ. Ancaq mənim ətim çox şitdir. İcazə ver, gedim duz, istiot gətirim, səp ətimin üstünə, ləzzətlə ye.

Canavar razı oldu. Quzu tez təpəni aşıb bir də qayıtmadı.

Canavar çox gözlədi, sonra yenə özünü qamışlığa verib güdməyə başladı. Bir də gördü, bir qoyun nazlana-nazlana gəlir. Canavar qoyunun yolunu kəsib dedi:

– Gəl, gəl, yaxşı əlimə düşmüsən. İndicə səni dişimə çəkib parça-parça edəcəm.

Qoyun yazıq-yazıq dedi:

– Mən nə deyirəm, qurd qağa, yeyirsən ye. Ancaq bir xahişim var. İzn ver, sonuncu dəfə oynaya-oynaya o təpənin başına çıxıb qayıdım. Onda sənin iştahan bir az da açılar, məni lap ləzzətlə yeyərsən.

Qoyunun dediyi canavarın ağlına batdı. Qoyun oynaya-oynaya təpəyə çıxıb gözdən itdi.

Canavar yola baxmaqdan yorulub yenə qamışlığa girdi. Az sonra gördü, bir camış ağır-ağır suya gəlir. Canavar gizləndiyi yerdən çıxıb camışın üstünü aldı:

– Yaxşı əlimə düşmüsən. İndi səni elə yeyim ki, bir gönün qalsın, bir buynuzun.

Camış özünü yığışdırıb dedi:

– Ağa canavar, məsləhət sənindir. Ancaq mən bütün günü göldə yatmışam, başdan-ayağa palçıq içindəyəm. Qoy təpənin başına çıxım, orada iri daşlar var. Daşa sürtünüm, üstümün palçığı ovulub tökülsün. Tərtəmiz qayıdım gəlim, məni rahatca ye.

Bu söz canavarın xoşuna gəldi. Camış da təpəni aşıb qayıtmadı. Canavar hirsindən daha qamışlığa girmədi. Eləcə yolu kəsib durdu. Handan-hana gördü ki, bir at lovğa-lovğa gəlir. Quyruğunu belinə atıb, gözü ayağının altını görmür. Canavarı görcək at dayanıb duruxdu. Canavar dedi:

– Yaxşı əlimə keçdin. Quzunun da, qoyunun da, camışın da heyfini səndən alacam.

At biclik işlətdi:

– Nə deyirəm, qurd qardaş. Ancaq sağ ayağımdakı nalın altında bir kağız var, onu ünvanına çatdırmalıyam. Əvvəlcə o kağızı götür, sonra məni ye.

At dal ayağını qaldırdı. Canavar əyilib nala baxmaq istəyəndə at ona elə təpik vurdu ki, canavar göydə mayallaq vurub yerə dəydi.

Handan-hana ac canavarın huşu başına gəldi. Əlindən qaçırdığı şikarları yadına salıb başına-gözünə döydü:

Getdin, gördün quzu,
Neynirsən istiotu, duzu?
Ye, qalsın quru buynuzu.
Getdin, gördün qoyun,
Neynirsən oyun-moyun?
Ye, qalsın quruca boyun.
Getdin, gördün camış,
Neynirsən palçığın ovmuş?
Ye, canına olsun nuş.
Getdin, gördün at,

Neynirsən kağız, barat?
Ye, yanında yıxıl yat.

## QARI VƏ BUZOV

Biri varmış, biri yoxmuş, bir qarı nənə varmış. Bu qarı nənənin ceyran gözlü, maral duruşlu, quyruğu saçaqlı, alnı qaşqa bir buzovu varmış. Günlərin bir günündə, şaxtalı bir qış günündə qarı nənə buzovunu suvarmağa apardı. Buzov buzun üstünə çıxan kimi ayağı sürüşdü, yerə yıxıldı. Qarı nənə ha çalışdı, ha əlləşdi, axır ki, buzovu bir təhər yerdən qaldırdı. Qarı nənə hirsləndi və üzünü buza tutub dedi:

– Ay buz, sən nə güclüsən?

Buz dilə gəlib qarı nənəyə belə cavab verdi:

– Yox, qarı nənə! Mən güclü olsaydım, günəş məni əridib suya döndərməzdi.

Qarı nənə üzünü günəşə tutub dedi:

– Ay günəş, sən nə yaman güclüsən?

Günəş dedi:

– Yox, qarı nənə! Mən güclü olsaydım, qara bulud mənim qabağımı kəsməzdi.

Qarı nənə üzünü qara buluda tutub ondan soruşdu?

– Ay bulud, sən nə yaman güclüsən? Bulud cavab verdi:

– Yox, qarı nənə! Mən güclü olsaydım, yığdığım suları özümdə saxlaya bilərdim. Sularım yağış olub yerə yağmazdı.

Qarı nənə yağışdan soruşdu?

– Ay yağış, sən nə yaman güclüsən?

Yağış dedi:

– Elə deyil, qarı nənə! Mən güclü olsaydım, torpaq məni özünə çəkməzdi.

Qarı nənə üzünü torpağa tutub ondan soruşdu:

– Ay torpaq, sən nə yaman güclüsən?

Torpaq cavab verdi:

– Yox, qarı nənə! Mən güclü olsaydım, güllər, çiçəklər, otlar və ağaclar mənim şirəmi sora bilməzdi.

Qarı yavaş-yavaş gəlib çəmənə çatdı və üzünü otlara tutub soruşdu:

– Ay otlar, siz nə yaman güclü imişsiniz? Otlar başlarını qaldırıb qarı nənəyə baxdı.

Uca boylu, enliyarpaq bir ot qarı nənəyə belə cavab verdi:

– Yox, qarı nənə! Biz güclü olsaydıq, ceyran bizi yeməzdi.

Qarı nənə ceyranı tapıb ondan soruşdu:

– Ay ceyran, sən nə yaman güclü imişsən?

Ceyran qarı nənəyə dedi:

– Qarı nənə, mən güclü deyiləm, güclü olsaydım canavar məni yeyə bilməzdi.

Qarı nənə canavarın qabağını kəsib ondan soruşdu:

– Ay canavar, sən nə yaman güclü imişsən?

Canavar uzaqdan gələn bir kəndlini qarıya göstərib dedi:

– Yox, ay qarı nənə! Mən güclü olsaydım, bax o gələn adam məni vura bilməzdi.

Qarı kəndlinin yanına gəlib ondan soruşdu:

– Ay bala, sən nə güclü imişsən?

Kəndli güldü, sonra otlaqlardakı sürüləri, zəmilərdəki taxılı, tarlalardakı pambığı, meyvəli bağları, bol məhsullu bostanları qarı nənəyə göstərib dedi:

– Düzdür, qarı nənə! Bu dünyada insan hər şeydən güclüdür:

Mən güclüyəm, ay qarı<br>
Əkib yetirrəm barı.<br>
Zəhmət çəkən də mənəm,<br>
Yeri əkən də mənəm!<br>
Tarla mənim, bağ mənim,<br>
Axar su, bulaq mənim.

Bostanıma gələrsən,
Qovun, qarpız dərərsən,
Onda mənim gücümü
Qarı nənə bilərsən.

# NAĞIL– TƏMSILLƏR

## AYI VƏ QARIŞQA

Ayı bulaqdan doyunca su içib kənarda oturdu. Donquldanıb dedi:

– Ay canım, nə yeyim.

Birdən balaca bir qarışqa görüb sevindi.

– Hə, səni yeyəcəyəm.

Qarışqa qorxdu, tez yarpağın arasında gizləndi. Ayı yarpağı qaldırıb qarışqanı götürdü.

Qarışqa soruşdu:

– Məni neyçün yemək istəyirsən?

– Səni də, bütün ailəni də yeyəcəyəm. Siz gedib bulaqdan su içirsiniz. Belə getsə, bulağın suyu quruyar, mənə qalmaz. Sizin nəslinizi kəsmək lazımdır.

Qarışqa yalvardı.

– Dayan, dayan, gör nə deyirəm? Məni burax, axırıncı dəfə qardaşlarıma su aparım, sonra qayıdaram, yeyərsən.

Sən gedib qayıdana qədər dözə bilmərəm. Elə indi yeyəcəyəm.

– Yemə, yemə. Bunun əvəzində sənə dəyərli məsləhət verərəm.

– Hə, yaxşı de, görək.

– Bir parasını ye, ikinci parasını qış üçün saxla.

– Hə, yaxşı məsləhətdir.

Ayı qarışqanı ağzına qoyub uddu.

Qarışqalar çox gözlədilər. Su ardınca gedən qara qarışqa qayıtmadı. Balaca cığırla təpəyə qalxıb yola baxdılar.

– Bəs, bizim qardaşımız niyə gəlib çıxmadı. Bəlkə batıb?

– Yox? Onu ayı yeyib, deyə qarğa qarışqalara xəbər verdi.

Bütün qarışqalar Ayının mağarası tərəfə getdilər. Mağaranın ağzında yeri altdan qazmağa başladılar. Köstəbək böyürdən çıxıb dedi:

– Siz nə edirsiz?

– Ayı üçün quyu qazırıq.

– Mən də sizə kömək edərəm. Keçən il iki balamı yeyib, ondan intiqam almaq üçün fürsət axtarırdım.

Qarışqalar və köstəbək üç gün, üç gecə yeri qazmağa başladılar. Ayının isə bundan xəbəri yox idi.

Bir gün ayı kefi kök, öz mağarasına qayıdırdı. Gecə idi. Ayı ay işığında oynamağa başladı. O qədər atılıb-düşdü ki, quyunun üstündəki torpaq davam gətirməyib dağıldı. Ayı guppultu ilə quyuya düşdü. Qarışqalar ayıdan belə intiqam aldılar.

## MƏRCAN

Qədim zamanlarda pişik ev heyvanı deyildi. O, meşədə yaşayır, Dovşanla dostluq edirdi. Onlar həmişə bir yerdə gəzir, ovladıqlarını bir yerdə dolandırırdılar. Lakin dovşanla Mərcan pişiyin şad günləri uzun sürmədi.

Bir dəfə necə oldusa, dovşanın bəbirlə mübahisəsi düşdü. Acıqlanmış bəbir dovşanı parçaladı. Mərcan yalqız qaldı. Təklikdən darıxan Mərcan bəbirlə dostluq etməyə başladı. Ancaq bəbirin də ömrü uzun sürmədi. O da pələngin qəzəbinə düçar oldu. İşi belə görən Mərcan pələnglə oturub-durmağa başladı. Pələng gətirdiyi ceyranın, cüyrün ətindən Mərcana da verirdi. Mərcan həyatından razı idi. Amma bir dəfə iş elə gətirdi ki, bütün günlər Mərcanın gözündə qaraldı. Pələng aslanla vuruşda uduzdu. Mərcan pələng kimi arxasını itirdi. Bəs, indi neyləsin? Tək tənha gəzib dolaşsın? Yox, bununla razılaşmadı. Aslanla dostluq eləməyə başladı. Birlikdə yaşadılar.

Günlərin bir günü fillərə rast gəldilər. Fillərin böyüyü vurub aslanı öldürdü. Mərcan öz-özünə fikirləşdi. Sakit, rahat yaşamaq üçün gərək fil kimi dostun ola. Bütün heyvanlardan güclüdür. Ona heç kəsin gücü çatmaz.

Mərcan o gündən fillə dostluq eləməyə başladı. Lakin onun dediyi kimi olmadı. Ovçu fili ovladı, Mərcan bərk qorxdu. Belə də iş olar? Balaca boyun olsun, özün də vur-tut iki ayağın üstə durasan, amma bu böyüklükdə fFili öldürəsən? Yox, elə fili öldürənlə dostluq etməliyəm. Mərcan ovçunun arxasınca düşüb evlərinə gəldi.

# QURBAĞALAR VƏ HACILEYLƏK

Keçmiş zamanlarda qurbağalar bir-birləri ilə yola getmirdilər. Bu cür yaşamaq onları təngə gətirmişdi. Bir gün sular anasının yanına gedib özləri üçün padşah istədilər. Sular anası qurbağaların xahişini yerinə yetirdi. Suya böyük bir kötük atdı.

– Bu da sizin padşahınız.

Kötük suda hey yırğalandı.

Qurbağalar burunlarını sudan çıxarmırdılar. Elə ki, kötük yırğalanmırdı, qurbağalar yuvalarından çıxıb kötüyə tamaşa edirdilər. Qurbağaların belə padşaha gülməkləri tutdu. Onlar bir- biri ilə yenə çəkişməyə, dalaşmağa başladılar.

Bir müddət keçdi. Qurbağalar yenə sular anasının yanına gedib özləri üçün padşah istədilər. Xahiş etdilər ki, onlara qəzəbli padşah təyin etsin. Sular anası hacıleyləyi padşah təyin etdi. Hacıleyləyə tapşırdı ki, qurbağalardan hansı sözündən çıxsa, onu udsun. Qurbağaların dəhşətli günləri başlandı. Hacıleylək sular anasının dediyi kimi hərəkət edirdi. Sözünə qulaq asmayan qurbağanı udurdu.

# TÜLKÜ VƏ İLAN

Biri var idi, biri yox idi, bir ilan, bir də tülkü var idi. Onlar qonşu idilər. Amma bir-birinin evinə gedib-gəlmirdilər. Bir gün tülkü ovdan qayıdanda gördü ki, ilan bir qurbağa tutub. Keflə yeyir. Tülkü qaçıb cəld yuvasına girdi. Bunu görən ilan tülkünü səslədi:

– Qonşu, bayıra çıx, sənə sözüm var.

Tülkü əvvəl istədi çıxmasın, sonra fikirləşdi ki, qonşuluqda yaxşı düşməz.

Ona görə də qapının ağzından başını çıxardıb dedi:

– İlan lələ, eşidirəm səni.

İlan dedi:

– Yaxın gəl. Sənə sözüm var.

Tülkü dedi:

– Yox lələ. Sözünü elə oradanca de.

İlan dedi:

– Qorxma, yaxına gəl.

Tülkü dedi:

– Üz vurma, gələ bilmərəm.

İlan dedi:

– Qonşuluqda bir-birimizdən aralı gəzməyimiz yaxşı düşmür. Gəl əhd-peyman eləyək ki, bir-birimizə dəyməyək.

Tülkü razı oldu. Bir müddət belə keçdi. Bir gün səfərə gedəsi oldular. Üç gün, üç gecə yol getdilər. Qabaqlarına böyük bir çay çıxdı. Tülkü üzmək bilirdi, amma ilan yox.

İlan yalvardı:

– Tülkü qardaş, mən üzmək bilmirəm, qoy boğazına dolanım, çaydan keçim.

Tülkü razı oldu:

– Nə deyirəm ki, dolan.

İlan tülkünün boğazına dolandı. Çayı o taya keçdilər və tülkü dedi:

– De boynumdan açıl.

İlan gülüb söylədi:

– Hara açılıram? Mən elə bundan ötrü səninlə yoldaş olmuşdum. Acmışam, qanını içəcəyəm.

Tülkü yalvarıb dedi:

– Bəs əhd-peyman?

İlan dedi:

– Əhd-peyman nədir? Bu saat səni elə çalacağam ki.

Tülkü gördü ilan namərdlik eləyir, kələyə əl atdı, dedi:

– İlan lələ, onsuz da mən dünyadan bezmişəm, ölmək istəyirəm. Sənə elə deyəcəkdim ki, bir yaxşılıq elə, öldür məni, dünyanın qayğısından qurtarım. Amma səninlə yoldaşlıq eləmişəm, qoy son nəfəsimdə üzündən öpüm.

İlan tülkünün şirin dilinə inandı. Başını ona tərəf uzatdı. Tülkü o saat ilanın boğazından yapışdı. İlan yalvara-yalvara dedi:

– Ay tülkü lələ, bu dəfə günahımdan keç, ölüncə qulluğunda duraram.

Tülkü etiraz edib dedi:

– Heç yalvarma. Yoldaşına xain olanın qanı halaldır.

# GÖYƏRÇİN VƏ QARIŞQA

Biri varmış, biri yoxmuş. Meşədə bir göyərçin vardı. Bir yaz günü bu göyərçin su içməyə getdi. Gördü bir qarışqa suya düşüb çapalayır. Göyərçin tez qarışqanın köməyinə gəldi. Dimdiyinə bir yarpaq alıb suya atdı. Amma yarpaq qarışqadan xeyli uzağa düşdü. Çayın axarı qarışqanı xeyli uzağa apardı. Bu dəfə göyərçin caynağına çöp alıb onu suya atdı. Qarışqa tez çöpə dırmaşdı. Beləliklə, o ölümdən qurtardı. Sahilə çıxanda qarışqa göyərçinə dedi:

– Məni ölümdən qurtardın. Bir gün olar, mən də sənə kömək edərəm.

Göyərçin qarışqanın sözünə güldü.

– Sən çox kiçiksən, mənə necə kömək edəcəksən?

Göyərçin uçub getdi. Həmin vaxtdan xeyli keçdi. Göyərçin ağacın başında yuvasında rahatca yatmışdı. Bir ovçu onu çoxdan güdürmüş. İstəyirmiş ki, Göyərçini yatdığı yerdən götürsün. Ovşu ayaq barmağının ucunda ağaca yaxınlaşdı. Göyərçini tutmaq istəyəndə Qarışqa ovçunun boynundan bərk dişlədi. Ovçu göyərçini tuta bilmədi. Göyərçin oyandı. Qarışqanı gördü, dedi:

– Çox sağ ol, dost. Yaxşılığa yaxşılıq deyiblər.

# TÜLKÜ VƏ KƏKLİK

Bir kəklik dağ başında oxuyurdu. Tülkü onun səsini eşitdi, yanına gəlib dedi:

– Ay kəklik, sən ki belə gözəl quşsan, belə gözəl səsin var, elə həmişə oxuyursan? Bəs sən heç yuxulayıb yatmırsan?

Kəklik dedi:

– Niyə yatmıram, əlbəttə ki, yatıram!

Tülkü dedi:

– İndi ki belədir, bir mənə göstər görüm, sən necə yatırsan?

Kəklik yatmağını tülküyə göstərmək üçün gözlərini yumdu. Tüklü cəld sıçrayıb onu tutdu. Kəklik gördü ki, tülkü onu aldatdı. Axmaqlıq edib onun hiyləsinə inanıb. İndi tülkü onu yeyəcək. Başını tülkünün ağzından çıxarıb dedi:

– Ay tülkü baba, sən ki belə zirək heyvansan, belə cəld şikar tutursan, heç şikarı yeyəndə Allaha şükür edirsən?

Tülkü cavab verdi:

– Necə ki eləmirəm, yaxşı eləyirəm.

Onda kəklik dedi:

– İndi tutaq ki, sən məni yeyibsən, bir Allaha şükür elə görüm, nə sayaq edirsən?

Tülkü ağzını açdı ki, şükür eləsin, kəklik bu anda uçub qondu bir qayanın üstünə.

Tülkü vəziyyəti belə görüb dedi:

– Kəklik qardaş, sən ki mənim ağzımdan qurtardın, get. Amma lənət olsun o varlığa ki, şikarını yeməmiş Allaha şükür edə!

Kəklik cavabında dedi:

– Yaxşı deyirsən, tülkü baba, ona da lənət olsun ki, yuxusu gəlməmiş gözlərini yumub yatmaq istəir.

## DOVŞANIN QULAQLARI NİYƏ UZUNDUR?

Bir dəfə dovşan qoyuna rast gəlir. Onlar dostlaşırlar, qərara alırlar ki, ömürləri boyu bir-birindən ayrılmasınlar. Qoyun dovşana deyir:

– Gəl, özümüzə koma tikək.

– Tikək də. Nə deyirəm?

Ertəsi günü dovşanla qoyun meşəyə taxta-şalban dalınca gedirlər. Enli, gövdəli bir ağaca yaxınlaşırlar. Qoyun deyir:

– Mən bu ağacı kökündən qırıb yerə yıxaram.

– Qıra bilməzsən?

– İndicə qıraram, görərsən.

Qoyun dal-dalı qaçıb ağaca bir kəllə vurur. Ağac tappıltı ilə yerə yıxılır.

Dovşan fikirləşir ki, ağac qırmaq nə asanmış? Bunu mən də bacararam. Onlar başqa ağaca yaxınlaşırlar. Dovşan deyir:

– Bu ağacı mən də qıracağam.

Qoyun gülügülə deyir:

– Bacarmazsan.

– Mən qırım, sən də tamaşa elə.

Dovşan dal-dalı qaçıb alnını zərblə ağaca vurur. Ağac tərpənmir. Dovşanın başı isə çiyinləri arasına keçir. Qoyun dostuna kömək etmək üçün yaxına gəlib deyir.

– Möhkəm dur, qulaqlarından tutub başını çiyinlərindən çəkib çıxardacağam.

Qoyun dovşanın qulaqlarından bərk-bərk yapışıb dovşanın başını çiyinlərindən dartıb çıxardır. Qoyun az qala dovşanın qulaqlarını yerindən qoparacaqdı. O, vaxtdan bəri dovşanın qulaqları uzundur.

## DANA, KEÇİ VƏ QOYUN

Biri vardı, biri yoxdu. Bir dana, bir keçi, bir qoyun yoldaş olub yolla gedirdilər. Onlar gəlib çıxırlar bir arxın qırağına, görürlər bırada bir əyri söyüd ağacı var. Keçi dırmaşıb söyüdün lap başında durur. Qoyun da güclə çıxıb ağacın bir qanadında oturur. Dana da özünü bir təhər o biri qanadın üstünə sərir. Bu zaman bir canavar gəlib çıxır bıra, başını qaldıranda görür bir keçidi, bir qoyundu, bir də bir danaid çıxıb ağaca. Canavar sərt-sərt baxır onlara, o saat dana qorxusundan uçunur, özünü ağacda saxlaya bilmiri. Tappıltıyla düşür yerə. Canavar istəyir dananı parçalayıb yesin, keçi ağacın başından çığır:

– Dana qardaş, canavarı bərk tut, gəldim.

Canavar qorxudan götürülür. Canavar qaçandan sonra keçi də, qoyun da düşürlər ağacdan yerə. Üçü də yavaş-yavaş gəlib çıxırlar bir dəyirmana. Keçinin bir çomağı, bir dənə də çürçənəsi vardı. Keçi çomağı söykəyir qapının dalına, çürçənəni də qoyur altına. Burada bir az otururlar, söhbət eləyirirlər, bir də görürlər qapı açıldı, budur bir aslan girdi içəri. Dalıncan da bir canavar girdi. Bir xeyli ara verdi, bir də gördülər yenə qapı açıldı bir tülkü girdi içəri. Bir az da oturdular, qoyun, keçi, dananı görən kimi aslan dedi:

– Canavar qardaş, buları bölgünən.

Canavar dedi:

– Dana səhər ertəmizin, qoyun günortamızın, keçi də axşamımızın.

O saat aslan bunun başına bir pəmpəçə vurdu ki, gözdərinin ikisi də çıxdı. Dedi:

– Tülkü baba, canavar qardaş bölə bilmədi. Sən böl.

Tülkü baba dedi:

– Elə bunu Allah bölüb də, mən nəyini böləcəyəm. Qoyun səhər, keçi günorta, qoyun da axşam yeməyindir sənin.

Aslan dedi:

– Ay sağ ol. Bunu hardan öyrənmisən?

Tülkü baba dedi:

– Odur ey, o gözü çıxmış qardaşımdan!

Aslan dedi:

– Tülkü baba, bir çıx çölə bax gör, adam yoxdu ki, mən dananı yeyim.

Tülkü qapıdan çölə çıxanda gördü qapının ağzında bir əli çomaxlı adam durub. Qorxusundan götürüldü: "Ya Əli mədət!" Canavarın da axı, gözləri çıxmışdı. Bu da durdu ora-bıra dəyə-dəyə çıxıb çölə qaçdı. Aslan gözlədi, gördü bunlar gəlmədi. Durdu özü çıxdı. Gördü qapının ağzında əli çomaxlı bir adam durub. Bu da qaçdı.

Qoyun, keçi və dana bir az oturub durdular. Keçi ağacını da götürdü, çürçənəsin də. Üçü də yola düşdülər. Gedib çıxdılar bir dağın döşünə. Burada bir çoban bir sürü qoyun otarırdı. Bir də gördü bir keçi, bir qoyun, bir dana budu gəlir. Çoban sevinə-sevinə bunları yığıb apardı, qatdı sürüsünə, dedi:

– Bunları Allah mənə yetirib.

O yedi, yerə keçdi, siz də yeyin, dövrə keçin. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl söyləyənin.

## SİÇAN VƏ PİŞIK

Biri var idi, biri yox idi, yer üzündə bir siçan var idi, bir də pişik. Günlərin bir günü həmin bu siçan yuvasından boylanıb pişiyə dedi:

– Gəlsənə qardaş olaq?

Pişik etiraz elədi:

– Yox, səndən mənə qardaş olmaz.

Siçan soruşdu:

– Niyə?

Pişik cavab verdi ki, sən qorxaq, oğru, ziyankarsan.

Siçan peşman-peş-man söylədi:

– Doğrudur, bir az qorxaqlığım var, amma nə oğruyam, nə də ziyankar.

Pişik gülüb dedi:

– Bəs un, buğda çuvallarını yırtıb dağıdan sən deyilsən?

Siçan kinayə ilə çavab verdi ki, ay pişik qardaş, bəs sən özün heç nə yemirsən? Hava ilə dolanırsan? Pişik acıqla söylədi:

– Əvvəla mən miyoldayıb yemək istəyirəm, ev sahibi də ətdən, çörəkdən verir. Amma sən oğurlayırsan.

Çox uzun söz-söhbətdən sonra pişik dedi:

– Yaxşı, nə deyirəm, gəl dost olaq, amma mənə xəyanət eləsən, özündən küs.

Siçan razılaşdı. Dostlaşıb bir yerdə yaşamağa başladılar. Günlərin birində siçan dedi:

– Pişik qardaş, indi payızdır, havalar yaxşı keçir, nə istəsək tapıb yeyirik. Bir azdan qış kirəcək, hər yeri qar örtəcək, yeməyə heç nə tapmayacağıq, gəl indidən özümüzə azuqə yığaq.

Pişik xəbər aldı:

– Necə yığaq?

Siçan dedi:

– Mən kimin gözünə görünsəm baş-gözümü əzər. Yaxşısı budur, sən gündə bir evə get, kim nehrə çalxasa miyolda, yağ istə, versinlər, gətir gəl, yığıb qışa saxlayaq.

Pişik bu təkliflə razılaşdı. Gündə bir evə gedib xeyli yağ yığdı. Siçanla pişik bir küpə tapıb yağı doldurdular içinə, aparıb bir ağacın dibində basdırdılar, sonra qayıdıb gəldilər evlərinə. Aradan bir müddət keçdi, qış yaxınlaşdı, tamah siçana güc gəldi, pişiyə yalan satıb dedi:

– Pişik qardaş, bu gün əmim oğlunun ad qoydusudur, məni qonaq çağırıblar, icazə ver gedim.

Pişik dedi:

– Get, amma tez gəl.

Siçan evdən çıxıb gəldi yağı basdırdıqları yerə, torpağı eşib küpənin ağzını açdı, yağdan bir az yedi/ Sonra küpənin üstünü torpaqlayıb qayıtdı evə. Pişik soruşdu:

– Siçan qardaş, əmin oğlunun adını nə qoydular?

Siçan cavab verdi:

– Bir azacıq.

Pişik dedi:

– Adı ilə böyüsün, amma bu adın mənasını başa düşmədim.

Siçan dedi:

– Pişik qardaş, bu adın mənası mənə də aydın deyil. Bundan başqa xalam oğlunun, bibim oğlunun da ad qoydusu olacaq,ora gedib qayıdanda hamısını birdən öyrənib deyərəm.

Aradan bir neçə gün keçdi, siçanın könlünə yenə yağ düşdü. Odur ki, dedi:

– Pişik qardaş, indi də xalam oğlunun ad qoydusudur, məni qonaq çağırıblar, getməsəm küsərlər, izin ver gedim.

Pişik bu dəfə də icazə verdi. Siçan sevinə-sevinə qaçıb gəldi həmən ağacın dibinə, torpağı eşib küpəni tapdı, ağzını

açıb yağı yarısınacan yedi. Sonra yenə küpənin üstünü torpaqlayıb evə qayıtdı. Pişik siçanın qayıtdığını görüb dedi:

– Siçan qardaş, xalan oğlunun adını nə qoydular?

Siçan cavab verdi.

– Yarısınacan.

Pişik dedi:

– Çox qəribə addır.

Siçanla pişik bir neçə gün də bir yerdə yaşadılar. Siçan gördü ki, havalar bərk soyuyur, bir-iki gündən sonra qar yağsa gedib yağı tapa bilməz, odur ki, dedi:

– Pişik qardaş, indi də bibim oqlunun ad qoydusudur. Bibim məni qonaq çağırıb, getməsəm yaxşı düşməz, küsərlər, deyərlər ki, siçan bəy, xalası oğlunun, əmisi oğlunun, ad qoydusuna gəldi, amma bizi saya salmadı. Xahiş edirəm, mənə icazə ver, axırıncı dəfə bibimkilə gedim.

Pişik dedi:

– Siçan qardaş, mən bir söz demirəm, get, amma tez gəl, darıxıram.

Siçan «baş üstə» deyib yola düşdü. Gəlib küpəni çıxartdı, içindəki yağın hamısını yeyib boş küpəni yenidən torpaqladı. Siçan tələsik evə qayıtdı. Pişik soruşdu ki, siçan qardaş, bu dəfə bibin oqlunun adını nə qoydular?

Siçan cavab verdi ki, Axırınacan. Pişik başını bulayıb güldü. Siçan dedi:

– Pişik qardaş, niyə gülürsən, olmaya adlar xoşuna gəlmədi?

Pişik dedi:

– Məh eşitmişəm ki, hər adın bir mənası var. Amma bu adların mənasını başa düşə bilmədim.

Siçan dedi:

– Bu adların mənasını qışda küpəyə baxanda bilərsən.

Pişik dedi:

– Ay siçan, nə danışırsan, küpənin ada nə dəxli?!

Bu vaxt birdən yağ küpəsi pişiyin yadına düşdü. Pişik dedi:

– Siçan qardaş, yaxşı ki küpə sözünü dedin, axı bizim yağ küpəmiz yaddan çıxıb, kedək bir ora baş çəkək, görək dururmu.

Siçan dedi:

– Pişik qardaş, indicə yoldan gəlirəm, bərk yorulmuşam, sabah gedərik.

Pişik razı oldu. O kecə yatdılar, səhər pişik dedi:

– Siçan qardaş, dur gedək, küpəyə baxaq.

Siçan istədi bu dəfə də getməsin, pişik əl çəkmədi. İkisi də durub getdilər, ağacın altındakı küpəni qazıb çıxartdılar. Gördülər küpə boşdur. Pişik siçana dedi:

– Ay kələkbaz, yağı sən yeyibsən.

Siçan da ona dedi ki, yox özün yeyibsən. Yağın üstündə siçanla pişik başladılar dalaşmağa. Pişik dedi:

– Ay siçan, mən bu qədər yağı axı necə yeyə bilərəm?

Siçan dedi ki, əvvəlcə bir az, sonra yarısınacan, sonra da axırınacan. Pişik bu sözləri eşidəndə barmağını dişləyib dedi:'

– Bu sözlər mənə tanışdı. Demək, sən qohumlarının ad qoydusuna gedəndə yağı xırda-xırda yeyirmişsən. İndi mən də səni yeyərəm əvəzi çıxar.

Siçan dedi:

– Pişik qardaş, axı biz dostuq. Dost dostu yeməz.

Pişik dedi:

– Doğrudur dost dostu yeməz. Yadındadırmı səninlə şərt kəsmişdim ki, məni aldatsan, oğurluq eləsən, səni yeyəcəyəm. İndi görürəm xəyanətdən əl çəkməyibsən, ona görə əlimdən qurtara bilməyəcəksən. Sən mənim yağımı oğurlayıb yedin, mən də səni yeyəcəyəm.

Pişik atılıb siçanı yedi.

# NAĞIL– YALANLAR VƏ QARAVƏLLİLƏR

## HADI, HUDU, KOR OĞLU KOSA, BİR DƏ MƏN

Hadıydı, Huduydu, Kor oğlu kosa idi, bir də mən.Ova çıxmışdıq. Qabağımızdan bir dovşan qaçırdı.

Hadıya dedim:

– Tüfəngin var?

Huduya dedim:

– Tüfəngin var?

Kor oğlu kosaya dedim:

– Tüfəngin var?

Heç kimin tüfəngi olmadı. Özüm çaxmağıyox tüfəngi çiynimdən aşırdım. Hadıya dedim:

– Ata bilirsən?

Huduya dedim:

– Ata bilirsən?

Kor oğlu kosaya dedim:

– Ata bilirsən?

Heç biri ata bilmədi. Özüm çaxmağıyox tüfənglə dovşanı yerə sərdim. Hadıya dedim:

– Dovşanı soy!

Huduya dedim:

– Dovşanı soy!

Kor oğlu kosaya dedim:

– Dovşanı soy!

Heç biri soymadı. Soymaq üçün bıçaq gərək idi. Hadıya dedim:

– Bıçağın var?

Huduya dedim:

– Bıçağın var?

Kor oğlu kosaya dedim:

– Bıçağın var?

Heç birində bıçaq olmadı. Özüm tiyəsiyox bıçağı sapını cibimdən çıxartdım, dovşanı soydum, Hadıya dedim:

– Qazanın var?

Huduya dedim:

– Qazanın var?

Kor oğlu kosaya dedim:

– Qazanın var?

Heç birində qazan olmadı. Özüm altıyox bir qazan tapdım. Hadıya dedim:

– Bişirə bilərsən?

Huduya dedim:

– Bişirə bilərsən?

Kor oğlu kosaya dedim:

– Bişirə bilərsən?

Heç biri bişirə bilmədi. Özüm altıyox qazanda dovşanın ətini qovurdum. Hamımız yedik, doyduq, hələ artıq da qaldı. Artığını da bağladıq qurşağımıza, bir xoruz əmələ gəldi. Bu xoruzu mindik, yola düzəldik, qabağımıza bir çay çıxdı. Çaydan bir palan tapdıq. Palanı sökdük. İçindən bir kitab çıxdı. Oxuduq, gördük hamısı yalan.

# YOXSULUN ARZUSU

Keçmiş zamanlarda bir fağır kişi var idi. Bu kişinin yeməyə çörəyi, geyməyə paltarı yox idi. Necə deyərlər, cındırından cin ürkürdü. Bu kişi paltarının dərdini yox, papaqsızlığının dərdini çəkirdi. O, belə qərara gəldi ki, hər gün Allaha yalvarsın, bəlkə ona bir papaq yetirdi. Odur ki, o, hər gün divar dibində əyləşir, əllərini göyə qaldırıb deyirdi:

– Allah, sən mənə bir papaq yetir.

Bir müddət belə gəlib keçdi. Günlərin bir günü bir lotu bu kişidən soruşdu:

– A kişi, hər gün divarın dibində nə dua eləyirsən?

Kişi cavab verdi:

– Qadan alım, başıaçıq qalmışam, Allahdan bir papaq istəyirəm.

– Yaxşı eləyirsən, Allahdan istə, naümid olmazsan.

Kişinin arzusu artdı. İndi gündə iki dəfə divarın dibində oturub dua eləyirdi.

Lotu arayıb-axtardı, zibillikdən bir cırıq papaq tapdı. Gözlədi, kişi divarın altına gəlib dua eləyəndə, cındır papağı kişinin başına saldı. Kişi sevindiyindən atılıb-düşdü, ucadan dedi:

– Allah sənə çox şükür, mənə papaq yetirdin.

Bir neçə dəfə atılıb-düşəndın sonra papağı başından götürdü ki görsün Allah ona nə cür papaq yetirib. Baxıb papağa nə gördü? Gördü ki, zibilli, cındır bir papaqdı, itin üstünə atsan o da qaçar. Kişinin Allaha acığı tutdu, papağı qolu gəldikcə tullayıb dedi:

– Mən belə papağı istəmirəm. Apar, öz başına qoy.

Kişi bu əhvalatdan sonra nə divarın dibinə getdi, nə də dua eləyib Allahdan papaq istədi.

## CƏNNƏTSATAN MOLLA

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir molla var idi. Bu molla çox hiyləgər idi. Hiyləgərliklə çox qazanc əldə edirdi. O istəyirdi ki, həmişə camaatı aldadıb çox sərmayə toplasın. Onun üçün də çox düşündü, götür-qoy elədi, axırda lotubaşını evinə çağırıb dedi:

– Gəl qardaş olaq, qazancımızı qardaş malı kimi bölək.

Lotubaşı gülə-gülə dedi:

– Biz elə uşaqlıqdan qardaş olmuşuq. İndi gəl qardaşlığı təzələyək. Nə deyirsən razıyam. Ancaq elə tədbir gör ki, pul toplayaq.

Molla dedi:

– Sən mən deyənə bax, dövlət başımıza sel kimi tökülsün.

Lotubaşı dedi:

– De görüm, nə buyurursan? Bəlkə ağlıma batdı.

Molla dedi:

– Sən get, dağın ətəyində olan pirin yanında bir zağa tik, sonrası ilə işin yoxdur.

Lotubaşı dedi:

– Elə bil tikmişəm, sonra nə olsun?

Molla dedi:

– Cənnət satacağam, huri-qılman alveri eləyəcəyəm.

Lotubaşı fikirləşdi, gördü ağlabatan işdir, dedi:

– Mən getdim pirin yanında zağa tikməyə. Hamı yuxuda ikən tikib başa gətirəcəyəm.

Molla dedi:

– Zağanın dibindən də bir mağara qazarsan, ağzını da möhkəm düzəldərsən.

Lotubaşı lotulardan beş-altısını götürdü, gedib pirin yanında bir zağa tikdirdi. Zağanın içindən də bir mağara çaptırdı. Səhər tezdən mollanın yanına gedib dedi:

– Zağa hazırdır.

Molla dedi:

– Axşam ora yığışarıq, ancaq sən də axund paltarı geyib, başına əmmamə qoy, belinə qurşaq sarı.

Lotubaşı dedi:

– A kişi, səni qəbrə qoyum, elə molla olacağam ki, hamı əl-ayağımdan öpəcək.

Bəli, axşamı saldılar, amolla ilə lotubaşı zağaya köçdülər. Molla lotubaşıya dedi:

– İndi yoldaşlarına de hər yerə səs-küy salsınlar ki, pirin yanında iki axund peyda olub, hər sözü Allaha çatdırır, adam ölməmişdən ona cənnətdə yer saxlatdırırlar.

Lotubaşı dedi:

– O məndə.

Bəli, lotubaşı lotuları topladı, hamısına tapşırıq verib dedi:

– Mən axundla qardaş olmuşam. Mənə də axundluq verilib. Siz hər yerə səs salın ki, pirin yanında zağada bir axund var. O dünyadan, axirətdən xəbər verir. Sağ ikən adama cənnətdə yer saxlatdırır.

Lotular mətləbi başa düşdülər, hər yerə səs yaydılar. Adamlar dəstə-dəstə zağaya gəldilər. Zağada hiyləgər axund lap dəstgah çıxartmışdı. Lotubaşını dibdəki mağaraya salmışdı. Hər nə desə, lotubaşı cavab verirdi. Adamlara da deyirdi ki, cənnətin mələyi danışır. Zağa qızılla, cavahirlə dolmuşdu. Mollanın gözləri arpa yemiş çəpişin gözlərinə dönmüşdü. Gələnlər mollanın əl-ayağından öpüb əlləri bir-birinin üstündə dayanırdılar, arzularını mollaya deyirdilər. Çox adam cənnətdə özünə yer saxlatdırırdı.

Günlərin bir günü keçəl dalında bir şələ odun, evlərinə tərəf gedirdi. Gördü ki, adamlar sel kimi dağa tərəf axışırlar. Keçəl onların birinə yan alıb soruşdu:

– Bu camaat hara gedir?

Həmin adam dedi:

– Başına kül, hələ xəbərin yoxdur? Deyəsən, qurd başını o qədər yeyib ki, yelbeyin olmusan?

Keçəl dedi:

– A canım, məgər bilməyəni öldürürlər? Kasıb adamam, oduna-zada gedirəm, çox şeydən xəbərim olmur.

Həmin adam dedi:

– Dağın ətəyində, pirin yanında bir molla zühur eləyib, axirətdən xəbər verir. İndidən adama cənnətdə yer saxlatdırır.

Keçəl dedi:

– Məgər cənnətdə yer qurtaracaq ki, indidən sifariş qəbul eləyirlər?

Həmin adam dedi:

– Ədə, şəkk eləmə. Adamların yanında cənnətin böyüyü ilə danışır.

Keçəl odun şələsini yerə qoyub dedi:

– Mən də gedəcəyəm. Həm özümə cənnətdə yer saxlatdıracağam, həm də nənəmə.

Keçəl də qoşuldu bunlara. Gethaget, taki gəlib zağaya çatdılar. Keçəl nə gördü? Burada o qədər adam var ki, göyə daş atsan, biri yerə duşməz. Keçəl bir ənvayi-müsibətlə mollanın yanına girdi. Molla ondan soruşdu:

– Diləyin nədir? Sənədəmi cənnətdə yer saxlatdırım?

Keçəl mollanın gözlərinin içinə diqqətlə baxdı. Gördü gözlərindən lotuluq yağır. Barmağını dişləyib dedi:

– Yox, mən cəhənnəmə getmək istəyirəm. Deyirlər, orada lotu çoxdu. Tapşır mənə cəhənnəmdə yer saxlasınlar. Çılpağam, üşüyürəm.

Molla acıqlı-acıqlı çığırdı:

– Cəhənnəm məlaikəsi!

Səs gəldi:

– Bəli, sözünü de.

Molla dedi:

– Keçələ cəhənnəmdə bir isti yer saxla.

Səs gəldi:

– Əjdahanın yanında saxladım.

Keçəl dedi:

– Axund, çox yaxşı elədin, sümüklərim soyuqdan donub, heç olmasa orada doyunca isinərəm.

Mollanın acığı tutdu, keçəli qovdu. Keçəl qaranlıq düşənə kimi orada– burada girələndi. Qaranlıq düşəndə yavaş-yavaş zağanın yanına gəldi, bir bağlam otun altında gizləndi. Adamlar dağılıb evlərinə gedəndən sonra molla çölə çıxdı, hər tərəfə baxdı, gördü heç kəs yoxdur. İçəri girib dedi:

– Hamı gedib, kənara çıx.

Keçəl gördü mağaranın içindən bir qapı açıldı, içəridən bir adam çıxdı. Onun dalınca da beş-on adam gəldi. Keçəl baxdı ki, bunlar hamısı lotulardı. Bəli, gətirilən şeylərdən süfrəyə tökdülər. Yeməyə başlananda molla dedi.

– Ay uşaqlar, mənim keçəldən gözüm su içmir axı!

Lotubaşı dedi:

– Mənim də gözüm su içmir.

Lotular dedilər:

– O bizdə...

Sonra yeyib-içmək başlandı. Bəli, gecə yarıya kimi yeyib-içdilər, kef elədilər. Gecə yarıdan keçəndə hamısı yıxılıb xorhaxorla yatdılar. Keçəl yavaşca içəri girdi, qızıldan, cavahirdən ciblərini doldurub evlərinə getdi. Gördü yazıq nənəsi hələ də yatmayıb, onun yolunu gözləyir. Nənəsi keçəli görəndə dedi:

– Ay oğul, hardaydın? Lap ürək-göbəyimi yemişəm.

Keçəl qızılı nənəsinin qabağına tökdü. Qızılı görəndə arvadın gözləri işıqlandı. Nənəsi keçəldən soruşdu:

– Ay oğul, bunu haradan aldın?

Keçəl dedi:

– Nənə, neynirsən haradan aldığımı? Mən başqa yerə gedirəm.

Səhər tezdən gəlib məni soruşan olsa, deyərsən, yeddi illik səfərə çıxıb.

Nənəsi gözlərinin yaşını tökə-tökə dedi:

– Oğul, axı qoca nənəni bu xarabanın içində tək qoyub hara gedirsən?

Keçəl nənəsinin gözlərindən öpüb dedi:

– Nənə, ağlama, heç yerə getmirəm. Elə buralarda dolanacağam. İndi iş belə gətirib ki, mən gərək gizlənəm. Qorxma, mənə heç zad olmaz, dəyirmanın boğazından ölü salsalar, diri çıxaram.

Arvad dedi:

– Get, oğul, Allah köməyin olsun.

Keçəl qapıdan çıxıb, düz bir dostunun evinə getdi, əhvalatı ona söylədi. Dostu ona dedi:

– Qorxma, sənə heç nə eləyə bilməzlər. Qoy səhər açılsın, döşümüzə yatan adamlarla danışarıq.

Bunlar burada qalsın, sizə xəbər verim lotulardan. Səhər açılan kimi lotulardan bir dəstə düz keçəlin evinə gəldi. Nənəsindən keçəli soruşdular.

Nənəsi dedi:

– Yeddi ilin səfərinə çıxıb.

Lotular kor-peşiman geri qayıtmaqda olsunlar, o biri tərəfdən də keçəllə dostu təğyiri-libas oldular, küçə-bazara çıxdılar. Dostları onlara dedilər:

– Gecə sənlə gedib pusarıq, əgər sən dediyin doğru oldu, səni dünyanın malından qəni edərik. Yox, yalan oldu, elə pirin qabağında səni daş-qalaq edəcəyik.

Keçəl dedi:

– Sözüm düz olmasa, nə istəsəniz eləyərsiniz, razıyam.

Bəli, gün gəldi keçdi, qaranlıq düşdü. Keçəl böyük bir dəstə ilə zağanın yanına gəldi. Nə gördülər, lotubaşı mağaradan çıxıb zağaya gəldi, kefə başladılar. Molla dedi:

– Keçəli yox elədinizmi?

Lotular dedilər:

– Səfərə çıxıb.

Molla dedi:

– Mənim qorxum ondandı, səfərə-zada çıxmayıb.

Demə, bu gecə onların pul bölgüsü imiş. Molla qızılı, gümüşü ortaya tökdü, dedi:

– Bir pay mən, bir pay siz.

Lotubaşı razılaşmadı:

– Necə bir pay mən, bir pay siz? Xeyr, bir pay sən, bir pay mən, bir pay da yoldaşlarımız.

O biri lotular dedilər:

– Xeyr, elə zarafat yoxdu. Nə varsa, qardaş malı kimi böləcəyik.

Molla dilləndi:

– Danışan mən, cənnətdən yer alan mən, siz kimsiniz?

Lotubaşı tez cavab verdi:

– Cənnətin mələyi mən, yer verən, axirətdən xəbər gətirən mən, siz kimsiniz?

Dava-dalaş başlandı. Axırda bir pay mollaya, bir pay lotubaşıya, bir pay da qalanlara vermək şərtilə razılaşdılar. Yenə də məclis başlandı, içib hamısı kefləndi. Keçəlin gətirdiyi adamlar dəstə ilə zağaya doldular. Molla ilə lotuları qol-qola bağlayıb kəndə gətirdilər. Car çəkdirib hamını

topladılar. Onların fırıldaqlarını hamıya danışdılar. Toplaşanlar onları daş-qalaq elədilər. Keçələ “afərin” deyib, çoxlu ənam verdilər. Keçəl bu ənamları da götürüb, evlərinə apardı. Nənəsi ilə şad, kefi kök dolanıb, ömür sürdülər.

## ŞİRVAN QAZISI

Biri var idi, biri yox idi, bir yoxsul qoca kişi var idi. Bu kişinin Məhəmməd adlı bir oğlu, Nazpəri adlı bir qarısı var idi. Var-dövlətdən bu kişinin bir keçisindən başqa heç şeyi yox idi. Nazpəri qarı hər gün keçidən bir sərnic süd sağırdı. Kişisi aparıb bazarda çörəyə verirdi, ölmə-diril dolanırdılar. Günlərin bir günü kişi xəstələndi. Qoca kişi idi, yorğan-döşəkdən qalxa bilmədi, canını oğluna tapşırdı. Kişinin canı təzəcə çıxmışdı qapı açıldı, axund içəri girdi. Nazpəri qarı oğlunun qulağına pıçıldadı:

– Molla kişinin üstündə Quran oxuyacaq, bizdən haqq istəyəcək. Biz nə verəcəyik? De, çıxıb getsin.

Məhəmməd utana-utana mollanın yanına gəlib dedi:

– Axund, kasıbıq, sənə verməyə heç şeyimiz yoxdu. Atam da vəsiyyət eləyib ki, məni Quransız-zadsız basdırın. Zəhmət çək, get.

Mollanın ona acığı tutub dedi:

– Vələdüzzinanın sözünə bax!.. Mən Quranı, təlqini oxuyacağam!

Məhəmməd dedi:

– Axund, səndən nə gizlədim, sənə verməyə heç nəyimiz yoxdu.

Axund dedi:

– Necə, bəs keçi nədi? Keçini kişi qazanıb, şərən də onun təlqininə, Quranına verilməlidi.

Məhəmməd dedi:

– Axund, onda məni də, nənəmi də öldür, dədəmlə bir yerdə basdır, keçini apar. Bizi dolandıran o keçidi.

Molla onun sözünə baxmadı. Quran oxudu, təlqin verdi. Kişini dəfn elədilər. Elə o günün sabahı molla gəlib dedi:

– Keçini verməlisən.

Məhəmməd dedi:

– Vermirəm, oxumayaydın.

Molla dedi, o dedi. Axırda iş şikayətə düşdü. Deyirlər, baş qazı Şirvanda otururdu, adına da Şirvan qazısı deyərdilər. Çox mömin idi, axşama kimi məsciddə namaz qılardı, ibadət elərdi. Özü də ayağının hərəsinə bir qumrov bağlamışdı ki, yeriyəndə səs eləsin, qarışqa, qurd-quş qaçsın, ayağının altında qalmasın. Qalıb ölər, qazı günaha batar. Qazı arvad, qız görəndə üzünü bürüyərdi. Hamı ona yer üzünün Allahı deyərdi. Qərəz, molla ilə Məhəmmədin şikayəti gedib Şirvan qazısına çıxdı. Molla dedi:

– Mən bunun atasına namaz qılmışam, keçi gərək mənə çatsın.

Məhəmməd dedi:

– Keçi mənimdi. Bizi dolandıran elə odu, o olmasa hamımız acından qırılarıq.

Şirvan qazısı yerə-göyə baxdı, təsbeh çevirdi, dedi:

– Keçi şərən mollaya çatır.

Molla qaçaraq gedib keçini öz evinə apardı. O günün sabahı Nazpəri qarı da çatlayıb öldü. Məhəmməd nənəsini dəfn elədi, baş götürüb getdi. Məhəmməd az getdi, çox getdi, bir şəhərə çıxdı. Şəhərdə bir kor dərvişə rast gəldi. Məhəmməd kor dərvişə dərdini söylədi. Kor dedi:

– Oğlan, hər kimsən get, axşam bura gəl.

Məhəmməd axşamacan gəzdi, axşam gəldi korun yanına. Kor dedi:

– Gəl gedək.

Kor bir şam da alıb, Məhəmmədlə yola düşdü. Onlar şəhərdən çıxdılar. Gedib yetişdilər bir kahaya, girdilər içəri. Məhəmməd şamı yandırdı, oturub çox söhbət elədilər, çörək yeyib yatdılar. Səhər açılanda Məhəmməd gördü ki, başının altında bir boğça var, bir də içində min tümən olan kisə.

Dedi:

– Ağa dərviş, bu nədi?

Kor dedi:

– Oğul, o boğçadakını çıxart gey, o kisədəki pulu da cibinə tök, get şəhərə, axşam yenə bura qayıt.

Məhəmməd boğçanı açdı, bir dəst yaxşı libas gördü, götürüb geyindi, şəhərə çıxdı. Rast gəldiyi kora-şilə pul payladı. Cibi boş axşam qayıtdı kahaya. Kor ona dedi:

– Oğul, Məhəmməd, xərcliyin qaldımı?

Məhəmməd dedi:

– Yox.

Kor öz– özünə dedi: “Görünür, bu böyük külfətlidi”.

Axşam oldu, şam eləyib yatdılar. Səhər açıldı, yerlərindən qalxdılar. Kor dedi:

– Oğul, min tümən pul götür, get bazardan bir at al gətir.

Məhəmməd min tümən götürüb bazara getdi. Bir yaxşı at aldı, gətirdi. Kor əliylə atı yoxlayıb dedi:

– Yaxşı atdı.

Kor, atı qırx gün tövlədə bağlatdırdı. At kökəldi, gəmi kimi oldu, kor dedi:

– Oğul, Məhəmməd, min bu atı, get sənə zülm eləyən Şirvan qazısının sirrini öyrən, sonra gəl mənə nağıl elə.

Məhəmmədin Şirvan qazısından ürəyi yanıqlı idi. Ata minib yola düşdü. Az getdi, çox getdi, gəlib Şirvana çatdı. Bir karvansarada atını bağladı, getdi Şirvan məscidinə. Gördü Şirvan qazısı əyləşib. Yenə də ayağına bir cüt qumrov bağlayıb ki, yerindən qalxanda ayağının altında milçək, qarışqa qalıb, ölüb günah olmasın. Məhəmməd gördü qazı uzun günü məsciddə namaz qılır, Quran oxuyur, axşam olanda da evinə gedir. Bir neçə gün belə keçdi. Məhəmməd axşama kimi qazını pusurdu. Günlərin bir günü Məhəmməd qarabaqara qazının

dalına düşüb onun evinə getdi, bir yanda gizləndi. Xeylaq keçdi, gördü qazı molla Bəşiri çağırıb dedi:

– Get, yarağımı gətir.

Molla Bəşir getdi, bir qılınc, bir qalxan, bir dəst libas, bir qab şərab gətirdi. Qazı libası geyindi, qılıncı bağladı belinə, şərabdan o qədər içdi ki, gözləri yanmağa başladı. Mollayla evdən çıxıb getməyə başladılar. Məhəmməd də bunların dalınca qarabaqara gedirdi. Getdilər, bir imarətə çıxdılar. Qazı bu imarətdən kilimə bağlı bir şey düşürtdü, mollanın dalına verdi, gəldilər evlərinə. Məhəmməd də bunların dalınca gəldi. Qazı kilimi açdı. İçindən bir qəşəng qız çıxartdı. Molla Bəşirə dedi:

– Get, çarhovuzdakı qızları da gətir.

Bəşir gəldi çarhovuzun suyunu boşaltdı. Çarhovuzun altından bir taxt qalxızıb zirzəmidən tarlı-qavallı yüz qız çıxartdı, qazının yanına gətirdi. Qazı o gecə səhərəcən qızlarla kefə baxdı. Səhər molla Bəşir qızları yenə də apardı hovuzun altındakı zirzəmidə gizlətdi. Qazı ağ əmmaməsini başına qoyub, ağ qurşağı belinə bağlayıb məscidə gəldi. Məhəmməd də onun qarasıyla məscidə gəldi. Bəli, camaat tökülüb dedi:

– Qazı ağa, bu gecə də vəzirin qızını oğurlayıblar. Belə iş olmaz, hər gecə bir qız oğurlayırlar. Tədbir!..

Qazı dedi:

– Nə deyirsiniz? Canım belə şey olmaz! İndi əmmaməni yerə vuraram, bu şəhər Nuh şəhəri kimi alt-üst olar.

Camaat onun əl-ayağına düşüb dedi:

– Qazı ağa, qızlardan ötrü şəhəri dağıtma, amandı, bizə yazığın gəlsin! Yazığın gəlsin!

Qazı dincəlmədi. Birbaşa padşahın yanına getdi. Padşah əl-ayağa düşüb dedi:

– Qazı ağa, nə olub belə pərişansan?

Qazı dedi:

– Nə olub, şəhəri lotu-potu götürüb! Hər gecə bir qız oğurlayırlar. Bu gecə də vəzirin qızını oğurlayıblar.

Padşah əyanları toplayıb dedi:

– Gərək oğru tapılsın. Ta şəhərdə qız qalmadı.

Hərə bir tərəfə getdi. Qazı gəldi məscidə. Gün yavaş-yavaş batmaqda idi. Qazı evlərinə gəldi. Gözlədi gecədən bir xeylaq keçdi. Qazı yenə qılınc, qalxan qurşayıb, kəmənd götürüb molla Bəşirlə ən gizli imarətinə gəldilər. Məhəmməd də qarabaqara onların dallarıncan gəldi. Molla Bəşir gedib hovuzdan qızları çıxartdı. Yenə qazı qızlarla səhərə kimi kefə baxdı. Səhərə yaxın molla Bəşir qızları hovuzda gizlətdi. Qazı da əbasını geyib məscidə gəldi. Ona dedilər:

– Bu gecə də vəkilin qızını oğurlayıblar.

Qazı yenə özündən çıxdı, asdı, kəsdi, şəhəri dağıtmaq istədi. Axşam oldu, qazı yenə qılınc bağlayıb getdi. Bu gecə də padşahın qızını götürüb gətirdi evinə. Molla Bəşir də hovuzdan qızları gətirdi. Qazı səhərə kimi kefə baxdı. Səhər yenə molla Bəşir qızları yerbəyer elədi. Qazı əbasını geyib gəldi məscidə. Məhəmməd qarabaqara gəlib bir kənarda durdu. Adamlar məscidə tökülüşüb dedilər:

– Bu axşam da padşahın qızını aparıblar.

Qazı ta bu səfər özündən lap çıxdı. Gəldi padşahın hüzuruna, başını yolub dedi:

– Şəriət əldən getdi! Bu Allahın günahkarlarını tez daş-qalaq elə! Elə ah çəkəcəyəm ki, göydən şəhərə od yağsın!

Padşah hökm elədi, başıpapaqlıların hamısını tutdular. Padşah onların boyunlarını vurmağa fərman verdi. Məhəmməd gördü ki, günahkar dura-dura camaatı nahaqdan qırırlar, səbr eləməyib irəli yeridi. Padşaha baş endirib dedi:

– Padşah sağ olsun, bu adamların günahı yoxdur, onları öldürtmə. Əgər istəyirsən günahkar lotunu tapasan, onda bu

axşamlığa padşahlığı mənə ver. Əgər tapdım, tapdım, tapmadım mənim də boynumu vurdur.

Padşah razı oldu. Adamları öldürtməyib dama saldırtdı. Axşam oldu, Məhəmməd padşahı, vəziri, bir də vəkili götürdü. Gizlin qazının evinə gəldilər. Onlar bir yanda gizləndilər. Gecədən bir xeyli keçmişdi. Qazı dedi:

– Molla Bəşir, dayanma, get qızları gətir.

Molla Bəşir gedib qızların hamısını gətirdi. Elə bu zaman Məhəmməd, şah, vəzir, vəkil birdən içəri girdilər. Nə gördülər? Gördülər indiyə kimi bütün şəhərdə itən qızların hamısı burdadı. Qazını tutub əl-ayağını bağladılar. Səhər açıldı. Qazını gətirdilər camaatın içinə, gördüyü işlərin hamısını camaata danışdılar. Sonra Məhəmməd hökm elədi qazını iki şaqqa elədilər, hər şaqqasını bir darvazadan asdılar, gələn də baxırdı, gedən də. Məhəmməd, şahın padşahlığını özünə verdi. Tutulanları da azad elətdirdi. Şirvan qazısının başını kəsib götürdü. Həmin gün atı minib yola düşdü. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Gəldi kor olan kahaya çatdı. Korun yanına gedib dedi:

– Sən Şirvan qazısının sirrini məndən istəmişdin, mən başını gətirdim.

Korun şadlığından gözləri yaşarıb dedi:

– Oğul, mənim gözlərimi həmin qazı kor eləyib. Yaxşı qisasımı aldın. Get, hər sabah başının altında bir kisə pul, bir dəst paltar olacaq. Ölüncə keflə dolanarsan.

Məhəmməd korla halallaşıb gəldi öz yerlərinə. Şirvan qazısının lotuluğunu hamıya söylədi. Adamlar tökülüşüb onu didərgin salan mollanı da daşqalaq elədilər. Məhəmmədin keçisini də özünə verdilər.

## ÜÇGÜL KEÇƏL

Bir obada bir üçgül keçəl var idi. Bu keçəlin bir keçisindən başqa heç nəyi yox idi. Keçəl bir gün keçisini qulaqlayıb bazara satmağa çıxartdı. Bazarda bir aşpaz ona yanaşıb soruşdu:

– Keçəl, keçini neçəyə deyirsən?

Keçəl çox qarınqulu idi. Bərk acmışdı, dedi:

– Qarın dolusu aşa.

Aşpaz fikirləşdi ki, keçəl nə qədər yeyən olsa bir qazan aşdan artıq yeməyəcək, dedi:

– Aldım.

Keçəl dedi:

– Satdım.

Aşpaz keçini haylayıb içəri saldı, keçəli də apardı dükanına, dedi:

– Bu qazan, bu da sən, nə qədər qarnın tutur ye.

Keçəl oturdu qazanın yanında, girişdi aşa, qazanı boşaltdı. Əlini o biri qazana uzatdı. Aşpaz gördü ki, bu haramzadə doyan deyil, başına bir qapaz salıb dedi:

– Keçini də götür, buradan rədd ol.

Keçəl keçini qulaqlayıb getdi halva dükanına. Halvaçı soruşdu:

– Keçini satırsanmı?

Keçəl dedi:

– Satıram.

Halvaçı soruşdu:

– Neçəyə verirsən?

Keçəl dedi:

– Qarın dolusu halvaya.

Halvaçı da fikirləşdi ki, keçəl yesə, yesə ancaq bir neçə büküm halva yeyə bilər, dedi:

– Aldım.

Keçəl dedi:

– Satdım.

Keçəl halvanın böyründə əyləşdi. Halva bükümlərini bir götürdü iki götürdü basdı içəri. Halvaçı gördü, halvası qurtarha-qurtardı, onun başına bir qapaz çəkib dedi:

– Keçini də götür, itil burdan.

Keçəl keçini qulaqlayıb gəldi kababçının yanına. Kababçı dedi:

– Keçini neçəyə deyirsən?

Keçəl dedi:

– Bir qarın kababa.

Kababçı dedi:

– Aldım.

Keçəl dedi:

– Satdım.

Keçəl daraşdı kababın canına, nə qədər bişmiş kabab vardı, hamısını yeyib dedi:

– Yenə bişir! Belə şeylər qarnımın bir küncündə qalar.

Kababçı gördü ki, iş belədir, dedi:

– Götür keçini də, itil başımdan.

Keçəl keçini qulaqlayıb evlərinə gedirdi. Güzarı düşdü bir xanımın evinə. Gördü evdə heç kəs yoxdu. Keçiylə girdi taxtın altında gizləndi. Xanım evə gəldi, özünə bəzək verdi, düzəltdi. Bu zaman qapı döyüldü. Xanım qapını açdı. Aşpaz əlində bir sini aş buğlana-buğlana içəri girib oturdu. Təzəcə söhbətə başlamışdılar ki, qapı döyüldü. Aşpaz əl-ayağa düşdü. Xanım dedi:

– Ay aman bəlkə ərimdi!

Aşpaz dedi:

– Bəs mən neyləyim?

Xanım dedi:

– Gir taxtın altında gizlən. Görək nə olar?

Aşpaz taxtın altına girdi. Xanım onun gətirdiyi aşı da taxtın altına itələyib qapını açdı. Keçəlin keçisini almaq istəyən halvaçı əlində bir böyük qab halva içəri girib oturdu. Təzəcə söhbətə başlamışdılar ki, qapı döyüldü. Halvaçı qaçıb taxtın altında gizləndi. Keçəl aşla halvanı yanına çəkib, yeməyə başladı. Xanım qapını açdı, həmin kababçı əlində bir sini isti kabab içəri girdi. Təzəcə oturmuşdu ki, qapı döyüldü. O da qaçıb taxtın altında gizləndi, kababı da taxtın altına çəkdi. Keçəl kababı da qabağına çəkdi. Xanımın əri içəri girdi. Taxtın altında gizlənənlər bərk qorxuya düşdülər. Xanımla ağa şirin söhbətdə idilər. Keçəl gizlənənlərə dedi:

– Keçi mələmək istəyir!

Dedilər:

– Amandı, qoyma mələsin!

Keçəl xörəkləri tamam yeyib dedi:

– Keçim adətkardı, mələyəcək.

Yalvar-yaxar elədilər, olmadı. Keçəl keçinin qulağını dişlədi, keçi mələdi. Ağa diskinib xanıma dedi:

– Ay arvad, bu nədi?

Arvad dedi:

– Qonşunun keçisidi, sürüdən qalmışdı, gətirib burada bağlamışam.

Ağa arvadın sözünə inandı, dinmədi, bir az keçdi, keçəl yenə dedi:

– Mənim keçim yenə mələmək istəyir.

Dedilər:

– Amandı, keçini mələtmə, nə istəyirsən verək.

Keçəl dedi:

– Əlli tümən verin, mələtməyim.

Aşpaz çıxardıb keçələ əlli tümən pul verdi. Yenə bir xeyli keçdi. Keçəl dedi:

– Mənim keçim yenə mələmək istəyir.

Dedilər:

– Ay aman, qoyma mələsin, nə istəyirsən verək.

Keçəl dedi:

– Əlli tümən də verin, qoymayım mələsin.

Halvaçı çıxardıb əlli tümən verdi. Bir az keçəndən sonra keçəl yenə dedi:

– Keçim mələmək istəyir. Əlli tümən də ötürün bəri, qoymayım mələsin.

Bu dəfə də kababçı çıxardıb əlli tümən verdi. Beləliklə, keçəl onların pullarını tamam alıb cibinə qoydu. Sonra keçini qulağından tutub evin içinə tulladı.

– Ay keçi alan, ay keçi alan, – deyib haray təpdi.

Ağa məəttəl qalıb dedi:

– Ay keçəl, haradan çıxdın, bəyəm bura bazardı ki keçi satırsan?

Keçəl dedi:

– Ağa, kababçı burada, halvaçı burada, aşpaz buarda. Bundan yaxşı bazar harda ola bilər?

Bu sözü eşidəndə aşpaz, kababçı, halvaçı taxtın altından çıxıb qaçdılar. Ağayla arvadı bunların dalınca getdilər. Keçəl evi xəlvət görüb vəzndə yüngül, qiymətdə ağır evdə nə var idi yığışdırıb apardı. Ağa ilə xanım aşpazı, halvaçını, kababçını tuta bilməyib evə qayıtdılar. Nə gördülər? Keçəl evi yığışdırıb aparıb. O yana keçəl, bu yana keçəl tapmadılar, yana-yana qaldılar. Keçəl də ömür sürüb dövran keçirdi, siz də yaşayın dövran keçirin.

## AĞAYLA NÖKƏR

Biri var idi, biri yox idi, üç qardaş, bir bacı var idi. Qardaşlar sövdəgərlik elərdilər. Bir gün bunlar sovdəgərliyə getdilər. Qız da düyü arıtlayırdı ki xörək bişirsin. Gördü yerdə bir göy muncuq var. Götürdü bu göy muncuğu qoydu ağzına. Necə oldusa, özünü unutdu, birdən göy muncuğu uddu. Bir müddət keçəndən sonra, bu qız gördü hamilədi. O saat başa düşdu ki, hər nə əngəl oldusa, həmin göy muncuqdan oldu. Bilmədi neyləsin. Bunu burda qoyum, sizə kimdən xəbər verim, qızın qardaşlarından. Qardaşlar sövdalarını qurtarıb evə döndülər, gördülər ki, bacılarının qarnı şişib, lap ağzına dəyir. Bacılarına dedilər:

– Bacı, düzün deginən, bu nə işdi?

Qız nə qədər and içdi, qardaşları inanmayıb dedilər:

– Yalan deyirsən!

Böyük qardaş kiçik qardaşını çağırıb dedi:

– Apar, bu çəpəli öldür! Bizi binamus eləyib, papağımızı yerə soxdu.

Balaca qardaş qızı götürüb çıxdı bir meşənin kənarına, istədi qızı öldürsün, qız ağlaya-ağlaya dedi:

– Qardaş, mənim günahıma batıb nahaq qan eləmə! Mən heç bir kişi xeylağı görməmişəm. Ancaq düyü arıtlayanda bir göy muncuq tapıb, ağzıma atdım, bilmədim uddum, hər nə oldusa, o göy muncuqdan oldu.

Oğlanın qıza yazığı gəlib dedi:

– Bacı, baş götür qaç bü mahaldan.

Qız ağlaya-ağlaya qardaşından ayrıldı. Az getdi, çox getdi, bir biyabana çıxdı. Gördü burda bir qalaça var. Girdi bu qalaçaya. Gördü burada düyü, yağ, hər nə desən var, ancaq heç bir insan əsəri yoxdu. Qız fikirləşdi, dedi: “Hər nə isə bu evin sahibi var. Hara gedibsə, qayıdacaq”. O saat qız qollarını

çırmayıb ocağı qaladı, bir qazan xörək bişirdi, qoydu dəmə, özü də gizləndi. Elə ki, axşam oldu, qız gördü budu, bir div gəldi, qapını açdı, girdi içəri. Baxdı, gördü nə? Ev silinib, süpürülüb, çiçək kimi təmizlənib. Xörək hazırlanıb, qazan da dəmə qoyulub. Div çox şad olub hay vurdu:

– Hər kimsən çıx, sənnən işim yoxdu.

Qız xəlvət yerdən çıxdı. Div gördü, paho, bu bir qızdı ki, yemə, içmə xətti xalına, gül camalına tamaşa elə. Div qıza dedi:

– Qız, sən burada nə gəzirsən?

Qız başına gələn əhvalatı divə söylədi. Div dedi:

– Neynək, hər nə desən burada var. Sən ol mənim bacım, mən də olum sənin qardaşın. Sən oturarsan burada, mən hər gün gedərəm, ovlaram, quşlaram, gətirərəm dolanarıq.

Qız çox şad olub xörəyi çəkdi, süfrəyə düzdü, yedilər. Süfrəni qız yığışdırdı. Div bir tərəfdə, qız bir da bir tərəfdə yatıb sabahı açdılar. Belə ki, hər gün div gedib ovlayırdı, quşlayırdı, yeyib, içib bacı-qardaş kimi dolanırdılar. Bir müddət belə dolandılar, qızın vədəsi tamam oldu, bir oğlan doğdu, adını qoydular Göy Muncuq. Bəli, Göy Muncuq bir yaşından beş yaşına, beş yaşından on yaşına çatdı, pəhləvan kimi bir oğlan oldu. Qabağına nə boyda böyük ağac gəlsə, qoparıb kənara tullayardı. Div bunu hər gün özü ilə ova aparardı. Ceyrandan, maraldan ovlayıb yenə gəlirdilər evlərinə. Bunlar burada qalsın, sizə kimdən xəbər verim, bu qızın qardaşlarından. Bunlar yenə də sövdəyə getmişdilər. Üstlərinə hərамı düşüb, var-yoxlarını əllərindən aldı. Bunlar qaldılar lüt. Qardaşların hərəsi bir işə getdi. Kiçik qardaş öz-özünə dedi:

– Gedim, bacımı axtarım.

O yerdən ki, qızı ötürmüşdü, üz qoydu qız gedən tərəfə, gəzəgəzə gedib çıxdı həmin qalaçaya ki, bacısı ordaydı. İçəri

girdi, gördü bacısı xörək hazırlayır. Bacısı onu görən kimi tanıdı, boynunu qucaqlayıb dedi:

– Ay qardaş, sən xoş gəlmisən. Nə əcəb?

Qardaşı bütün əhvalatı bacısına nağıl elədi. Qız da başına gələnləri qardaşına danışdı. Bu söhbətdə ikən divlə Göy Muncuq ovdan gəldilər. Göy Muncuq anasından soruşdu.

– Ana, bu kimdi?

Anası dedi:

– Bala, bu həmin kiçik dayındı ki, məni öldurmədi, buraxdı.

Bunlar təzədən öpüşdülər, görüşdülər, gecəni şadlıqla keçirdilər. Səhər qardaş-bacı qaldı evdə, divlə Göy Muncuq getdi ova. Bir müddət belə keçdi. Axırda oğlan fikirləşdi ki: "Nə vaxta qədər mən burda qalacağam?.. Gərək gedəm özümə bir iş tapam". İstədi getsin, bacısı dedi:

– Dayan, Göy Muncuqla div gəlsin, görüş, sonra gedərsən.

Bəli, elə ki axşam oldu, çölə gedənlər gəlib çıxdı. Qız əhvalatı onlara nağıl elədi. Divlə Göy Muncuq nə qədər yalvardılar, onu əyləndirmək istədilər, oğlan razı olmadı. Axırda Göy Muncuq dedi:

– Dayı, indi ki gedirsən, nəbadə, göy göz, sarı saqqal kişiyə nökər olasan.

Başından bir tük çəkib verdi, dedi:

– Nə vaxt dara düşsən, bu tükü at ocağa, o saat hazır olaram.

O gecəni keçirdilər, səhər Göy Muncuğla div ova getdi. Qızın qardaşı da üz qoydu günçıxana. O qədər getdi ki axırda çıxdı bir şəhərə. Gördü bir göy göz, sarı saqqal kişi çığırır:

– Ay nökər olan, ay nökər olan!

Oğlan dedi:

– Mən olaram.

Kişi dedi:

– Bala, onda gəl, gedək evə.

Getdilər evə. Çörəkdən-zaddan yeyib yatdılar. Səhər tezdən kişi onu durğuzub dedi:

– Di dur, işə gedəcəksən. Ancaq səninlə bir şərtim var, gərək itim harda dursa, toxumu ora səpəsən. Öküzüm harda durdu oranı əkəsən. Qatığı yaralama, çörəyi paralama doğra, doyunca ye!

Oğlan durdu, öküzləri boyunduruqları, toxumu, xışı da götürüb çıxdı işə. Öküzlər düz gedib durdular bir kolluqda. İt də gedib durdu çayın ortasında. Oğlan qaldı məəttəl. Fikir elədi ki, kolluq yeri əkmək olmaz, toxumu da suya səpmək olmaz. Əlacı kəsilib geri qayıtdı. Kişi gördü budu oğlan qayıdıb, dedi:

– Niyə qayıtdın?

Oğlan dedi:

– Öküz getdi durdu kolluqda, it də durdu çayın lap ortasında, oraları da əkmək olmaz. Onun üçün qayıtdım.

Kişi dedi:

– Mənim şərtim şərtdi, gərək əkəydin.

Kişi oğlanı süpürləyib istədi başını kəssin. Oğlan tez Göy Muncuq verdiyi tükü atdı ocağa. Tük yanınca kişi oğlanın başını kəsdi. Göy Muncuq onda yetişib gördü ki dayısını kişi öldürüb. Ta bir söz demədi. Kişi baxıb gördü, yanında bir cavan oğlan dayanıb, dedi:

– Bala, nə qulluğun var?

Göy Muncuq dedi:

– Əmi, nökər olacağam.

Kişi dedi:

– Neynək, elə mənə nökər lazımdı. Ancaq mənim bir neçə şərtim var, gərək qəbul eləyəsən. Yerinə yetirməsən, səni öldürəcəyəm.

Göy Muncuq dedi:

– Şərtin nədi?

Kişi dayısına dediyi şərti buna da dedi. Göy Muncuq razı oldu. Gecə yatdılar. Səhər açıldı, kişi dedi:

– Dur get işə. Öküzlər harda dursa oranı ək, it harda dursa, ora toxum səp. Qatığı elə ye ki, üzünün qaymağı pozulmasın, çörəyi də elə ye ki, qıraqları kəsilməsin. Qatığı yaralama, çörəyi paralama, doğra doyunca ye. Göy Muncuq: "baş üstə!" deyib, öküzləri götürdü, getdi cüt əkməyə. Öküzlər gedib durdu kolluqda, it də getdi, durdu çayın ortasında. Göy Muncuq bunu görüb toxumu tökdü çaya. Ulamaları da çıxardıb öküzlərin hərəsinin boynunun ardından bir dəfə vurdu, o saat da öküzlər yıxılıb öldülər. Göy Muncuq öküzlərin başını kəsdi. Sonra, süfrəni açdı qabağına. Vurub badyanın altını deşdi. Başladı deşdiyi yerdən qatığı sormağa. Qaymaq getdi badyanın dibinə. Çörəyin də qırağını kəsib qoydu bir yana, başladı ortasını yeməyə. Çörəyi yeyib qarnını bərkidəndən sonra, durdu yollandı evə. Kişi gördü budu Göy Muncuq gəlir. Amma öküzlər yoxdu, dedi:

– Bala, Göy Muncuq, bu gün neylədin?

Göy Muncuq dedi:

– Çörəyi yedim. Qatığı da sən deyən kimi içdim.

Kişi gördü çörəyin qırağı durur, qatığın da qaymağı tərpənməyib, dedi:

– Bəs öküzlər hanı?

Göy Muncuq dedi:

– Öküzlər getdilər, durdular kolluqda. Nə qədər elədim, çəkə bilmədilər. Axırda vurdum başlarına. oldular. Toxumu da tökdüm çaya, it çayda üzürdü.

Kişi dedi:

– Nə danışırsan? Bəyəm dəli olmusan?

Göy Muncuq cavab verdi:

– Mən niyə dəli oluram, sən özün şərt qoymuşdun, şərtinə əməl elədim.

Kişinin əlacı kəsildi, dedi:

– Öküzlər murdar oldu? Yoxsa başın kəsmisən?

Göy Muncuq dedi:

– Ta niyə murdar eləyirdim? Heç olmasa ətin yeyərik də. Başlarını kəsmişəm.

Kişinin əlacı üzüldü, dedi:

– Göy Muncuq, gedək barı öküzlərin cəmdəklərini gətirək. Atam öləndə ona ehsan verməmişdim, ona ehsan verim.

Getdilər, öküzlərin cəmdəklərini gətirdilər, başladılar ehsan verməyə. Kişinin bir zalım qardaşı da var idi. Başladı çöldə səs-küy salmağa. Kişi dedi:

– Göy Muncuq, dur onun səsini kəs. Deynən səs eləməsin.

Göy Muncuq çıxdı çölə. Kişinin qardaşının iki qılçasından yapışıb dartdı, iki böldü. Yarısını bu itə atdı, yarısın da o biri itə. Girdi içəri. İtlər başladılar boğuşmağa. Kişi dedi:

– Göy Muncuq, itlər niyə boğuşur?

Göy Muncuq cavab verdi:

– Qardaşının ətindən koxa itinə ət çatmayıb ona görə.

Ağa dedi:

– Ədə, nə qardaşımın əti, sən nə danışırsan?

Göy Muncuq dedi:

– Sən dedin ki, get onun səsini kəs, mən də gedib kəsdim, neyləyim?

Ağa dedi:

– Ədə, barı yüyür, oğlanın meyitini gətir, aparaq basdıraq.

Göy Muncuq gedib oğlanın meyitini gətirdi. Kişiynən arvadı meyiti götürüb qəbiristanlığa aparanda Göy Muncuğa dedilər:

– Göy Muncuq, köpək oğlu, sən də bel, kürək götür gəl.

Bunlar yola düşən kimi Göy Muncuq fikirləşdi, bildi ki, ağası onu öldürmək üçün fürsət axtarır. Bel zad götürmədi, boş atıla-atıla düşdü onların dalınca. Getdilər qəbiristanlığa. Ağa dedi:

– Bəs, beli, kürəyi neylədin?

Göy Muncuq dedi:

– Nənən vermədi.

Ağa dedi:

– Get başına bir yumruq vur, beli, kürəyi al gətir.

Göy Muncuq evə qayıtdı, istədi arvadın başına bir yumruq vursun, fikirləşdi ki, bu yazıq nəyin yiyəsidi, niyə vurum. Bel, kürək götürüb qəbiristanlığa getdi. Qəbir qazıyıb ağanın qardaşını basdırdılar. Geri qayıtdılar. Ağa xəlvətcə arvadı ilə danışdı.

– Bu nökər bizim başımıza bəla açacaq. Yaxşısı budur ki, bunu yatırdaq, yüklənək qaçaq. Çıxıb gedər, qayıdarıq.

Göy Muncuq bunu eşitdi. Axşam olan kimi ağa arvadına dedi:

– Ay arvad, nökər yorğundu, yerini sal yatsın.

Arvad Göy Muncuğın yerini saldı. Göy Muncuq yerə girən kimi başını bürüdü, yalandan başladı xoruldamağa. Arvad kişisinə yavaşca dedi:

– A kişi nə aparaq?

Ağa dedi:

– Vəzndən yüngül, qiymətdən ağır şeyləri qabla fərməşlərə. Bir neçə dəst də yatıb-duracaq qoy. Tez yüklənək, qaçaq.

Göy Muncuq bunu da eşitdi. Bunların başı qarışan kimi Göy Muncuq xəlvətcə durdu girdi firməşə, paltarların arasına. Gecənin bir aləmində arvadnan kişi ağırdan-yüngüldən atlara, qatırlara, öküzlərə çatıb düşdülər yola. O qədər getdilər ki, gün çıxanda çatdılar bir dəryanın qırağına yüklərini açdılar. Ağa dedi:

– Ay arvad, bir az xörək hazırla yeyək.

Arvad qazanı odun üstə qoyanda dedi:

– A kişi, nökər olsa idi, bir az odundan-zaddan yığardı.

Bunu eşidən kimi Göy Muncuq fərməşdən çıxdı, dedi:

– Mən burdayam, nə qulluğun var?

Ağa bunu görən kimi öz-özünə dedi:

– Vay, evi yıxılan canım!

Göy Muncuq başladı odun yığmağa. Gördü ağa arvadına deyir:

– Axşam olanda nökərin yerin lap dəryanın qırağında sal, ondan bəri öz yerini, lap qıraqdan da mənim yerimi sal. Gecə mən deyəcəyəm, ay arvad, bir az o yana yat. Sən də deyərsən ki, Göy Muncuq o yana yat. Belə-belə onu itələyib salarıq dəryaya, başımızdan rədd olar.

Xörəyi-zadı yedilər. Axşam araya gələn kimi kişi necə demişdi, arvad da eləcə yerləri saldı. Göy Muncuq gözlədi, bunlar yuxuya gedəndə bir kötük götürüb qoydu öz yerinə. Özü kənarda yatdı. Gecənin bir aləmində ağa arvadı dürtmələyib dedi:

– Ay arvad o yana yat.

Arvad da kötüyü dürtmələyib dedi:

– Göy Muncuq, bir az o yana yat.

Belə-belə, kişi arvadı, arvad da kötüyü itələyə-itələyə şappıltı ilə düşdü suya. Tez Göy Muncuq qışqırdı.

– Suya düşən kimdi?

Hay-haray düşdü. Baxdılar ki, heç bir hiylə ilə nökəri öldürə bilməyəcəklər. Ağa öz canının qaydına qaldı. Səhər açıldı, Göy Muncuq, böyük bir qazanı su ilə doldurdu, qoydu ocağın üstə. Şaxdan, şəvəldən altına basıb şaqqır-şuqqır qaynatdı. Göy Muncuq ağaya dedi:

– Ağa, eşitmişəm, sən mənim dayımı çimizdirmisən, əvəzində, indi soyun, səni də mən çimizdirəcəyəm.

Ağa nə qədər yalvardı, nökər onun sözünə baxmadı, qaynar-qaynar qazan dolu suyu tökdü onun başına. Ağanı diri gözlü bişirib öldürdü. Xanıma dəymədi. Düz qayıtdı nənəsinin yanına. Onlar yedi, yerə keçdilər. Siz də yeyin dövrə keçin. Göydən üç alma düşdü; biri mənim, biri özümün, biri də nağıl deyənin.

# MƏNZUM NAĞILLAR

## BUZ ÜSTƏ

Bir uşaq getdi buz üstə,
Tappadan dəydi diz üstə,
Dedi: – A buz, nə güclüsən?
Dedi: – Mən güclü olsam,
Məni gün əritməz.
Dedi: – A gün, sən nə güclüsən?
Dedi: – Mən güclü olsam,
Üzümü bulud tutmaz.
Dedi: – A bulud, sən nə güclüsən?
Dedi: – Mən güclü olsam,
Məndən yağış keçməz.
Dedi: – A yağış, sən nə güclüsən?
Dedi: – Mən güclü olsam,
Məndən ot bitməz.
Dedi: – A ot, sən nə güclüsən?
Dedi: – Mən güclü aolmaz.
Dedi: – A yağ, sən nə güclüsən?
Dedi: – Mən güclü olsam,
Məni siçan yeməz.
Dedi: – A siçan, sən nə güclüsən?
Dedi: – Mən güclü olsam,
Məni pişik yeməz.
Dedi: – A pişik, sən nə güclüsən?
Dedi: – Mən güclüyəm, duraram,
Bığlarımı buraram,
Yük üstü yaylağımdı,

Yük dibi oylağımdı,
Təndir üstü qışlağımdı/

## QARI

Bir qarıcıq var idi,
Tumancığı dar idi,
Canından bezar idi.
Aftafa aldı ələ,
Getdi buz üstə belə,
Buz üstündə yoruldu,
Aftafası qırıldı.
Asılana-asılana fəğan eylədi,
Üzün tutub buza belə söylədi:
– Nə zalımsan, sən a buz?
– Mən zalım olsaydım,
Gün məni əritməz idi.
– Gün, sən nə zalımsan?
– Mən zalım olsaydım,
Bulud qabağımı kəsməz idi.
– A bulud, sən nə zalımsan?
– Mən zalım olsaydım,
Yağış məndən yağmazdı.
– A yağış, sən nə zalımsan?
– Mən zalım olsaydım,
Göy ot məndən bitməzdi.
– Ay ot, sən nə zalımsan?
– Mən zalım olsaydım,
Qoyunlar başımı üzməzdi.
– A qoyunlar, siz nə zalımsınız?
– Biz zalım olsaydıq,
Canavar bizi yeməz idi.
– Canavar, sən nə zalımsan?
– Mən zalım olsaydım,
Qara köpək məni boğmaz idi.

– Qara köpək, sən nə zalımsan?
– Mən zalım olsaydım,
Siçanlar çörəyimi yeməz idi.
– Ay siçanlar, siz nə zalımsınız?
– Biz zalım olsaydıq,
Pişiklər bizi boğmaz idi.
– Ay pişiklər, siz nə zalımsınız?
– Biz zalımıq, zalımıq,
Yük üstü yorğanımız,
Kürsü üstə qışlağımız.

# UŞAQ OYUN–TAMAŞALARI

## BACI-BACI,
## YAXUD QARA PİŞİK

İki dəstə uşaq üz-üzə dayanır. Birinci dəstədəkilər:
– Ay bacı, hey!
İkinci dəstə:
– Hey.
– Oralarda xoruz varmı?
– Var.
– Kişdə gəlsin bura
yoxsa göndərrəm göra.
– Kişdiyirəm getmir.
– Vur, qıçı sınsın.
Axmaqlığından utansın.
– Vurdum sınmadı.
Qızardı, amma utanmadı.
– Bir də vur, sındır,
Sümüyünü göndər.
Ətini saxla.
– Ay bacı, hey!
– Hey.
– Suya gedirəm, xoruzun ətindən mənə də saxla.
– Sən gələnə kəsib payını göndərərəm.
– Ay bacı, hey!
– Hey.
– Mənim ət payım hanı?
– Qab üçün evə baş vurdum. Gəldim, gördüm, ala pişiknən, qara pişik hamısını yeyib.

Hər iki dəstənin uşaqları bir ağızdan qışqırırlar:

– Vay, ala pişiknən, qara bişiyi axtaraq, ətimizi qarnından çıxaraq.

Uşaqların hərəsi bir tərəfə qaçıb pişik axtarmağa başlayırlar. Pişiyi birinci tapan dəs tə oyunu aparmış olur.

## BEL ÜSTƏ KİMİN ƏLİ

Oyunu adətən qışda qar, yağış yağanda, soyuqlu, küləkli havada əl-ayaq eşitdən yığılanda oynayırlar. Uşaqlar isti otaqların birinə çəkilib darıxmasınlar deyə tamaşa, şəkililərin dili ilə desək, hoqqa çıxardırlar. Sırayla yan-yana oturub ayaqlarını uzadırlar. Sayçı ortada durub oyunçuları müəyyənləşdirir. Sanama söyləyir, axırıncı söz kimin üstündə qurtarsa, o «canını qurtarmış» sayılır. Sayçı oxuyur:

Hoppan, huppan,
Yarıl, yırtıl,
Su iç qurtul.
Əmirqulu
Döy nağara
Çıx qırağa.

Sayçı o qədər sayır ki, bir nəfər qalır. Onu uzadırlar üzü aşağı palazın üstünə, tələb edirlər ki, əlləriylə gözlərini qapasın. Sonra «qırağa çıxan» uşaqlardan biri yumrucunu qoyur bu oyunçunun belinə. Oxuyurlar:

Əl üstə kimin əli,
Əlim, əlim, kəpənək,
Güldən çıxan kəpənək.

Kəpənəyin içinə,
Süleymanın saçına.
Getdim hələb yoluna,
Saldım, soldum soluna.
Hələb yolu cəm bazar,
İçində meymun gəzər.
Meymun məni qorxutdu,
Dovşan da bir ox uddu
Qulaqların şəklədi,
Bizdən xəbər bəklədi.
Sağım, solum sarımsaq,
Burada yox qurumsaq
Bel üstə kimin əli?
Tapsana bu közəli?
(Yaxud:
Durub yaman məzəli)

Uzanan uşaq cavab verir:

– Bel üstə şeytan əli,
Durub Murad məzəli.

Düz tapsa, o qalxır, adı çəkilən uşaq onun yerini tutur. Səhv desə, hamı bir ağızdan oxuyur:

– Əli əlimdən gəlir,
Əlimin içindən gəlir.
İçinin içinnən gəlirr.
İçində də bir noxud,
Onun içinnən gəlir.
Yumruqlar qoşa gəlir.
Sənə tamaşa gəlir.

Bu dəfə uşaq iki nəfəri tapmalıdır. Yenə düz deməsə onu «cəzalandırırlar». Ya yüncülcə kötəkləyirlər, ya da eşşək kimi anqırdırlar. Sonra deyirlər:

– Meşədə sən nə görmüsən?

– Meşədə mən qaz (və ya inək, at, balıq və s.) görmüşəm.

Uşaqlar dırnaqları ilə onun belini didir və qaz kimi qaqqıdaşırlar. Oyun uzun müddət davam edir. Çox hallarda bütün uşaqlar həmin vəziyyətə düşür. Elə ki, kimsə ikinci dəfə palazın üstünə uzanmalı olur, ona bir heyvanın adını qoyurlar. Məsələn, eşşək adını qoyublarsa, oxuyurlar:

Eşşəyim, ay eşşəyim,
Belin olsun döşəyim.
Boynu ala eşşəyim,
Qalma dala, eşşəyim.
Sən gəl bizə qoşulma.
Yükü apar, boş olma.
Palanı ağır eşşək,
Sən bir az anqır, eşşək.

## QURD BABA

Bir dəstə uşaq bir-birinin ardınca düzülür. Uca boylulardan, yaxud yaşca böyüklərdən biri lap qabaqda durub Baş çoban olur. Axıra düşən «Alabaş» rolunu üzərinə götürür. Uşaqlar bir-birilərindən tuturlar. Püşkatma yolu ilə bir nəfəri də qurd seçirlər. O, dəstədən kənarda ozünə bir yer tapır. Qurdla Baş çoban arasında belə bir söhbət başlayır: qurb deyir:

– Çoban qardaş, hey!

– Hey.

– Toynan gəlim, vaynan?

– Toynan.

– Atdı gəlim, piyada?

– Atdı.

Əgər Baş çoban əksinə desə, qurd ağlayıb-sızlayır.

– Neçə gündür ağzıma yemək dəymir, ayaqlarımda taqətim qalmayıb, – deyib ağır yerişlə gəlir. Dialoqda olduğu şəkildə tələb edilsə, bir ayağını qaldırıb hoppana-hoppana, oxuyub oynaya-oynaya uşaqların – qoyunların üstünə cumur. Bir-birinlərindən bərk yapışmış uşaqlardan kimisə yerindən ayıra bilsə özü ilə aparır – guya qoyun tutub. Ayıra bilməsə, sakitləşib Baş çoğana yaxınşır, əlindəki balaca çubuğu verib deyir:

– Al, dədəm göndərib, deyib bu yağlı qəlyanı çəksin.

Sonra gəlidiyi kimi geri qayıdır.

Baş çoban həmin çubuğu qəlyan əvəzi ağzına aparıb guya qəlyan çəkirmiş kimi sümürüb, yanındakına ötürür, belə-belə lap axırıncı uşağa çatır. Alabaş çubuğu ağzında saxlayır.

Qurd ilə baş çoban arasında yenə həmin söhbət olur. Qurd bu dəfə başqa şey gətirir:

– Dədəm deyib bu yağlı dürməyi yesin.

Baş çoban lavaşın içində durmələnmiş pendirdən, yaxud halvadan bir dişdək qopardıb o birinə ötürür. Çox vaxt alabaşa çatmır. O da yanındaçı uşağı dişləyir. Bu hərəkətlər bir neçə dəfə təkrarlanır. Hər dəfə qurd uduzanda baş çobana bir şey verib canını qurtarır. Axırıncı gəlişdə deyir:

– Dədəm deyir, çoban bir qoyun götürüb bizə qonaq gəlsin.

Baş çoban cavab verir:

– Get, dədənə denən, gələn də, sifariş gətirən də qələt eləyir.

Qurd gedib təzədən qayıdır. Deyir:

– Dədəm sənnən küsüb dedi: yağdı qalyanımı geri versin.

Baş çoban yanındakını göstərir:

– Məndə deyil, verdim buna.

O da o birisini nişan verir:

– Mən də verdim buna.

Beləcə növbə Alabaşa çatır. O, dişlərini qıcıdıb deyir:

– Atamla qardaşlarımın yanında əyilib su içirdim, düşdü kor quyuya. Get çıxart. Onlar quyunun ağzında səni gözləyirlər.

Qurd gedib həmin qaydada yeə qayıdır. Baş çobandla aralında eyni söhbət təkrarlanır. Qurd deyir:

– Dədəm dedi: baş çoban mənim lavaş dürməyimi qaytarsın.

Baş çoban deyir:

– Dürməyin bir tikəsi qnarnımda yeddinci dağ aşır.

İkinci uşaq deyir:

– Bir tikəsi də mənim qarnımda altıncı dağı aşır.

Beləcə növbə ilə tikələrin beşinci, dördüncü, üçüncü, ikinci və birinci dağı aşdığı bildirilir.

Qurd deyir:

– Mən də qarnınızı yarıb götürərəm.

Baş çoban alabaşı köməyə çağırır:

– Bu qurddan bizi xilas eylə.

Alabaş deyir:

– Yeməyən lavaş dürməyini,
Görməyəcəksiz hürməyini.

Qurd qoyunları arxasız görüb deyir:

– O yana qaçaram, bu yana qaçaram,
Alabaşsız qoyunun birini qapıb qaçaram.

Qurd qəflətən uşaqlardan birini tutur. Baş çoban uşaq – qoyunun qondan yapışıb mane olmağa çalışır. Oyun zamanı uşaqlar bir-birinin çuxasının ətəyini dartmağa, yaxud qurdun onları tək halda yaxalamağa ixtiyarı yoxdur. Yalnız dəstə şəklində əl-ələ yapışıb durduqları zaman güc vasitəsilə qopara bilər.

Qurd tutduğu uşaqları bir kənara aparır.

Bu zaman o uşaq deməlidir:

– Ağ daş, qara daş, Alabaş,
Gəl ol mənə yoldaş.
Nənəm sənə qoğal verər,
Babam sənə sığal verər.

Alabaş yenə işə qarışmır. Deyir:

– Yemədim dürməkdən,
Bezdim ac qarnına
Ömür, gün sürməkdən.

Qurd qoyunların axırına çıxır. Meydanda bir baş çoban qalır, bir dç alabaş.

Baş çoban qurda yaxınlaşır:

– Ay qurd baba, bizim qoyunları görməmisən?

Qurd uşaqları arxasında gizlədib deyir:

– Mələşə- mələşə getdilər belə.

Baş çoban onun göstərdiyi səmtə gedəndə qurd arxadan səslənir:

– Yox, yox, orda zəhərli ilan vıar, Bax elə getdilər.

Qurd baş çobanı bir neçə dəfə aldadır:

– Yenə düz getmirsən.Orda ayı var.

Baş çoban yorulub oturur. Axırda qoyunlar hamısı bir ağızdan mələşməyə başlayırlar. Alabaş rəhmə gəlib onlara köməyə gəlir. Qurdla qapışır. Bir təfədən baş çoban, bir tərəfdən alabaş qurdu kötəkləyib qovurlar. Qoyunlar mələşə–

mələşə Alabaşla baş çobanın yanına gəlirlər. Alabaşa hərə bir hədiyyə (şirni, qoz, fındıq, qoğal və s.) verir.

## AT BAŞI

"At başı" oynunda yeddi uşaq iştirak edir, hərəsinə bir heyvan adı verilir: at, tülkü, janavar, ayı, pələng, dovşan və sərçə. Oyunun maraqlı qurulması və janlı keçməsi üçün onlar bəxtlərinə düşən heyvanın, quşun hərəkətlərini təqlid edir, səsini yamsılayırlar. Oyun nağılvari bir hadisə üzərində qurulur: meşədəki heyvanlar əlbir olub ev tikirlər, anjaq bünövrə qoymaq yadlarından çıxır. Belə ki, ortada tir qoyulur və ətrafını hasana alırlar. Balaja sərçə gəlib içəri girən kimi ev uçur.

Oyunda iştirak edən heyavnların bir qismi yırtıjılardır: janavar, tülkü, ayı və pələng. Dovşanla at isə sakit xeyirxahdır. Buradan belə bir sual doğur: ziddiyyətli xarakterə malik heyvanların bir yuvada yaşaması mümkündürmü? Heyvanların dostlüğü möhkəm olmadığı kimi, qurduqları ev-yuva da tükdən asılı vəziyyətdədir. Balaja sərçənin damına qonması davam gətirmir. Beləliklə, bu nağılvarı hadisəni uşaqlar səviyyələrinə uyğun şəkildə səhnələşdirirlər.

İlk– əvvəl At başı rolunu oynayan uşaq kişnəyə-kişnəyəmeydana girir, lap mərkəzdə başını sinəsinə doğru əyib yerə çömbəlir, oxuyur:

– Burda bir At başı var,
Nə hündürdür, nə alçaq.
At başı yuva qurar...

Sonra başqa heyvanları təmsil edən uşaqlar növbə ilə bu nəğməni bir qədər dəyişdirib oxuya-oxuya meydana – “səhnəyə” daxil olurlar, ijazə istəyib At başına yanaşırlar, ona yuva qurmaqda kömək edirlər. Hər heyvan bir divarın yerini tutur. Bu zaman hərə bir jür öz məharətini göstərir. Tülkü rolunu oynayan uşaq hiyləgərjəsinə gülə- gülə gəlir:

– Burda bir At başı var,
Nə hündürdür, nə alçaq.
Birdən bir tülkü gələr,
At başına yanaşar.

Ayı– uşaq mayallaq aşır:

– Burda bir At başı var,
Nə hündürdür, nə alçaq.
Tülküdür ona dayaq,
Ayıdır ona dayaq.
Birdən bir dovşan gələr,
Burda üç divar görər,
Ora yapışmaq istər.

Beləcə, uşaqlar heyvan jildində meydana daxil olurlar və At başının – ev sahibinin razılığı ilə ona qoşulurlar. Uşaqlar meydanın ortasında bir-birinə söykənib yuva düzəldirlər. Oyunun sonu daha maraqlıdır. Sərçə-uşaq civildəyə-civildəyə, qollarını oynada-oynada At başına yanaşır, janavarı, dovşanı, tülkünü, pələngi, ayını və atı “bir adamın altda” görüb təəjjüblənir, onlara qoşulmaq həvəsinə düşür:

– Burda bir At başı var,
Nə hündürdür, nə alçaq.

Janavar, pələng, ayı,
Hamısı ona qonaq,
Tülkü ona yanaşar,
Dovşan ona yanaşar,
Böyük yuva düzələr,
Birdən bir sərçə gələr,
Bu yuvada dinjələr.

Sərçə At başına mürəjiət edir:

– Qonaq gəlmək olar?

At başı cavab verir:

– Onsuz da yerimiz darısqaldır, sən gəlsən yuvamız dağılar.

Sərçə onun etirazına baxmvr, bir neçə dəfə dövrə vurur, qollarını böyrünə çırpır-güya qanad çalır, jivildəyir, hoppanıb-düşür, sonra başını əyir, jəld bir hərəkətlə uşaqların arasında “yuvaya” soxulmaq istəyəndə hamını aşırır – “yuva” dağılır. Göründüyü kimi, finalda dramatik vəziyyət yaranır: heyvanlar bir-birinin üstünə jumur və dalaşırlar. Bu, oyundan çox tamaşanı xatırladır. “Bənövşə”, “Əl üstə kimin əli”, “Tən-tənə, otəş tənə”, “Çöpü dağıt”, “Qara paşa” və s. oyunlarda da yuxarıdakı xüsusiyyətlər özünü göstərir.

## TOXUMSƏPMƏ

“Uşaqlar dairə vuraraq bir-birinin əllərindən tuturlar sonra dairə boyu yallı gedir, bu mətni oxuyurlar:

Kim görübdür kəndlilər,
Toxumu nejə səpirlər?

Mahnını oxuyub qurtardıqdan sonra uşaqlar bir-birinin əllərini buraxır və güya toxum səpirlər kimi hərəkət edir, oxuyurlar:

Bax belə, bax belə,
Toxumu belə səpirlər.

Bundan sonra uşaqlar yenə bir-birlərinin əllərindən tutur və dairə üzrə hərəkət edərək mahnının yeni bəndini oxuyurlar:

Kim görübdür kəndlilər,
Taxılı necə biçirlər?

Bu iki misralı mahnı qurtardıqdan sonra yerlərində dayanır və əlləri ilə taxılın biçilməsini təqlid edə-edə oxuyurlar:

Bax belə, bax belə,
Taxılı belə biçirlər...” –

Uşaqlar bu qayda üzrə kəndlilərin əkinçiliklə bağlı bütün fəaliyyətini göstərirlər və hər işi uyğun nəğmə ilə müşaiyət edirlər:

– Kim görübdür kəndlilər
Taxılı necə döyürlər?
– Bax belə, bax belə,
Taxılı belə döyürlər.
Oyun maraqlı sonluqla bitir:

– Kim görübdür kəndlilər
Necə şənlik edirlər?

– deyə uşaqlar soruşur və çalıb-oxumağa, oynamağa başlayırlar, hər nəğmənin axırında nəqarət kimi bu sözləri təkrar söyləyirlər:

– Bax belə, bax belə,
Belə şənlik edirlər.

– deyə hərəkətlərini xorla oxuduqları mahnının müşaiyəilə təqlid edirlər. Şübhəsiz, sorğu və çavabdan ibarət olan, nəğməni uşaqlar özləri düzüb qoşmuşlar. Həmçinin oyunda xalq sənətinin bir neçə növündən istifadə olunur: rəqslə başlanır, sonra deyişmə şəklində oxunan mahnı ilə müxtəlif hərəkətlər göstərilir. Oyun uşaqların çalıb oynamaları ilə tamamlanır. Nəğmələrin quruluşu da maraq doğurur, misralar qafiyəsiz olmasına baxmayaraq, sözlərin müxtəlif məqamlarda təkrara işlənməsi ilə oynaqlıq, melodilik yaranır:

Bax belə,
Bax belə,
Taxılı,
Belə döyürlər.

## ƏNZƏLİ

Ənzəli geniş yayılmış xalq uşuq oyunlarımızdandır. Şəkidə bu gündə məhəllələrdə toplaşıb bu oyunla əylənən uşaqlara rast gəlmək mümkündür.

Oyuna püşq atmaqla başlayırlar, bəzən sanama söyləyirlər:

İynə-iynə

Ucu düymə….

Püşqdə uduzan belini aşağı əyir. Yerdə qalan oyunçular üç– dörd metir sırada düzülürlər. Növbə ilə əyilənin belindən tullanırlar. Oyunçular hər dəfə aşağıdakı sözləri deyir və dediklərinə əməl edirlər/

Birinci dəfə tullananda: Ənzəli, ay ənzəli
İkincidə: Xan əkbəri.
Üçüncüdə: Xoruz banladı: quqqulu qu!
Dördüncüdə: Yanbız əzərlər.
Beşincidə: Taxta çıxarlar.
Bu zaman oyunçu soruşur: Minim, düşüm?
Əyilən: «Min» və ya «Düş»– deyir
Oyun beləcə davam edir.
– Əl üstə, baş dəyməsin.
– Tayəl keçərlər.
– Papaq qoyarlar.

Axırda hamı əyilənin belinə minməyə can atır, kim özünə yer tapmayıb yerə yıxılsa, onu «cəzalandırırlar», qulağını dartırlar, qarşısında tələblər qoyurlar, it kimi hürdürürlər, eşşək kimi anqırdırlar. Kim deyilənlərə əməl edə bilməsə, «əyilən»i əvəz edir.

## BƏNÖVŞƏ

"Bənövşə" uşaqlar arasında ən çox yayılan və sevilən oyunlardan biridir. Burada da uşaqlar iki dəstəyə bölünüb yarışa başlayırlar. Dəstələrin başçıları seçilir. Hər iki dəstədəki on– on iki uşaq bir– birlərinin əllərindən möhkəm– möhkəm yapışır. Başçı dəstədəkilərdən birinə gizlinjə "quş" və ya "gül" adı verir. Başçı bu adlardan birini çəkəndə həmin adam

yüyürüb o biri dəstədə əl-ələ tutanların arasından keçmək istəyir (bəzən əks tərəfdə olanlardan birinin həqiqi adı çağırılır). O biri dəstənin qızları bir-birinin əlindən elə bərk tuturlar ki, onların əllərini ayıra bilməsinlər. Əgər gələn oyunçu dəstənin əllərini ayırıb keçə bilsə, onlardan birini tutub öz dəstəsinə aparır, ayıra bilməsə, keçə bilmədiyi yerdə həmin dəstəyə qoşulub qalır. Sonra oyun beləjə davam edir. Bu oyunda dəstələrə bölünmüş uşaqların maraqlı deyişməsi verilir:

I dəstə: – Qıy qılınc, qıy qılınc.
II dəstə: – Qıyma qılınc.
I dəstə: – Ox atdım.
II dəslə: – Oğru tutdum.
I dəstə: – Bənövşə.
II dəstə: – Bəndə düşə.
I dəstə: – Sizdən bizə
Bir qız düşə.
Adı gözəl,
Özü gözəl,
Aysel xanım,
Bu qol üstə.

Deyişmədə adı çəkilən uşaq – Aysel xanım qaça-qaça gedib o biri dəstənin düzəltdiyi “hasarı” yarmaq istəyir. “Bənövşə” oyununda bir maraqlı jəhət də özünü göstərir. Əgər adı çəkilən oyunçu rəqib dəstənin “hasarını” keçə bilsə və orada qalsa onda öz dəstəsinin üzvləri ona qarğışlar yağdırırlar:

Yer də haram olsun sənə!
Göy də haram olsun sənə!

Yediyin halva çörək,
O da haram olsun sənə!

## QARA QAZAN

Uşaqlar toplaşıb iki dəstəyə alrılırlar. Hər dəstə özünə başçı seçir. Sonra oyunçular üzbəüz durub deyişirlər.

Birinci dəstə: – Qara qazan doldumu?
İkinci dəstə: – Doldu da, boşaldı da.
– Çomçə oldumu?
– Oldu da, boşaldı da.
– Toyuna gələk, yasına?
– Toyuna.

Birinci dəstə çalıb oynaya-oynaya o biri dəstəyə qarışır. Uşaqlar böyüklərin toy adəətlərini başa düşdükləri şəkildə icra edirlər.

Sonra hər şey təkrarlanır. Bu dəfə sonuncu sorğuya başqa cavab alırlar:

Birinci dəstə: – Toyuna gələk, yasına.
İkinci dəstə: – Yasıma.

Dəstələr ağlaşma qururlar. Üşaqlar guya saçlarına yolurlar, üzlərini cırırlar, sinələrinə döyürlər. Ağı söyləyirlər. Əllərini, sifətlərini qara qazanın hisinə bulaş-dırırlar.

## ÇAMIR– ÇAYIR

Qum, çınqıl, ya da torpaq yığıb balaca təpə düzəldirlər. Ortasına çöp basdırırlar. Uşaqlar dövrə vurub qum topasının ətrafına yığışır və hər kəs «çamır-çayır» deyə-deyə ancaq bir barmağı ilə qumu (çınqılı, torpağı) özünə tərəf çəkir. Çöp kimə

doğru əyilsə, onu dizi üstə oturdur, gözlərini bağlayır, əllərini onun arxasında bir– birinin üstünə qoyub soruşurlar:

– Əl üstə kimin əli?

Uşaq ardıcıl saymalıdır.

– Muradın əlinin üstə Mahmudun əli,

Mahmudun əlinin üstə Səlimin əli,

Səlimin əlininn üstə Mirzənin əli…

Səvh desə, uşaqlar yerbəyerdən qışqırışırlar:

– Yalançını gəlin vuraq.

Hərə bir yandan uşağa çırtma ilişdirir.

Düz tapsa ondan xədər alırlar:

– Tövlədə nə olur?

– At.

– Üstünə nə yığılır?

– Milçək.

– Milçəklər necə uçurlar?

– Vızz… vız…

Hamı vızıldaya-vızıldaya gözübağlı uşağın ətrafına dolanır. Sonra yenə soruşurlar:

– Dəmirçi dəmiri necə döyür?

– Dakk… dakk…

– Odunçu baltanı necə vurur?

– Dukk…, duk…

Beləcə deyilənlərə düz cavab alsalar oğlanı mükafatlandırırlar. Oyun bu şəkildə davam edir.

## FINDIQ-FINDIQ

Uşaqlar ciblərini fındıqla doldurub bir yerə toplaşırlar. Hərə özünə bir çala qazır. Fındıqları çalalarda yerləşdirirlər. Sonra aşıq atırlar. Kimin atdığı aşıq «bəy» (eninə ayaq üstə)

düşsə, o birilərindən bir fındıq udmuş olur. Əgər aşıq dikinə yerdə otursa, onda uşaqlar soruşurlar:

– Tək, yoxsa cüt.

– Cüt, yaxud tək.

Bundan sonra çalalardakı fındıqları sayırlar. Oyunun dediyi kimi alınsa, ona hərə bir cüt fındıq verir. Aşıq çalalardan birinə düşsə, oyunçu öz fındıqlarını çala sahibi ilə bölüşür. Ya da ona deyir:

– Fındıq, yoxsa dındıq?

«Dındıq» cavabı alsa, o bulaqdan quş kimi dimdiyində, yəni qabın qulpunu dişləri ilə tutub su gətirir. Sonra oyunu davam etdirirlər.

## QAYIŞ– QAYIŞ

Uşaqlar bir böyük çevrə çəkib ətrafında dövrə vururlar. Çevrənin ortasına bir bel qayışı qoyurlar. Sonra püşk atma, yaxud sanama söyləmə yolu ilə qoruyucunu müəyyənləşdirirlər. Qoruyucu dairənin içərisinə girib «qaladakı ilanı» – qayışı qoruyu. Ona müxtəlif tərəflərdən hücum edirlər. Uşaqlar dairənin cızığının qırağında durub içəri əyilməli və qayışı götürməlidirlər. Cızığı basan, içəri keçən əsir alınır. Kevrənin içərisinə girib qayışı qoruyur. Qayış əldən getsə, qala alınır və çevrədəkiləri cəzalandırırlar.

## ŞÜTÜMƏ OYUNU

Uşaqlar ağaclarını şütüdürlər. Bu oyunu bir neçə mərhələdə yarış şəklində keçirirlər.

A) Barmaqlarının ucunda dikinə tutduqları uzun ağacla şütüyürlər. Kim uzaq məsafə qətt etsə udmuş olur.

B) Ağacın özünü şütüdürlər – çəmən, düz boyu atırlar. Qaçıb ona birinci çatan atmaq hüququ qazanır.

Üç dəfə bu işi yerinə yetirən oyunu aparmış olur.

## QOTURUM SƏNDƏ

Oyunda əsas şərt əlini başqasına toxundurub qaçmaqdan ibarətdir. Onda qotur o biri uşağa keçir. O da əlini bir başqasına vurub qaçır və deyir ki, «Qoturum sənə keçsin». Beləliklə, oyun idman hərəkətləri ilə davam edir.

## A TƏRXANA – TƏRXANA

İki oyunçu iştirak edir. Uşaqlar tərsinə durub qollarını bir-birinə keçirirlər. Hərəsinin üzü bir tərəfə baxır. Biri belini aşağı əyir, o biri digərini arxasına alır. Aşağı əyilən soruşur: - Göydə nə var?

O biri cavab verir:

– Göy muncuğu.

Bu dəfə göyə baxan uşaq soruşur:

– Yerdə nə var?

– Yer muncuğu.

Yenə birinci uşaq deyir:

– Adın nədir?

– Tərxana.

Bu sözü eşidən kimi əyilən uşaq belindəki uşağı yerə atıb söyləyir:

– Di al məni arxana!

Oyuncuların yeri dəyişməklə oyun davam edir.

## YELLƏNCƏK

Uşaqlardan biri yelləncəkdə yellənir. O biri isə onu yellədir. Hər dəfə yelləncək gedib-gəldikcə deyir:

– Get, ələk gətir...

Get xəlbir gətir…

## XAN – VƏZİR

Qədim oyunlardan biridir. Oyunda beş uşaq iştirak edir. Eyni ölçüdə beş kağız götürülür. Kağızlara beş ad yazılır: xan, vəzir, axtarıcı, vurucu, oğru.

Püşk atırlar. Hərə kağızdan birini götürür. Heç kəs dinmir.

Xan kimdirsə, əvvəlcə o səslənir: - Axtarıcı oğrusunu tapsın!

Bu sözləri yerdə qalan uşaqlar da xorla deyirlər: - Axtarıcı oğrusunu tapsın!

Oğru susur. Axtarıcı bir-bir oyunçuların üzünə baxır. Xanın əmri ilə düz tapsa, oğrunu, düz tapmasa, axtarıcını cəzalandırırlar.

## SİÇAN-PİŞİK

İştirakçılar meydanda dairəvi şəkildə düzülürlər. Bir-birinin əlindən möhkəm yapışırlar. Uşaqlardan biri siçan, o biri pişik olur. Siçan dairənin içinə girə bilməz. Hansı uşaq buna imkan versə, özü siçan olmalıdır. Dəstədəkilər pişiyin tərəfində dururlar. Hamı çalışır ki, pişik siçanı tutsun. Ona görə də siçanı dairəyə yaxınlaşmağa qoymurlar.

Pişiyin isə yolu açıq olur.

Pişik özü siçanı tutsa, oyun bitir. Başqa iki uşaq siçan-pişik seçilir.

## ƏL ÇƏKİŞMƏ

İki uşaq şəhadət barmaqlarını bir-birinə keçirir və hərə əlini özünə tərəf dartıb mərc gəlir.

Toyuğun sapanda oxşayan bel sümüyünü də həmin qayda ilə dartıb qırır və mərcləşirlər.

Mərcin əsas şərti odur ki, bundan sonra bir-birilərinin əlindən heç nə götürməsinlər. Ancaq o halda rəqibin verdiyi şeyi ələ almaq olar ki: «Yadımdadır» - kəlməsini dilə gətirsin. Şərti ilk pozan uduzur.

## ARTIRMA

Bir neçə oyunçu bir yerə toplanır. Başçının əlinin içində gizlədilən daşı tapmağa çalışırlar. Daşı tapmayan axıra qalır.

O, ikiqat əyilir. Digər uşaqlar gəlib onun üstündən hoppanır və kənarda dayanırlar.

Uşağın əyilib yaratdığı artırmanı kim keçə bilməsə, o da aşağı əyilir, ikinci, üçüncü, dördüncü və s. artırma yaranır.

Növbə ilə artırmaları keçə bilməyənlərin hər birinin üstündən hoppanırlar. Beləliklə, oyun şərt pozulana qədər davam edir. Belə ki, əvvəldən şərt kəsirlər ki, danışan uduzacaq. Bəzən də belə deyirlər:

– O yandan bir it gəlir,<br>
Quyruğu dolu bit gəlir.<br>
Kim danışsa ağzına…

***Variantı:*** Uşaqlar iki dəstəyə ayrılırlar. Qürrə (çöp) atırlar. Qürrə hansı dəstəyə düşsə, o dəstə aşağı əyilir. O biri uşaqlar bir-bir onların üstündən atılır, axıra çatan uşaq yerə əyilir. Bu minvalla sıra əvvəldən artır, axırdan azalır. Məsələn, uşaqların hər dəstəsində on uşaq olarsa, onu da aşağı əyilir. İkinci dəstənin üzvləri bir-bir onların üstündən hoppanıb, özü onların sırasında aşağı əyilir. Hamı atılıb qurtarandan sonra, aşağıya əyilmiş yeni bir dəstə yaranır. Birinci dəstənin uşaqları bir-bir ayağa qalxıb, aşağı əyilən uşaqların üstündən hoppanırlar. Bu minvalla oyun davam edir.

## ADDIM BASDIM

Oyunu iki uşaq oynayır. Müəyyən məsafə seçilir. Uşaqlar addımlarını ataraq bir ayağının dabanını o biri ayağın barmağının ucuna qoyub qarşı-qarşıya gəlirlər. Uşağın biri deyir:

– Addım basdım,
Kərələdim, kəsdim.

O biri uşaq deyir:
– Alma-armud,
Keçəl Mahmud.

Uşaqlar qarşılaşana qədər oyun davam edir. Sonuncu addım kimin olursa, oyunu udmuş sayılır. Bu oyun çox vaxt oyun-tamaşaların başlanğıcında püşk atmaq, yaxud sanama saymağı əvəz edir.

## ÇIRTI, ÇIRTI

Uşaqlardan biri başçı seçilir. Başçı ortada dayanır, qalan uşaqlar isə dairəvi düzülürlər. Başçı əlində çubuq oyuna başlayır. Əvvəlcə sağ tərəfdə olan uşaqlara deyir:

– Çırtı, çırtı!

Sağdakı uşaqlar cavab verir:

– Can çırtı!

Soldakı uşaqlar deyir:

– Bizim çırtı sizin çırtıya yalan dedi.

Sağdakı uşaqlar deyir:

– Kimin saqqalına yaraşır?

Soldakı uşaqlar deyirlər:

– Hər kəs ayağını çəp qoysa, onun saqqalına yaraşır.

Bütün cərgədə olan uşaqlar soldan sağa bir-bir ayaqlarını irəli çıxarırlar. Başçıya çatana qədər irəliləyirlər. Başçı yenə əvvəlki sözləri təkrar edir; sol ayağını sağ ayağının barmaqları üzərinə qoyub, iki dəfə fırlanır. Uşaqlar əvvəlki qaydada geri çəkilirlər. Başçı sağ əlini ayağının çeçələ barmağının üstünə qoyur. Hamı başçı kimi edir, baş barmaqlarının ucu ilə başçının yanına gəlirlər. Başçı əl baş barmağını burnunun ucuna qoyub deyir:

– Çırtı, çırtı!

Uşaqlar ona cavab verirlər:

– Can çırtı!

Uşaqlar yenə geri çəkilirlər. Bu dəfə başçı sol əlinin baş barmağını qulağına verir. Uşaqlar da onun kimi edib, başçıya yaxınlaşırlar. Başçı deyir:

– Çırtı, çırtı!

Sağ tərəfdəki uşaqlar cavab verirlər:

– Can çırtı!

Başçı deyir:

– Bizim çırtı sizin çırtıya yalan dedi.

Sağdakı uşaqlar deyirlər:

– Kimin saqqalına yaraşır?

Başçı deyir:

– Hər kəs tez qaçmasa, onun saqqalına yaraşır.

Hamı nişan qoyulmuş yerə qaçır. Kim geridə qalsa, ona deyirlər:

– Tısbağa tıs, boynunu qıs!

Oyun axıra çatınca, heç kimin ixtiyarı yoxdur ki, özü istədiyi kimi hərəkət etsin. Qaydanı pozanlar töhmətlənib oyundan çıxarılır. Hamı başçının əmri ilə hərəkət edir, nizam-intizama tabe olur.

## DİRƏDÖYMƏ

Düzəngah yerdə çevrə çəkilir. Çevrənin içində istənilən sayda uşaq ola bilər. Uşaqlardan hərəsinin ayağının ucunda bir toqqa olur.

Çevrənin kənarındakı uşaqlar çalışıb onların ayağının altındakı kəməri götürməlidirlər. Əsas şərt ondan ibarətdir ki, çevrənin içərisindəkilər toqqanı yalnız ayaqla qoruya bilər. Yarışda toqqalardan birini ələ keçirən toqqa ilə rəqiblərinin ayağına vurmaqla o biri toqqaları götürməyə çalışırlar.

Uşaq toqqanı götürə bilsə, onun vasitəsilə o biri toqqaları da ələ keçirmək asan olur. Yox əgər toqqanı ələ keçirmək istəyərkən rəqiblərindən biri onu ayağı ilə təpərsə (təpik vurarsa) o zaman təpilən uşaq çevrəyə girir, təpən isə qırağa çıxır. Sonuncu toqqaya qədər oyun davam edir. Çevrədəkiləri toqqa ilə vururlar. Əgər içəridəkilərdən hansı biri təpməyi bacarsa, azad olur. Sonuncu adam qalana qədər toqqa ilə döyürlər. Oyun bu cür davam edir.

## QƏZMƏDAŞ

Bu oyunu iki və ya dörd uşaq oynayır. Hər uşaq beş balaca daş hazırlayır. Qürrə (çöp) atıb oyuna başlayırlar. Oyuna başlayan daşın birini əlində saxlamalıdır ki, buna saqqa deyərlər. Saqqanı göyə tullayıb ovcunun içində olan daşları yerə tökməli, saqqanı göydə tutmalıdır. Əvvəl saqqanı yuxarı tullamaqla daşları bir-bir ovcuna yığmalıdır. Əsas şərt ondan ibarətdir ki, daş götürülərkən nə başqa daşa dəyməli, nə də saqqa yerə düşməlidir. İki əllə götürmək və saqqanı tutmaq olmaz. Daşları bir-bir götürüb qurtarandan sonra yerə tökməli, yuxarıdakı şərtlərə əməl etmədən daşları yerdən iki-iki, sonra üçün birdən, birini tək, sonra dördünü də birdən götürməlidir. Bunlar qurtarandan sonra daşları bir-bir iki barmağın arasından keçirməli və barmaq arasından, keçirilmiş daşların hamısını bir yerdə götürməlidir. Sonra daşlar barmaqların hamısının arasından bir-bir keçirilməlidir. Bu şərti də bitirib, daşları bir qarış məsafədə bir-birindən aralı qoyurlar. Saqqanı yuxarı ataraq yerdəki daşları sürüşdürüb birdən götürməlidir. Saqqadan başqa bir daş ovucda saxlanılır. Saqqanı yuxarı atıb tutmaqla daşın birini ovcundan yerə salıb, cəld birini yerdən götürməlidir ki, buna yumurtlamaq deyərlər. İki-iki və üç-üç daşı yerə salıb, birini götürmək lazımdır. Bundan sonra şaqqıldama gəlir. Yəni, daşları yerdən bir-bir ovcuna yığırlar. Axırda yoldaşı bir daşı işdaş təyin edir. O daş əl dəyilməmiş qalır. Bu işdaşı birdəfəliyə barmaqların arasından keçirmək lazımdır. Bunların hamısını səhvsiz, bir dəfəyə oynaya bilən qalibiyyət qazanır. Daşı yerdən götürə, barmaq arasından keçirə bilməyən, saqqanı yerə salan və daşı götürərkən, əlini başqa daşa vuran uduzmuş olur.

## OVUCDA GİZLƏTMƏ

Oyun iki nəfər arasında oynanılır. Birinci uşaq gözünü yumur, o biri uşaq isə arxasında ovcunun içinə çöp qoyub əlini yumur. Sonra iki əlini də qarşısındakı uşağa uzadıb deyir:

– Aç gözünü, mənim hansı əlimin dolu olduğunu de.

Qarşısındakı uşaq onun əlinə vura-vura bu sözləri dilinə gətirir:

– Hansında, pusunda,
Allah deyir aç bunda.

Düz tapırsa qalib gəlir. Bu dəfə o əlinə arxada ya çöp, ya balaca daş qoyur. Beləliklə, oyun davam edir. Bu şeir parçası başqa variantda da oxunur:

– Ya ondadır, ya bunda,
Dükançının qabında!...

## MORU-MORU

Oyunu dörd nəfər oynayır. İkisi qabaqda, ikisi isə arxada dayanır. Qabaqdakılar əlləri ilə gözlərini tuturlar ki, kimin harada durmasını görməsinlər.

Arxadan bir uşaq irəli çıxır, qabaqdakı uşaqlardan birini aparır. Yerdə qalan uşaq yoldaşlarından soruşur:

– Moru-moru.

– Çıqqıdı moru!

– Səni aparan

– Hansı oğru?

Əgər oğrunun adı düz tapılarsa, birinci dəstə oyunu udur. Udan dəstə uduzanın belinə minir. Tapa bilməzsə, ikinci dəstə oyunu aparmış sayılır. Ortaya qoyulan müəyyən məsafəyə qədər aparıb-gətirirlər.

## QOZ-QOZ

Oyunda bir neçə nəfər iştirak edə bilər. Oyunçuların sayına görə qozlar bir-birindən 3-5 qarış aralı bir xətt boyunca düzülür. Düzülmüş qozlar 3-5 m. aralıdan əlaqqa ilə vurulur. Oyunçuların hərəsinin ayrıca bir qozu da olur ki, buna da *əlaqqa* (əldə olan qoz) deyilir. Əlaqqa hansı qoza dəyirsə, yiyəsi həmin qozu götürür, o biri qozlara atır. Kim sərrast atırsa, qoz onunku olur. Sonuncu qoz vurulanda oyun bitir.

Xalq arasında özünü pis aparanların ünvanına səslənən «qoz-qoz oynama» - deyiminin oyun-tamaşadan yarandığı şübhəsizdir. Müxtəlif bölgələrdən toplanan uşaq oyun-tamaşalarının məzmunu və gedişi ilə tanışlıq göstərir ki, ulu əcdad gələcəyinin sağlam, güclü, ağıllı və tədbirli yetişməsi üçün hər vasitədən istifadə etmişdir.

## MƏRƏ

Uşaqlar halay gəlmək şərti ilə iki dəstəyə ayrılırlar. Oyun iştirakçıları özlərinə gizli ad qoyub, iki-iki gəlib mollaların (başçıların) qarşısında dururlar:

– Halay, halay!

Mollalar deyərlər:

– Haldıx, qıldıx.

Uşaqlardan biri deyər:

– Kimə çaylar qurudan, kimə dağlar dağıdan.

Mollalardan biri cavab verər:

– Mənə dağlar dağıdan.

Özünə şərti olaraq “dağlar dağıdan” adı qoyan uşaq bir mollaya, “çaylar qurudan” da o birisinə düşür. Bu minvalla uşaqlar iki yerə ayrılırlar. Uzaqda bir daş nişan qoyurlar. Hər

dəstədən biri qaçır. Kim tez gedib əlini daşa vurar və mollasının yanına tez qayıdarsa, qələbə çalar. Kim geri qalsa, başı qapazlanıb sıradan çıxarılar.

## MOZ–MOZU

Bu oyunda üç nəfər iştirak edir. Uşaqların bir yumru, bir yastı daşı olur. Onlar bir-bir yastı daşla yumru daşı vururlar. Yumru daş vurulanda nə qədər gedərsə, o məsafəni addımla ölçürlər. Şərt qoyulan məsafəyə kim qabaqca daşı, vurub apararsa o, oyunda udmuş olur.

## MOLLA, HARAY

Uşaqlar halay gəlmək yolu ilə mollalar (başçılar) arasında iki dəstəyə ayrılırlar. Mollalardan birinin gözünü yumurlar. Gözü açıq mollanın dəstəsində olanlar qaçıb gizlənirlər. Gözüyumulu mollanın uşaqları mətədə otururlar. O, gözünü açır, gizlənən uşaqları mollası ilə uşaqları axtarmağa başlayır. Hər yerdən keçdikdə gizlənən uşaqların mollası bərkdən xəbərdarlıq edir. Məsələn, "Bulağın yanından keçdik", "Dərəni o taya adladıq", "Əlinin evinin yanındayıq" və i.a. Bu xəbərdarlıqdan məqsəd gizlənən uşaqların möhkəm gizlənməsi, gözə görünməməsidir. Əgər axtaran molla gizlənən uşaqlardan birini görsə oyunu udmuş olur. Gizlənən uşaqlar onun gözünə görünmədən qaçıb mətəyə gəlsələr, onları axtaran mollanın uşaqları ağız-ağıza verib bərkdən "Molla, haray, molla, haray!" – deyə qışqırışırlar. Axtaran molla onların mətəyə girməsini görməsə, gizlənən tərəfi udur.

## SƏNİ KİM APARDI?

Halay getmək yolu ilə uşaqlar mollalar (başçılar) arasında iki dəstəyə ayrılırlar. Sıra ilə dal-dala düzülürlər. Geridə düzülmüş dəstədən bir uşaq gəlir, onlardan birinin arxasından irəli itələyib aparır. Aparılan uşaq geri baxmamalı, ancaq himlə onu aparan uşağı tanımalıdır. Yoldaşlarından biri aparılan uşağa bərkdən deyir:

– Yoldaş, səni kim apardı?

Uşaq aparanı tapa bilsə, onu da götürüb öz yoldaşlarının içinə qayıdır, dəstədə bir nəfər artır. Yox, uşaq tapa bilməsə, aparan uşaq onu götürüb öz dəstəsinə qayıdır. Bu qayda ilə oyunda uşaqların hamısı iştirak edir. Hansı dəstənin uşaqlarının hamısı o biri dəstəyə keçsə, o dəstə uduzmuş olur.

## GÖZBAĞLAYICI

Uşaqlar yenə də iki dəstəyə ayrılırlar. Başçıları növbə ilə uşaqların gözlərini möhkəm bağlayıb meydana buraxırlar. Bir uşaq daş çaqqıldadır və ya səs çıxarıb qaçır. Gözübağlı uşaq çox əziyyətlə səs edəni tutur, gözübağlılıqdan azad olur. Tutduğu uşağın gözünü bağlayırlar. Belə-belə oyun davam edir.

## MƏRƏKÖÇDÜ

Bu oyunu iki və ya dörd uşaq oynayır. Dairə şəklində hər uşağa üç mərə (çala) düzəldirlər. Hərə 21 balaca daş götürür,

daşları iki-iki saymaqla mərə-mərə paylayıb yığır. Say aşağıdakı kimidir:

– Dana, dana, qır dana, iki öküz, bir dana.

Hər mərəyə yeddi daş yığırlar. Qürrə atıb oyuna başlayırlar. Qürrə düşən uşaq daşlardan mərənin içində birini saxlayır, qalanlarını mərələrə paylayır. Adamın sayına görə daş udmaq olar. Müqabil tərəfin mərələrində bir və ya üç daş varsa, paylayan adamın daşı da bir və ya üç daşlı mərələrdə qurtarır, deməli, daşlar cütləşirsə o həmin daşları udmuş olur. İlk udmuş daşa metrik deyirlər. Hansı uşaq başqa bir uşaqdan yeddi və ya çox daş udsa, daşlar onun olur, o birinin mərəsi və daşları azalır. Belə– belə hər kəsin bütün mərələri boşaldıqda o, sıradan çıxır.

## OYUN– TAPMACA

Dəstə başçıları bir quşu müəyyən edib, əl hərəkəti ilə uşaqlara deyirlər:

Bir nəfər: – Bir quşum var bir belə...

Hamı: – Lov gələ ha, lov gələ.

Bir nəfər: – Dimdiyi var bir belə...

Hamı: – Lov gələ ha, lov gələ.

Bir nəfər: – Quyruğu var bir belə...

Hamı: – Lov gələ ha, lov gələ.

Bir nəfər: – Qanadı var bir belə...

Hamı: – Lov gələ ha, lov gələ.

Bir nəfər: – Ayaqları bir belə...

Hamı: – Lov gələ ha, lov gələ.

Bir nəfər: – Başı var bir belə...

Hamı: – Lov gələ ha, lov gələ.

Bir nəfər: – Gözləri var bir belə...

Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Kəkili var bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Boynu var, bir belə...
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Tapsa kim bu heyvanı,
Alacaq o, meydanı.

Dəstəyə bölünən uşaqların hansı söylənən quşu tapsa, o, oyunda qalib gəlir.

## LALDİNMƏZ

Uşaqlar oyunu idarə etmək üçün özlərinə başçı seçirlər. Oyunçular cərgəyə düzülürlər. Burada danışmamaq əsas şərtdir. Gülüb danışan və səs çıxaran uduzmuş olur. Uşaqları danışdırmaq və güldürmək üçün başçı hər vasitəyə əl atır. Çubuğunu yerə vurub deyir:

– Bu yer qoruqdur, qoruqdur. Heç kəsin bura gəlməyə ixtiyarı yoxdur.

Heç kəs dinmir. Başçı bir az dayanır. Gülməli, məzəli hərəkətlər edir. Meymun kimi mayallaq aşır, ağız-gözünü büzür. Uşaqlardan biri özünü saxlaya bilməyib gülür. Səs çıxaran uşağı yamsılayan başçı çubuqla onu vurur. Başqa uşaqlar da başçının sözünü təkrar edib, danışan və ya güləni çubuqla vururlar. Uşaqlardan biri nə səs çıxarsa, yaxud hansı sözü ağzından qaçırsa, başçı da eynən təkrar edib onu vuracaq. Qalan oyunçular da bunu təkrar etməlidir. Susub bitərəf dayanan olsa, onu da araya çəkib döyürlər. Başqa bir uşaq danışanda, əvvəl döyüləni azad edib, onu döyməyə başlayırlar. Bu qayda ilə oyun çox fəal və şən keçir.

## DƏSMALALDI, QAÇ

Uşaqlar dairəvi şəkildə yerə oturub, ortada dayanan başçıya baxırlar. Bir uşaq dairə boyunca qaçır və dəsmalını oyunçulardan birinin arxasında yerə qoyur. Başçı uşaqlardan soruşur:

– Dəsmal kimin arxasındadır?

Uşaq dəsmalın öz arxasında qoyulduğunu bilməsə, onu ortaya salır, bir-birinin üstünə itələyirlər. Döyülən uşaq başqa birisinin üstünə yıxıla bilsə onu azad eləyir, üstünə yıxıldığı oyunçunu onun yerinə ortaya çıxarıb təpiklə vururlar. Beləcə uşaqlar hamısı ortaya çıxmalı olur. Özünü möhkəm müdafiə edib, ortaya çıxmayan qalib gəlir.

## GİZLƏNPAÇ

Uşaqlar iki dəstəyə ayrılırlar. Bir dəstədə olanların gözlərini bağlayırlar. O biri dəstədəki gözüaçıq uşaqlar qaçıb gizləndikdən sonra, onların gözlərini açırlar. Bu oyunçular gizlənənləri axtarmalı, həm də başçının yanını, mərəni nəzərdən qaçırmamalıdırlar. Qaçıb gizlənən uşaqlar onların gözlərinə görünmədən özlərini başçının yanına, mərəyə salsalar, oyunda qalibiyyət qazanır, o biriləri töhmətlənirlər. Qaçıb başçının yanına gəlmədən yaxalansalar, məğlub olur, töhmətlənirlər.

## HOFBANA-HOFBAN

Uşaqlardan biri çöpatma və ya sayma qaydası ilə oyun başçısı seçilir. Başçı uşaqları iki dəstəyə ayırır. Sağdakı uşaqlardan birinə bir şey uzadıb deyir:

– Al bunu!

Soldakı uşaqlardan biri soruşur:

– O nədir?

Sağdakı uşaqlardan biri deyir.

– Hofbana hofbandı. Kim "hofban" deyə bilməsə, "hofba hofba", ver yoldaşına, "hofbana hofban eləsin" sözlərini deməlidir.

Yuxarıdakı sözləri uşaqlar dövrə vurub bir-bir deyir, başçının yanına qaçırlar. Başçının yanına çatınca hər kəs həmin sözləri söyləyə bilməsə, hərə ona bir lopuğ vurur.

## TURNAVURDU

Bu oyunu həm qızlar, həm də oğlanlar oynayırlar. Uşaqlar iki bərabər dəstəyə ayrılırlar. Hər dəstənin bir başçısı olur. Dairəvi cizgi çəkirlər. Dəstələrdən birindəki adamların sayı qədər turna eşirlər (dəsmalı eşib ucuna kəndir bağlamaq). Başçılardan biri ovcuna bir şey alır, əllərini bərk yumub o biri başçıya uzadır. Başçı şeyin hansı əldə olduğunu tapsa, qalib gəlir; əlini yuman başçının dəstəsi turna çəkilən dairəvi cizgiyə girir. Kənarda qalan qalib dəstə cizgidəki turnaları götürməyə çalışır. Götürə bilməsələr onları döyürlər. İçəridəkilər kənara çıxır, kənardakılar cizgi içərisinə girirlər. Burada oyun turnanı ələ keçirmək uğrunda mübarizədən ibarətdir. Turnanı ələ keçirənlər qalib gəlir.

## MİYANÇI VƏ ÇÖMÇƏBAŞI BƏZƏMƏ

Uşaqlar iki dəstəyə ayrılırlar. Hər dəstənin bir başçısı olur. Adi bir çömçənin başını bəzəyirlər. Püşk atırlar. Püşk hansı dəstəyə düşərsə, oyunu o dəstə başlayır. Oyunçuların növbə ilə gözlərini bağlayırlar. Digər dəstədən bir nəfər çömçəni əlinə alır. Çömçənin başına zınqırov salırlar. Əlində çömçə olan uşaq ağacla çəkilmiş cizgi içərisində o tərəfə bu tərəfə qaçır, çömçəni tərpədərək zınqırovu səslədir. Gözübağlı elə cəld hərəkət etməlidir ki, zınqırovun səsi çıxan kimi, həmin oyunçunu tutsun.

Zınqırov on dəfə səslənməlidir. Bu on dəfədə heç kəsi tuta bilməsə gözünü açıb, ona 10 lopuğ vururlar. Əgər tuta bilsə, çömçəgəzdirənə 10 lopuğ vurub çömçə götürməkdən məhrum edirlər.

Uşaqların hamısı bu əməliyyatı edir. Hansı dəstənin uşaqları zınqırovça-lanlardan az tutubsa, o dəstənin başçısı töhmətlənib çıxarılır, yerinə başqa başçı qoyulur. Bu oyun 5 dəfə təkrar edilir.

## DƏYİRMAN

Uşaqlar dairəvi əyləşirlər. Başçı əlində çubuq, başıpapaqsız ortada dayanır. Qalan uşaqların başında papaq olur. Başçı çubuğu yerə vurub uşaqları qorxudur. Hamı əl çala-çala deyir:

– Tağı-tağı, tağbatağı...

Bu sözləri 4-5 dəfə təkrar edəndən sonra, başçı sağdan bir uşağın papağını götürüb öz başına qoyur. Papağı götürülən uşaq da yanında olan uşağın papağın götürüb öz başına qoyur. Bu hərəkət dairənin sonuna qədər gedir. Bu minvalla

papaqgötürmə 4-5 dəfə dövrə vurur. Papaqlar tez-tez hərlənir, uşaqlar əl vurub “Tağı-tağı, tağbatağı” deyirlər. Oyun qızışır, papağın hərlənməsi bir növ dəyirman daşının hərlənməsinə bənzəyir. Oyunun şiddətli yerində başçı əlini başına qoyub çağırır:

– Dağğa... dağğ...

Bu zaman hər kəs başındakı papağı bərk saxlamalıdır. Başıaçıq qalana hərə bir çubuq vurur. Başçı çubuğu nə cür vurursa, qalan uşaqlar da elə vurmalıdırlar.

## ZORXANAÇILIQ

Uşaqlar iki dəstəyə ayrılırlar. Hər dəstənin bir başçısı olur. Ortaya təxminən 3-4 kiloqram ağırlığında ağac və ya toppuz qoyulur. Püşk düşən dəstənin uşaqları bir-bir ortaya çıxmalı, bu toppuzların hərəsini bir əlinə götürüb, yavaş-yavaş yüzü sayınca əllərində fırlatmalıdırlar.

Yüzü sayıb qurtarınca, həmin toppuzu fırlada bilməyənlər sıradan çıxarılıb töhmətlənmək üçün hazırlanmış yerdə saxlanırlar. Hər iki dəstənin uşaqları bir-bir sınaqdan keçirilir. Hansı dəstədən çox uşaq toppuzları yüz sayınca hərləyə bilməyibsə, o dəstə məğlub hesab edilir.

## ŞƏNGƏLA

Uşaqlar dairəvi əyləşirlər. Başçı əlində çubuq oyuna başlayır. Uşaqlar hamısı əl çalıb deyir:

– Şəng, şəng, şəngəla a... Qam əlləmi əlləla, ağam əlləli əlləla.

Başçının hərəkətlərini uşaqlar da təkrar etməlidir. Təkrar edə bilməyən töhmətlənir.

## BAYQUŞ

Uşaqlar əllərində qum doldurulmuş kisə tutaraq meydançada sərbəst gəzişirlər. «Gecə» komandası verilən zaman onlar əllərindəki kisələri başlarına qoyub, qollarını yanlara açaraq pəncələr üzərində meydançanın ətrafında gəzişirlər. «Bayquş» (aparıcı) onların arasında gəzişir və nəzarət edir. Əgər kim kisəni yerə salsa və ya düşməkdə olan kisəni əl ilə tutsa, «bayquş» onu yuvasına aparır. «Gündüz» komandası verilərkən «Bayquş» öz yuvasına çəkilir, oyunçular isə sərbəst olaraq qaçışır, rəqs edir, vəhşi heyvanları, quşları yamsılayırlar. Uşaqlar bu hərəkətləri bir də «Gecə» komandası verilənə qədər təkrar edirlər. «Gecə» komandası veriləndən sonra «Bayquş» yenə də öz yuvasından çıxır və vəzifəsini yerinə yetirir. Oyun belə davam edir. Oyunda «Bayquş» tərəfindən heç tutulmamış uşaqlar qalib gəlirlər.

## TOPU QONŞUNA ÖTÜR

Uşaqlar bir cərgədə düzülürlər. Müəllimin «Başla» komandası ilə birinci oyunçular topu yaxında dayanmış qonşu oyunçuya, o da öz növbəsində qonşu oyunçuya verir və i.a. ötürməyə başlayırlar. Top bu qayda ilə axırıncı oyunçuya qədər ötürülür və axırıncı oyunçular topu qəbul edən kimi tez yuxarıya qaldırırlar. Bunu birinci edən komandaya qələbə xalı verilir və oyun yenidən başlanır. Oyunu 3-4 dəfə keçirmək

olar. Axırda hansı komandanın qələbə xalı çox, cərimə xalı az olursa, həmin komanda qalib gəlir.

***Qaydalar***:

1. Müəllim hər iki cərgədə topun düzgün ötürülməsinə nəzarət etmək üçün münasib yer seçməlidir.

2. Qonşunu arada qoyub, topu başqasına ötürməyə, topu havadan atmağa, cərgədən çıxıb topu almağa və s. icazə verilməməlidir.

3. Bu qaydalar pozulduqda komandaya cərimə xalı verilir və bu xallar axırda nəzərə alınır.

4. Topu baş üzərindən ayaqlar arasından keçirməklə ötürmək kimi variantlardan da istifadə edib oyunu keçirmək olar.

5. Oyunun əhəmiyyəti və qaydaları nəzəri məlumat kimi şagirdlərə çatdırmalıdır.

## TÜLKÜ VƏ TOYUQLAR

***Oyuna hazırlıq***: Dörd gimnastika skamyasını kvadrat şəkildə qoyurlar. Skamyaların arasında qalan sahə «toyuq damı» hesab olunur. Bütün «toyuqlar» burada yerləşirlər. Aparıcı «tülkü» isə skamyaların arasında dayanır.

***Oyunun gedişi***: Müəllimin işarəsi ilə «tülkü» skamyanın üzərindən içəriyə tullanır və «toyuqlardan» mümkün qədər daha çox tutmağa (toxunmağa) çalışır. Bu vaxt «toyuqlar» gah tara (skamyanın üzərinə), gah da yerə hoppanmaqla özlərini xilas etməyə çalışırlar. Tara qalxmış toyuqlara tülkünün toxunmağa ixtiyarı yoxdur. Aparıcı ikinci dəfə işarə verdikdə «tülkü» toyuq damından çıxır və tülkünün toxunmuş olduğu bütün «toyuqlar» hesaba alınır. Sonra aparıcı dəyişdirilir və

oyun yenidən başlanır. Axırda tülkü tərəfindən tutulmamış və daha az tutulmuş oyunçular qalib sayılırlar.

***Qayda***: *oyunu* zal və meydançada keçirmək olar.

## BİZ ŞƏN UŞAQLARIQ

***Oyuna hazırlıq.*** Meydançanın hər iki başında xətlər çəkilir. Bunlar start xətti hesab olunur. Oyunçular hamısı bir tərəfdə start xəttindən arxa cərgə də dayanırlar. Bir nəfər aparıcı seçilir. Aparıcı meydançanın ortasında dayanır.

***Oyunun gedişi***: Müəllimin işarəsi ilə cərgədə dayanmış uşaqlar aşağıdakı sözləri bir səslə deyirlər:

Biz şən uşaqlarıq,
Həm danışar, həm də qaçarıq.
Biz sevirik çəldliyi,
Hünərin var tut bizi.

Uşaqlar «tut bizi» sözünü deyən kimi, meydançanın digər tərəfindəki start xəttinin arxasına tərəf qaçırlar. Bu zaman aparıcı qaçanlardan birini tutmağa, yaxud əlləri ilə onlara toxunmağa çalışır. Start xəttinin arxasına keçmiş oyunçulara toxunmaq olmaz. Aparıcı start xəttinə qədər hansı oyunçuya toxunsa, o tərpənmədən öz yerində durur. Müəllim tutulanları qeydə aldıqdan sonra hamı yenidən cərgəyə düzülür və oyun təkrar olunur. Axırda heç tutulmamış, yaxud nisbətən az tutulmuş oyunçular qalib sayılırlar.

***Qaydalar***:

1. Oyunu iki komanda arasında da keçirmək olar. Bunun üçün tutulmuş oyunçulara görə komandalara cərimə xalı verilir, axırda cərimə xalı az olan komanda qalib sayılır.

2. İştirakçılar çox olduqda iki nəfər aparıcı ayırmaq lazımdır.

## ÖZ BAYRAĞINA DOĞRU

***Oyuna hazırlıq***. Meydançanın hər iki başında eninə xətlər çəkilir. Bir xəttin arxasında oyunçular dayanırlar, digər xəttin üzərində uşaqların sayına müvafiq bayraqlar (estafet ağacları) düzülür. Meydançanın ortasında 3-5 nəfər «gözətçi» dayanır.

***Oyunun gedişi***. Müəllimin işarəsi ilə oyunçular meydançanın bayraqlar olan tərəfinə qaçaraq bayraqları dayandıqları yerə gətirməyə çalışırlar. «Gözətçilər» isə onlara mane olurlar, bayraq arxasınca qaçan oyunçuya əlləri ilə toxunarlarsa, həmin oyunçular yerlərindən tərpənməyərək dayanırlar. Başqa oyunçular vurulmuş oyunçuya toxunmaqla onu xilas edə bilərlər.

Vurulmuş oyunçunun əlində bayraq olarsa, «Gözətçi» bu bayrağı alır və meydançanın yan tərəfində kvadrat şəklində cızılmış sahəyə qoyur.

Dairə içərisinə qoyulmuş bayraqları qorumaq üçün xüsusi gözətçi təyin edir (əvvəlki gözətçilərdən biri). Oyunçular bu bayraqları da qaçıra bilərlər. Bu oyunda gözətçilərlə oyunçular arasında mübarizə gedir. Əgər oyunçular kvadratda olan 1-4 bayraqlardan başqa bütün qalan bayraqları öz sahələrinə gətirə bilsələr, qalib gəlirlər. Gözətçilər isə o zaman qalib gəlmiş sayılırlar ki, bayraqlardan 5-ni ələ keçirmiş olsunlar (şərtə görə).

## İKİ ŞAXTA

***Oyuna hazırlıq:*** Meydançanın müxtəlif yerlərində dördbucaq şəklində iki növ «ev» çəkilir. Oyunçular bu «evlərə» doluşub gözləyirlər. Onların içərisindən iki nəfər «şaxta» rolunu oynayır. Hər iki «şaxta» özlərinin arasındakı sahədə sərbəst dayanırlar.

***Oyunun gedişi***: Müəllimin işarəsi ilə iki «şaxta» aşağıdakı sözləri oxuyur:

Biz iki cavan qardaşıq,
Mən qırmızıburun şaxtayam.
Mən göyburun şaxtayam.
Hər kəs bizdən qorxmursa,
Qoy bu evdən yola çıxsın.

Uşaqlar bir səslə cavab verirlər:

– Biz şaxtadan qorxmuruq.

Bunu deyən kimi uşaqlar evdən çıxıb o biri «evə» tərəf qaçırlar. «Şaxtalar» onları tutmağa, yaxud əlləri ilə toxunmağa çalışırlar. Onlar qaçanlardan kimə toxunsalar, həmin oyunçu tərpənmədən yerində «donub» qalır (növbəti qaçışa qədər). Qaçıb qarşı tərəfdəki «evə» dolmuş uşaqlara toxunmaq olmaz. Sonra yenə də mahnının sözləri oxunur və uşaqlar cavab verirlər, bununla da oyun davam edir. Ancaq oyunda bu dəfə meydançada donub qalmış uşaqlar da qaçıb özlərini xilas edə bilərlər. Oyun bir neçə dəfə təkrar edilir. Axırda iki «şaxta» tərəfindən heç tutulmayan, yaxud nisbətən az tutulan oyunçular qalib gəlirlər.

## LƏKƏ VURMA

***Oyuna hazırlıq***: Oyunçular sərbəst şəkildə meydançaya dağılışırlar. Bir nəfər aparıcı «Ləkə» təyin edilir. Aparıcı ortaya çıxıb bərkdən deyir: «Mən ləkəyəm». Uşaqlar onu tanıyırlar.

***Oyunun gedişi***: Aparıcı oyunçuları qovur və onlara çatıb əli ilə toxunmağa, «ləkə vurmağa» çalışır. Oyunçular isə qarmaqla özlərini mühafizə edirlər. Aparıcı onlardan hansına toxunarsa, həmin oyunçu aparıcını əvəz edir, əvvəlki aparıcı isə oyunçulara qoşulur. Aparıcı «ləkələnmiş» oyunçunu yerində dayanır və əlini yuxarıya qaldıraraq deyir: «Mən ləkəyəm», bundan sonra oyun yenidən başlayır. Təzə «ləkə» həmin anda köhnə ləkəyə toxunmamalıdır. Oyun müəyyən vaxt ərzində (8-12 dəqiqə) keçirilir. Axırda heç ləkələnməmiş oyunçular qalib sayılırlar.

***Qaydalar***:

1. Oyun keçirilən sahəni xətlərlə cızmaq lazımdır və oyunçulara bu xətlərdən kənara çıxmağa icazə verilməməlidir.

2. Oyunu həm açıq meydançada, həm də idman zalında keçirtmək olar.

## HOPPANAN SƏRÇƏLƏR

Oyunçulardan bir nəfəri (aparıcı) «Böyük quş» hesab edilir. «Böyük quş» dairənin mərkəzində dayanır.

***Oyunun gedişi***: Müəllimin işarəsi ilə «sərçələr» iki ayaqları üzərində gah dairənin içərisində dayanır (hoppanır), gah da hoppanıb oradan çıxırlar. Sərçələr dairəyə dən yemək üçün daxil olurlar. «Böyük quş» isə onları dən yeməyə buraxmamağa çalışır. «Böyük quş» dairənin içərisində qaçaraq

sərçələri dən yeməyə qoymamaq üçün onları dimdiyi ilə vurur (Əli ilə dairənin içərisinə toxunur). Vurulmuş «sərçə» müəllim tərəfindən qeydə alındıqdan sonra, oyun davam edir. Aparıcı tərəfindən heç vurulmamış sərçə qalib sayılır.

***Qaydalar***:

1. Aparıcının (Böyük quşu) ya tez-tez dəyişməli, ya da hər vurulmuş sərçə onu əvəz etməlidir.

2. Şagirdlərin sayına görə oyun bir neçə dəfə dairə ətrafında aparıla bilər. Belə olduqda müəllim özünə köməkçi ayırmalıdır.

3. Oyun fasilələrlə bir neçə dəfə təkrar olunur.

## DOVŞANLAR, GÖZƏTÇİ VƏ TULA

***Oyuna hazırlıq***: Oyun meydançasını xətlərlə hissələrə ayırırlar. Meydançanın qısa xətlərindən 2-3 addım qabağa bir xətt, onlardan da 3-4 addım qabağa yenə bir xətt çəkilir. Bir sahədə gözətçi, ikinci sahədə (həyətdə) tula dayanır. Meydançanın mərkəzində hasar çəkilir. Məşğələdən azad edilmiş şagirdlər, yaxud müəllimin tapşırığı ilə bir neçə şagird hoppanma xətlərindən (iplərindən) 40-60 sm. hündürlükdə maneə tuturlar, hasar ilə ikinci xəttin arasında sahə bostan adlanır. Meydançanın qarşısındakı xətdən 3-4 addım qabaqda 4 dairədən ibarət dovşan yuvaları çəkirlər. Oyunu aparmaq üçün iki nəfər aparıcı ayrılır, onlardan biri gözətçi, biri tula olur. Qalan oyunçuların hamısı «dovşan» sayılır və dovşan yuvalarında yerləşirlər.

***Oyunun gedişi***: Aparıcının işarəsi ilə hər yuvada dayanmış birinci 3 dovşan qaçıb hasarın üzərindən tullanır, bostana daxil olaraq hoppanıb düşür və «kələm yeyirlər». Bu vaxt müəllimin birinci şərti işarəsi ilə gözətçi həyətə çıxır,

ikinci işarə ilə üç dəfə əl çalır (sanki tüfəngdən atəş açır). Birinci atəşdən sonra dovşanlar öz yuvalarına doğru qaçırlar. Geriyə qaçarkən onlar hasarın (ipin) altından keçməlidirlər və elə etməlidirlər ki, ona toxunmasınlar. Üçüncü atəşdən sonra «tula» dovşanları tutmağa buraxılır. Tula hasarın üstündən tullanaraq hansı dovşana çatarsa, ona əli ilə toxunur. Tutulmuş dovşan yerində dayanır, dovşanlar öz yuvalarına girdikdən sonra onlara toxunmaq olmaz. Qaçanlar keçib axırda dayanırlar. Müəllim tutulmuş dovşanları və sonra öz yuvalarına buraxır. Yuvalarda olan dovşanların hamısı qaçana qədər oyun davam edir, hər növbəti qaçışdan sonra gözətçi ilə tula rollarını dəyişirlər. Oyunda bir dəfə də olsun tutulmayanlar ən cəld dovşanlar hesab olunurlar.

***Qaydalar***:

1. «Tula» əvəzinə başqa söz, «Aslan» və s. kimi sözlər işlədə bilər.

2. Hoppanma ipləri elə tutulmalıdır ki, uşaqların ayaqları iplərə ilişməsin.

## QURD DƏRƏDƏ

***Oyuna hazırlıq***: Meydançanın mərkəzində bir-birindən 60-70 sm. aralı iki paralel xətt çəkilir. Xətlərin arasındakı sahə xəndək sayılır. Xəndəkdə bir, ya da iki nəfər aparıcı

***Qaydalar***: - «qurdlar» dayanır. Meydançanın hər iki başında qarşı xəttə paralel xətlər çəkilir. Beləliklə, bir başda «keçi damı», o biri başda mühafizə sahəsi alınır. Oyunçu keçilər hamısı keçi damında dayanırlar.

***Oyunun gedişi***: Müəllimin işarəsi ilə keçilər damdan çıxıb xəndəyə tərəf qaçırlar və xəndəyin üzərindən tullanıb qarşıdakı mühafizə sahəsinə keçməyə çalışırlar. Bu vaxt qurd

xəndəkdən çıxmaq şərti ilə xəndəyin üzərindən tullanıb keçən keçilərdən tutmağa (toxunmağa) çalışır. Hər qaçışdan sonra tutulanlar sayılıb hesaba alınır və oyun yenidən başlanır. Oyun müəyyən vaxt ərzində keçirilir. Axırda qurd tərəfindən heç tutulmamış oyunçular qalib sayılırlar.

***Qaydalar***: hər iki- üç qaçışdan sonra aparıcıları dəyişmək lazımdır.

## KİM UZAĞA ATAR?

***Oyuna hazırlıq***: Sinif şagirdləri 3 komandaya bölünür. Onlar meydançanın müxtəlif tərəfində cərgə ilə dayanırlar. Meydançanın bir qısa tərəfində top atmaq üçün xətt çəkilir. Bu xətdən 3 m qabaqda isə bir nəzarət xətti, onun üzərində isə 2,5 m. hündürlüyündə ip çəkilir. İpin yaxşı görünməsi üçün ondan kiçik lentlər asılır. Nəzarət xəttindən qabaqda isə yenə də 5 xətt çəkilir. Əvvəlki xətlərin arasında olan sahə 3 m. olur. Atma xəttinin arxasında dayanan oyunçuların hərəsinə içərisi qumla doldurulmuş iki kisə verilir. Kisənin ölçüsü 8x12 sm, çəkisi 200-250 q. olmalıdır.

***Oyunun gedişi***: Müəllimin işarəsi ilə oyunçular növbə ilə kisələri ipin üzərindən atmaq şərti ilə mümkün qədər uzağa atmağa çalışırlar. Nəticələr qeydə alınır. Kisəni V sahəyə atan oyunçu 5 xal, IV sahəyə atan oyunçu dörd xal, I sahəyə atan isə bir xal qazanır. Atılmış kisələri növbəti komanda toplayır və onlar atma xətti arxasına keçib həmin qayda ilə oyunu davam etdirirlər. Axırda daha çox xal qazanmış komanda qalib sayılır.

***Qaydalar***: Oyun üçün lazım olan kisələri əvvəlcədən hazırlamaq lazımdır.

## DÜZ HƏDƏF AT

**Oyuna hazırlıq**: Şagirdlər iki komandaya ayrılıb meydançanın qarşı tərəflərində bir-birindən 10-12 m aralıda üz-üzə cərgə ilə dayanırlar. Meydançanın mərkəzindən bir xətt çəkilir və bu xəttin kənarlarında 10 şəhərcik qurulur (yaxud qumbara, toppuz qoyulur). Bu komandanın oyunçularının hərəsinə bir kiçik top verilir.

***Oyunun gedişi***: Müəllimin işarəsi ilə əllərində top olan komandanın oyunçuları hamısı eyni vaxtda topları düz şəhərciklərə atmaqla onları vurub yıxmağa çalışırlar. Vurulmuş, yıxılmış şəhərcikləri bərpa edib yenidən qururlar. Digər komandanın oyunçuları atılmış topları yığıb, öz növbəsində, onlar da şəhərcikləri vurmağa çalışırlar. Beləliklə, növbə ilə komandalar hərəsi 4 dəfə hərəkəti yerinə yetiriblər. Vurulmuş şəhərciklərin hesabı aparılır. Axırda 4 dəfə atmadan sonra, hansı komanda daha çox şəhərcik yıxmış olarsa, həmin komanda qalib gəlir.

***Qaydalar***:

1. Şəhərcik qurmaq üçün ağacları və atma üçün lazım olan kiçik topları əvvəlcədən uşaqların özlərinə hazırlatmaq olar.
2. Topları adi keçə parçadan, əskidən və s. hazırlamaq olar.
3. Oyunda qarışıqlıq düşməmək üçün kimin atdığı topu kim götürməli olduğunu müəllim əvvəlcədən tapşırmalıdır.

## ZOLAQLAR ÜZƏRİNDƏN HOPPANMA

***Oyuna hazırlıq***: Meydançada xətlərlə (iplərlə) dəhliz düzəldilir. Dəhlizin eni 2,5 m olur. Bunu ensiz 30 sm. və enli 50 sm zolaqlara ayırırlar. Cəmi 6-7 zolaq olur. Enli zolaqlardan təkan verirlər, ensiz zolaqlar üzərindən isə hoppanırlar. Oyunşular cərgə ilə düzülür.

***Oyunun gedişi***: Aparıcının işarəsi ilə hər bir komandanın birinci oyunçusu gəlib d'hlizin axırında dayanır.

«Başla» komandası ilə hər üç oyunçu cüt ayaqlarla ensiz zolaqların üzərindən hoppanmağa başlayırlar. Onlar ensiz zolaqların üzərindənhoppanıb enli zolaqlara düşməməlidirlər. Hansı oyunçu 6-8 dəfə düzgün hoppansa (dar zolaqları basmasa) öz komandasına bir xal qazandırmış olur. Bu qayda ilə nömrəlilər və eləcə də bütün başqa oyunçular hoppanırlar. Axırda daha çox xal qazanmış komanda qalib gəlir.

***Qaydalar***:

1. Səmərəliliyini artırmaq üçün oyunu bir və iki dəhlizdə keçirtmək olar. Bu zaman aparıcının özünə köməkçi ayırmalıdır.

2. Hoppanan zaman dar zolağı basmış oyunçu oyunu davam etdirir, lakin komandaya xal qazandırmır.

3.Hoppanmaların sürəti nəzərə alınmır.

***Oyunun başqa variantları***: Meydançada 30 sm enində 3 zolaq çəkilir. Zolaqlar bir-birindən 40-50 sm. aralı olur. Birinci zolaqdan 40-50 sm. aralı bir start xətti çəkilir. Üç komanda təşkil edilir və komandalar zolaqların ətrafında cərgə ilə dayanırlar. Müəllimin işarəsi ilə birinci oyunçular (hər komandadan bir nəfər) gəlib start xəttindən 5 m. aralı dayanır. «Marş» komandası ilə onlar qaçırlar, start xəttində bir ayaqları ilə təkan vurub birinci zolağın üzərinə düşürlər. Qalan oyunçular da bu cür tullanırlar. Sonra oyunçular daha iki dəfə

qaçmaqla ikinci və üçüncü zolaqlara tullanırlar. İkinci zolağın üzərinə düşmüş oyunçu iki xal, üçüncüyə düşmüş üç xal qazanır. Daha çox xal qazanmış komanda qalib sayılır.

***Qaydalar***:

1. Start xəttindən kənarda təkan vurmuş oyunçu zolağın üzərinə düzgün düşsə də, ona xal verilmir.

2. Tullanmanı təkrar etməyə icazə verilmir.

## DURMA, QAÇ

Oyunçular iki dəstəyə bölünür. Dəstələr bir-birindən 10-12 m. aralıda sıraya düzülürlər. Hər dəstənin qarşısında diametri 1 m. olan dairə çəkilir. Aparıcı oyunçuları nömrələyir. Nömrəsi çağırılan oyunçular dairəyə girib, üzü öz dəstələrinə tərəf qaçış vəziyyəti alırlar. Aparıcının «başla» komandası ilə hər iki oyunçu öz dəstəsinin sol tərəfi ilə qaçaraq dəstənin ətrafına dolanır vəcəld öz dairəsinə daxil olmağa çalışır. Daha tez dairəyə girən oyunçu bir xal qazanır. Çox xal toplayan dəstə qalib gəlir. Qaçarkən bir-birini itələmək olmaz.

## KİM TEZ YÜYÜRƏR

Oyunçular iki dəstəyə düzülüb, bir-birindən 10-12 m aralı üzbəüz dayanırlar. Hər dəstənin qarsışında diametri 1 m. olan dairə çəkilir. Aparıcı oyunçuları nömrələyir. Sonra onun işarəsi ilə hər dəstənin bir saylı oyunçusu dairəyə keçib yüyürməyə hazır vəziyyət alır. «Başla» əmri verilir. Hər oyunçu cəld yüyürüb rəqibin dairəsinə düşməyə çalışır. Rəqib dairəsinə daha tez çatan oyunçu bir xal qazanır. Beləliklə, daha çox xal toplayan oyunçu (dəstə) oyunu udmuş olur.

Yüyürərkən qarşılaşmaq olmaz. Rəqib dairəsinə əks tərəfdən daxil olmaq lazımdır.

## QURMADAŞ

Meydançanın ortasında böyük bir dairə çəkilir. Onun mərkəzində toppuz qoyulur. Toppuzdan 20-25 m. aralı mərə qurulur-xətt çəkilir. Oyunçular iki dəstəyə bölünürlər və sıraya düzülürlər. Püşk atılır. Birinci dəstə mərə xəttində sıraya düzülür. Onlar növbə ilə top atır. Toppuzu vurub aşırmağa çalışırlar. Topu atan oyunçu keçib dəstənin sonunda dayanır. Toppuzu vurub-aşıran bir xal qazanır. Çox xal toplayan dəstə qalib hesab olunur. Oyunçu topu atarkən xətti tapdalaya bilməz.Toppuzu vurub aşıran oyunçu ikinci dəfə oyunu davam etdirə bilər.

## TOPPUZ QAÇIRMA

**Oyuna hazırlıq**: Oyunçular iki dəstəyə bölünür, nömrələnir və bir-birindən 20-25 m aralıda üz-üzə düzülürlər. Hər sıranın qarşısından bir addım aralıda xətt çəkilir. Hər xətdən yarım metr aralıda diametric bir addım olan dairə çəkilir. Dairənin mərkəzində toppuz qoyulur. Meydançanın mərkəzində bir-birindən yarım metr aralı, diametri bir addım olan daha iki çevrə çəkilir. Oyun başlanır. Müəllimin işarəsi ilə nömrələri çağırılan oyunçular toppuzları götürüb qaça-qaça öz dairələrinə qoyur və cəld müəllimin yanına yüyürürlər. Aparıcıya daha tez çatan oyunçu bir xal qazanır, daha çox xal toplayan dəstə qalib sayılır. Eyni bir oyunçunu ikinci dəfə

çağırmaq olmaz. Dairəyə qoyulmuş toppuz aşırsa, oyunçu qayıdıb onu düzəltməlidir.

## QU–QU

Oyunçular iki dəstəyə bölünüb, meydançada bir-birinə qarşı sıraya düzülürlər. Dəstələrdən iki addım aralı bir-birinə paralel ağaclar basdırılır və onun üstündən şüvül qoyulur. Tullanış yerindən 10-15 m aralı qaçış xətti çəkilir. Püşk atılır. Dəstələr nömrələnir. Sonra hər dəstədən bir oyunçu qaçaraq ağacın üzərindən hoppanmağa çalışır. Əvvəl birinci, sonra isə ikinci dəstənin oyunçusu hoppanır. Oyunçular hamısı ağacın üstündən hoppanmağa çalışırlar. Hoppana bilməyən oyunçu bir xal itirir. Daha çox xal toplayan dəstə qalib gəlir. Hoppanarkən ağaca toxunmaq və qaçış xəttindən çıxmaq olmaz.

## DÜZGÜN ATMAQ

Oyunçular iki dəstəyə ayrılır. Meydançada bir– birindən 15-20 m. aralı iki xətt çəkilir. Hər iki dəstə həmin xətlər boyu qarşı-qarşıya düzülürlər. Oyunçular nömrələnirlər.Müəllim 1-2-3-4 və s. nömrələri çağırır. Nömrəsi çağırılan oyunçular topla rəqiblərini vurmağa çalışırlar. Rəqiblərindən biri topu tutsa bir xal qazanır. Beləliklə, hansı tərəf daha çox xal toplasa qalib gəlir.

## MƏN ÇOBANAM

Oyunçular sıraya düzülüb bir-birinin kəmərlərindən tuturlar. Aparıcı – «çoban», oyunçulardan biri isə «qurd» olur. «Qurd» 1-2 addım irəlidə dayanıb, üzünü dəstəyə tərəf çevirir. Oyunçu «qurd» deyir:

– Mən «qurdam» – alaram

«Çoban» cavab verir:

– Mən «çobanam» – verməræm.

Bundan sonra qurd çobanı aldatmağa, sıradakılardan birinə toxunmağa çalışır. «Çoban» və bir-birinin kəmərindən tutmuş oyunçular özlərini müdafiə edirlər. «Qurd»un əli dəymiş oyunçu sıradan çıxır. «Qurd»un toxunduğu oyunçuların sayı «çobanın» qoruduğu oyunçuların sayından çox olarsa, «qurd» - «çoban» və oyunçulardan biri isə«qurd» olur. Oyunçuya ayaqla toxunmaq olmaz. «Çoban» «qurd»a toxunduqda oyun dayandırılır. Yeni «çoban» və yeni «qurd» seçilir.

## ŞAXTA VƏ GÜNƏŞ

Bu oyun əsasən qızlar üçündür. Qızlar iki dəstəyə ayrılırlar: Meydançanın əks tərəflərində cərgə ilə üz-üzə düzülürlər. Dəstəbaşçı seçilir. Əllərində qırmızı yaylıq tutmuş dəstə «Günəş», ağ yaylıq tutan dəstə isə «Şaxta» adlanır. Aparıcı dəstə başçılarını meydanın ortasına çağırır. Ağ yaylıqlı dəstənin başçısı o birinə deyir:

«Şaxtayam, yüküm ağır,
Nəfəsimdən qar yağır.
Mən gələndə dəryalar,

Qorxudan buz bağlayır».

Qırmızı dəstənin başçısı cavab verir:
«Şaxta baba, nahaq sən
Qüvvətliyəm deyirsən.
Mən buluddan çıxanda
Mum kimi əriyirsən».

Aparıcının işarəsi ilə dəstə başçıları yaylıqları oyunçulardan yığırlar. Dəstəni sıraya düzüb cəld müəllimin yanına yüyürür və yaylıqları ona verirlər. Oyunu tez qurtaran dəstə qalib hesab olunur.

## TEZ TƏRPƏN

Oyunçular iki dəstəyə bölünürlər. Dəstələr sıraya düzülür, hər dəstənin bir oyunçusu qaçış xəttində hazır vəziyyətdə durur. Bir düz xətt boyu diametri 20 sm olan 12-15 dairə çəkilir. Aparıcının işarəsi ilə hər iki dəstənin oyunçuları bir ayaq üstə dairələrlə hoppana-hoppana əvvəlcə bir tərəfə qaçır və sonra həmin qayda ilə geri qayıdıb əlini onu gözləyən oyunçunun əlinə vurub arxaya keçir. Növbədə duran oyunçu isə oyunu davam etdirir. Oyunu birinci başa çatdıran dəstə qələbə qazanır. Ayaqları dəyişməyə icazə verilir. Oyunçunun əli dəyməmiş xətdən kənara çıxmağa icazə verilmir. Oyunçular dairədən-dairəyə bir ayağı üstə atılmalıdırlar.

## ÜZƏNGİ

Oyunçular iki bərabər dəstəyə bölünür və 15-20 m üz-üzə dururlar. Hər bir oyunçu özü üçün diametri 20-25 sm olan bir dairə çəkir və onun içərisində durur. Dairələr bir-birindən 50-80 sm aralı olmalıdır. Hər dəstə özünə başçı seçir. Dəstəbaşıları oyuna başlamaq üçün püşk atırlar. Əvvəlcə başçı topla qarşı dəstənin oyunçularından birini vurmağa çalışır. Qarşı dəstənin oyunçuları isə topu tutmağa və onunla əks dəstənin oyunçularından birini vurmağa çalışırlar. Top oyunçuya dəydikdə başçı «Dayan» – deyə işarə verir. Sonra həmin uşağı oyundan çıxarırlar. Oyun tərəflərdən biri təklənənə kimi davam edir. Son oyunçunu da vuran dəstə qalib gəlir. Oyunçu ayağını dairədən kənara qoya bilməz. Topla vurulan oyunçu bir əlini yuxarıya qaldırmalıdır.

## CIZIĞA GİRMƏ

Yaş 10-16. Oyunçuların sayı: 10-16.

Uşaqlar oyun yerinə gəlir və iki bərabər dəstəyə bölünürlər. Yerdə tabaşir və ya ucu şiş daşla böyük bir dairə çəkirlər. Bundan sonra dəstələrdən biri özünü «yaş», o biri isə «quru» adlandırır. Bir balaca yastı daş parçası götirib, bunun bir üzərini yaşlayır və daşı yuxarıya (göyə) atırlar. Quru tərəf olanlar: «ya quru, ya quru» deyib qışqırır, «yaş» tərəf olanlar «mən yaşam, mən yaşam» deyib səslənirlər. Daş hansı üzü üstə düşərsə o tərəf cızığın içərisinə girməli olur. «Yaş» və ya «quru» cızığın içərisinə onun kənarından başlayaraq dairənin mərkəzinə doğru qayışlar qoyur. Qayışlar 50-60 sm. məsafə saxlamaqla düzülür. Sayı isə cızıq içərisində olan uşaqların sayı qədər olmalıdır. Cızığın içərisində duran hər uşaq bir

qayışın yanında durub, onu qorumalıdır. Qayışlar ayaqlar arasında olur. Ayaq ilə qayışı basmaq və cızıqdan kənara cıxmaq olmaz. Cızıqdan kənarda olan uşaqlar çalışır ki, müxtəlif hərəkətlərlə cızığın içərisindəki uşaqların başını qarışdırıb və qayışları bir-bir cızıqdan çıxarsınlar. İki ayağı cızıqdan çölə çıxarılan uşaq isə oyundan çıxarılır. İçəridə duran uşaqlar çalışırlar ki, qayışları və özlərini cızıq daxilində saxlasınlar. İçəridəkilərin çöldəki uşaqların ayağını basmaq, qıçına ayaq və əl ilə toxunmağa ixtiyarı vardır. Əgər çöldəki uşaqların birinin bədəninə əl və ayaq ilə toxunulursa o zaman dəstələr yerlərini dəyişməli və oyun yenidən başlamalıdırlar. Ələ keçirilmiş qayışla rəqibi vurmaq olar.

**Variantı.** Cızığın içərisindəkilər o zaman uduzmuş hesab olunur ki, onlardan bir neçəsi oyundan kənara çıxarılır və ya qayışlardan 3-4-ü rəqib dəstənin əlinə keçmiş olur. Cızığın kənarında olan oyunçular isə o zaman uduzmuş hesab edilirlər ki, onlardan bir neçəsinin qayışı əlindən alınmış və ya onlardan bir neçəsi rəqib tərəfindən cızığa salınmış olur.

## KƏNDİRİ GÖTÜR

Yaş 12-16. Oyunda 15– 20 uşaq iştirak edir. Ləvazimat: kəndir.

Uşaqlar iki bərabər dəstəyə bölünüb sıra ilə qarşı-qarşıya dururlar. Kəndiri ilan qıvrılmasına bənzər dolayıb, ortaya qoyurlar. Rəhbərin işarəsi ilə hər iki tərəf eyni vaxtda kəndirə tərəf qaçıb kəndiri götirməyə çalışırlar. Hansı dəstə kəndiri tez götürə bilirsə, o dəstə də qalib sayılır və bir qələbə xalı qazanır. Oyun 4-5 dəfə təkrarlanır. Daha çox xal toplamış dəstə qalib hesab olunur.

**Variantı.** Kəndirlə hər iki üz– üzə dayanmış dəstələrin arasındakı məsafə eyni olmalıdır. Rəhbərin işarəsi olmadan və yaxud da işarədən əvvəl qaçıb kəndiri götürmək sayılmır.

## ÇƏKİB XƏTDƏN ÇIXARMA

Oynayanlar iki komandaya bölünüb aradan çəkilmiş xətt boyunca üz-üzə dayanırlar. Boy və çəkidə təxminən bərabər çəkilmiş olan oyunçular qarşı-qarşıya dururlar. Hər komandanın arxasında 4-5 m. aralıda xalları hesablamaq üçün ayrılmış oyunçular dayanırlar. Oyun siqnal üzrə başlayır. Hər komanda çalışır ki, o biri komandanın daha çox oyunçusunu dartıb xətdən çıxartsın. Xətdən çıxarılmış oyunçu əlinin içi ilə onu çıxardan komandanın xalları hesablayan oyunçusuna toxunmalıdır, məhz bundan sonra o, xətdən o tərəfə keçib öz komandasında oynamaq hüququ qazanır. Hər çəkilib çıxarılmış oyunçu, onu çıxaran komandaya bir xal verir. Oyun ərzində daha çox xal toplamış komanda qalib gəlir.

**Qaydalar**:

1. İstənilən oyunçunu əlindən tutub dartmaq olar.

2. Oyunçu tək-tək, iki-iki və eyni zamanda bir neçə oyunçunu dartıb çıxart-mağa icazə verilmir.

3. Oyunçu hər iki ayağı ilə xətti keçdikdə dartılıb çıxarılmış sayılır. 4. Paltardan tutub çəkməyə, qıçdan tutmağa icazə verilir.

## TAP GÖRƏK

Bir dəstə uşaq bir yerə yığılır və hər bir uşağa ad qoyulur. Eləcə də adlarına müvafiq onların yeyəcəyi xörək

təyin edilir. Məsələn: uşaqların biri dovşan yediyi - kələm; ikinci adam yediyi - cörək, üçüncü kirpi yediyi - ilan, dördüncü tülkü yediyi - toyuq, beşinci toyuq yediyi - darı, altıncı qarğa yediyi - pendir və beləliklə, oyun başlanmazdan əvvəl bütün uşaqlar adlarına uyğun yeməklə təmin olunur. Uşaqlar dairə vurub otururlar. Onlardan biri dairənin mərkəzinə gəlib barmağı və yaxud əlindəki ağac ilə yerdə dairə çəkə-çəkə deyir:

– Karıxma-darıxma, darıxma-karıxma, karıxma-darıxma.

O biri uşaqlar da barmaqları ilə və ya təbaşirlə (çöplə) dairə çəkə-çəkə:

– Karıxma-darıxma, darıxma-karıxma, karıxma-darıxma, – deyirlər.

Dairənin ortasındakı uşaq birdən barmağını yuxarı qaldıraraq, yoldaşlarının birindən soruşur: yediyin nədir? Həmin uşaq çaşmayaraq qabaqcadan təyin edilən xörəyin adını düzgün söyləyərsə oyun davam edər. Uşaqlar yenə ”karıxma-darıxma” kəliməsini təkrar edirlər. Ortadakı uşaq yenə birdən uşağın birinə üzünü tutub:

– Adın nədir? – deyə soruşur.

Uşaq cavab verir. Əgər cavab verən uşaq yanılıb öz adını, yaxud xörəyinin adını düzgün deməzsə əvəzinə öz adını deyərsə, o uşağa cəza verilir. Verilən cəza belədir. Uşaq başını aşağı əyməli, yəni digər uşaqlara hörmət əlaməti olaraq təzim etməlidir. Və ya dairəyə daxil olub rəqs etməli, ya da bildiyi şeirlərdən, mahnılardan parçalar söyləməlidir. Cəzanı uşaq qəbul etməzsə yəni imtina edərsə, ona başqa bir tənbeh də vermək olar. O bu cəzalardan da imtina edərsə onda ona arzuladığı cəzanı vermək məqsədəuyğun olar. Verilmiş cəzanı qəbul etməyən uşaq oyundan kənarlaşdırılmalıdır.

## KƏNDİRİ ÇƏK

Oyunda 4 nəfərdən 20-i nəfərədək uşaq iştirak edə bilər. Ləvazimat: kəndir və 4 ədəd ağac kəndirin ucları bir-birinə möhkəm bağlanır və dörd künc formasında ortalığa qoyulur. Hər küncdən bir qədər uzaqda bir ağıc basdırılır. Uşaqlar bərabər sayda dörd dəstəyə bölünürlər. Hər dəstə kəndirin bir ucundan yapışaraq kəndiri özlərinə tərəf çəkirlər. Oyunda hansı dəstə kəndiri dartıb aparmaq şərti ilə ağaca tez çatarsa, o dəstə oyunda 1 xal qazanmış olur. Daha çox kəndiri dartaraq ağaca tez çatan dəstə qalib hesab olunur. Aparıcının işarəsi olmadan kəndiri özünə tərəf dartmaq olmaz. Oyunun qaydalarına bir neçə dəfə riayət etməyən dəstəyə 1 cərimə xalı verilir.

## XORUZ DÖYÜŞÜ

Oyunçular boy sırasında bir cərgəyə düzülürlər. Cərgənin qarşısında diametri 3-4 m olan üç dairə çəkilir. Növbə ilə cərgədən (sağ cinahdan başlayaraq) altı oyunçu çıxır. Hər dairəyə iki oyunçu daxil olub dayanır. Müəllimin «Hazırlaş», «Başla» komandasından sonra hər iki nəfər öz dairəsində oyuna başlayır. «Xoruzların» hər biri, əlləri belində, bir ayaq üstündə tullanıb-düşərək çiyni ilə rəqibi dairədən çıxartmağa, yaxud iki ayağı üzərində dayanmağa məcbur etməyə çalışır. Kim buna nail olursa, qalib gəlir. Oyunu bu və ya digər nəticə ilə başa vuran oyunçular cərgə ilə öz yerlərinə gedirlər. Bundan sonra növbəti oyunçular çağrılır və hamı oyunda iştirak edənə kimi oyun davam edir.

**Qaydalar:**

1. Üstündə tullanılan ayağı hər 6 tullanmadan bir dəyişmək olar.

2. Qəsdən kobud səhvlər etmək qadağandır.

## ÇİLİNGAĞAC

Yaş 10-16. Oyunçuların sayı: 2-6 nəfər. *Ləvazimat:* 60-70 sm. uzunluğunda və iki barmaq yoğunluğunda bir ağac və 15-20 sm. uzunluğunda və nazik barmaq yoğunluğunda çiling (kiçik bir ağac).

Oyunu başlamazdan əvvəl oyun nöqtəsi olaraq çala, kiçik bir çuxur qazılır. Bura oyunun mərkəzi adlanır. Oyunçular iki dəstəyə ayrılırlar. Oyunda hər tərəfdən bir uşaq iştirak edir. Uşaqlar «yaş», «quru» atırlar (püşk) qalib gələn tərəf oyuna başlayır.

**Oyunun gedişi:** Oyunu başlayan tərəfin uşaqlarından biri ağacla çilingi vurur və ağacı çalaya qoyur.

**Variantı.** İkinci dəstənin uşaqlarından biri isə çilingi havada ağacla vurmağa çalışır. Əgər ağac çilingə dəysə, oyun bununla bitir və dəstələr yerlərini dəyişdirirlər. Çiling dəyməzsə, oyun əvvəlki qayda üzrə davam edir. Birinci dəstə çilingi üç dəfə vurur və onu digər dəstəyə tərəf yönəldir. 2-ci dəstənin uşaqlarından biri isə öz çalalarının qabağında ayaq üstündə durur, öz bədəni ilə və əlində tutduğu ağacı ilə «uçub» gələn çilingi çalaya düşməkdən qoruyur. Bunun üçün çalanın kənarında çöməlir və əlindəki ağacı çala ətrafında gəzdirir, çiling çalaya doğru gəldikdə ağacla vurub qaytarır. Bu qayda ilə çilingi 6 dəfə vurur və onu digər dəstəyə tərəf yönəldir və bununla da oyun bitir. Bütün oyun müddətində əgər ikinci oynayan tərəf çilingi «göydə» tuta bilirsə, yaxud çilingi

çaladan bir ağac məsafəyə sala bilirsə, oyun bitmiş hesab olunur. İkinci tərəf oyunu yenidən başlayır.

## ƏL ÜSTƏ KİMİN ƏLİ

Uşaqlardan biri qarşıya çıxır və başını (bədənini) aşağı əyir. Digər uşaqlardan biri isə əllərini qarşıda əyilmiş uşağın kürəklərinə qoyur. Başqa uşaqlar isə bir səslə ondan soruşur:

– Əl üstə kimin əli?

Əgər əyilən uşaq əlin kimin əli olduğunu düzgün tapmazsa o biri uşaqlar əllərini həmin uşağın kürəyinə vurur və hündürdən ahəngdar bir səslə deyirlər:

– Götürün vurun, yalandır.

Sonra isə digər uşaqlardan biri əllərini əyilən uşağın kürəyinə qoyur. Oyun əlin kimin əli olduğu tapılan müddətə qədər davam edir. Elə ki, əlin kimin əli olduğu tapıldı, əli tapılan uşaq əyiləni əvəz edir. Oyun təxminən 30-40 dəqiqə davam edir. Əlləri «yatan» uşağın kürəyinə zərblə vurmaq olmaz.

## İKİ TƏRƏFLİ VURUŞMA

Oyunun 15 və ya daha çox iştirakçısı ola bilər. Meydançada və ya müvafiq yerdə dördbucaqlı çəkilir və o 3 hissəyə bölünür. Kənar hədlər 5m orta hissə isə 7 metr olur. Uşaqlar üç dəstəyə bölünür. İki dəstə kənar hissələrdə bir dəstə isə orta hissədə durur. Hər dəstədə 5 oyunçu iştirak edir. İki kənar dəstədə duran uşaqlar top ilə ortadakı dəstənin uşaqlarını vurmağa çalışırlar. Ortadakılar isə hər vasitə ilə topdan qorunurlar. Yəni topların onlara dəyməməsinə çalışırlar. 10

dəqiqədən sonra dəstələr növbə ilə yerlərini dəyişirlər. Beləliklə, hər dəstə bir dəfə orta hissədə dayanmış olur. Oyun dövründə hansı dəstəyə daha az top dəymişsə o dəstə qalib sayılır. Hər bir dəstə ona məxsus yerdə oynamalı kənara çıxmamalıdır. Top yerə düşdükdən sonra, uşaqlara dəyərsə bu hesaba alınmır. Şəraitə uyğun olaraq dəstələrdə oyunçuların sayını müvafiq şəkildə artırmaq eyni zamanda azaltmaq da olar. Bu oyunda özünü müdafiə etmək, qorumaq, rəqib zərbəsinə tuş gəlməkdən qaçmaq başlıca şərtdir. Oyunda uşaqlar topla oynamağa alışır, eləcə də, cəldlik, çeviklik, sürət kimi hərəki qabiliyyətlərini inkişaf etdirirlər.

## GÖZBAĞLICA

Yaş 10-16. Oyunda 10-30 uşaq iştirak edir. *Oyun ləvazimatı:* fit və qayış (dirə).

Uşaqlar əl-ələ tutub dairə düzəldirlər. İki uşaq ortaya çıxır. Birinə fit, o birinə dirə (qayış) verilir. İkisinin də gözü öz yaylıqları ilə bağlanır. Uşaqların biri fit çala-çala qaçır. O biri qayışla onu vurmağa çalışır. Dairədə olan uşaqlar onları dairə xaricinə buraxmırlar. Fit çalan uşağa qayış dəyirsə, bu vaxt uşaqlar yerlərini dəyişdirirlər. Bu oyunu dirəsiz qayışsızda oynamaq olar: bu halda ikinci uşaq birinci uşağı tutmağa çalışır. Uşaq tutulduqda yerlər dəyişir. Oyun beləliklə davam edir.

## TORBANI QAÇIR

Yaş 10-16. Oyunda 10– 20 uşaq iştirak edir. Ləvazimat: içi qum ya torpaqla doldurulmuş, balaca torba.

Torbaya 12 metr uzunluqda bir kəndir bağlanmışdır. Yerdə bir dairə çəkilir. Uşaqlar dairə boyu düzülürlər. Bir uşaq ortaya çıxır. Ortadakı uşaq kəndirin ucundan tutaraq torbanı dairə boyu fırladır. Və uşaqların ayağına toxundurmağa çalışır.

**Variantı.** Hər uşaq diqqətli olmalı, torba ayağına tərəf gəldikdə yerində hoppanmalı ayağını torbanın toxunmasından qorumalıdır. Uşaqlardan kimin ayağına torba dəysə, o dairənin içərisindəki uşağı əvəz etməlidir. Dairə içərisində olan uşaq dairənin mərkəzində durmalıdır. Düzgün dairə çəkmək üçün bir ip olmalı, ipin bir ucunu şüş bir ağaca bağlayıb yerə çalmalıdır. O biri ucuna təbaşir, mıx, yaxud şüş daş bağlayaraq dairəni çəkməlidir.

## MƏRƏ TUTDU

Yaş 10-16. Oyunçuların sayı 5-10. *Ləvazimat:* oyunçuların sayı qədər çubuq və bir top.

Hər uşaq özünə balaca çuxur çala qazır və əlindəki çubuğunun bir ucunu çalaya qoyur, o biri ucunu əlində tutur və çubuğu dik saxlayır. Uşaqlar bu minvalla həm də dairə təşkil edirlər. Uşaqlardan biri dairə içərisində dayanır. Dairənin mərkəzinə iri bir top və yaxud da doldurulmuş top qoyulur. Uşaqlardan biri yerindən çıxaraq əlindəki çubuqla topu vurur və həmin dəqiqə öz yerinə qayıdaraq çubuğunun ucunu öz çalasına qoyur. Başqa uşaqlar da həmin hərəkəti təkrar edirlər. Dairənin mərkəzində dayanmış uşaq çalışır ki, topu vuranın yerinə qayıdıncaya qədər öz çubuğunu onun çalasına qoysun. Əgər mərkəzdəki uşaq buna müvəffəq ola bilirsə, bu zaman yeri tutulan uşaq mərkəzə gəlir və həmin oyunçunu əvəz edir. Oyunda çalasının tutulmasına imkan verməyən uşaqlar qalib hesab olunur və oyun əvvəlki qayda ilə davam edir.

## DAYAN

Yaş 12-16. Oyunda 6-12 uşaq iştirak edir. *Ləvazimat*: top.

Uşaqlar sıraya düzülürlər və birincidən başlayaraq sıra ilə sayırlar: 1, 2, 3, 4, 5, 6. hər bir uşaq öz nömrəsini yadında saxlamalıdır. Say qurtardıqdan sonra, uşaqlardan biri sıradan kənara çıxır, topu atır və uşaqlardan birinin nömrəsini səsləyir. Çağırılan uşaq qabağa çıxır. Başqa uşaqlar isə qaçırlar. Birinci uşaq olduqca sürətlə topu tutmağa çalışır. Topu tutan kimi «dayan» – deyə çığırır. Bu zaman bütün qaçan uşaqlar dayanırlar. Birinci uşaq topu yanında duran uşaqlardan birinə vurur və yerindən tərpənmir. O, yalnız o tərəf bu tərəfə əyilə bilər, yaxud yerində tullana bilər. Əgər top oyunçulardan heç birinə dəyməzsə, yenə birinci uşaq topun dalınca gedir, o biri uşaqlar isə qaçmağa başlayırlar. Qovan uşaq topu ələ götürdükdə, dayan deyə çağırır və yaxındakı uşağı vurur; bu qayda ilə oyun davam edir. Əgər birinci uşaq oyunçulardan birini top ilə vura bilirsə, vurulan uşaqla öz yerini dəyişir.

## İKİ ŞƏHƏR

Yaş 10-14. Oyunda 10-20 uşaq iştirak edir.

Oyun yerində bir düzbucaqlı çəkilir. Düzbucaqlının ortasından və kənarlarından düz xətlər çəkilir. Kənar hissələrdəki xətlər ortadan çəkilmiş xəttin sağ (sol) hissəsindən kiçik olmalıdır. Bu şərti olaraq «şəhərcik» adlanır. Beləliklə, hər iki tərəfdə bir «şəhər» yaranır. Uşaqlar iki bərabər dəstəyə bölünür və ortadakı xətt üzrə hər iki tərəfdə arxa-arxaya dururlar. Hər dəstənin bir rəhbəri olur. «Yaş» «quru» deyib püşk atırlar. Uduzan tərəf qaçır, o biri tərəf qovur. Bir dəstənin

uşaqları qaçarkən o biri dəstənin uşaqları onları tutub «əsir» almağa çalışırlar. «Əsir» almaq üçün əl ilə toxunmaq kifayətdir. Əsir düşənlər oyundan çıxarılır. İkinci dəfə püşk atırlar və oyun əvvəlki qayda ilə davam edir. Bir tərəfin uşaqları tamam «əsir» alındıqdan sonra oyun bitir. Şəhərə çatdıqda və ya şəhər xəttini keçdikdən sonra əsir götürmək olmaz. Oyun yerinə və iştirakçıların sayına uyğun olaraq dördbucaqlı çəkilir.

## QAÇDI-TUTDU

Yaş 10-14. Oyunda 10-20 uşaq iştirak edir. Uşaqlar dairə təşkil edirlər. İki uşaq dairə kənarında qalır. Biri qovur, o biri qaçır. Qaçan uşaq dairəyə daxil olub uşaqlardan birinin yanında dayanır. Bunun sağ tərəfindəki uşaq dairədən çıxıb əvvəlki uşağı qovmağa başlayır. Qaçan uşaq dairəyə girir. Onun sağındakı uşaq isə dairədən çıxaraq dairədən kənardakı uşağı qovmağa başlayır və bu qayda ilə davam edir. Oyunu 4-5 dəfə təkrar etmək olar.

## BALIQ OVU

Yaş 10-14. Oyunda 16-20 uşaq iştirak edir.

Oyun meydançada aparılır, meydançanın bir tərəfində dairə çəkilir, bu dairə «balıqçı evi» adlanır. Uşaqlar iki dəstəyə bölünürlər: «balıqlar» və «balıqçılar».

«Balıqlar» meydançada o tərəfə, bu tərəfə gəzişirlər. «Balıqçılar» əl-ələ tutub dairə təşkil etməklə gəzişərək «balıqları» tutmağa başlayırlar. Dairə ilə hərəkətdə olan uşaqlar balığa yaxın gəldikdə qəflətən onu əhatə edib dairəyə

alırlar. Balıq «çırpınaraq» dairəni yarıb çıxmağa çalışır. Dairədən çıxa bilməyən balıqlar tutulmuş hesab edilir. Tutulmuş balığı meydançadakı dairə içərisinə – «balıqçı evinə» salırlar. Tutulmuş balıqlar balıqçı evindən kənara çıxmamalıdır. Oyun bu qayda ilə davam edir. Bütün balıqlar tutulduqdan sonra, uşaqlar yerlərini dəyişdirirlər. Balıqlar balıqçı yerinə, balıqçılar isə balıqların yerinə keçirlər.

Oyun qaydalarında dəyişikliklər etməklə həmin oyunu başqa variantda da təşkil etmək olar. Yəni tutulanları "balıqçı evi"ndə saxlamaq deyil, onların balıqçı uşaqlara qoşulub ovla məşğul olmaları nəzərdə tutulur. Bu variant oyun müddətində bütün uşaqların hərəki fəallığının yüksəldilməsi üçün çox vacibdir.

## KARTOF ƏKIRIK

Yaş 10-13. Oyunda 15-30 uşaq iştirak edir. *Ləvazimat:* bir neçə torba.

Uşaqlar bir neçə bərabər dəstəyə bölünürlər. Yerdə uzun bir düz xətt çəkilir. Uşaqlar dəstələrlə xəttin qarşısında dururlar. Xətdən 10-15 m məsafədə hər dəstənin qarşısında bir neçə kiçik dairələr çəkilir. Hər dəstənin bir dənə torbası var. Hər torbanın içində bir neçə daş, yaxud da kartof qoyulur (məsələn; üç dənə).

**Variantı.** Komanda ilə hər dəstədən bir uşaq çıxır, torbadakı daşları (kartofları) qarşıdakı dairələrin içinə qoyur (kartofu əkir) və geriyə dəstəyə qayıdır. Sonra torbanı sırada duran ikinci yoldaşına verir. İkinci yoldaş isə sürətlə qaçaraq daşları (kartofları) torbaya yığır və torbanı gətirib ucuncu yoldaşına çatdırır. Üçüncü yoldaşda eyni ilə həmin hərəkəti təkrar edərək torbanı dördüncü yoldaşına verir. Beləliklə,

oyunda dəstənin bütün uşaqları iştirak edir. Hansı dəstənin uşaqları kartofu tez əkib qurtarsa, o dəstə oyunun qalibi sayılır.

## ÜÇÜNCÜ QAÇ

Yaş 10-14. Oyunda 10-20 uşaq iştirak edir.

Uşaqlar iki-iki bir-birinin arxasında durub dairə təşkil edirlər. Həmin uşaqlardan biri qovur. O biri isə qaçır. Qaçan uşaq gəlib uşaqlardan hər hansı birinin qabağında dayanır. Arxada duran uşaq dairədən çıxır və əvvəlki uşağı qovanı qovmağa başlayır. Qaçan uşaq müəyyən vaxt qaçdıqdan sonra başqa bir oyunçunun önündə durur. Bu qayda ilə oyun davam edir. Oyunu bir neçə dəfə təkrar etmək olar. Oyun olduqca maraqlı və cəlbedicidir. Bu şərtlə o düzgün, qoyulmuş qaydalar üzrə həyata keçirilsin. Yəni yoldaşı qovarkən artıq hərəkətlər etməməlidir. Qaçarkən bir-birini itələmək, tutub saxlamaq, zor tətbiq etmək, hündürdən qışqırmaq, kimi isə ələ salmaq, idman geyimindən tutmaq yolverilməzdir. Çalışmaq lazımdır ki, oyunda bütün uşaqlar oynasınlar, fəal iştirak etsinlər. Oyun 2-3 iştirakçının üzərində qoyulmamalıdır. Xüsusən oyunda düzgün qaçmağa və obyektiv olmağa səy göstərilməlidir.

## QAÇANI QOV

Yaş 10-14. Oyunda 10-20 uşaq iştirak edir.

Böyük bir dairə çəkilir. Uşaqlar dairənin kənarı ilə bir-birindən 2-3 m məsafədə düzülürlər. Rəhbərin komandası ilə uşaqlar qaçmağa başlayırlar. Hər uşaq qabaqda qaçan uşağa əl

ilə toxunmağa çalışır. Toxunulan uşaq oyundan çıxarılır. Oyun bir uşaq toxunulmayıb qalıncaya (axırıncıya) qədər davam edir. Axıra qalıb heç əl ilə toxunulmayan uşaq qalib sayılır. Qaçılacaq məsafə uşaqlar tərəfindən qabaqcadan müəyyənləşdirilir.

## QAÇANI TOPLA VURMAQ

Yaş 10-14. Oyunda 10-20 uşaq iştirak edir. *Ləvazimat:* top.

Uşaqlar iki dəstəyə bölünüb dairə təşkil edirlər. Dəstələrdən biri çöməlir, digər dəstə isə onun arxasında ayaq üstə dayanır. Beləliklə, uşaqlar cüt– cüt düzülmüş olurlar. Uşaqların arasındakı məsafə təxminən 3 və ya 4 m. olmalıdır. Ayaq üstə duran uşaqlar topu bir-birinə atırlar. Əgər ayaq üstə duranlardan biri topu tuta bilməzsə, onlar dərhal qaçmağa başlayırlar. Səplənmiş uşaqlar topu götürüb qaçanlardan birini vurmağa çalışırlar. Onlar qaçanlardan birini vura bilsələr, dəstələr yerlərini dəyişirlər. Yəni ayaq üstə duranlar çömәlir, çömələnlər isə ayağa qalxırlar. Oyun əvvəlki qaydada davam etdirilir. Oyunu keçirməkdən ötrü qaçış sahəsi qabaqcadan müəyyən olunur. Üç dəfə topu salan dəstə digər dəstənin uşaqlarını arxasına mindirib, 10 m. məsafəyədək aparmalıdır.

## GİZLƏN, SƏNİ GÖRMƏSİNLƏR

Yaş 10-3. Oyunda 10-20 uşaq iştirak edir.

Oyun kol-koslu, kələ-kötürlü, enişli-yoxuşlu, dərəli-təpəli yerlərdə oynanılır.

Uşaqlar bir kənarda sıraya düzülürlər. Bir rəhbər və bir «aparıcı» seçirlər. Aparıcı 50-100 addım qabağa keçir və arxası uşaqlara durur. Rəhbər fit verir, uşaqlar hərəsi bir kolun, ya təpənin dalında gizlənirlər. Rəhbər ikinci dəfə fit verir, aparıcı çevrilir və bir dəqiqə müddətində baxır. Görə bildiyi uşağı adı ilə çağırır. Gizlənə bilməyib görünən uşaqlar oyundan çıxarılır. Sonra rəhbər yenə də fit çalır, uşaqlar isə qaçıb ağacların, kol-kosun, daşların arxasında gizlənirlər. Bu qayda ilə oyun davam edir. Gizlənmə müddətində gizlənən uşaqlardan biri top ilə aparıcını vura bilirsə, o uşaq aparıcı rolunda çıxış edir. Bütün uşaqlar tapıldıqdan sonra oyun bitir. Oyunun daha da səmərəli təşkili və keçirilməsi başlıca şərtlərdən sayılır. Buraca oyunçu aparıcı tərəfindən tapıldıqda o cığallıq etməməli, könüllü olaraq uduzduğunu etiraf etməli və digər oyun. İştirakçılarının narazılığına şərait yarat-mamalıdır. Oyunda başlıca məqsəd hər hansı bir xoşagəlməz hadisə baş verdikdə (fövqəladə vəziyyət, müharibədə düşməndən özünü qoruyub ona zərbə endirmək) cəldlik göstərib tam olaraq qaçıb gizlənmək, özünü təhlükədən qorumaq, lazım gəlsə gizləndiyi yerdən çıxıb düşməni məhv etmək və s. keyfiyyətləri aşılamaqdan ibarətdir.

## TOP KİMƏ DƏYSƏ

Yaş 10-14. Oyunçuların sayı 10-20 uşaq.

Meydançada böyük bir dairə çəkilir. Uşaqların bir hissəsi dairənin içərisinə doluşurlar. O biri hissəsi dairənin kənarında bir birindən bir metr məsafədə dayanırlar. Dairədən kənarda olan uşaqların əllərində top olur. Oyun başlanır. İstər dairə daxilindəki uşaqlar, istərsə də dairə xaricində olan uşaqlar var-gəl edirlər. Bir-birinə ötürməklə (rəqibi aldatmaq məqsədilə)

hücum təşkil etməyə cəhd göstərirlər. Dairə içərisində olan uşaqlar isə əksinə hərəkət edirlər, özlərini müdafiə etməyə, topun dəyməsindən qorunmağa çalışırlar.

***Variantı:*** Kənarda olanlar topla içəridə onlardan birini vurmağa çalışırlar. İçəridəkilər o tərəfə, bu tərəfə əyilir, atılıb-düşür və özlərini topdan qoruyurlar. Kimə top dəysə, oyundan çıxarılır. İçəridə bir oyunçu qalıncaya qədər oyun davam etdirilir. Əgər içəridəkilər topu «göydə» tuta bilsələr, oyundan çıxarılmış uşaqlar yenidən dairə içərisinə daxil olur və oyunu yenidən davam etdirirlər.

## BAYRAĞI TAP GÖRÜM

Yaş 10-13. Oyunda 8-10 uşaq iştirak edir. *Oyun ləvazimatı:* gözü bağlamaqdan ötrü hər bir uşaq üçün bir yaylıq.

Yaylıq uşağın özününkü olmalıdır. Uşaqlar dairə təşkil edirlər. Dairənin ortasında 8-10 addım məsafədə bayraq sancılır. Uşaqlar gözlərini yaylıqları ilə bağlayırlar. Rəhbər komanda verir: “sağa, sola dön! İrəli addımla marş!” və s.

Uşaqlar həmin komandanı icra edirlər. Rəhbər yenidən komanda verir: “Bayrağa doğru marş!” Uşaqlar 8-10 addım bayrağa doğru addımlayırlar. Yeni komanda verilir: “Dur və gözəlrini aç!”

Uşaqlar gözlərini açır və mərkəzdəki bayrağa baxırlar. Kim addımlayaraq bayrağa daha yaxın gəlibsə həmin uşaqlar qalib hesab olunur. Beləliklə, oyun bir neçə dəfə davam edir. Bayrağı görməmək şərti ilə dəsmal gözə bağlanmalıdır.

## DÖRDBUCAQ
## (YER TUTMA)

Yaş 10-14. Oyunda 5 uşaq iştirak edir.

Həyətdə bir dörd bucaq şəkli çəkilir. Uşaqların hər biri bir bucaqda, beşinci uşaq isə ortada dayanır. Bucaqda duran uşaqlar yerlərini dəyişdirirlər. Bu zaman ortada duran uşaq bucaqlardan birini tutmağa çalışır. Yeri tutulan uşaq oyunu uduzmuş hesab edilir və ortaya çıxır. Oyun bu qayda ilə davam etdirilir.

## TOPLA ATIŞMA

Yaş 10– 13. Oyunda 15– 20 uşaq iştirak edir. *Ləvazimat:* top və təbaşir.

Uşaqlar iki dəstəyə bölünür və hər dəstə özü üçün kapitan seçir. Oyuna başlamazdan əvvəl yerdə təbaşirlə bir düz xətt çəkilir. Bu xətdən 8-10 m. məsafədə dəstələrin önündə orta xəttin sağ və sol tərəfində xətlər çəkilir. Həmin xətlərin arxa tərəfi «şəhər» adlanır. Hər dəstə öz şəhərində dayanır. Sonra dəstə başçıları püşk atırlar. Püşk hansı dəstənin xeyrinə olursa ilk olaraq oyunu da o dəstə başlayır. Yəni onlar ilk olaraq topu qarşıdakı komandaya tərəf atır. Onların komanda üzvlərindən birini vurur. Top həmin komandanın oyunçularından birinə dəyən kimi kapitan fit verir, oyunu dayandırır. Top dəyən uşaq əsir aparılır. Oyun bu qayda ilə davam edir. Bir tərəf o biri tərəfi tam əsir götürdükdə oyun dayandırılır.

***Oyunun şərtləri:***

1. Kapitan «əsir» götürülmür. Ona dəyən top hesaba alınmır. Onun da başlıca vəzifəsi daha çox topu tutub dəstəsinə ötürməkdən ibarətdir.

2. əsir aparılan uşağa o biri tərəf top vura bilsə, bu uşaq əsirlikdən qurtarır və öz yerinə qayıdır.

3. hər hansı bir oyunçu orta xətti keçərsə o əsir düşmüş hesab edilir.

4. top yerə dəydikdən sonra qalxıb oyunçuya dəyirsə bu hesaba alınmır.

## QƏLƏNDƏR, AY QƏLƏNDƏR

Yaş 10-13. Oyunçuların sayı: 8-15.

Uşaqlar sıraya düzülürlər. Onlardan biri aparıcı olur. Aparıcı olan uşaq əlində bir qayış (turna) saxlayır və ürəyində bir quşu tutub, bu quşun əlamətlərini uşaqlara təsvir edir. Aparıcı danışdıqça uşaqlar hamısı bir ağızdan «Qələndər, ay Qələndər» deyib avazla səslənirlər.

Aparıcı: bir quşum var bu boyda (əllərilə quşun böyüklüyünü göstərir).

Uşaqlar: Qələndər, ay Qələndər.

Aparıcı: dimdiyi var bu boyda (barmaqları ilə ürəyində tutuduğu quşun dimdiyinin böyüklüyünü göstərir).

Uşaqlar: Qələndər ay Qələndər.

Aparıcı: Bu qayda ilə ürəyində tutduğu quşun əlamətlərini (boyunu, dimdiyini, qanadını, ayayqlarını, dırnaqlarını) təsvir edir. Uşaqlar da hər dəfə Qələndər ay Qələndər deyib şənlənirlər. Aparıcı sözünü qurtardıqdan sonra üzünü uşaqlara tutub soruşur: Bu nə quşdur?

Əlindəki qayışı sırada duran uşaqların birinə verir. Həmin uşaq hər hansı bir quşun adını deyir. Əgər o quşun

adını deməzsə, bu zaman başçı deyir: «Yalandır, ver qayışı tapana». Uşaq qayışı yanandakı yoldaşına verir. Bu qayda ilə qayış doğru cavab tapıncaya qədər əldən-ələ keçir. Doğru cavab verildikdə, aparıcı «palandır» deyərək ucadan xoş avazla səslənir. «Palandır» sözünü eşidən kimi bütün uşaqlar qaçırlar. Quşu tapan uşaq isə əlindəki qayışla uşaqları qovur. Uşaqlar isə yuvaya (mərəyə) çatıncaya qədər sürətlə qaçır.

Qayış kimə dəysə, o aparıcı rolunda çıxış edir. Yəni aparıcı olur. Göründüyü kimi, bu oyun uşaqların hərəki qabiliyyətlərinin (sürət, çəldlik, çeviklik və s.) və həm də zehni cəhətdən inkişafına kömək edir. Onlar quşu əlamətlərinə görə tapmaq üçün düşünür. Fikri fəallığını artırır. Beləliklə, bu oyunda oyunçular fəal istirahət etməklə yanaşı, eləcə də fiziki və zehni yükləri bir-birilə növbələşdirir.

## UÇDU–UÇDU

Yaş 8-10. Oyunçuların sayı 5-10.

Uşaqlar dairə vurub otururlar. Biri başçı olur. Başçı hər hansı bir quşun adını çəkərək, «uçdu, uçdu» deyir və barmağını yuxarı qaldırır. Yerdə qalan uşaqlarda hamı birdən «uçdu» deyib barmaqlarını qaldırır. Başçı arada uçmayan bir cismin adını deyib (İnək nədi?) barmağını qaldırır. Kim yanılıb barmağını qaldırsa və ya «uçdu» deyib səs çıxararsa, oyunu uduzmuş hesab olunur. Oyun aşağıdakı qayda ilə davam edir. Məsələn:

Başçı: uçdu, üçdu!
Uşaqlar: uçdu!
Başçı: sərçə uçdu!
Uşaqlar: uçdu!
Başçı: toyuq uçdü!

| | |
|---|---|
| Uşaqlar: | uçdu! |
| Başçı: | qaranquş uçdu! |
| Uşaqlar: | uçdu! |
| Başçı: | kənd uçdu! |
| Uşaqlar: | yox, yox, yox! |

## ŞAMI SÖNDÜRMƏ

Yaş 8-13. Oyunçuların sayı 5-10.

Otağın bir başında stul üzərində bir şam qoyulur. Şamı yandırırlar. Uşaqlardan birini şamın qarşısına gətirib gözünü bağlayırlar. Bu uşağa geri dönmək əmrini verirlər. Geri döndükdən sonra 7-8 addım irəli gedir, sonra yenə geri dönmək əmri verilir, geri dönür. Sonra uşağa əmr verilir ki, gəldiyi qədər getsin və şamı söndürsün. Uşaq bir neçə dəfə şama doğru deyil, otağın başqa tərəfinə yönəlirsə və şamı söndürmək üçün boş yeri üfürürsə, bütün uşaqlar ucadan gülürlər. Bu minvalla bütün oyun iştirakçıları şamı üfürüb söndürməyə çalışırlar.

## SAPAND GÜLÜ

Yaş 8– 12. Oyunçuların sayı 8-15.

Uşaqlar dairə vurub otururlar. Biri ayaq üstə dairə xaricində durur. Uşaqlar doldurulmuş iri topu və yaxud ağır bir əşyanı gətirib bir-birlərinə ötürürlər. Dairə xaricində duran oyunçu əllərini əlində top olan uşağın çiyninə qoymaqla qələbə qazanır. Topu tutulan uşaq topu tutan oyunçu ilə yerini dəyişməlidir.

## HƏRFLƏR

Yaş– 10– 13. Oyunçuların sayı 5– 10. *Ləvazimat:* kiçik hərflər.

Kiçik kağız parçaları üzərinə bir çox tək-tək hərflər yazılır. Hərflər bir torbaya, ya qutuya tökülür. Oyunçulardan hər biri 6 hərf götürür. Hər bir uşaq götürdüyü hərflərdən kəlmə düzəltməlidir. Kim kəlmə düzəldə bilmirsə, oyunda məğlub sayılır.

## QOYMA OTURSUN

Yaş 10-15. Oyunçuların sayı 6-12. *Ləvazimat:* bir neçə stul.

Bir neçə stul dairə halında yan-yana qoyulur. Stulun sayı oyunçuların sayına bərabər olur. Oyunçulardan biri ayağa qalxır və dairə içərisində dayanır. Bir stul boş qalır. Oyun başlanır. Ayaq üstə duran uşaq çalışır ki, boş qalan stulda otursun. Elə bu zaman sol tərəfdə oturanlardan biri boş stulu tutur. O biri uşaqlar da yerlərini dəyişdirirlər. Ayaq üstə duran uşaq yenə boş stulda oturmağa çalışır. Yenə sol tərəfdə oturan yoldaş stulu tutur, oyun bu qayda ilə davam edir. Əgər ayaq üstə duran uşaq boş stulu tuta bilirsə, onun sol tərəfində oturan uşaq ayağa qalxır və dairəyə daxil olur. Oyun yenidən başlanır.

## HƏ, YOX

Yaş 10-15. Oyunçuların sayı 5-10.

Uşaqlar tapılması məqsədilə 3-4 görkəmli tanınmış şair, alim və yazıçıların adını qabaqcadan özləri üçün

müəyyənləşdirir. Sonra isə onlardan biri bayıra çıxır. Otaqda olan uşaqlar tapılması üçün həmin adlardan birini müəyyənləşdirir və öz aralarında səsləndirirlər. Çölə çıxan uşağı geri çağırırlar. Uşaq nəzərdə tutulan adı tapmağa çalışır və bunun üçün suallar verir. Digər uşaqlar isə yalnız «hə», yaxud «yox» sözü ilə cavab verirlər. Tutalım ki, otaqdakı uşaqlar öz aralarında görkəmli satirik şair Sabirin adının dilə gətirilməsini nəzərdə tutmuşlar. Adın tapılmasına çalışan uşaq yoldaşlarına belə bir sualla müraciət edir.

– Canlıdırmı?

– Hə.

– İnsandırmı?

– Hə.

– Kişidirmi?

– Hə.

– Müəllimdirmi?

– Yox.

– Şairdirmi?

– Hə.

– Sağdırmı?

– Yox.

– Sabirdirmi?

– Hə.

Hə sözündən sonra növbəti uşaq bayıra çıxır. Otaqdakılar yenidən məsləhətləşir, yeni adlar müəyyən edir. Bundan sonra o otağa gəlir və suallarını verməyə başlayır. Beləliklə, bütün uşaqlar növbə ilə adların tapılmasında fəal iştirak edirlər.

## YAY-OX

Yaş 8-10. Oyunçuların sayı 1-10. *Ləvazimat:* yay, ox, yay düzəltmək üçün qamış və yaxud ağac çubuğundan istifadə edilir.

Qamış ya çubuğu əyib iki başına ip bağlamaq lazımdır. İp gərgin olmalıdır. Ox isə ağac ya taxta parçasından düzəldilir. Ox müəyyən məsafədə qoyulmuş nişangaha atılır. Nişan almaq üçün məsafəni və nişangahı uşaqlar özləri müəyyənləşdirirlər. Nişangahda balları da göstərmək olar. Məsələn: 0,9,8,7 və s. ballar.

**Variantı**. Qalib topladığı xallara görə müəyyənləşdirilir. Kim bir neçə cəhddən sonra daha çox xal toplayarsa, qalib sayılır. Həmin oyunda başlıca məqsəd uşaq və yeniyetmələrə düzgün və səlis nigan almağı öyrətməkdir.

## SAPANDLA DAŞ ATMA

Yaş 10– 14. *Ləvazimat:* sapand. Sapand iki növ olur.

1) Uzaq məsafəyə daş atmaq üçün bu növ sapant adi bir parça qırığından ibarətdir. Yarım metr uzunluğunda, 3– 4 sm enində bir parçanın içinə daş qoyularaq uzaq məsafəyə atılır. Kimin daşı daha uzaq məsafəyə düşürsə, o qalib sayılır.

2) Müəyyən nişan vurmaq üçün. Bu növ sapand haçalı ağacdan düzəldilir. Haçası 8-10 sm olan bir haçalı ağac əldə olunur. Ağacın hər iki qoluna dar rezin parçası bağlanır. Rezin gərgin olmalıdır. Rezinin içərisində daş qoyulur. Rezin dartılır və birdən buraxılır. Daşı daha çox uzağa və nişangaha düzgün atmış oyunçu qalib sayılır.

## NOXUD SAL

Yaş 10– 14. Oyunçuların sayı 2– 6.

Oyun iştirakçıları hər bir əlinə 10 ədəd noxud, yaxud noxud boyda xırda daş götürüb butulkaya və ya ona oxşar hər hansı qaba salmağa çalışır. Qaba kim daha çox noxud salarsa, oyunu qazanır. Noxudu salarkən əli döş qarşısında tutmalıdır.

## DÜZGÜN ATMAQ

Yaş 10-14. Oyunçuların sayı 2-6.

*Ləvazimat:*

1) 10 sm enində və 10 sm uzununda kiçik kisələr (torbalar) tikməli. Kisə-lər qalın parçadan olmalı. Kisələrin sayı oyunçuların sayı qədər olmalı.

2) Adi bir stul (oturacaq). Torbaları qum ya noxud ilə doldurub ağzını möh-kəm bağlamalı.

Oyunçular 6-7 addım məsafədə növbə ilə kisələrini atmalıdır. Hər bir oyunçu kisəni elə atmalı ki, kisə stolun üstünə düşsün və onun üstündə dayansın. Oyun bir neçə dəfə oynanılır. Hərəkəti ən çox düzgün icra edən edən oyunçu onun qalibi sayılır. Bu oyun uşaqlarda diqqətli olmağı, düzgün atmağı, öz gücündən səmərəli istifadə etmə qaydalarını öyrədir.

## UÇAN ŞAR

Yaş 10– 14.

10 ədəd qalın kağız parçaları hazırlayıb, bu parçaları bir-birinə yapışdırın. Əmələ gəlmiş şarın başına bir məftil halqa

yapışdırın. Halqanın ortasından bir məftil keçirin. Bu məftilə bir parça spirtə salınmış pambıq bağlayın. Pambığı yandırın. Şarın içərisində olan hava isinib şişəcək və şarın içərisindən çıxacaq. Şar yüngülləşib uçacaq. Şarın həyətdə və sakit havada uçurulması məsləhətdir.

## HALQADAN KEÇİR

Yaş 10– 14.

Ağacdan ip vasitəsi ilə halqa asılır. Oyunçular əllərinə bir ağac alıb, halqadan beş addım məsafədə dururlar. Ağacı köndələn tutaraq halqaya doğru qaçırlar. Halqanın yanından keçərkən ağac halqaya keçirməyə çalışırlar. Oyun bir neçə nəfər və dəstələr arasında təşkil oluna bilər. Ən çox ağacı halqadan keçirən komanda qalib hesab edilir. Oyunda müxtəlif sahələrdə yeriş və qaçışlar həyata keçirilir ki, bu da uşaqlarda cəldliyi hərəkətlərində dəqiq olmağı, müvazinət saxlamaqla düzgün atmaq, dəqiq nişan almaq və s. keyfiyyətləri aşılayır.

## FIRLAĞAN
## («FIRFIRA»)

Yaş 10-16. Oyunçuların sayı 3-6. *Ləvazimat:* ağacdan düzəldilmiş konus şəklində fırlağan.

Fırlağanın ucuna şüş mıx vurulur. Fırlağanı fırlatmaq üçün 1-2 metr uzunluğunda bir ip almalı, ipi fırlağana sarımalı. İpin axır ucunda ilmək düzəltməli. Fırlağan ipdən açılaraq yerə düşdükdə fırlanmağa başlayacaqdır. Ağac və ya ip ilə vuraraq fırlanmanı daha uzun müddət davam etdirməli. Fırlanan fırlağanı ələ almaq, qolun üstündə də gəzdirmək olar.

Kimin fırlağanı daha uzun müddətdə fırlanarsa, o oyunu udmuş olur. Sadə fırlağan da qayırmaq mümkündür. Bunun üçün sap qarqarasını (mağara) yarı bölüb içərisinə ucu şüş bir ağac taxmalı. Bu növ fırlağanları hər bir uşaq özü asan düzəldə bilər. Sadə fırlağanı əl ilə masanın üzərinə salmalı. Masanın üzərində dairələr çəkməli. Kimin fırlağanı daha böyük dairədə və daha uzun müddət fırlanırsa, bu uşaq oyunu udmuş sayılır. Bu oyun «Fırfıra» oyunu da adlandırılır.

## BEŞ DAŞ

Yaş 10-14. Oyunçuların sayı 2.

Beş ədəd daş götürülür. Daşlar təxminən fındıq boyda və bir qədər yastı olmalıdır. Oyunçulardan biri bütün daşları ovcuna götürür. Yerdən bir qədər yuxarı atır və əlinin arxası ilə tutur. Əlinin arxası ilə tutduğu daşları yuxarı ataraq yenidən ovcu ilə tutur. Hansı uşaq çox daş tutarsa, oyunu o uşaq başlayır. Oyun belə davam edir: uşaq daşları topa halında bir yerə yığır, sonra daşların birini götürüb yuxarı atır. Bu daş yerə düşüncəyə qədər yerdən bir daş da götürür və atır. Atdığı daşı əli ilə tutur. Bu qayda ilə daşları bir-bir götürüb atır-tutur. Bundan sonra yerdən iki daş, sonra üç daş, nəhayət, dörd daş götürür, yuxarı atır və tutur. Sonra bütün daşları ovcuna alaraq birini yuxarı atır, qalan dörd daşı yerə qoyur və atdığını tutur və nəhayət daşların birini yuxarı atır, yerdə qalanları ovcu ilə yığışdırır və atdığı daşı tutur. Bununla oyunun birinci hissəsi bitir. Bunun dalınca ikinci hissə başlanır. Uşaq bir əlini barmaqlarını aralı olaraq yerə dik qoyur (barmaqlarının ucu ilə yerə toxunur). Bütün daşları o biri əlinə alır və bu əlini birinci əlinin arxa tərəfindən çıxararaq daşları irəliyə atır, sonra ikinci əli ilə bütün bu daşları barmaqların arasından keçirməyə

çalışır. Bunun üçün yoldaşın göstərməsi ilə daşlardan birini götürür, bu daşı yuxarı atır, daş düşüncəyə qədər ikinci əli ilə daşların birini itələyərək bir barmağının arasından keçirir. Bu qayda ilə bütün daşları əvvəl baş barmağı ilə göstərici barmağı arasında, sonra göstərici barmağı ilə uzun barmağı və uzun barmağı ilə kiçik barmaq arasından keçirir. Hər daşı keçirmək üçün üç dəfə o daşa toxunmaq ixtiyarı verilir. Yalnız bir daşı (yoldaşın göstərdiyi daşı) bir dəfəyə keçirməlidir. Daşları keçirərkən çalışmalıdır ki, bir daş o biri daşa toxunmasın. Bütün daşları keçirdikdə oyunun ikinci hissəsi bitir. Bütün bu oyun müddətində uşaq yuxarı atdığı daşı tuta bilmirsə, yaxud yerdən lazım olan daşları götürə bilmirsə, oyun dayandırılır. Oyunu o biri yoldaş başlayır.

Oyunun sonunda oyunu uduzan yoldaşa (məğlub olana) cəza verilir. Cəza bundan ibarətdir: məğlub olan yoldaş sağ əlini arxaya tutur, qalib gələn yoldaş daşları bunun əlinin arxasına istədiyi yerə yerləşdirir. Məsələn: birini barmağının ucuna yaxın, o birini biləyə yaxın, üçüncüsünü iki barmağına, dördüncüsünü baş barmağa yaxın yerdə qoyur. Qabaqcadan daşlara ad verilir. Daşların biri balta, ikincisi bıçaq, üçüncüsü dırmıq, dördüncüsü cırmaq adlandırılır. Daşların birinə də yağ– bal adı verilir. Daşlar düzüldükdən sonra əlində daş düzülən uşaq daşları əlinin dalı ilə yuxarı ataraq ovcu ilə tutur. Tutula bilməyib, yerə düşən daşları götürülür. Qalib gələn yoldaş bu daşların adına görə oyunu uduzan yoldaşa cəza verir. Məsələn, əgər yerə bıçaq ilə balta düşmüşsə, yoldaşının əlinin üstünə öz əli ilə bir dəfə balta kimi vurur və bıçaq kimi kəsir. Əgər yağ-bal yerə düşmüşsə, yoldaşının əlini yağlayır (sığallayır), bununla oyun bitir.

## AĞAC ÜSTƏ GƏZMƏ

Yaş 10-16.

Haçalı ağaclar götürüb ayaqları haçaya qoyub gəzirlər. Haçalı ağacın uzunu onun haçası üstündə gəzən adamın boyundan aşağı olmamalıdır. Haça əvəzinə taxtadan ayaqlıqda düzəldib onun haçaları üstündə gəzmək olar.

## ÇOBANLAR VƏ KEÇİLƏR

Bu oyunu həyətdə, idman zalında, bir sözlə, geniş və hamar olan hər bir meydançada keçirmək olar. Oyunun gedişinə nəzarət yetirmək üçün əvvəlcə hakim seçilir. Sonra isə hazırlıq işləri görülür. Bunun üçün yerdə diametri 8-10 metr olan bir dairə çəkilir. oyunçular sayları eyni olmaqla iki komandaya ayrılırlar. Oyunu artıq başlamaq olar. Komandalardan biri keçib dairənin içərisində dayanır. Bunlar «keçilər», o biri komanda isə dairədən kənarda qalır. Bunlar da «çobanlar» olurlar. «Çobanlar»dan biri dairənin içərisinə keçib, bir ayağı üstə atılaraq «keçilərə» çatmaq istəyir. «Çoban» «keçiyə» ancaq şəhadət barmağı ilə toxuna bilər. «Keçini» itələməyə, ya da tutmağa icazə verilmir. «Keçilər» çobandan qaçıb uzaqlaşarkən dairədən bayıra çıxmamalıdırlar. Əgər «çoban» «keçiyə» toxuna bilərsə hər ikisi dairəni tərk edir. Onların əvəzinə dairəyə başqa bir çoban girir. «Çobanlar» bütün «keçiləri» tutandan sonra komandalar yerlərini dəyişirlər. Bütün «keçiləri» daha tez tutan komanda qalib sayılır.

## HƏRƏKƏT EDƏN NİŞAN

Yaş 12-16. Oyunçuların sayı 4-8. *Ləvazimat:*

1) ağac halqa,

2) rezin və ya parçadan düzəldilmiş toplar. Topun sayı oyunçuların sayı qədər olmalıdır.

Meydançada düz bir cızıq çəkilir. Oynayan uşaqlar bir-birindən bir metr məsafədə cızıq uzunu dururlar. Hər bir oyunçu topunu əlində hazır tutur. Uşaqlardan biri ortaya sürətlə halqanı yuvarladır. Halqa qabağından keçdiyi zaman bir oyunçu öz topunu atmalı və halqadan keçirməyə çalışmalıdır. Topu keçirməyən uşaq oyundan çıxır. Kim topu keçirə bilirsə, bir xal qazanmış olur. Halqanı bir neçə dəfə yuvarladırlar. Kim çox xal əldə edirsə, o oyunda qalib sayılır.

***Qeyd:*** Halqanı əldə yuvarlatmalı ki, mümkün qədər cızıq ilə bir nizamda getsin.

## HALQALARDAN TUTUB GƏZİŞMƏ

Yaş 13-16. *Ləvazimat:* 2 metr hündürlüyündə sütunlara 4-5 metr uzunu 4-5 santimetr diametri olan iki ağac keçirməli. İki ağacın arası 30-40 santimetr olmalıdır. Ağaclara kəndir bağlamalı, kəndirdən isə halqalar asmalı. Halqaların arası 40-50 sm olmalı. Halqaların yerdən hündürlüyü 1, 8-2 metr olmalı. Həmin halqalardan əllərlə tutmaqla irəli getmək və əvvəlki vəziyyətə qayıtmalı. Əllərlə halqalardan tutub axıra kimi gedib əvvəlki vəziyyətə qayıdan uşaq və ya dəstə xal qazanmış olur. Ən çox xal toplayanlar qalib gəlirlər. Gəzişmələr qollar tam açılı və yaxud bükülü (dirsəkdən) vəziyyətdə də ola bilər. Bunu oyunçular özləri müəy-yənləşdirir. Hərəkətlər icra olunarkən ayaqlar yerə dəyməməlidir. Bütün halqalardan tutaraq irəliləməli və arxaya dönməlidir.

## KİM TAPAR?

Oyunçular sıraya düzülürlər. Onlardan üç metr aralı isə aparıcı dayanır. O, bir hərfin adını çəkib əlində tutduğu topu sıradakı birinci oyunçuya atır. Həmin oyunçu topu tutan kimi yanındakına ötürür. Beləliklə, top əldən-ələ keçir. Aparıcı «şəhər» deyən kimi topun ötürülməsi dayandırılır. Top kimin əlində qalıbsa, həmin oyunçu hakimin dediyi hərflə başlayan bir şəhər adı deməlidir. Bu vaxt hakim geriyə çəkilib dayanır. Oyunçu şəhərin adını tapandan sonra hakim qollarını halqa şəklində birləşdirir. Cavabı tapan isə üç metr irəliləyib topu ataraq həmin halqaya salmağa çalışır. Əgər top halqaya düşərsə, əvvəlki aparıcı oyunu davam etdirir. Oyunda tək şəhər adı yox, heyvan, çiçək, meyvə, quş, çay, göl və başqa adlardan da istifadə etmək olar.

## DAİRƏDƏ QAÇMAQ

Yerdə 15x15 ölçüsündə bir kvadrat, bu kvadratda da diametri 100 santimetr olan beş dairə çəkin. Yarışın keçirilmə qaydası belədir: mərkəzdə çəkilmiş dairədə oyunun aparıcısı öz yerini tutur. Kənardakı digər dörd dairənin içində isə o biri üç oyunçu dayanır. Hakimin işarəsi ilə dairələrdə durmuş oyunçular boş dairəyə tərəf qaçmağa başlayırlar. Bu zaman mərkəzdə durmuş oyunçu onlardan daha tez hərəkət edib boş dairələrdən birini tutmağa çalışmalıdır. Əgər o, buna nail olmuşsa, onda dairələrdən kənarda qalan oyunçu mərkəz dairədə onun yerini tutur. Əgər qaçış zamanı bir dairədə iki oyunçu olarsa, onda bu oyunçuların hər ikisi məğlub hesab edilir və onlardan biri mərkəzdə aparıcı-oyunçunun yerini tutur. Oyun fasiləsiz olaraq beş dəqiqə davam edir. Qaçış hər

30 saniyədən bir davam etməlidir. Qaçışa oyunun hakimi nəzarət edir. Qalib hamıdan az cərimə xalı toplamış, yəni dairədən daha az kənarda qalmış oyunçu hesab edilir.

## TULLANMA

Meydançada oyunun başlanğıcını bildirən xətt çəkin. Yarışda iştirak edəcək oyunçuların sayından asılı olaraq həmin xətdən meydança boyu işarələr qoyulur. Oyunçular start xəttində yerlərini tuturlar. «Marş» işarəsi ilə oyunun bütün iştirakçıları hər iki ayağa təkan verməklə tullanmağa başlayırlar. Bu zaman uzununa fasiləsiz olaraq 10 tullanma hərəkəti yerinə yetirilməlidir. Qızlar isə bu hərəkəti beş tullanışla başa çatdıra bilərlər. Sonuncu oyunçunun nəticəsi qeydə alınır. Hamıdan uzağa tullanmış oyunçu qalib hesab edilir. Nəzərinizə çatdırılır ki, tullanmaları yerinə yetirərkən fasilə verib dayanmaq olmaz. Bütün tullanışlar bir sürətdə yerinə yetirilməlidir. Bu qaydaları pozan oyunçuların nəticələri qeydə alınmır və onlar yenidən hərəkəti təkrar etməlidirlər. Eyni zamanda bir ayaqla təkan verib tullanmağa da icazə verilmir.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR


1. Azərbaycan nağılları. I cild, Bakı, 1969.

2. Azərbaycan nağılları (böyük yaşlı uşaqlar üçün). Bakı, 1950.

3. Azərbaycan nağılları (V cilddə). Bakı, Turan, 2001, 2002.

4. Azərbaycan xalq ədəbiyyatından seçmələr (Qaravəllilər, oyunlar və xalq tamaşaları). Bakı, "Şərq-Qərb", 2005.

5. Azərbaycan folkloru antologiyası. Şəki folkloru. IV kitab, I cild. Toplayıb tərtib edənləri: R.Qafarlı, H.Əbdülhəlimov və O.Əliyev. Bakı, «Səda» nəşriyyatı, 2000.

6. Azərbaycan folkloru antologiyasы, XVIII kitab, Şəki folkloru, III cild, Bakı, "Nurlan" nəşriyyatı, 2008.

7. Azərbaycan folkloru antologiyası. Toplayıb tərtib edəni Ə.Axundov, I cild, 286 s., II cild, Bakı, 1968.

8. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. I cild. Xalq ədəbiyyatı. Bakı, Elm, 1982.

9. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. Tərtibçilər: Salamoğlu T., Babayev Y. Bakı, Elm, 1998.

10. Azərbaycan uşaq oyunları. Tərtib edəni S.Axundova, Bakı, 1980.

11. Azərbaycan tapmacaları. Toplayıb tərtib edəni H.Zeynallı. Bakı, 1928.

12. Azərbaycan xalq nağılları. Dünya uşaq ədəbiyyatı kitabxanası, XXVIII cild, tərtib edəni A.Nəbiyev. Bakı, 1988.

13. Kərkük folkloru antologiyası. Toplayıb tərtib edəni, işləyəni və ön söz müəllifi Q.Paşayev, Bakı, 1987.

14. Köçərli F. Balalara hədiyyə. Bakı, 1912 (I nəşr).

15. Köçərli F. Balalara hədiyyə. Bakı, 1987.

16. Qarı nənə və övladları. Tərtib edəni B.Şahsolu, Bakı, 1986.

17. Quliyev B.S. Mütəhərrik və əyləncəli oyunlar. Bakı, «ADPU» nəşriyyatı, 2011.

18. Naxçıvan folkloru. "Azərbaycan folkloru antologiyası"nın I cildi, Tərtib edənlər: T.Fərzəliyev, M.Qasımlı, Bakı, "Sabah" nəşriyyatı, 1994.

19. Naxçıvan örnəkləri. "Azərbaycan folkloru antologiyası"nın 18-ci kitabının 2-ci cildi. Tərtib edənlər: Ə.Ələkbərli, A.Cəfərova, Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2012.

20. Nəğmələr. İnanclar. Alqışlar. Toplayıb tərtib edəni A.Nəbiyev, Bakı, 1986.

21. Şaiq A. Uşaq gözlüyü. Bakı, 1910 (I nəşr).

22. Şaiq A. Gülzar. Bakı, 1912.

23. Şirvani S.Ə., Köçərli F., Axundov S.S., Şaiq A. Uşaqların baharı. Dünya uşaq ədəbiyyatı kitabxanası, X cild, Bakı, 1985.

24. SMOMPK ("Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kavkaza"). 1-47, Tifilis, 1981-1927.

25. Uşaq folkloru. «Arazam, Kürə bəndəm» kitabından, tərtib edəni B.Abdullayev. Bakı, 1986.

26. Vətən dili. Müəllifləri A.Çernyayevski və S.Vəlibəyov, I nəşr, II hissə. Tiflis, 1988.

27. Yanıltmaclar. Tərtib edəni Ə.Quliyev, Bakı, 1984.

28. Vətən dili. I nəşr, II hissə, Tiflis, 1988.

## KİTABIN İÇİNDƏKİLƏR


Azərbaycan uşaq folkloru (Ön söz) 3

LİRİK UŞAQ FOLKLORU 28

Ana nəğmələri 28

**Laylalar** 28

Yuxulatmalar 29

Oyatmalar 34

Arzulamalar 35

Bənzətmələr 38

Əyləndirmələr (Bəsləmələr) 40

Alqış laylalar 41

Qarğış laylalar 42

İnam və etiqadla bağlı olanlar 43

Şikayət-laylalar 44

Qurbanlıqlar 45

Qarışıq məzmunlu laylalar 47

**Oxşamalar** 53

Toy oxşamaları 64

**Dilaçmalar (Öyrətmələr)** 65

**Dindirmələr** 67

**Öyrətmələr** 69

**Öcəşmələr** 70

**Uşaq nəğmələri** 73

**Çağırışlar-müraciətlər** 73

**Düzgülər** 81

**Əkin nəğmələri** 88

**Deyişmələr** 90

Əkinçi ilə öküzün deyişməsi 90

Ev heyvanlarının deyişməsi 91

Bitkilərin bəhsi 92

**Çoban nəğmələri** 93

Qaranquş________________________________104
Bənövşə_________________________________105
**Acıtmalar (Dolamalar)**__________________106
**Sanamalar**_____________________________111
EPİK UŞAQ FOLKLORU________________113
**Tapmacala**r_____________________________113
Tap tapmaca______________________________113
O nədi ki_________________________________114
Yuxarı - aşağı (Göy - Yer)________________115
Göydən gəlir, yaxud düşür________________116
Dağdan gəlir______________________________116
Alt-üst____________________________________117
İç - çol (Üst)______________________________118
O yan, bu yan______________________________118
Yer altında ___________________________119
Ağac başında______________________________119
Suya girər, sudan çıxar____________________120
Var - yox__________________________________121
Bir damım var______________________________122
Bizdə (evimizdə) bir kişi var_______________122
Bizdə bir gəlin gəzər_______________________123
Uzun qız uzanar____________________________124
Bir balaca boyu var________________________125
Öküzüm var_______________________________125
Bir atım var________________________________126
Bir quşum var______________________________126
Qara toyuq və qaralıq______________________127
Ancaq inkarla qurulanlar___________________128
İnkarla təsdiqlənənlər______________________128
Təsdiqlənənləri inkarla aydınlaşdıranlar______129
Təsdiqlənib–inkar edilənlər________________129
Dialoqlu tapmacalar________________________130

Əski inam və etiqadla bağlı olanlar__________130
Tarixi hadisələrlə bağlı yarananlar__________131
Müasir tapmacalar________________________132
Səstəqlidi sözlərdən yaranan tapmacalar_____132
Söz oyunlu tapmacalar____________________133
Riyazi tapmacalar________________________134
Mənsur tapmacalar_______________________135
Mənzum tapmacalar______________________136
İntellektual tapmacalar____________________138
İnformativ tapmacalar_____________________138
Emosional tapmacalar_____________________141
Bulmacalar______________________________163
**Yanıltmaclar**____________________________165
**Uşaq nağılları**__________________________172
*Uşaqlara həsr olunan nağıllar* _____________172
Cırtdan_________________________________172
Gilənar ________________________________175
Göyçək Fatma___________________________176
İbrahim_________________________________185
Oxayla Əhməd___________________________189
Bacı və qardaş___________________________203
Tələtin nağılı____________________________207
Uşaq pəhləvan___________________________216
Güloğlan________________________________222
Yaxşılığa yaxşılıq_________________________229
İkİ yoldaş_______________________________234
Loğmanla şəyirdi ____________________247
*Heyvanlar, quşlar və bitkilər haqqında nağıllar* 252
Cik-cik xanım____________________________252
Günəşin nağılı___________________________255
Şəngülüm, Şüngülüm, Məngülüm___________259
Tülkü, tülkü, tünbəki______________________263

Otların bəhsi________________________________270
Qızıl və illan_______________________________278
Hiyləgər keçi_______________________________280
Tülkü baba və hacıleylək__________________283
Ac qurdun nağılı___________________________289
Xoruz və padşahın nağılı___________________293
Tülkünün hiyləbazlığı______________________294
Ağıqlı ilan__________________________________298
Kor dəvə____________________________________300
Xor-xor pişik________________________________303
Qarı və pişik________________________________305
Axmaq canavar _____________________________307
Qarı və buzov ______________________________309
*Nağıl–təmsillər*______________________________311
Ayı və qarışqa_______________________________311
Mərcan_______________________________________313
Qurbağalar və Hacıleylək___________________314
Tülkü və ilan________________________________315
Göyərçin və qarışqa________________________317
Tülkü və kəklik______________________________318
Tülkü və xoruz______________________________317
Dovşanın qulaqları niyə uzundur?___________319
Dana, keçi və qoyun________________________320
Siçan və pişik_______________________________322
*Nağıl–yalanlar və qaravəllilər* ______________326
Hadı, Hudu, Kor oğlu kosa, bir də mən______326
Yoxsulun arzusu____________________________328
Cənnətsatan molla___________________________329
Şirvan qazısı_________________________________335
Üçgül keçəl__________________________________341
Ağaynla nökər________________________________345
*Mənzum nağıllar*____________________________353

Buz üstə ____ 353
Qarı ____ 355
UŞAQ OYUN VƏ TAMAŞALARI ____ 357
Bacı-bacı, yaxud Qara pişik ____ 357
Bel üstə kimin əli ____ 358
Qurd baba ____ 360
At başı ____ 364
Toxumsəpmə ____ 366
Ənzəli ____ 368
Bənövşə ____ 369
Qara qazan ____ 370
Çamur-çayır ____ 371
Fındıq-fındıq ____ 372
Qayış-qayış ____ 373
Şütümə ____ 373
Qoturum səndə ____ 373
A Tarxana, Tarxana ____ 374
Yelləncək ____ 374
Xan-vəzir ____ 374
Siçan - pişik ____ 375
Əl çəkişmə ____ 375
Mozadaş ____ 374
Artırma ____ 376
Addım basdım ____ 376
Çırtı, çırtı ____ 377
Dirədöymə ____ 378
Qəzmədaş ____ 379
Ovucda gizlətmə ____ 380
Moru-moru ____ 380
Qoz-qoz ____ 381
Mərə ____ 381
Moz-mozu ____ 382

Molla, haray________________________________382
Səni kim apardı?____________________________383
Gözbağlayıcı_________________________________383
Mərəköçdü___________________________________384
Oyun-tapmaca_______________________________384
Laldinməz___________________________________385
Dəsmal aldı, qaç____________________________385
Gizlənpaç___________________________________386
Hofbana-hofban______________________________386
Turnavurdu__________________________________387
Miyançı və çömcəbaşı bəzəmə_______________387
Dəyirman____________________________________388
Zorxanaçılıq________________________________389
Şəngələ_____________________________________389
Bayquş______________________________________389
Topu qonşuna ötür___________________________390
Tülkü və toyuqlar ___________________________391
Biz şən uşaqlarıq____________________________391
Öz bayrağına doğru__________________________392
İki şaxta____________________________________393
Ləkə vurma__________________________________394
Hoppanan sərçələr____________________________394
Dovşanlar, gözətçi və tula_____________________395
Qurd dərədə_________________________________396
Kİm uzağa atar?_____________________________397
Düz hədəf at_________________________________397
Zolaqlar üzərİndən hoppanma_________________398
Durma, qaç__________________________________399
Kİm tez yüyürər______________________________400
Qurmadaş___________________________________400
Toppuz qaçırma______________________________400
Qu-qu_______________________________________401

Düzgün atmaq 401
Mən çobanam 402
Şaxta və günəş 402
Tez tərpən 403
Üzəngi 403
Cızığa girmə 404
Kəndiri götür 405
Çəkib xətdən çıxarma 405
Tap görək 406
Kəndiri çək 407
Xoruz döyüşü 407
Çilingağac 408
Əl üstə kimin əli 409
İki tərəfli vuruşma 409
Gözbağlıca 410
Torbanı qaçır 410
Mərə tutdu 411
Dayan 412
İki şəhər 412
Qaçdı-tutudu 413
Balıq ovu 413
Kartof əkirik 414
Üçüncü qaç 414
Qaçanı qov 415
Qaçanı topla vurmaq 415
Gizlən, səni görməsinlər 416
Top kimə dəysə 417
Bayrağı tap görüm 417
Dördbucaq («Yer tutma») 418
Topla atışma 418
Qələndər, ay Qələndər 419
Uçdu-uçdu 420

Şamı söndürmə 421
Sapand gülü 421
Hərflər 421
Qoyma otursun 422
Hə, yox 422
Yay-ox 423
Sapandla daş atma 424
Noxud sal! 424
Düzgün atmaq 424
Uçan şar 425
Halqadan keçir 425
Fırlağan («Fırfıra») 426
Beş daş 426
Ağac üstə gəzmə 428
Çobanlar və keçilər 428
Hərəkət edən nişan 429
Halqalardan tutub gəzişmə 429
Kim tapar? 430
Dairədə qaçmaq 430
Tullanma 431
*İstifadə olunmuş mənbələr* 432
*Kitabın içindkilər* 462

# AZƏRBAYCAN UŞAQ FOLKLORU

***(Mətn)***

**Toplayanı, tərtib edəni və ön sözün müəllifi**
***Ramazan Qafarlı***
*Filologiya üzrə elmlər doktoru, professor*

**Bakı, "Ağrıdağ" nəşriyyatı, 2011**
«Qafqaz+» MMC-də hazırlanmışdır.

**Bədii dizayner**
*Xəyyam Əliyev*
**Texniki redaktorlar**
*Ləman Qafarova*

Çapa imzalanmış 16.03.2011. Kağız formatı 84x108 1/32.
Həcmi 29,38. Tirajı 300.

ADPU-nun mətbəəsində
hazır diapozitivlərdən çap olunmuşdur.